# AZƏRBAYCAN

**9’2024**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN**
**AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini: Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC,**
**Qəşəm NƏCƏFZADƏ,**
**Mübariz CƏFƏRLİ**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-75-81

*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
05.08.2024
**Sifariş 1694**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
17,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**

**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, “Azərbaycan”**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### P O E Z İ Y A


SEVİNC ELSEVƏR – Şeirlər ..............................................................3
FİRUZƏ MƏMMƏDLİ – Şeirlər .......................................................93
AĞASƏFA – Şeirlər .........................................................................134
İBRAHİM YUSİFOĞLU – Şeirlər ..................................................161
MÜXƏMMƏD HAQVERDİ – Şeirlər ...........................................166


### N Ə S R


ELÇİN – Mir Cəfər Bağırov kim idi? .................................................15
MƏNZƏR NİYARLI – Kənd lavaşının ətri (hekayə)......................147


### H İ D A Y Ə T İ N 80 Y A Ş I


HİDAYƏT – İrəvanda yanan çıraq (pyes) .......................................101


### M Ə H Ə M M Ə D F Ü Z U L İ – 530


FƏRİD HÜSEYN – Cənnət qibləsi, yoxsa cəhənnəm mayakı? ......154


### C Ə N U B D A N S Ə S L Ə R


PƏRVANƏ MƏMMƏDLİ – Eşq, yurd sevgisi, bir də həsrət nəğmələri yazan şair ....168


### T Ə N Q İ D V Ə Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q


VAQİF YUSİFLİ – Bahar yağışı kimi... (son illərin poeziyası ilə bağlı bəzi qeydlər) ....................................................177

DÜZƏLİŞ ..........................................................................................190



### K İ T A B R Ə F İ ..............................191



*Sevinc ELSEVƏR*

## GÖZƏL KÜSƏRDİK...

küsəndə
uşaq səmimiyyətiylə küsə biləsən
masanın altına girəsən
çarpayının altında gizlənəsən
iri damlalar süzülə yanağına
dodağını büzəsən
ayağını döyəsən yerə
üzüqoylu düşüb yapışasan döşəməyə
könlünü tez alalar
dil tökələr
barışa himə bənd ürəyin...

yenə küsdürürlər bizi
lap anamız
lap atamız
candan o yana canımız
ancaq gizləyirik küsməyimizi
utancla
sanki qəbahətdir incimək
küsmək küsdürməkdən pis işmiş sanki...

vururuq içimizə
gizlənirik içimizdə
sığmırıq içimizə
nə gözəl küsə bilirdik bir vaxtlar
bizi küsdürən adamlardan
belə ağrıtmırdı o zamanlar
hətta döşəmədə çapalasaq belə
ərköyünlüklə.

## DOĞUM GÜNÜ TORTU

göyqurşağı, günəş, ay, ulduz
bütün gözəl şeylər vardı tortun üstündə
gül vardı
kəpənək vardı
yellıncək vardı
xoşbəxtliyə dair hər şey
bir sözlə
ondan istəmirdi
doğum günü tortunu kəssinlər
ağlayırdı balaca
anasının ətəyindən tutub darta-darta
"mənim tortumdur o,
kəsməyin!" – deyə
sanki canlı bir heyvanı kəsəcəkdilər...

tort kəsildi
paylandı qonaqlara
yaman dadlı tort idi
marçıldadı damaqlar
uşaqsa baxırdı mat-mat
bir şey anlamadan
belə gözəlliyi necə məhv etdilər
necə qıydılar deyə

ancaq bu nə ilk, nə son zərbəydi
gözünün qabağında
nə gözəlliklərə qıyılacaqdı
necə dəyərlər ayaqlanacaqdı

uzun ömür arzuladılar balacaya qonaqlar
bütün bunları öz gözləriylə görməyə
zamanı çox olacaqdı...

## İNTİHARDAN SAĞ ÇIXAN ADAM

yarıtmazlığından utanırdı
yoxsa qatilliyindən
bəlkə ağciyər
bəlkə saxtakar görünməyindən
özü də bilmirdi
intihardan sağ çıxan adam
peşman idi
sağ qalmağınamı
intihar cəhdinəmi
niyəsini bilmirdi
Tanrıyla danışmağa
başını qaldırıb baxmağa üzü yox idi
şükür etməyə
sağ ol deməyə də...

ən çox da günəşdən
ar edirdi
buluddan ar edirdi
yağışdan ar edirdi
bir də yaxasından dolub
qıdıqlayan
onunla gülüb-oynayan
könlünü alan
səhər mehindən.

## QƏDİR GECƏSİ

qədir gecəsidir...
körpə yatmır anasının dizində
acıqlanır, qışqırır gənc qadın
ağlayır uşaq
divarın o üzündə

bu üzdə
sübhədək oyaq qalmağı arzulayan adam da

dinşəyir uşağı və ananı.
ürəyində sevinir hətta
üzünü heç görmədiyi
uşağın da oyaq qalmağına

zaman axır
uşaq yatır
kəsilir ananın səsi
uşağın ağlaması
yuxuladır adamı
qonşu qadının laylası...
elə bil layla çalır ona öz doğma anası
səhəri peşmanlıqla açacaq
yarımçıq qaldı nə qədər duası...

## BALALARDAN XAHİŞ

uşaq daş atdı alma ağacına
bir quş balası yuvasında səksəndi
bir ana quş qanadını
balasının üstünə sərdi
yuva yarpaqların arasında gizləndi

nağılı təzə başlayırdı bu uşağın
göydən bircə alma düşmüşdü qismətinə hələ ki
kaş gözəl işlərlə
qazana qalan almaların

uşaqları qəddar görəndə
ikiqat itirirəm inamımı gələcəyə
uşaqların təmizliyindən güc alıb
yaşaya bilər
həssas adamlar indi
bu qədər çirkablaşmış dünyada
içindəki xeyirxah uşağa borcludur
bütün sevincləri
yaxşı adamlar
var gücünüzlə
şərdən uzaq olun, əziz uşaqlar!

## MƏLƏK CİLDİNDƏ

zibil qablarının kənarlarından asılmış
boyat çörəkləri toplayır
evsiz qoca
ovub tökür başına yığışan quşlara
qorxmurlar ondan quşlar
adam hesab eləmirlər əlbət qocanı
mələk cildində görürlər
yoxsa ki qonmazlar çiyninə, başına
bir insanın
daşa dönməsə
şəhər meydanında...

* * *

yarpaqlar açılan çiçəyi
aralarında gizlədiyi kimi
gizləməyə çalışır nənə nəvəsini
kəm gözlərdən...

## SAKURA AĞACIYLA TANIŞLIQ

şəhərimizə təzə köçən
sakura ağacının yanında
özümü mədəni aparmağa çalışıram
gülümsəyirəm
üzümdə qonaqpərvər ev sahibəsinin ifadəsi
budaqlarına ehtiyatla toxunub salamlaşıram
çiçəklərini heyranlıqla qoxlayıram
oxuduğum haykularda
Yapon şairlərinin ürəyinə toxunan ağacla
foto çəkdirirəm
yadigar qalsın
bu ağac mənim şəhərimdə də xoşbəxt olsun
deyirəm ürəyimdə...

* * *

vatsapda rəfiqəsinə
dərdini anladır dərdli qadın
gözüyaşlı baş şəkilləriylə bəzəyə-bəzəyə dərdlərini

durğu işarələrinə
nöqtəyə-vergülə
bütün dil qaydalarına dəqiqliklə
yerli-yerində əməl eləyən rəfiqəsisə
onun fonetik, qrammatik səhvlərini
hər şeydən əvvəl görür.

## QƏMƏR

atdı özünü altıncı mərtəbədəki pəncərəsindən Qəmər
yastığının altındakı intihar məktubunu
tapıb gizlətdi anası

pəncərə silərkən
təmizlik uğrunda çalışarkən yıxıldı dedilər

gənc qızların intiharı da ayıbdı
"görən kimlə, nə qələt qayırdı
intihar elədi" – deyirlər

pəncərə təmizlərkən
yıxıldı dedilər
ona uşaqlıqdan
pəncərə təmizləməyi də
namus təmizləməyi də öyrətmişdilər.

## "ADAMLAR VƏ SİÇANLAR"

dili adət elədiyindən
"xeyirli olsun!" – deyə xeyir-dua verir
siçan tələsi satdığı müştərisinə
xırdavat satıcısı
qəribə hisslər keçirir alıcı
insan üçün xeyirli nə varsa
başqa canlıların zərərinə
sülh içində
bir-birinə dəyib-dolaşmadan da yaşamaq olardı
zərər vermədən bir-birinə
adam kitabxanasını siçandan qorumalıydı
xeyirbilməz siçanın gəmirdiyi kitabların hamısı
heyvanlara qarşı rəhmli olmağa çağırırdı

* * *

getdiyi toydan kədərli qayıtdı gənc adam
yeni evlənən dostunun toyunda
"bəy-gəlin"lə çəkdirdiyi şəkli
qoydu köhnə albomunun arasına
dostunun daha əvvəlki toyunda
çəkilən şəklin yanına
hər iki toyda
çox xoşbəxt görünürdü dostu
yanındakı gəlinlik donundakı qızlar da xoşbəxt idi
başına yığışan dostlar da...
qəribə hisslər keçirtdi adam
bir ömür boyu birlikdə olmalarını
diləmişdi cütlüyə
o toyda da
bu toyda da
baxdı ki,
heç dəyişməyib dostu
elə ondakı kimi gülür...
yəqin elə sevəndə də
əvvəlki kimi sevir...

## ÜMİDSİZLİK

səhəri təptəzə ümidlərlə açmışdım
sonra, mənə yenə nəsə oldu...
bu gün də dünənki kimi keçdi
kompüterimi işə saldım
yerimdən duran kimi
amma bu gün də heç nə yazmadım
aydınlatdı kompüterimin ekranı
alaqaranlıq odamı sadəcə
bütün günü izlədi
gedib-gəlib ümidsizcə
üstünə necə əyildiyimi
üzümün necə əyildiyini
qəddimin necə əyildiyini

* * *

kompüterlə arama qoydum
kaktusu
nəzər saldım qurbanıma kədərlə
rəhm hissi bıçaq kimi kəsib doğradı qəlbimi...

* * *

özüylə gətirdiyi çantaları
mühafizəçi polisin nəzarəti altında
marketlərin girişindəki siyirmələrə
qoymalı olan
vicdanlı adamlar
özlərini yaxşı hiss etməzlər buna görə
əlacları olsa qapısından girməzlər
gəlməzlər
onlara etimad göstərilməyən yerə

## BAYRAM ŞAMLARI

bayram axşamlarında yeyib-içib
doyandan sonra
Novruz xonçasının ətrafına
rəngbərəng
şamlar düzərdi böyüklər
toplaşardıq masanın başına
böyüklərlə bərabər
biz uşaqlar
bir oyun oynayardı böyüklər
deyə-gülə
zarafatlaşaraq
biz də durardıq tamaşasına

dirəşərdik,
bizi də qoşardılar oyuna
bir şam yandırardılar
hərəmizin adına
yallı gedərdi xonçanın ətrafında
kövrək alov dilləri
bəzən toqquşardı şamların alovları qədəhlər kimi

gah bir-birinə sarı əyilərdilər səcdə edənlər kimi
deyərdilər
kimin şamı nə qədər dözsə
nə qədər yansa
ömrü də o qədərdi...
uşaq ürəyimiz əsərdi
şamımızı göz bəbəyi kimi qorumağa çalışardıq
nəfəsimizi içimizə çəkərdik
iki ovcumuzla bağlayardıq ağzımızı bərk-bərk
ondan sonra pıqqıldaşardıq...
o qədər çox
o qədər çox
yaşamağa həvəsliydik
yaşamaq təşnəsiydik!

şamı ən gec sönənlər sevincini
gizləyə bilməzdi
şamı tez sönənlər zarafata salıb gülərdi...
uşaqlardan birinin şamı tez sönərsə
böyüklərdən kimsə yalan deyərdi:
“o şam mənimdi, mənimdi
niyə deyirsən sənindi?”
şam yarışında
şamı ən gec sönənlər
yoxdular, yoxdular indi
ömür yarışını uduzdular
qəlbimizdə kədər oldular
bir vaxtlar xonçaların kənarına tökülən isti ərintilər
indi ürəyimizə axmaqda
onları xatırlarkən...

## EVLƏRİMİZİN QƏLBİ

doğrudanmı
evlərimizin qəlbi
bu buz kimi soyuduculardı?
onlardan asılıdır
evlərimizin hüzuru
sevinci
sevgisi?!

## ŞAN-ŞÖHRƏT VƏ SEVGİ

oxudum ki
vəsiyyətinə görə
Fəxri Xiyabanda yox da
ümumi qəbiristanlıqda
mərhum həyat yoldaşıyla yanbayan
dəfn eləyiblər
adlı-sanlı sənətkarı

yenə qalib gəldi
şan-şöhrətə, ad-sana
Əlahəzrət Sevgi...
necə sevinməyim ki?
indi mənimçün manşetləri bəzəyən
sadə xəbər deyil bu
böyük bir sevginin qısa tarixçəsi.

* * *

əziz ana,
sanki möhürlə vurmusan
bədənimin ortasına
dünyaya gəliş iznimi
söküb ata bilərdin içindən məni də
heç doğulmayan qardaş-bacım kimi
həyat gözəl olanda minnət duyuram sənə
həyat çətinləşəndə ittiham eləyirəm...
amma demək çətindir
mənmi axtarıb tapmışam səni
sənmi axtarıb tapmısan məni
əziz ana, günah kimdədir?!

## ZİBİL QUTUSU

ayrıldılar
qız telefonunun
yaddaşındakı şəkilləri
yoxluğun qoynuna yollamağa tələsdi
telefonsa onları "zibil qutusu"na göndərirdi
yaxşı düşmədikləri birgə şəkillərini belə
"zibil qutusu"na yollamağa əli gəlməzdi əvvəllər

"zibil qutusu" bütün anlamıyla ürəyini sıxırdı
bu sıxıntını nə zamansa yaşadığını xatırladı:
uşaq vaxtı anası ölmüş pişiyini
zibil qutusuna atanda.

## SOLĞUN ÇİÇƏKLƏR

güldanımda solan çiçəklər
bu dünyada məndən özgə
kimsəyə gərək deyillər
nə qədər ki tər
ətirliydilər
bütün qadınlar üçün eyni dərəcədə
qiymətliydilər
onlardan ötrü ürəyi gedərdi
istənilən qadının...

indi dəyərlərini bircə mən bilirəm bu qədər
solsalar da
boyunlarını büksələr də
evimdə yuxarı başdadır yerləri
sonra onları qurudacam
qalın bir kitabın arasında qoruyacam

ah,
sevgilim dərən
çiçəklər
bütün gözəlliklərini səxavətlə önümə
sərən çiçəklər
necə unutmaq olar ətrinizi
gözəlliyinizi
göz oxşamağınızı?

illərini
ömrünü
baharını-yazını verən qadın da
belə dəyərli olmalı bir kişi üçün əlbət
solğunluğunda da
yorğunluğunda da
kimsənin görmədiyi gözəllikləri arayıb bulmalı...

* * *

yad məzarlıqda
məcburi köçkün nənəsinin məzarını axtarır gənc adam
yüzlərlə məzarın arasında
bu məzarlıqda yeganə doğması odur
bu şəhərdə yeganə doğması yenə odur
həm ölülər, həm dirilər arasında

iyirmi beş il ötür nənəsinin yoxluğundan
nənəsiylə bağlı ən xoş xatirələrini
danışa-danışa axtarır
üç nəfərdirlər
dostları da kömək edir axtarışda
yüzlərlə gözlə üz-üzə gəlir
gözlərini qaçırırlar
uşaqların gözlərinə baxmaqsa daha çətindir...

qəfil səslənir gənc adam:
"tapdım, tapdım nənəmi
burdadır nənəm!"
elə bil bağçada yaşıl budaqlar arasında
meyvə dərdiyi yerdə
axtarıb tapmış kimi sevinir
təndirə çörək yapdığı yerdə tapmış kimi sevinir

bilmirsən kim nişan verdi yerini
küləkmi, ağaclarmı, quşlarmı?
yoxsa doğma bir səsmi çağırdı
bilmirsən...

## GÖRÜŞ

yaz gəldi
köhnə sevgililər
quşla budaq
çiçəklə arı
görüşdü bağda
ayrılığın hesabını sormadan bir-birinə...

*ELÇİN*

# MİR CƏFƏR BAĞIROV KİM İDİ?



## *Şəxsiyyəti, əməli və taleyi*

***Mən öz Tanrımla görüşə hazıram. Ancaq Tanrım mənimlə əzablı ünsiyyətə hazırdırmı? – bu, başqa məsələdir.***
**Uinston Çerçill**

Mən son illərdə yazdığım «Stalin» pyesinə belə bir kiçik şərh vermişdim:

«Mənim həyatımın böyük bir hissəsi Sovet İttifaqında keçib.

İllər amansız bir sürətlə bir-birini əvəz edir və bu nəhəng imperiyanın – Sovet İttifaqının süqutu uzaqlaşdıqca, elə bil, elə həmin sürətlə də suallar bir-birini əvəz edir: mən necə bir ölkədə yaşamışam?, bu ölkəyə kimlər rəhbərlik edib?, rəsmi portretlərinin arxasında o rəhbərlər kim idi?, onlar üçün ölkə, xalq, kommunizm idealları və hakimiyyət nə demək idi?, əqidə onlar üçün həqiqət idi, yoxsa maska?, söz ilə əməl arasındakı uçurumun səbəbi nə idi? Və s., və i.a.»

Bu yazı da eyni düşüncələrin ifadəsidir.

Bu yazı tarixi oçerk, bioqrafiya, siyasi portret deyil, sadəcə, yaxın tariximizlə bağlı fərdi düşüncələr, fərdi və olsun ki, subyektiv təhlil və qiymətləndirmədir və buna görə də burada tarixi xronologiyaya əməl olunmayıb, əgər belə demək mümkünsə, assosiativ təəssüratlarla yazılıb.

Sovet İttifaqının dağılmasından 33 il keçib və yəqin ki, artıq oxucuların xeyli qismi bu yazıda adları çəkilən şəxsləri tanımırlar, bəlkə bəzilərinin heç adlarını da eşitməyiblər. Mən bəhs etdiyim şəxslərin hər biri ilə bağlı ayrıca şərh verməmişəm, ancaq maraqlanan oxucular onların hamısı haqqında internetdən məlumat tapa bilərlər.

Beləliklə, Sovet Azərbaycanına uzun müddət – 1933-1953 – rəhbərlik etmiş Mir Cəfər Bağırov kim idi?

## *1.*

Mir Cəfər Bağırovun şəxsiyyətinin, əməllərinin və taleyinin əhatə və məzmun miqyası və göstəriciləri elə geniş və səciyyəvidir ki, onun haqqında söz demək, bilavasitə Sovet İttifaqının (Sovet imperiyasının) tarixinə varmaqdır və bu baxımdan Azərbaycan tarixçiləri ilə bərabər, rus və xarici sovetoloqların tədqiqatları, müasir rus siyasi-sənədli publisistikasının qənaətləri, ortaya çıxan nəticələr tamam rəngarəng, tamam da əlvan bir siyasi-ictimai və ideoloji-inzibati qurama mənzərəsi yaradır. Onları saf-çürük etmədən və tutuşdurmadan söz demək bir-birinə əks mövqelərdən birinin üstündə dayanmağa gətirib çıxara bilər və bu da artıq birtərəfli mövqe olacaq...

Sovet İttifaqı adi klassik imperiya deyildi, yəni demək olmaz ki, bu imperiya tam şəkildə Rusiya və onun müstəmləkələrindən ibarət idi, çünki, əslində, Rusiyanın özü də Azərbaycan, yaxud Ukrayna, yaxud da Estoniya kimi, Sistemin müstəmləkəsi idi. Bolşevik inqilabının əsas rəhbərlərindən Lev Trotskinin məşhur sözlərindən biri belə idi: «Sənə lənət olsun, patriotizm!» (Orijinalda: «Будь проклят патриотизм!»)

Düzdür, rus dili hakim dil idi, sovet rəhbərliyi Stalindən sonrakı dövrdə əsas etibarilə ruslardan və qismən digər slavyan xalqlarından ibarət idi və özünün böyük fitri istedadı və böyük də fərdi bacarığı, fövqəladə işgüzarlığı sayəsində azərbaycanlı Heydər Əliyevin Siyasi Büro (Politbüro) üzvlüyünə qədər yüksəlməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi mühüm vəzifə tutması Sovet İttifaqında nadir istisna idi.

Sovet imperiyasını Sistem idarə edirdi və bu Sistemin ideoloji-inzibati xüsusiyyəti əsasən ilk dövrlərdə – 1910-cu illərin sonu, 20-ci illərdə milli mənsubiyyətləri üstələmişdi. Sovet imperiyası, əslində, genetik rus qanını itirmiş Romanovlar imperiyasını (klassik imperiyanı!) əvəz etdikdə yeni rəhbərlər müxtəlif millətlərin nümayəndələri idi: almandan, yəhudidən kalmıka, çuvaşacan qarışıq qanlı Vladimir Lenin, yəhudi Lev Trotski (Leyba Bronşteyn), Yakov Sverdlov (Yankel Rozenfeld), Qriqori Zinovyev (Ovsey-Qerş Radomıslski), Lev Kamenyev (Rozenfeld), Yemelyan Yaroslavski (Qubelman), Maksim Litvinov (Meyer-Qenox Vallax-Finkelşteyn), Qriqori Sokolnikov (Qirş Brilliant), gürcü İosif Stalin (Cuqaşvili), Serqo Orcekinidze, Avel Yenikuidze, rus Nikolay Buxarın, Aleksey Rıkov, Valerian Kuybışev, Pavel Postışev, Sergey Kirov, latış Yan Rudzutak, Robert Eyxe, ukraynalı Nikolay Krestinski, Vlast Rudzutak, moldav Mixail Frunze, bolqar Xristian Rakovski (Krıstyu Stançev) və başqaları.

Məşhur rus ədəbiyyatşünası və eyni zamanda sovetoloq Vadim Kojnov hesablayıb ki, 1917-1922-ci illər arasında Kommunist Partiyanın Mərkəzi Komitəsində əsas aparıcı qüvvə 10 yəhudi və 11 başqa millət nümayəndələrindən ibarət idi, ruslar isə ikinci dərəcəli mövqedə idilər. **(Вах: Вадим Кожнов. Правда сталинских репрессии, или кому нужны большие жертвы, Москва, Алгоритм, 2010, стр. 159.)**

Sistem bu yazının əsas obyektlərindən biri, bəlkə də elə birincisidir və Sistemin də xüsusən 1937-38-ci illərdə onurğa sütunu «NKVD» idi. 1917-ci ildən

etibarən Sovet İttifaqının əsas repressiya orqanının adı müxtəlif illərdə dəyişilərək, mahiyyəti dəyişməyən bu təşkilat baş hərfləri ilə (abbreviaturalarla) tanınıb və biz də qorxulu illəri daha çox ehtiva edən, rus dilndə olsa da, sovet xalqları arasında geniş yayılmış «NKVD» istilahından istifadə edirik. Lenin dövründən başlayaraq, Stalinin ömrünün son illərinə kimi «NKVD» başçıları (sədr, narkom, nazir) bunlar idi: Feliks Dzerjinski (polyak), Yakov Peters (latış), Vyaçeslav Menjinski (polyak), Henrih (Yenox) Yaqoda (yəhudi), Nikolay Yejov (rus), Lavrenti Beriya (gürcü-minqrel).

Uzun müddət Stalinlə birlikdə işləmiş, onun əsas və məşhur silahdaşlarından biri olmuş Vyaçeslav Molotov 1970-ci illərdə Leninin: «Rus insanı – pis işçidir» («Russkiy çelovek – ploxoy rabotnik») sözlərini xatırlayır və bunun həqiqət olduğunu deyir. **(Феликс Чуев. Молотов. Полудержавный властелин, Москва, «Олма-пресс», 2002, стр. 33.)** Bu sözləri bolşevik inqilabının (indi buna «bolşevik çevrilişi» də deyirlər) Leninlə bərabər rəhbəri Lev Trotski təkrar edir və Sovet imperiyasının rəhbər simalarından biri də – Molotov bu sözləri yada salır və təsdiq edir. Əgər biz Sovet İttifaqına rus imperiyası deyiriksə, bu imperiyanın bünövrəsi qoyulan zaman söylənən bu fikir, rus insanına belə bir münasibət, elə bilirəm ki, başqa bir ab-havadan, inqilabi əhval-ruhiyyədən xəbər verir.

Yetmiş illik Sovet dönəmində Azərbaycan bütün sahələrdə – maarif, mədəniyyət, iqtisadiyyat, sənaye, elm, milli-mənəvi göstəricilər (ilk növbədə də ədəbi-bədii dil!) və s. – çox inkişaf etdi, ancaq bu böyük inkişafla bərabər, Sovet dönəmi ayrı-ayrı dövrlərdə XX əsr tariximizin amansız və qəddar repressiyalar, mənəvi sıxıntı və əzablar, milli pərişanlıqlar dövrü idi.

Məhəmməd Əmin Rəsulzadə 1905-ci illərdə İosif Stalinlə (Koba ilə) ilk görüşünü belə xatırlayırdı: “Bakı Petrol Sənayesi İşçiləri Sindikası adını daşıyan bir təşkilat vardı; işçilərin sırf ekonomik mənfəətləri ilə əlaqədər olan bu rəsmi quruluş pərdəsi altında gizlidən-gizliyə siyasi fəaliyyət də icra olunurdu. Çarlıq əleyhinə gizli olaraq çalışan milli təşkilat üzvlərindən əmim oğlu Məhəmməd Əli orada katiblik vəzifəsini yapardı. Bir gün o, Kobanın bizimlə görüşmək istədiyini xəbər verdi. Bakı civarında olan Balaxanı petrol ocaqları məhəllələrində bir fabrikanın işçilərinə məxsus evlərdən birində çox bəsit bir otaqda qarşımıza zəif, üzgün və ortadan bir az uzun boylu birisi çıxdı. Bəsit qiyafəli olan bu zatın çiçək pozuğu ilə çopurlanmış üzünə diqqət etdim, ciddi bir tövrlə gülümsünürdü. Bizi təbii və sərbəst bir əda ilə qarşıladı. Gürcü aksenti qüvvətlə hiss olunan bir rusca danışırdı. Adi xoş-beşdən sonra söz siyasi və sosial məsələlərə keçdi.” **(Məmməd Əmin Rəsulzadə. Stalinlə ixtilal xatirələri, Bakı, “Qanun”, 2010, səh. 21-22.)**

“Zəif və üzgün”, rus dilində “qüvvətlə hiss olunan gürcü aksenti” ilə danışan bu adam – Koba (gələcək “Yoldaş Stalin”!) 30 il nəhəng Sovet imperiyasının başında durdu və ilkin «rəhbərlər» 1930-cu illərdə güllələndikdən sonra Nikita Xruşşova qədərki dövrdə Stalin Siyasi Bürosunun əsas fiqurları da rus Vyaçeslav Molotov və Georgi Malenkov, yəhudi Lazar Kaqanoviç, gürcü Lavrenti Beriya, erməni Anastas Mikoyan və başqaları idi. Düzdür, Stalin rusdan artıq rus idi, özünü də gürcü mənşəli rus adlandırırdı və belə də hesab edirdi.

Sovet tarixini tədqiq edən müəlliflər arasında xüsusi seçilən, nüfuzlu tarixçi və siyasətşünas, Priston universitetinin professoru Robert Taker İosif Stalin haqqında yazdığı böyük formatlı, petitlə yığılmış, az qala 900 səhifəlik fundamental monoqrafiyasında yazır ki, hələ inqilabdan əvvəl özünü «əsil rus inqilabçısı» hesab edirdi və deyirdi ki, 1907-ci ildə partiyanın London qurultayında 85 menşevik nümayəndələrinin çoxu yəhudi idi, onlardan sonra gürcülər, yalnız bundan sonra isə ruslar gəlirdi, 92 bolşevik nümayəndələr əsas etibarilə ruslardan, yalnız onlardan sonra yəhudilər, onlardan da sonra gürcülər gəlirdi. Buna görə də Stalin zarafatla deyirdi ki, menşevik fraksiyası «yəhudi fraksiyasıdır», bolşeviklər isə «əsil ruslardır». **(Роберт Такер. Сталин – история и личность, Москва, «Весь Мир», 2006, стр. 102-103.)**

Ancaq biz bilirik ki, hər zarafatda bir həqiqət də var və mənə elə gəlir ki, Stalin xüsusən bütün Sovet imperiyasının «Yoldaş Stalini» olduqdan sonra bu dərəcədə ucalıq, alilik müqabilində rus yox, Sovet İttifaqındakı əyalət xalqlarının birinin nümayəndəsi olduğundan xəcalət çəkirdi. Mənim düşüncəmə görə, onun «Cuqaşvili»dən imtina etməsi də, gənclik çağlarında gürcü dilində yazdığı şeirlərinin təbliğini, Mixail Bulqakovun yazdığı və «Yoldaş Stalinin» yox, yeniyetmə Sosonun və gənc Kobanın həyatından bəhs edən «Batum» pyesinin tamaşaya qoyulmasını və çapını qadağan etməsi də elə bu komplekslə bağlıdır. Bu baxımdan Robert Takerin göstərdiyi bu fakt da əlamətdardır ki, həmin London qurultayında Stalin bütün gürcü inqilabçıları ilə aranı vurmuşdu və artıq 1923-cü ildəki çıxışlarından birində Gürcüstan Respublikasını nəzərdə tutaraq: «Sovet ərazisinin Gürcüstan deyilən bir hissəciyi» – demişdi. **(Həmin kitab, səh. 105.)** Bunu da deyim ki, Bulqakovun «Batum» pyesi Sovet İttifaqında ilk dəfə yalnız 1988-ci ildə çap olundu. **(«Современная драматургия», № 5.)** Həmin 92 bolşevikin əsas etibarilə rus olduqlarına gəldikdə isə, onların da bir qismi elə Leninin özü kimi ruslaşmış ruslar idi.

Son illərdə Stalinin lap bu yaxınlarda vəfat etmiş nəvəsi, tanınmış rus rejissoru Aleksandr Burdonskidən alınmış DNK nəticəsində Stalinin atası pinəçi Vissarionun osetin əsilli olduğu ortaya çıxıb və belədir, ya belə deyil – bunun elə bilirəm ki, xüsusi bir əhəmiyyəti yoxdur – İosif Stalin şəxsiyyətinin tarixi miqyası onun milli mənsubiyyətini uzaq bir kölgəliyə göndərib. Bu da Sovet quruluşu ilə bağlı maraqlı və yeni bir məlumatdır ki, son illərdə üzə çıxmış sənədlərə görə 15 il «KQB»-yə sədrlik etmiş, sonra da partiyanın Baş katibi vəzifəsini (Stalinin yerini!) tutmuş Yuri Andropov əslində həm ata, həm də ana tərəfdən yəhudi imiş. Onun rəsmi bioqrafiyasında isə milliyyəti rus kimi yazılırdı və bu «rus»un əsl adı və familí Qriqori Liberman olub.

Sovet İttifaqında kadrların ruslaşdırılması daha artıq dərəcədə Nikita Xruşşovla başladı, ancaq Vyaçeslav Molotovun dediyinə görə, Stalin özü də həyatının sonlarında hesab edirmiş ki, yüksək vəzifələrə əsasən rusları, ukraynalıları və belorusları irəli çəkmək lazımdır. **(Bax: Феликс Чуев. Молотов. Полудержавный властелин, Москва, «Олма-пресс», 2002, стр. 336.)**

Leonid Brejnev dövrü «İnkişaf etmiş sosializm» dövrü adlandırılırdı, Brejnev vəfat etdi – həmin dövr "durğunluq dövrü" kimi təqdim edilməyə başladı,

sonra Mixail Qorbaçov hakimiyyətə gəldi və son müsahibələrindən birində «– Heydər Əliyev partiyanın Baş katibi seçilə bilərdimi?» – sualına cavab verərkən, açıqca deyirdi ki, Sovet İttifaqına slavyan xalqlarının nümayəndəsi rəhbərlik etməli idi. Kommunizmə sonsuz sədaqətini nümayiş etdirə-etdirə, lap gənc yaşlarından orden və medallar ala-ala hakimiyyətə gəlmiş Mixail Qorbaçovun bu fikri, əlbəttə, kommunizm ideyaları ilə daban-dabana zidd idi.

(Ümumiyyətlə, Qorbaçovun bioqrafiyası məndə mistik bir təəssürat yaradır: elə bil ki, bu adam traktorçu vaxtlarından etibarən təhtəlşüur olaraq Sistemi aldatmaqla, öz sədaqətinə inandırmaqla dağılmağa məhkum edilmlş Sovet İttifaqının aqibətində son nöqtəni qoymaq missiyasına doğru sürətli addımlarla irəliləyib və həmin missiyanı yerinə də yetirib. Əgər bu mistik fərziyyəni qəbul etsək, bəlkə heç onun özünün də taleyinə yazılmış bu missiyadan xəbəri olmayıb və o, bu missiyanı təhtəlşüur olaraq yerinə yetirib. Ukrayna şairi Boris Oleynik də Qorbaçovun alnındakı iri qara ləkəyə mistik yanaşır və onu "qaranlıqlar knyazı" hesab edir. **(Вах: Борис Олейник. Неизвестный Горбачев. Князь тьмы, Москва, Алгоритм, 2022.)**

Stalin son dərəcə qüdrətli diktator, böyük tarixi şəxsiyyət idi və onu XX yüzilin əvvəllərində Bakı inqilabi mühitindən yaxşı tanıyan Məhəmməd Əmin Rəsulzadə həqiqəti yazırdı: "Həqiqətən də bəşəriyyətin yaşadığı bütün dünya tarixində İosif Vissarionoviç Cuqaşvili – Stalindən mütləq bir hökmdar yoxdur." **(M.Ə.Rəsulzadə. Stalinə ixtilal xatirələri, Bakı, "Qanun", 2010, səh.13.)**

Ancaq məsələ burasındadır ki, Stalin nə qədər qüdrətli olsa da, Sistem ondan – özünün əsas müəllifi və himayədarından daha qüdrətli idi.

Sistemin təməlini inqilabi fanatizm və Vladimir Lenin, Lev Trotski, Qriqori Zinovyev, Yakov Sverdlov, Feliks Dzerjinski və başqaları qoymuşdusa, qeyz, ədavət və kin-küdurətlə dünyaya baxmağa başlayan Sistemi bilavasitə Stalin bəsləmiş, yetişdirmiş, formalaşdırmış, kamilləşdirmişdi. 1937-38-ci illərlə bağlı mətbuatla, arxiv sənədləri, müxtəlif xatirələr və s. ilə tanış olduqca, mən, az qala cismani surətdə hiss edirdim ki, Stalin həyata gətirdiyi «37-38»-i vaxtında və böyük ustalıqla cilovlamasaydı, Sistem onun özünü də «xalq düşməni» kimi güllələyə bilərdi – 1937-38-ci illərin artıq məntiqə sığışmayan və qorxunc abhavası Sistemi şüurlu və get-gedə müstəqilləşən robota çevirməkdə idi. Stalin «37-38»-i elə nəhəng ustalıqla və amansız dərrakə ilə cilovlamağı bacardı ki, artıq Sistem – dediyim kimi, «yoldaş Stalinin» özü idi.

Hərdən o illərin sənədli süjetlərinə baxanda, sadə camaatın Stalinə sevgisini görəndə, fikrimdən keçir ki, bu qədər qırğın, sürgün, əzab-əziyyət ola-ola, bu sevgi hardandır? Əlbəttə, gizli bir nifrət də az deyildi, ancaq sevginin miqyası nə qədər böyük idi – bunu da danmaq mümkün deyil və ancaq elə bunu yada salım ki, vəfatı zamanı onunla son görüşə gəlməyə can atan kütlənin arasında onlarla, bəzi sovetoloqların yazdığına görə isə yüzlərlə insan tapdaq altında qaldı. Görünür, paradoks ondadır ki, şüurlu və şüuraltı qorxu hissi bəzən həqiqətən də sevgiyə çevrilə bilir.

Vyaçeslav Molotov rus şairi və publisisti Feliks Çuyevlə elə həmin söhbətində deyir ki, XX qurultaydan sonra Gürcüstanda iğtişaşlar başlamışdı və

maraqlısı da budur ki, Stalinin şəxsiyyətinə pərəstiş haqqında, onun qanunlara məhəl qoymaması, cinayətlər törətməsi barədə məruzəçi Nikita Xruşşov olduğu halda, Tiflisin tualetlərində həmin qurultaydakı çıxışında Stalini tənqid edən Anastas Mikoyanın şəkillərini asırdılar. **(Феликс Чуев. Молотов. Полудержавный властелин, Москва, «Олма-пресс», 2002, стр. 429.)**

Bu qəribəlikdə yəqin belə bir səciyyəvi cəhət xüsusi rol oynayırdı ki, 1929-cu ildə Stalinin 50 illiyində, 1939-da 60 illiyində, 1949-da 70 illiyində Stalin haqqında ən bəlağətli sözləri, onu Sovet İttifaqının və bütün dünya proletariatının Allahı (bolşevik Allahı!) səviyyəsinə qaldıran sözləri məhz Anastas Mikoyan demişdi. **(Бах: Сталин. Москва, Алгоритм, 2008, стр. 272.)** Bəyəm bu xüsusiyyət elə Nikita Xruşşovun özü üçün də səciyyəvi, ona da xas olan bir cəhət deyildi?

Ancaq söhbət yalnız bu tipli gülünc paradokslardan getmir, Sovet quruluşu son dərəcə ziddiyyətli bir quruluş idi və bu ziddiyyətlər də bir çox hallarda heç bir məntiqlə izah edilə bilməyəcək faciəvi paradokslar yaradırdı.

Baxın, bu quruluş Azərbaycanın ən ucqar kəndlərində də məktəb açdı, savadsızlığı (oxuyub-yazmaq mənasında) sıfıra endirdi, qısa bir zamanda universitetlər, texnikumlar, sənət məktəbləri yaratdı, ancaq eyni zamanda bu quruluş heç bir təqsiri olmayan böyük pedaqoq Firudin bəy Köçərlini məhkəməsiz, yaxud 15 dəqiqəlik yalançı məhkəmə ilə Bəkir Çobanzadə kimi çox istedadlı və işıqlı bir professoru güllələdi.

Bu quruluş professonal teatrı olmayan Azərbaycanda yenə də qısa bir zamanda yalnız Bakıda yox, rayonlarda da Dövlət teatrları açdı, teatr xadimlərinə, aktyorlara yaradıcılıq şəraiti yaratdı, xüsusi teatr universiteti açdı, artistləri, rejissorları deputat təyin etdi, onlara mükafatlar verdi, onları evlə, maaşla təmin etdi, ancaq eyni zamanda, bu quruluş artistlikdən başqa heç bir işlə məşğul olmayan Abbas Mirzə Şərifzadəni, yaxud Ülvi Rəcəb kimi sənətkarı 10-15 dəqiqəlik saxta məhkəmə, ya da «Üçlük»lərin (Sistemin təyin etdiyi üç nəfərin) qərarı ilə «xalq düşməni» elan edib, güllələdi.

Və Sovet İttifaqının tarixi bütün sahələrdə bu cür, təkrar edirəm, normal ağıla sığışmayan, izah edilə bilməyən paradokslarla zəngindir.

Bu ziddiyyətin bir tərəfi nə qədər qiymətli idisə, o biri tərəfi xüsusən Lenin və Stalin dönəmində daha artıq dərəcədə qəddarlıq, vəhşilik, quzğunluq nümunəsi idi.

Qorxu – bu hiss Sovet tarixinin bəzi illərində okean sularının qabarması-çəkilməsi kimi şiddətlənir, sonra nisbətən yumşalırdı və xüsusən həmin qabarma çağlarında insanları (Sovet vətəndaşlarını!) öz həyatını xilas etmək, qorumaq üçün müxtəlif yollar axtarmağa məcbur edirdi və satqınlıq etmək də, bir-birinə böhtan və şər atmaq, bir-birinin üzünə durmaq, olmayan günahlarını etiraf etmək də bu qorxu hissindən yaranırdı. Sovet İttifaqının ən ali orqanı Kommunist Partiyası idi, ancaq Leninin başladığı, qorxulu konturlarını müəyyənləşdirərək, həyata tətbiq etdiyi və Stalinin dahiyanə ustalıq və səriştə ilə inkişaf etdirib, formalaşdırdığı elə bir Sistem yaranmışdı ki, bunun mayası qorxu ilə yoğrulmuşdu, mahiyyətində qorxu dayanırdı. Bu Qorxu hissi repressiya olun-

muş, istintaq işgəncələrindən keçmiş, Sibirin, Uzaq Şərqin, Qazaxıstanın şaxtalı-çovğunlu çöllərində məşəqqətli həbs həyatı yaşamış və salamat qalmış insanların qanına elə hopmuşdu ki, onlar – hər halda mənim tanıdığım tanış-bilişlər, qohumlar hətta Stalin repressiyalarına biganə münasibət bəsləyən Brejnev dövründə – 1970-80-ci illərdə belə, bu barədə danışmağa, təfərrüatlara varmağa həvəsli deyildilər.

Baxın, 1960-70-ci illərdə Siyasi Büronun ən güclü üzvlərindən biri Aleksandr Şelepin (onun «Dəmir Şurik» ayaması var idi) uzun sükutdan sonra vəfatından bir il əvvəl, 1993-cü ildə müsahibə verib və mən o müsahibəni internetdə tapıb oxudum. Orada çox maraqlı, eyni zamanda Sovet İttifaqının rəhbər «mətbəxi» («Kreml mətbəxi») barədə təsəvvür yarada bilən belə bir faktla rastlaşdım: 1958-ci ildə Nikita Xruşşov Şelepini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin («KQB»-nin) sədri təyin edəndə, kabinetdə onu bir küncə çəkərək, deyib: « – Sizdən böyük şəxsi xahişim var. «KQB»-də hər şey edin ki, məni gizlincə dinləyə bilməsinlər.»

Bu şəxsi xahişi o adam edir ki, Stalindən sonra diktatorluğu ələ keçirməyi bacararaq, artıq SSRİ-də hakimi-mütləq idi və «KQB» də bilavasitə onun tabeçiliyində fəaliyyət göstərirdi. Ancaq baxın, onun da daxilində bir Qorxu, etimadsızlıq var idi və bu da yəqin əlamətdar bir hadisədir ki, 1964-cü ildə Xruşşovu taxtdan salan (və onu «ifşa» edən) sui-qəsdçilərin arasında elə həmin Şelepin və ondan sonra «KQB»-nin sədri olmuş Vladimir Semiçastnı əsas təşkilatçılar sırasında idi. (General-polkovnik Semiçastnı 1960-cı illərin əvvəllərində Azərbaycan KP MK-nın Moskvadan göndərilmiş ikinci katibi idi və ona daima diqqət göstərən, onu pillə-pillə irəli çəkən Xruşşov bu dəfə də Semiçastnını Azərbaycandan birbaşa SSRİ «KQB»-sinin sədri vəzifəsinə apardı, ona general-polkovnik rütbəsi verdi, sonra da çox çəkmədi ki, bu adam, dediyim kimi, Nikita Xruşşova qarşı sui-qəsdin mühüm, həlledici təşkilatçılarından biri oldu.)

Yəqin bu da İosif Stalindən üzü bu tərəfə Kreml mətbəxindəki psixoloji əhval-ruhiyyə, orada hökm sürən ab-hava üçün əlamətdar bir faktdır ki, Nikita Xruşşov partiya taxtından salındıqdan sonra yazdığı (diktə etdiyi) xatirələrində belə bir epizod söyləyir: «Stalin bu qərara gəlmişdi ki, Voroşilovu namuslu adam bilməkdə səhv edib, o (yəni Voroşilov – E.), ya ingilis, ya da Stalinin ağlına gələ biləcək hansısa başqa bir kapitalist ölkəsinin casusudur.» **(Mən bu sitatı Xruşşovun xatirələrinin redaktə edilməmiş nəşrindən gətirirəm: Никита Хрущев. Воспоминания, Избранные отрывки, New York, 1982, стр. 107.)**

Marşal Kliment Voroşilov Siyasi Büronun üzvü, Rusiyada vətəndaş müharibəsinin Sovet təbliğat maşınının uzun onilliklər boyu təbliğ və tərənnüm etdiyi məşhur «qırmızı» komandir-qəhrəmanı idi və SSRİ-də, o cümlədən də Azərbaycanda onun adına yüzlərlə küçə, kolxoz, müəssisə, ali məktəb və s., və i.a. var idi, ancaq baxın, Stalin (Sistem) bir anın içində onu ingilis, ya da «ağlına gələ biləcək hansısa başqa bir kapitalist ölkəsinin» casusu elan edə bilərdi.

Stalinin şəxsiyyətinə pərəstiş «ifşa» olunandan sonra Sistemdə çürümə prosesi başlamışdı və Qorxu nisbətən azaldıqca, dediyim həmin ziddiyyət getgedə Sovet İttifaqında siyasi və mənəvi riyakarlığa gətirib çıxartdı: partiya

funksionerləri, dövlət işçiləri günorta Nikita Xruşşovdan sitatlar gətirir, onun şəxsiyyətini və fəaliyyətini örnək göstərir, Kommunist Partiyasına sədaqət və inam nümayiş etdirir, axşam isə elə həmin Xruşşovdan tutmuş, Çapayev və Staxanovacan sovet rəhbərlərindən və məşhurlarından anekdotlar danışırdılar.

Aparıcı kommunizm ideolojisi tam şəkildə şüarçılıqla əvəz olunmuşdu və Kommunist partiyası heç vəchlə kommunist əqidəsini, dünyagörüşünü ifadə etmirdi. Partiya karyera üçün ilkin və mütləq ictimai pilləyə, rahat və imkan daxilində rifah həyat təminatçısına çevrilmişdi. Partiya üzvlərinin 90 faizdən çoxu, o cümlədən partiya funksionerləri marksizm-leninizm klassiklərini oxumamışdı və ideologiyanı, dediyim kimi, sitatçılıq əvəz edirdi. Yerdə qalan 5-6 faiz isə fürsət tapıb partiya tarixindən, elmi ateizmdən dissertasiyalar yazıb, elmi dərəcə alanlar, universitetlərdə dərs deyən müəllimlər idi və onlar da əsasən əqidə adamları yox, peşə, yəni fənn adamları idi. Yadıma gəlir, “Mənim ərim dəlidir” tragikomediyamda elmi ateizm professorunun Sovet İttifaqı dağılandan sonra mollalıq etdiyini yazmışdım və bu, bədii qroteks yox, həqiqətin, reallığın ifadəsi idi. Bir sözlə, Sovet İttifaqını həmin siyasi-ideoloji riyakarlıq və belə bir ideoloji eybəcərlik yıxdı.

Anekdotlardan söz düşmüşkən, sovet rəhbərləri haqqında anekdotlardakı bir əlamətdar cəhət odur ki, Xruşşov, Brejnev, Leninin özü gülüş hədəfi olduqları halda, Stalin hətta anekdotlarda da gülüş hədəfi, gülüş qəhrəmanı yox, hökm verən, qərar qəbul edən, hazırcavab, böyük və ədalətli (!) hökmdar – personajdır.

(Bu səciyyəvi anekdota fikir verin: «Ruzveltlə Çerçill söz qoyurlar ki, Stalini mat qoysunlar, deməyə sözü olmasın və növbəti görüşləri zamanı Çerçill deyir: «–Bu gecə mən bir yuxu görmüşəm. Görürəm ki, bütün dünya ölkələri birləşib, vahid bir hakimiyyət yaranıb. Mən də o hakimiyyətin Baş naziriyəm.» Ruzvelt deyir: «–Mən də o cür yuxu görmüşəm. Özüm də o dünya hakimiyyətinin Prezidentiyəm.» Çerçil soruşur: «–Cənab Stalin, siz necə, belə bir yuxu görməmisiz?» Stalin: «–Görmüşəm, – deyir. – Mən də sizi və cənab Ruzvelti həmin vahid dünya hakimiyyətindəki o vəzifələrə təyin etdim!»)

Sovet senzurasının (bədnam «Qlavlit»in) rəhbərləri guya siyasi sayıqlıq nümayiş etdirərək, hansısa bədii əsərdən Sistem baxımından şübhəli görünən bir hissəni çıxarırdı, axşam isə evə gəlib, elə o çıxarılmış hissəni ləzzətlə tərifləyə-tərifləyə, sovet gerçəkliyini lağa qoya-qoya evdəkilərə danışırdı və bu cür siyasi-əxlaqi fantosmaqoriya Stalindən sonrakı (Qorxunun azaldığı) dövr üçün get-gedə daha artıq səciyyəvi olur və kütləviləşirdi.

Sovet İttifaqının hökmdarları öldükdən (Yuri Andropov, Konstantin Çernenko), yaxud vəzifədən kənarlaşdırıldıqdan sonra (Georgi Malenkov, Nikita Xruşşov, Mixail Qorbaçov – əslində o da kənarlaşdırıldı) heç kimə çevrilirdilər və belə bir «heç kimlik» bəzən miskinliyin yox, mənəvi puçluğun və ikiüzlülüyün, siyasi qəlpliyin göstəricisi olurdu. Nikita Xruşşovun qızı Rada Adjubey 2000-ci illərdə «You Tube»dakı müsahibələrindən birində deyir ki, atası, yəni odlu-alovlu çıxışlarıyla daima kapitalizmi, ilk növbədə də ABŞ-ı ifşa edən Xruşşov vəzifədən çıxarıldıqdan sonra axşamlar gizlincə radio ilə «Amerikanın səsi»nə qulaq asırmış.

Bu yaxınlarda mən oxudum ki, indi heç sovet dövründə yaşamış insanların da xatırlamadığı, hətta sovetoloqların da yadına düşməyən sovet rəhbəri (SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi) Konstantin Çernenko öz ayağı ilə trap pilləkanlarını qalxıb təyyarəyə minə bilmədiyinə görə, onu təyyarəyə qaldırmaq üçün xüsusi sifarişlə Almaniyada hazırlanmış trap-eskalator gətirirlər və mühəndislər bu eskalatoru əvvəlcədən adi təyyarə trapının arxasında elə yerləşdirirlər ki, baxanda belə təsəvvür yaranır ki, eskalatorun qaldırdığı Çernenko trapın pillələrini guya öz ayağı ilə qalxır, yəni xalq öz rəhbərini sağlam və işgüzar görsün – doğrusu, elə bil ki, multfilm süjetidir.

Çox səciyyəvi və əlamətdar bir riyadır və bir tərəfdən Sovet İttifaqını Mixail Qorbaçovun vecsizliyindən çox, elə bu cür riyakarlıqlar yıxdısa, o biri tərəfdən də Qorbaçovun partiyanın Baş katibi vəzifəsinə (Stalin mərtəbəsinə) qalxmasının özü də artıq kütləviləşmiş həmin siyasi-əxlaqi riyakarlığın nəticəsi idi, yəni SSRİ-nin kartdan qurulmuş bir imperiya kimi domino effektli sürətlə və şərəfsizliklə dağılması, tarmar olması labüd idi.

Ancaq biz çox uzağa getməyək, çünki «Sovet uzaqlarına» getdikcə, gedirsən və qayıtmaq çətin olur.

Mən dedim ki, Sovet rəhbərləri vəfat etdikdən sonra «heç kim» olurlar, yalnız İosif Stalin ("yoldaş Stalin") sağdan da, soldan da nə qədər haqlı və haqsız zərbələr alırsa, heç vəchlə «heç kimə» çevrilmir və bir halda kı, söhbət ölümdən düşdü, bu günün özündə də sovetşünaslar, konkret olaraq stalinşünaslar dəqiq sübut edə bilmir ki, Stalin öz əcəli ilə ölüb, yoxsa onu öldürüblər.

Müharibə vaxtı ABŞ-ın SSRİ-də səfiri olmuş Averell Qarriman deyir ki, bir dəfə Nikita Xruşşovla görüşərkən soruşub: « – Stalin özünə varis tapmışdı?» Xruşşov: « – Yox, – deyir. – O, elə bilirdi ki, daima yaşayacaq.» **(Николай Зенькович. Тайны уходящего века – лжесвидетельства, фальсификации, компромат, Москва, «Олма-Пресс», 1999, стр. 172.)**

Stalin Sovet İttifaqında ilahi bir səviyyəyə qalxsa da, insan idi və ölümü ilə bağlı versiyalardan biri belədir ki, ona qarşı sui-qəsdi Lavrenti Beriya tək həyata keçirib, başqa bir versiyaya görə, bu sui-qəsdi Nikita Xruşşov, Georgi Malenkov, Lavrenti Beriya (hərdən o zaman müdafiə naziri, sonralar isə Nazirlər Sovetinin sədri olmuş Nikolay Bulqaninin də adını çəkirlər) müştərək hazırlayıblar, hətta versiyalardan birinə görə, beyninə qan sızıb yıxılmış Stalin özünə gələndə, Xruşşov onu şəxsən boğub öldürüb.

Stalinin ölümü ilə bağlı həqiqət yəqin ki, «KQB»-nin də arxivi daxil olmaqla bütün gizli arxiv sənədləri, xüsusən Stalinin xəstəliklərinə aid sənədlər üzə çıxdıqdan sonra məlum olacaq, ancaq elə bilirəm ki, « – Adları çəkilən bu adamlar Stalinin vəzifəyə gətirdiyi ən yaxın silahdaşlarıdır və onlar belə bir dönüklük və xəyanət edə bilərdilərmi?» – kimi bir sual yaranarsa, cavab birmənalıdır: bəli! Yalnız elə bir faktı yada salmaqla kifayətlənmək istəyirəm: Stalinin vəfatından bircə ay sonra, Malenkovun Nazirlər Sovetinin sədri, Xruşşovun MK katibi olduğu bir zamanda daxili işlər naziri, eyni zamanda Nazirlər Soveti sədrinin birinci müavini Lavrenti Beriyanın şəxsən imzaladığı orderlə Stalinin oğlu Vasili Stalin həbs edildi və sürgünə göndərildi, təqibə

məruz qalaraq, içkiyə qurşanıb 41 yaşında vəfat etdi. Bu adamlar Stalin zamanı ayrı-ayrılıqda Sovet rəhbərliyində ikinci yerə iddialı rəqiblər idi, ancaq 1937-ci ildə Stalinin təbliğindəki mədhnamə və səcdə baxımından ondan sonra ikinci yeri isə Nikolay Yejov tutmağa başladı.

Stalin 1936-cı ildə "NKVD"-nin rəhbəri Henrix Yaqodanı vəzifədən çıxartdı və onun yerinə Yejovu təyin etdi. Henrix Yaqoda Kirovun ölümündən sonra Stalinin tapşırığı ilə cidd-cəhdlə və amansızcasına "düşmən" axtarışlarına başladı, məşhur və qeyri-məşhur siyasi xadimlərdən adi peşə sahiblərinəcən insanları "ifşa" edib güllələnməyə göndərdi, sonda da Stalin onun özünü tutdurub, güllələtdirdi. Siz bu ötəri epizoda fikir verin və görün kiçikdən tutmuş böyüyəcən bütün Sovet İttifaqının ehtiyat etdiyi, çəkindiyi Henrix Yaqoda hələ "NKVD"-yə başçılıq edərkən, Stalin onunla hansı bir tərzdə davranır: Yaqoda Maksim Qorki ilə dostluq etməyə çalışırdı və Qorki ağır xəstə yatanda Stalin Molotov və Voroşilovla birlikdə onu yoluxmağa gəlir və görür ki, Yaqoda da ordadır. Stalin: "– Bu niyə burda sülənir? – deyir. – Tez burdan sürüksün!" **(Крейг Браун. Теория шести рукопожатий, Москва, АСЕ, «017, стр. 168.)**

Biz Yejova qayıdaq.

Konstantin Simonov Stalinin xüsusi rəğbət bəslədiyi yazıçılardan biri, bəlkə də birincisi idi və gənc yaşlarından etibarən, az qala, hər əsərinə görə Stalin ona öz adını daşıyan mükafat verirdi. Simonovun 80-ci illərdə Stalin haqqında yazdığı kitabda söylədiyi bir fikir mənə maraqlı və çox da əlamətdar göründü. Simonov yazır ki, Nikolay Yejovun şəxsiyyəti və fəaliyyəti haqqında şişirdilmiş təriflərin, «dəmir narkom» adlandırılan bu cırtdan boylu adamın bütün informasiya vasitələrində hədsiz dərəcədə vəsf edilməsinin arxasında bilavasitə Stalinin təhriki dayanırdı, çünki Stalin bu qırğın kampaniyasını (Böyük Terroru) başlayarkən, zamanı gələndə onu dayandrmağı da əvvəlcədən planlaşdırmışdı və həmin zaman yetişəndə qırğına cavabdeh olacaq bir adam tələb olunurdu – həmin adam da Nikolay Yejov özü olacaqdı... **(Константин Симонов. Глазами человека моего поколения. Размышление о И.В.Сталине, Москва, АПН, 1989.)**

Görünür, tarix Stalin üçün yalnız dünyagörüşünü, biliyi artırmaq, qədimlərdən üzü bu tərəfə dünyanın işlərindən xəbərdar olmaq üçün mühüm bir mənbə deyildi, tarix eyni zamanda onun üçün ibrət dərsi idi. Uzağa getməyək, elə yaxın keçmişdə Robespyer də Böyük Terrorun müəlliflərindən biri, bəlkə də birincisi idi, qialtino onun hakimi-mütləqliyinin sinoniminə çevrilmişdi, ancaq nə oldu? Böyük Terror Robespyerin özünü də qamarlayıb, dünənəcən onu sidq-ürəkdən alqışlayan kütlənin qışqıra-qışqıra: "– Tirana ölüm!" – sədaları altında qialtinoya uzatdı, sonra da cəllad onun boğazından qan süzülən kəsilmiş başını indi də sidq-ürəkdən sevinən həmin kütləyə nümayiş etdirdi.

Koba bəlkə də Robespyer idi, ancaq Stalin Robespyer deyildi.

Stalin 1936-cı ildə artıq tam surətdə istifadə etdiyi, sıxıb suyunu çıxartdığı Xalq daxili işlər komissarı (naziri) Henrih Yaqodanı vəzifədən çıxardıb, yerinə Nikolay Yejovu təyin etdi. 1937-38-ci illərin dəhşətləri bilavasitə bu adamın adı ilə bağlıdır. Bu liliput insanın həyatı və fəaliyyəti barədə ədəbiyyatı, artıq çap

edilmiş «məxfi sənədlər»i, stenoqramları oxuduqca, məndə belə bir təəssürat yarandı ki, söhbət içindəki natamamlıq, yarımçıqlıq komplekslərinin burulğanı ilə yaşayan (məhkəməsində etiraf etmişdi ki, o, həm də passiv seksual azlıq nümayəndəsi olub), insanlara (və umumiyyətlə insanlığa!) dəruni nifrət bəsləyən, eyni zamanda bu mənada bəlkə heç özündən də asılı olmayaraq intiqam hissi ilə fəaliyyət göstərən və bütün bunları gizlətmək üçün öz psixikasını zorlayan həm cismani, həm də mənəvi mənada xəstə bir fərddən gedir.

Heç kimin tanımadığı belə bir təsadüfi adam Stalinin təhriki ilə çox qısa bir müddətdə Sistemin böyük və qorxulu nümayəndələrindən birinə çevrildi. Leninin mavzoleyinə də, özünə də, Stalinə, «ağsaqqal» Kalininə, Kirova, Voroşilova və bu qəbildən başqalarına (bunları mən hələ ibtidai məktəb dərsliklərindən xatırlayıram) odalar – mədhiyyələr yazan məşhur qazax akını Cambul Cabayevin Nikolay Yejova həsr etdiyi tərifnamə rəsmən «parlaq ədəbiyyat hadisəsi» kimi qiymətləndirildi. (Belə bir inandırıcı versiya da var ki, dövrün konyukturasından istifadə edib, qonorar almaq üçün bu ədəbi makulaturaları qoca və görkəmli akın Cambulun adından kasıb rus şair-tərcüməçiləri yazırdı.) Viktor Şafrannikov kimi əyalət bəstəkarları bu odaya xüsusi musiqi bəstələyib məşhurlaşdı, Yejovun adı şəhərlərə, prospektlərə, kolxozlara verilirdi, nümayişlərdə, «qəzəbli» sovet zəhmətkeşlərinin – fəhlələrin, kolxozçuların kütləvi «ifşa» yığıncaqlarında onun şəkilləri Stalinlə yanaşı qaldırıldı.

Mən Yejov haqqında və onun dövründəki repressiyanın qara koloriti haqqında təsəvvür yaratmaq üçün, yalnız 1937-ci ildə Moskvada, Böyük Teatrda («Bolşoy Teatr»da) çekistlərin 20 illik yubileyi münasibətilə keçirilən təntənəli gecəni xatırlamaqla kifayətlənəcəyəm.

Nikolay Yejovun qorxulu-hürkülü şöhrətinin həmin çılğın dövründə «ifşaların», o cümlədən Azərbaycandakı «ifşaların» ən qızğın çağında Siyasi Büronun Vyaçeslav Molotov, Lazar Kaqanoviç, Kliment Voroşilov, yavaş-yavaş stalinçi dividentlər qazanan Nikita Xruşşov, Georgi Malenkov kimi nüfuzlu üzvləri – Stalin silahdaşları Nikolay Yejovla birlikdə rəyasət heyətində oturmuşdular. Məruzəçi Anastas Mikoyan idi və o, ən bəlağətli ifadələrlə Nikolay Yejova elə diferambalar, mədhiyyələr oxuyurdu ki, bunlar Stalindən başqa heç bir bolşevik haqqında deyilməmişdi.

Anastas Mikoyan bütün sovet vətəndaşlarını (!) «yoldaş Yejovdan stalinçi üslubda işləməyi» öyrənməyə çağırır və deyirdi: «Bu gün bütün «NKVD» və ilk növbədə yoldaş Yejov sovet xalqının sevimliləridir.» Mikoyan böyük bir ruh yüksəkliyi, iftixar və fəxarətlə atasını «xalq düşməni» kimi «ifşa» etmiş pioner Kolyanı bütün sovet gənclərinə nümunə göstərir və pioner Kolyanın atasını güllələtdirməsini sovet cəmiyyətinin böyük mənəvi (!) qələbəsi hesab edirdi.

Hakim ideologiyanın belə bir siyasi bölgüsü var idi: Kommunistlərin kiçik ideoloji qardaşları komsomolçular idi, komsomolçuların da kiçik qardaşı pionerlər idi və pionerlər (gələcək nəsil!) 1930-cu illərdə güclü təbliğat obyektlərindən birinə çevrilmişdi. Hakim ideologiya pionerləri sosializm quruculuğuna yad olan atalarına, qohum-əqrabalarına qarşı qaldırırdı və Mikoyanın nümunə göstərib, heyranlıqla təriflədiyi Kolya kimi atalarını «ifşa»

edən pioner-qəhrəmanların ən məşhuru Pavlik Morozov idi. Maksim Qorki atasını «ifşa» edib həbsə saldıran Pavliki «bizim epoxanın balaca möcüzəsi» adlandırırdı, Sergey Mixalkov, yaxud Stepan Şipaçev kimi məşhur və Sistemə məhrəm rus şairləri Pavlikə şeir və poemalar həsr edirdi, onun haqqında povestlər, pyeslər, operalar yazılırdı və yaxşı xatırlayıram ki, 1951, ya 52-ci il idi, mən 2-ci, ya 3-cü sinifdə oxuyanda məktəbdən bizi bir neçə dəfə Gənc Tamaşaçılar Teatrında eyni «Pavlik Morozov» tamaşasına aparmışdılar (müəllifi xatirimdə deyil). Uşaqların bir qismi – mən də onların arasında – çaşqınlıq içində idi: bir tərəfdən sevimli pioner qəhrəman, o biri tərəfdən də atanı satmaq... (İki-üç ildən sonra – yeniyetməlik ərəfəsi idi – mən Merimenin «Matteo Falkone» novellasını oxudum və bu əsərdə satqınlıq etdiyi üçün atası balaca Fortunatonu güllələyirdi. O novella mənə çox təsir etmişdi və Merime Fortunatonun ölümünü elə təsvir etmişdi ki, ona çox yazığım gəlirdi, Pavlik Morozova isə nifrət etməyə başladım.)

Uzun sözün qısası, pionerlərlə bağlı qlobal bir siyasi yaramazlıq kampaniyası aparılırdı və bəzən uşaqlar həqiqətən ideoloji robota çevrilirdi. Onlardan biri də Azərbaycanda geniş təbliğ olunan və Gəncədə anadan olmuş Qrişa Akopyan idi. 1937-38-ci illərdə isə Azərbaycanda «xalq düşməni» kimi ifşa olunmuş atalarından imtina edən, onları lənətləyən, onların güllələnməsini tələb edən pionerlərin «izhari-nifrət» yığıncaqları keçirilirdi və mən «Ölüm hökmü» romanında bu «izhari-nifrət» kampaniyalarından geniş bəhs etmişəm.

Ancaq biz Анастас Mikoyanın məruzəsinə qayıdaq.

Mən bu məruzəni oxuduqca açıq-aşkar hiss edirdim ki, Anastas Mikoyanın özü daxilən heyvani bir qorxu içində olub və elə bil ki, dovşan ağzını açmış qorxunc ilanla üzbəüz dayanıb, nə dərəcədə yaltaqlıq olursa-olsun – cidd-cəhdlə özünü qorumaq istəyir. Məsələ burasındadır və mənim buna qətiyyən şübhəm yoxdur ki, həmin «təntənəli gecədə» rəyasət heyətində əyləşmiş bütün vəzifə sahiblərinin, «kiçik rəhbərlərin», o cümlədən Siyasi Büro üzvlərinin hamısının (!) içində – olsun ki, birində nisbətən az, o birində daha artıq – həmin heyvani qorxu hissi var idi. Stalin ayrı-ayrı vaxtlarda – həmin «təntənəli gecəyə» qədər və sonrakı dövrdə Zinovyev, Kamenev, Buxarindən tutmuş Kuznetsova və Voznesenskiyə qədər xeyli Siyasi Büro üzvlərini, üzvlüyə namizədləri güllələtdirmişdi, Molotovun, Kalininin, Yejovun özünün arvadlarından tutmuş Kaqanoviçin, Orcokinidzenin qardaşlarına qədər Siyasi Büro üzvlərinin yaxınlarını həbs etdirmiş, psixi xəstəxanaya saldırmış, intihara sürükləmişdi.

Vaxtıyla müsahibələrimdən birində dediyim maraqlı psixoloji, bəlkə də sosial-psixoloji təbiət hadisəsini təkrar etmək istəyirəm: Lavrenti Beriya daxil olmaqla, güllələnmiş Siyasi Büro üzvlərini və 51 yaşında intihar etmiş Serqo Orconikidzeni nəzərə almasaq, Stalinin ən yaxın ətrafının çoxu həyatlarının mürəkkəbliyinə, bəzən də əməlli-başlı qəzavü-qədərlərə baxmayaraq, uzun ömür sürüblər: Lazar Kaqanoviç – 98 il, Vyaçeslav Molotov – 96 il, Kliment Voroşilov – 88 il, Georgi Malenkov – 87 il, Anastas Mikoyan – 83 il, Nikolay Bulqanin – 80 il... Stalinin siyasi muzey eksponatı kimi saxladığı Semyon Budyonnı

– 90 il və s. Stalinin özü isə 74-75 yaşlarında vəfat etmişdi (son illərdə üzə çıxan sənədlərə görə o, 1879-cu ildə yox, bir il əvvəl – 1878-ci ildə anadan olub).

Belə çıxır ki, daima qorxu, stres içində yaşamaq, bir tərəfdən infarkta gətirib çıxarırsa (xüsusən sadə, zəif və sinirləri zərif insanları), o biri tərəfdən də, gördüyümüz kimi, hadisələrin, qanlı olayların sərtləşdirdiyi insanların orqanizmini səfərbər edir, onları möhkəmlədir və öyrəncəli edir!?

Ancaq biz yenə çekistlərin o yubiley gecəsinə qayıdaq.

Nikolay Yejovun birinci müavini, məşhur cəllad, 1930-cu illərin əvvəlində Azərbaycan çekistlərinin rəhbəri təyin edilmiş və burada «üçlük» sədri kimi qanlı vəhşiliklər törətmiş, 1937-ci ildə başlayan Böyük Terrorun əsas təşkilatçılarından biri olan Mixail Frinovski (qısa müddətdən sonra Stalin onun özünü də «xalq düşməni» kimi güllələtdirdi, sonra onun arvadını, 17 yaşlı oğlunu da "xalq düşməni" kimi güllələdilər) isə elə həmin yubiley gecəsində çıxış edərək, Nikolay Yejovu «yoldaş Stalinin dostu» adlandırır (!) – bu isə, əslində, Yejovun bütün vəzifələrindən (o, həm də MK-nın katibi idi) qat-qat yüksək bir «vəzifə» təyinatı idi, çünki o vaxta qədər heç kim Stalinin silahdaşından yuxarı mərtəbəyə – Stalinin dostu ucalığına qaldırılmamışdı.

Ancaq... İosif Stalin özü bu təntənəli yubiley gecəsində iştirak etmirdi.

Nə üçün?

Bəlkə Stalin Simonovun dediyi kimi, ipin ucunu çəkmək məqamını dəqiq planlaşdırdığı üçün hesab edirdi ki, qətllər, «ifşa»lar hələ lazımi məqama gəlib çatmayıb və o, nəhəng bir ölkəni bürümüş bu nəhəng də dəhşətin qeyri-insani ağırlığını bir müddətdən sonra bu liliputun çiyinlərinə yükləyəcəyini elə həmin vaxtda hazırlayırdı, buna görə də Anastas Mikoyanı qabağa verib, özü çekistlərin o təntənəli iclasına gəlməmişdi? Şekspiranə bir intriqa meydana çıxır ki, Anastas Mikoyanın Böyük Teatrda Nikolay Yejovun ünvanına tərifnamələr söylədiyi vaxt, Kremldə Stalinin düşüncələrində Yejovun taleyi həll olunurdu və yaxud da bu tale artıq həll olunmuşdu.

Anastas Mikoyan az qala 700 səhifəlik xatirələrində bu məşhur çekist yubileyi barədə bir kəlmə də demir və ümumiyyətlə, 37-38-ci illər dəhşətinin üzərindən ötəri keçərək, həmin illərdə İvan (Ovanes) Tevosyanı, yaxud Azərbaycanı işğal etmiş 11-ci bolşevik ordusunun başında duran Mixail Yefremovu «Stalin repressiyalarından» xilas etməyindən, Stalinin öz ailə üzvlərini məhv etməsindən yazır, bütün günahları Stalinin üstünə ataraq, hər vasitə ilə özünü «Stalin repressiyalarının» əleyhdarı olduğunu göstərməyə çalışır. Mikoyanın bolşevik fəaliyyəti və siyasi karyerası bilavasitə Azərbaycandan başlayıb, Serqo Orconikidze və Sergey Kirovla birlikdə 11-ci Qırmızı ordu ilə Bakıya gəlib və sonrakı dövrlərdə də Azərbaycanla bağlı mühüm məsələlər Siyasi Büro üzvü kimi onun vəzifələri ilə bağlı olub, ancaq petitlə yığılmış həmin 700 səhifəlik xatirələrində bir sovet respublikası kimi Azərbaycan yoxdur və 20 il bu ölkəyə rəhbərlik etmiş Mir Cəfər Bağırovun da adı çəkilmir, bütün səhifələrdə özünün şişirdilmiş xidmətlərindən bəhs edir. Sergey Kirovdan danışanda isə, onun əvvəllər «Azərbaycan KP MK-nın Birinci katibi kimi, xırda (! – E.) bir vəzifədə» işlədiyini yazır **(Анастас Иванович Микоян. Так было –**

**размышления о минувшем, Москва, Вагриус, 1999, стр. 366.)** və bir məqamı da qeyd etmək istəyirəm ki, Mikoyan xatirələrində Stalinlə bərabər, Molotovdan, Malenkovdan, Beriyadan tutmuş Leonid Brejnevə, Mixail Suslovacan – bir sözlə, birgə işlədiyi bütün siyasi xadimlər (rəhbərlər) haqqında mənfi fikirlər söyləyir, hətta onlar haqqında nifrətlə danışır.

Elə burada bir cəhəti qeyd etmək istəyirəm: bir-biri haqqında bu cür mənfi fikirlər söyləmək, bir-birini mənfi səciyyələndirmək yanlız Anastas Mikoyanın yox, Molotovun, Xruşşovun, Kaqanoviçin, başqalarının da xatirələri üçün səciyyəvidir və istər-istəməz fikirləşirsən ki, bir-birinə nifrət edən, canavar kimi burun-buruna dayanmış bu insanlar bir yerdə Sovet İttifaqı kimi nəhəng bir imperiyaya necə rəhbərlik ediblər?

Sovet dövrü ilə bağlı siyasi, eləcə də hərbi xadimlərin (Jukov, Rokossovski, Vasilevski, Konev, Çuykov, Qreçko, Ştemenko, Baqramyan və başqa marşal və generalların) memuarları bir çox prinsipial məqamlarda etibarlı mənbə deyil, çünki bütün bu adamlar Sistemin altında və Sistemin göstərişi və istəyi ilə fəaliyyət göstəriblər və bu fəaliyyəti tam çılpaqlığı ilə, obyektivcəsinə göstərmək – yəqin ki, şəxsi fədakarlıq, etiraf və cəsarət tələb edir. Leonid Brejnevlə işləmiş müəlliflərin yazdığına görə, o, yəni Brejnev elə onun dövründə çap edilmiş, Lenin mükafatı almış xatirələrini özü heç oxumayıb və bu xatirələri yazmış jurnalistlərin adları da artıq məlumdur. Anastas Mikoyanın xatirələrini isə oğlu, tarix elmləri doktoru Serqo Mikoyan çapa hazırlayıb, ön söz yazıb və güman ki, onun Sistemdən sonrakı redaktəsi də az olmayıb.

## *2.*

Stalin cəmi iki ilin içində Sistemə rəhbərliyinin özündən sonrakı ən uca (və ən qorxulu!) zirvəsinə qaldırdığı Nikolay Yejovu elə o zirvədən də birbaşa yarğanın dibinə atdı – Yejov həbs edildi və güllələndi və mən bu barədə uzun-uzadı danışmaq istəmirəm, ancaq onun necə həbs olunduğunu yazmağa dəyər: «NKVD» rəhbərliyindən çıxarılıb, Su təsərrüfatı naziri təyin edilmiş Yejov 1939-cu ilin yanvarında öz müqəddəratını aydınlaşdırmaq üçün, Georgi Malenkovla birlikdə Stalinin qəbuluna düşməyə nail olur və xahiş edir ki, onun fəaliyyəti Siyasi Büronun iclasında müzakirə edilsin. Stalin: « – Gedin Malenkovun kabinetinə, bir daha danışın, – deyir. – Mən də öz qərarımı sizə bildirərəm.» Yejov Malenkovla onun kabinetinə gedir, bir müddətdən sonra isə, Lavrenti Beriya əsabələri ilə birlikdə, gözlənilmədən kabinetə daxil ollur və Yejov həbs edilir. **(Леонид Наумов. Сталин и НКВД, Москва, «Яуза», 2007, стр. 367.)** Bir il əvvəl isə, Yejov narkom, Beriya da onun müavini idi...

Burda yerinə düşər ki, deyək: şərhə ehtiyac yoxdur və assosiativ olaraq bunu da yazım ki, «kabinetlərdə həbslər» Sistemin həvəslə tətbiq etdiyi bir metod idi: Mir Cəfər Bağırov 1938-ci ilin noyabrında Azərbaycan «NKVD»-sinin başçısı, məşhur «NKVD» cəlladı Mixail Rayevi yanına çağırır və onu elə öz kabinetində də həbs etdirir, sonra da güllələyirlər.

Mən Mixail Rayevi cəllad adlandırdım və 1937-1938-ci illərdə bütün «NKVD» məşhurları kimi, o da cəllad idi, ancaq siz dünyanın işlərinə baxın,

Siyasi Büronun təsdiq etdiyi «Üçlük» (həmin M.Rayev sədr, üzvlər A.Əlihüseynov və M.T.Yaqubov) Məmməd Əmin Rəsulzadənin 18 yaşlı oğlu Rəsulun güllələnməsi barədə hökm çıxaranda yəhudi əsilli sədr Mixail Rayev (Kaminski) buna etiraz edib, «Üçlüyün» üzvü, o zaman Azərbaycan SSR-in Baş prokuroru olan azərbaycanlı A.Əlihüseynov isə Rəsulun güllənənməsini təkid edib və onun təkidi ilə də 18 yaşlı yeniyetməni "xalq düşməni" kimi güllələyirlər. **(Bax: Эльдар Исмаилов. Теория сталинизма. История «большого террора в Азербайджане, Москва, ОССПЭН, 2015, стр. 151.)**

Sovet imperiyası dağıldıqdan sonra Rusiyada da, xarici ölkələrdə də Stalin haqqında yüzlərlə elmi və publisistik kitablar yazılıb və bu kitablarda daban-dabana zidd fikirlər söylənir, ancaq ümumiləşdirici bir həqiqət budur ki, Stalin bəşər tarixinin ən böyük diktatorlarından, tiranlardan biri, birincilərdən biri, bəlkə də elə birincisidir. Onun haqqında yazılmış bir kitabı isə mən xüsusi qeyd etmək istəyirəm: söhbət Əsəd bəyin Stalin haqqında yazdığı kitabdan gedir.

1987-ci ilin sonlarından etibarən mən Xarici Ölkələrdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyətinin («Vətən» Cəmiyyətinin) sədri və Ali Sovetin deputatı idim, diplomatik pasportum var idi. Buna görə də xarici səfərlərim zamanı kitablarımı bir-bir yoxlamırdılar və 1988-ci ildə Frankfurtda olarkən, həmişəki kimi, axtarıb, bukinist dükanını tapıb, bir neçə kitab aldım – o kitablardan biri də Əsəd bəyin kitabı idi **(Эссад-бей. Сталинъ, Рига, «Филинъ», 1932).** Riqada rus dilində nəşr olunmuş bu kitab necə gedib Frankfurtun bukinist mağazasına çıxmışdı – bunu, təbii ki, bilmirəm, ancaq indiyə qədər xatirimdədir ki, o köhnə kitab mənim üçün necə gözlənilməz və gözəl bir hadisəyə çevrildi.

Vaxtilə hələ bizim eşidib-tanımadığımız və sovet senzurasının qəbul etmədiyi Əsəd bəy (Lev Nissimbaum – Məhəmməd Əsəd bəy – Qurban Səid) və onun əsas romanı hesab edilən «Əli və Nino» haqqında yazmışdım. Sovet İttifaqı dağıldıqdan sonra Əsəd bəy yaradıcılığı ilə Azərbaycana qayıtdı, tərcümə edildi, nəşr olundu, yaradıcılığı və şəxsiyyəti ədəbiyyatşünaslığımızın və ictimai fikrimizin obyektinə çevrildi və 1989-cu ildə Nyu-Yorkda Bakı neft milyonçusu Şəmsi Əsədullayevin nəvəsi Züleyxa Əsədullayeva-Veber ilə ilk görüşümüz və söhbətimiz zamanı mən ondan Əsəd bəyi – Lev Nissimbaumu tanıyıb-tanımadığını soruşanda, Züleyxa çox pozitiv bir həyəcanla: «– O-o-o!.. Lyova çox savadlı, təmiz, mehriban bir oğlan idi! – dedi. – Hamımız onu çox sevirdik!» Məlum oldu ki, 1910-cu illərdə Züleyxanın böyük qardaşı – onun da adı Əsəd idi – Lev Nissimbaumla Bakıda, rusdilli məktəbin eyni sinifində oxuyublar, dost olublar və Lev (Züleyxa: «– Ona Lyova deyirdik...») tez-tez onlara gəlirmiş.

Mən XX əsr ədəbiyyat tariximizin çox maraqlı «Əsəd bəy hadisəsi» barədə söhbəti uzatmaq istəmirəm – bu, ayrıca bir mövzudur və bilavasitə mövzumuza qayıdıram. 1932-ci ildə Əsəd bəyin 26 yaşı var idi, əgər hesab etsək ki, bir il də nəşrə hazırlığa həsr olunub, onda belə çıxır ki, o, «Stalin» kitabını 25 yaşında yazıb, o vaxt ki, Stalin hələ dünya miqyaslı siyasi kapitalını tam əldə etməmişdi, hələ Trotskini, Zinovyevi, Kamenyevi, Buxarini, Rıkovu, Rudzukatı, Eyxeni, Rakovskini, Yenikuidzeni, Krestinskini, Tuxaçevskini, yüzlərlə inqilabçı bolşevikləri («Lenin qvardiyasını»!), bir çox elm və sənət adamlarını «xalq düşməni»

kimi qətlə yetirməmişdi, 37-38-ci illər, İkinci dünya müharibəsi, generalissimusluq da hələ irəlidə idi, onun rəhbərliyi ilə Sovet İttifaqı hələ ABŞ da daxil olmaqla Qərbin nüvə silahlı güclü tərəf-müqabilinə çevrilməmişdi – bu da irəlidə idi.

25 yaşlı Əsəd bəy bütün bunları (gələcəyi!) fövqəladə yazıçı fəhmi ilə duymuş, hiss etmiş və Stalinin portretini yaratmış, onun nəyə qadir olduğunu və qadir olduqlarını necə həyata keçirəcəyini həqiqi bir ekstrasens fitrəti ilə söyləyə bilmişdi. O, siyasi intuisiya ilə bərabər, obrazlı təfəkkür tərzinə malik idi və yalnız elə bu fikrə diqqət yetirin: «Stalin qərar verib ki, bütün bəşəriyyəti xoşbəxt etsin və buna nail olmaq üçün, öz ölkəsini (Sovet İttifaqını – E.) həbsxanaya çevirib. Gələcək xoşbəxtliyin ilk mərhələsi, təminatı kimi bu həbsxana quruluşu – stalinizm deməkdir» **(həmin kitab, səh. 282).**

Bu gün Rusiyada keçirilən «Tarixən Rusiyanın ən görkəmli dövlət başçısı kim olub?» sorğusunda İosif Stalin rus tarixinin mühüm mərhələlərini yaratmış İvan Qroznı, I Pyotr, II Yekaterina kimi əfsanəvi hökmdarları xeyli dərəcədə geridə qoyaraq, demək olar ki, bütün sorğularda birinci yer tutub və tutmaqda da davam edir. Vəfatından 70 il sonra da Rusiya Stalin nüfuzundan, mötəbərliyindən (hipnozundan?) qurtulmayıb və həmin sorğularda onun ikinci, ya üçüncü yer tutması sensasiya hesab olunur, manşetlərə çıxarılır. Hətta bu günlərdə mən internetdə oxudum ki, Rusiyadakı Rusanova adlı bir kənddə Stalinin 8 metrlik (!) heykəli ucaldılıb və bu, hələ ki, nadir hadisədir, ancaq əlamətdar hadisədir – 70 il sonra da rus kəndlisinin ona münasibətini ifadə edir. Bəlkə bütün bunlar müasir dövrün çətinliklərinin yaratdığı ötəri bir hal, tarixən ötəri bir təsadüfdür? Ola bilər. Ancaq biz burasını da bilirik ki, hər təsadüfdə bir zərurət də var və mən şübhə etmirəm ki, Rusiya (Sovet İttifaqı) tarixinin belə bir zəngin «Stalin səhifəsi» hələ çox tədqiq ediləcək, araşdırılacaq, dərin siyasi-sosioloji səbəbləri saf-çürük ediləcək.

İnternetdə dediyimiz mənada başqa bir epizoda rast gəldim: Gürcüstanın Baş məbədi «Samebe»də İosif Stalin müqəddəsləşdirilib və orada onun şəkli çəkilmiş ikona asılıb. Elə burada onu da deyim ki, Stalin dönəmindəki Böyük Terror zamanı – 1937-38-ci illərdəki repressiyalar cədvəlində sovet respublikaları arasında birinci yeri məhz Gürcüstan tutur – əhali sayına nisbətdə ən kütləvi repressiya Sovet Gürcüstanında baş tutub.

Stalinin bioqrafiyasında əlamətdar bir məqam var: oğlu Vasilinin də «Stalin» famili daşımasını istəməyən Stalin hirslə deyir: « – Sən Stalin deyilsən! Mən də Stalin deyiləm! Stalin – Sovet hakimiyyətidir!» **(Вах: Симон Себаг Монтефиоре. Двор красного монарха, Москва, Олма-Пресс, 2005, стр. 15.)**

Stalin dövrünün koloritini duymaq, hiss etmək baxımından çox ciddi və dərin etirafdır.

Məşhur sovet saray rəssamı Dmitri Nalbandyan Sovet İttifaqında mədəniyyət xadimləri ilə bağlı hansı fəxri adlar vardısa, hamısına sahib idi, Sosialist Əməyi Qəhrəmanı idi, onun çəkdiyi «Stalin» portreti birinci dərəcəli Stalin mükafatı almışdı və rəssamlar onu öz aralarında əbəs yerə «Siyasi Büronun fırçası» adlandırmırdı. Bu rəssamı mən ona görə xatırlayıram ki, onun Stalin mövzusunda çəkdiyi rəsmlərdə Stalin canlı insan deyil, baxışları, təbəssümü, ədaları

ilə məhz «Stalin – Sovet İttifaqıdır!» anlayışının ifadəsidir və bu rəsmlər, əslində kətan üzərində rəngli boya ilə çəkilmiş təşviqat plakatlarıdır.

İbtidai təhsili kilsə məktəbində almış, sonra seminariyaya daxil olmuş və oradan yarımçıq qovulmuş İosif Stalin, əlbəttə, sarsılmaz əqidəli, əməlinə inam bəsləyən inqilabçı idi, Marksı da, Lenini də, ümumiyyətlə marksist ədəbiyyatı dərindən mənimsəmişdi və Bernard Şou, yaxud Romen Rollan, yaxud da Leon Feyxtvanger, Andre Jid, Helbert Uells kimi böyük Qərb intellektuallarını qəbul edərkən, onların danışıqlarının stenoqramlarını oxuduqca görürsən ki, söhbət eyni yüksək intellektual səviyyədən, eyni intellektual baqajlı tərəf-müqabillərdən gedir.

Lavrenti Beriya gündəliyində yazır ki, müharibə vaxtı almanlar Moskvanın ətrafına gəlib çıxdıqları vaxt Georgi Malenkovla birlikdə vəziyyət barədə məruzə etmək üçün Stalinin yanına gələndə, onun mizinin üstündə Lev Tolstoyun «Hərb və sülh»ünü görürlər. Stalin kitabı göstərərək soruşur: « – Oxumusuz?» Onlar deyir ki, haçansa oxuyublar. Stalin: « – Bilirəm, sizin vaxtınız yoxdur, – deyir. – Ancaq məsləhət görürəm ki, burda bəzi yerləri oxuyasız. Nataşa Rostovanın bal epizodlarını ötürmək olar, xalq müharibəsindəki dəyənəkləri isə yada salsanız, pis olmaz.» **(Лаврентий Берия. «Без Сталина России не быть!» Тайный архив Берии, Москва, «Яуза- Пресс», 2012, стр. 146.)**

Ancaq bütün bunlarla bərabər, Stalinin xislətində əsil Şərq despotizmi var idi və Lev Trotski yazır ki, Nikolay Buxarin kənarda Stalini «Çingiz xan» adlandırırdı. **(Лев Троцкий. Сталин, том 1, Москва, Политическая литература, 1990, стр. 18.)**

Alban kommunistlərinin başçısı Ənvər Xoca yazır ki, Stalinin sağlığında görüşlərimiz zamanı xüsusən Anastas Mikoyan və Nikita Xruşşov onun haqqında olmazın təriflərini söyləyirdilər, Stalin öləndən sonra isə onu ancaq pisləməklə məşğul idilər. Ənvər Xoca bir dəfə Sovet İttifaqına gəldikdə, Nikita Xruşşov onu bağına aparır və özü becərdiyi kiçik kələm bostanını ona göstərir, orda da Stalinin səhvlərindən, bəd əməllərindən danışmağa başlayır. Ənvər Xoca soruşur: « – Bəs, niyə bu barədə onun özünə demirdiz?» Xruşşov əlindəki çubuğun ucunu yetişmiş bir kələmə dirəyərək: « – Təbii sualdır, yoldaş Ənvər, – deyir. – Ancaq bu kələmi görürsən? Bağban bu kələmi necə asanca üzüb bir kənara atırsa, Stalin də adamın başını o cür asanlıqla sivirib atırdı». **(Энвер Ходжа. Хрущев убил Сталина дважды, Москва, «Алгоритм», 2010, стр. 117.)**

Moskaya tez-tez gəlib-gedən, Siyasi Büro (sonralar Rəyasət Heyəti) üzvləri ilə görüşən, onları şəxsən yaxşı tanıyan Ənvər Xoca deyir ki, «Sov.İKP MK Rəyasət Heyəti (Siyasi Büro) üzvləri arasında ən mənfi, ən şübhəli element və ən həris intriqan Anastas Mikoyan idi» və ikrah hissi ilə Mikoyanın portret cizgilərini çəkir. **(Daha müfəssəl bax: Николай Зенькович. Тайны уходящего века – лжесвидетельства, фальсификации, компромат, Москва, «Олма-Пресс», 1999, стр. 615-616.)**

Bu tipli yazıları oxuduqca, elə təəssürat yaranır ki, Anastas Mikoyanda da, xüsusən də Nikita Xruşşovda Stalinə qarşı dərin patoloji qorxu, xof və nifrət, ədavət, qərəz var idi və yığışa-yığışa Stalinin sağlığında sıxılıb daxilə pərçim

olunmuşdu. Sözdə, rəftarda isə əksunə, yalançı pərəstiş və sədaqətlərini ifadə edirdilər və Stalinin vəfatından sonra, elə bil, şampan şüşəsinin tıxacı açılanda fışqırıb fəvvarə vurduğu kimi, onların daxilindəki o patologiya da azadlığa çıxmışdı.

Stalinlə bağlı «çingizxanlıq» öz yerində, ancaq tarixən ABŞ-ın böyük prezidentlərindən biri sayılan Franklin Ruzvelt deyir ki, nəhəng qətiyyətə malik olan bu adam – İosif Stalin «Rusiyanın ürəyini və ruhunu təmsil edirdi.» **(Джеймс Макгрегор Бернс. Франклин Рузвельт: человек и политик, Москва, 2004, стр. 429.)** Ruzveltin oğlu Elliot Ruzvelt yazır ki, 1943-cü il Tehran konfransı zamanı atası, yəni Franklin Ruzvelt ona deyib: "Stalinlə işləmək başdan-başa bir məmnunluqdur." **(Bu barədə ətraflı bax: Виталий Чернявский. Операции советский разведки, Москва, Алгоритм, 2017, стр. 104.)**

Stalin tam əqidəli, mətin, 60-70 yaşlarında belə ortodoks Koba bolşevikizmindən çox da uzağa getməmiş, bütün hisslərinin ipini əlində tutan soyuqqanlı bolşevik idi, ancaq görünür nadir hallarda onda da sırf insani hisslər özünü biruzə verirmiş. Baxın, bu mənada Bernsın kitabında oxucu üçün maraqlı ola biləcək belə bir epizod var: 1945-ci ilin aprelində Stalin səhər yeməyi üçün əyləşərkən Ruzveltin ölüm xəbərini alır və sarsılmış halda xeyli müddət susaraq heç nə demir, sonra heç nə də yemədən ayağa qalxıb, gedir. ABŞ-ın SSRİ-dəki səfiri Harrimana başsağlığı verərkən isə xeyli müddət onun əlini əlində saxlayıb, susur. **(Yuxarıda göstərilən kitab, səh. 608.)**

XX əsrin başqa nəhəng dövlət xadimi, kommunizmin, konkret olaraq müharibəyə qədər və müharibədən sonra Sovet İttifaqının qatı düşməni, Qərb ilə SSRİ arasında "soyuq müharibənin" əsasını qoyan Uinston Çerçill də Stalini "sərt zamanlar üçün yaranmış böyük şəxsiyyət", "hansısa illüziyalardan tamam azad olan soyuqqanlı müdrik" adlandırır, eyni zamanda yazırdı: "Rusiya hərbi hücuma məruz qalanda Stalin Hitlerə qarşı bizim müttəfiqimiz idi, ancaq Hitler məhv edildikdən sonra Stalin bizim üçün dəhşətin, vahimənin əsas mənbəyinə çevrildi." **(Уинстон Черчиль. Английский бульдок, Москва, АСТ, 2015, стр. 293-303.)**

Franklin Ruzveltlə bağlı o kitabda belə bir epizod da var: Tehran konfransında Stalin, yəqin yalnız bu adamın verə biləcəyi belə bir təklif irəli sürür ki, müharibədən sonra 50 min almanı güllələmək lazımdır (!!) və dəhşətə gələn Çerçill bu qətliamın qəti əleyhinə çıxır, ancaq təəccüblüsü, şəxsən mənim üçün heyrətamizi budur ki, demokrat Franklin Ruzvelt əslində tərəddüd edir, güllələnəcək almanların sayını bir az azaltmaq istəyir. **(D.M.Bernsın həmin kitabı, səh. 423.)** Ancaq yada salsaq ki, Ruzveltdən sonrakı ABŞ Prezidenti Harri Trumenin əmri ilə onsuz da məğlub olmuş Yaponiyaya iki atom bombası atıldı, o zaman mənim təəccübümün yəqin ki, elə də bir əsası yoxdur.

Biz Sovet İttifaqına qayıdaq və elə burada da yazım ki, 1937-38-ci illərdə «NKVD» 1575 min (bir milyon beş yüz yetmiş beş min) insanı həbs edib, 682 min (altı yüz səksən iki min) insanı güllələyib, qalanlarını isə Sibirə, həbsxanalara, gedər-qayıtmaza yola salıb. **(Вах: Борис Соколов. Сталин, Москва, АСТ, 2023, стр. 177.)** Bəzi başqa məxəzlərdə isə bu rəqəmlər daha artıq göstərilir.

Bu gün rus mətbuatında Stalin haqqında bilən də, bilməyən də – kim tənbəl deyilsə, yazır – kimin üçünsə (xüsusən mövzudan sui-istifadə edən konyukturaçı (yalançı), saxta demokratlar üçün) o, şeytandır və Qorbaçov «perestroykasının» sona çatan hərc-mərclik çağlarında – 1991-ci ildə Andrey Mixalkov-Konçalovskinin çəkdiyi «Yaxın ətraf» filminin qəhrəmanlarından biri – qoca rus professoru elə bu cür də deyir: « – Kremldə şeytan oturub. Ölkəni şeytan idarə edir.»

Başqaları üçünsə (xüsusən sovet «patriotları» üçün) Stalin aydan arı, sudan duru, böyük və adil (!) dövlət xadimidir. Leonid Mleçin tipli jurnalistlər də mövzunun aktuallığından istifadə edərək, Stalin həqiqətlərini yox, dedi-qoduya söykənən öz həqiqətlərini yazırlar **(məs.: Леонид Млечин. Смерть Сталина, Москва, «Аргументы недели», 2018)** və bununla da həqiqət fantaziya və miflər içində itib-batır.

Yaxud, tanınmış rus dramaturqu və nasiri Edvard Radzinski petitlə yığılmış iri formatlı min səhifəlik bədii-sənədli kitabında təsvir etdiyi Stalin mənasız və mətləbsiz paronoik təsiri bağışlayır və elə bil ki, o, duzsuz bir pamflet qəhrəmanıdır. Baxın, kitabda bu cür düşük «bədii» detallardan istifadə olunur: guya Stalin Puşkindən sitat gətirəndə – məlum deyil, ya zarafatla, ya da bolşevikcəsinə «yoldaş Puşkin» deyir, yaxud Karamzindən söhbət düşəndə, onu «yoldaş Karamzin» kimi xatırlayır, bütün günü gizlincə silahdaşlarının, ilk növbədə də Beriyanın telefon danışıqlarını dinləyir, ya da hər gün xəlvətcə Beriyanın cangüdəni Sərkisovu çağırıb, onun Lavrenti Pavloviç haqqında danoslarına qulaq asır və s. və i.a. Lavrenti Beriya isə Radzinskinin təsvirində qaniçən manyak və sarsaqdır. **(Эдвард Радзинский. Апокалипсис. Москва, «АСТ», 2022.)**

Moskvada «Yoldaş Stalin» adlı başqa bir çoxseriyalı televiziya filmi çəkilib və məşhur rus artisti Sergey Yurski bu filmdə İosif Stalinin tam bir idiot obrazını yaradıb. Aydın məsələdir ki, Yurski rejissorun (İrina Qedroviç) istəyini yerinə yetirib və rejissor fərqinə varsa da, varmasa da, görünən budur ki, onun istəyi, məqsədi Sovet İttifaqına az qala 30 il bir idiotun rəhbərlik etdiyini göstərməkdən ibarətdir.

Hətta Fazil İsgəndər kimi istedadlı bir rus yazıçısının da «Çeqemalı Sandro» romanındakı Stalin, əslində, klounada qəhrəmanıdır və elə bil, söhbət Karandaşın, yaxud Yuri Nikulinin yaratdığı personajlardan gedir.

Keçmiş sovet kəşfiyyatçısı, sonradan xaricə qaçıb II Dünya müharibəsində Sovet İttifaqının məğlub olduğunu iddia edən, sovet həqiqətləri (bəzən də qeyri-həqiqətləri!) haqqında yazdığı kitablarla məşhurlaşmış Viktor Suvorov da İosif Stalini şeytani bir varlıq kimi təsəvvür və təsvir edir.

Ümumiyyətlə, stalinşünaslıqda onun şəxsiyyətinə mistik münasibətlə də rastlaşırıq və belə bir versiya da var ki, guya Stalin hələ yeniyetmə olarkən, məşhur mistik və hipnozçu Georgi Gürcüyev (Qurdjiyev) ona kütləvi hipnoz təlimi keçib. Sonralar yenə də guya ki, Stalin iradəsi, istedadı və bacarığı sayəsində öz daxilində bu təlimi təkmilləşdirib və tam şəkildə mistik kütləvi hipnoz qüdrətinə sahib olub. Doğrusu, bu gün Stalinin qorunub-saxlanmış çıxışlarına baxanda, qulaq asanda bəzən təəccüb edirsən ki, bu cür adi, sadə

çıxışlar zaldakı insanları nəyə görə bu dərəcədə heyran edir, onları bu dərəcədə riqqətə gətirir? Bu da maraqlıdır ki, indi «məxfi», «tam məxfi» arxiv sənədləri açıq mətbuatda dərc edildikcə, o da məlum olur ki, hələ Feliks Dzerjinskinin dövründən etibarən, «NKVD»-də hipnozla bağlı tədqiqatlar gedib, təcrübələr keçirilib və mütəxəssisləri cəlb etməklə xüsusi şöbələr, hətta idarələr yaradılıb, bu sahədə daxili agentlər, xaricə göndərilən kəşfiyyatçılar yetişdirilib.

Stalin mövzusunda, elə bil, bir ovsun var və səni özünə çəkir, buraxmaq istəmir. Bu mövzu bir tərəfdən nə qədər mürəkkəb və ziddiyyətlidirsə, nə qədər heyrətamiz dərəcədə qəddarlıqdan və elə o dərəcədə də müdriklikdən xəbər verirsə, onun şəxsiyyəti nə dərəcədə iradə, qətiyyət və soyuqqanlılıq mücəssəməsidirsə, o biri tərəfdən də bu mövzu... maraqlı, cəlbedici, səni biganə qoymayan bir mövzudur. Ancaq mən onun haqqında söz deyən bir müəllifi də qeyd etməklə kifayətlənmək istəyirəm: söhbət XX əsr siyasi liderləri, hökmdarları arasında xüsusi yeri və ağır çəkisi olan Mao Tszedundan gedir.

Siyasi iddiası (və imkanı!) çox böyük olan Mao məşhur «Qırmızı kitab»ında Stalini dünya kommunizm hərəkatının rəhbəri kimi qəbul edir, onu Stalindən sonrakı sovet dövlət xadimlərinin hücumundan sidq-ürəkdən müdafiə edir və Maonun nə qədər kəskin bir mövqedə durduğunu, güman edirəm ki, elə bu kiçik abzasda hiss etmək mümkündür: «Xruşşov Stalini lənətləyərək, onu «qatil», «cinayətkar», «bandit», «oyunçu», «İvan Qroznı kimi despot» (bu bənzətmədə həqiqət var – E.), «Rusiya tarixinin ən böyük diktatoru» (bu da həqiqətdir – E.), «axmaq», «idiot» və s., və i.a., adlandırır. Bu çirkli, səviyyəsiz və qərəzli söyüşləri təkrar etməyə məcbur olanda, elə bil, qorxuruq ki, qarşımızdakı kağız zibillə dolsun.» **(Мао Цзедун. Маленкая красная книжка, Москва, Родина, 2021, стр. 385.)**

Deyəsən, bizim Stalinlə bağlı söhbətimiz çox uzandı.

Ancaq biz «Mir Cəfər Bağırov kim idi?» – sualını veririk və bunu araşdırmaq istəyiriksə, Sovet İttifaqında Bağırov dönəminin mütləq hakimi olan Sistem barədə də söz deməliyik, çünki Bağırov tam şəkildə bu Sistemə xidmət edən və böyük mənada bu Sistemin qurbanı olan görkəmli sovet dövlət xadimi idi.

Və həmin dövrdə də Sistem – təkrar edirəm, tam şəkildə İosif Stalin demək idi.

Bu gün bizim mətbuatda da, saytlarda, sosial şəbəkədə, hətta ədəbi prosesdə belə, Mir Cəfər Bağırovun şəxsiyyətini də, fəaliyyətini də tərifləmək, repressiyalarla bağlı ona bəraət qazandırmaq tendensiyası açıq-aşkar artmaqdadır, digər tərəfdən isə o, yalnız qaniçən bir cəllad kimi təqdim edilir – yəni hər iki tərəfdə, hər iki münasibətdə birtərəflik var, birtərəflik olan yerdə isə, aydın məsələdir, həqiqət yoxdur.

Mir Cəfər Bağırov uzun müddət Sovet Azərbaycanına rəhbərlik edib və əlbəttə, güclü bir şəxsiyyət olduğu üçün yaxşısı və pisi ilə bərabər xalqın məişətinə, düşüncəsinə daxil olub. Bu zaman folklor yaranır, fantastik fikirlər söylənir, hətta xalq arasında bu günə qədər şayiə gəzir ki, onu güllələməyiblər, Sibirə göndəriblər, başqa familiya ilə orada yaşayıb və 1980-ci illərdə vəfat edib. Onu görənlərin xatirələri də mətbuatda dərc edilib və guya həbsxanada aşbaz

(!) olduğunu da yazıblar, qoca vaxtlarının fotosu da dərc olunub. Onun şəxsi sürücüsünün isə xatirələrinə görə Mir Cəfər Bağırov guya İrkutska sürgün edilib və 1970-ci illərdə elə orada da vəfat edib.

Elə bil ki, xalq Mir Cəfər Bağırov kimi bir şəxsiyyətin adi insan kimi, güllələnməsini qəbul edə bilmir və belə bir psixologiya nəticəsində ciddi qələm sahibləri də şayiəni bəzən həqiqət kimi təqdim edirlər. Misal üçün, Əkrəm Əylisli, düzdür, artıq uzaq bir keçmişdə qalmış 1993-cü ildə yazırdı ki, məhkəmə Mir Cəfər Bağırova ölüm hökmü kəsdi, ancaq «bu hökm nədənsə, yerinə yetirilmədi.» Əkrəm yazır ki, guya Bağırov iyirmi ildən sonra «Kazan şəhərindəki həbsxanalardan birində bu dünyadan öz əcəli ilə köç edib getdi.» **(Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, Gənclik, 1993.)**

İş də elə həmin «nədənsə»dədir.

Mir Cəfər Bağırovun həbs edilib, güllələnməsinin əsas təşəbbüskarı Nikita Xruşşov nəyə görə birdən-birə rəhmə gəlib, Lavrenti Beriya ilə «Siam əkizləri» hesab olunan Bağırovu ölümdən xilas etməli idi, yaxud Beriyaya qarşı qəsdin fəal iştirakçısı, Beriyanın «ifşa»sına həsr olunmuş plenumda Bağırovu sıxışdırıb, çaşdıran Georgi Malenkovun ona niyə yazığı gəlməliydi? Ümumiyyətlə, yalnız sovet zamanında yox, hələ İvan Qroznı dövründən etibarən sarayda (indiki halda Kremldə) mərhəmət tamam nisbi və həmişə də təmənnalı bir məfhum olub və Xruşşovun da, Malenkovun, Mikoyanın, Suslovun da, bu qəbildən başqalarının da artıq sındırılmış, gücü-qüdrəti əlindən alınmış, ruhu tarmar edilmiş, ən yaxın silahdaşları belə üzünə duran Mir Cəfər Bağırovdan nə təmənnası ola bilərdi?

Elə bu başdan onu da deyim ki, SSRİ Ali Sovetinin Hərbi Kollegiyası 1956-cı il mayın 4-də Mir Cəfər Bağırova (onunla birlikdə Azərbaycan Təhlükəsizlik Komitəsinin rəhbər işçiləri Timofey Borşevə, Ruben Markaryana və Xoren Qriqoryana) ölüm hökmü çıxarıb və onun əfv olunması ilə bağlı Ali Məhkəməyə müraciəti də rədd edilib. Ancaq bu məsələdə əgər texniki səhv deyilsə, bir uyğunsuzluq var: Ali Məhkəmə rədd cavabını bəzi sənədlərə görə 1956-cı il mayın 12-də verib. Halbuki rəsmi sənədlərdə 1956-cı il mayın 7-də Mir Cəfər Bağırovla bağlı hökmün yerinə yetirildiyi, yəni onun güllələndiyi göstərilir.

Rədd cavabı Mir Cəfər Bağırov güllələnəndən sonra verilib?

Belə çıxır ki, o, əfv barədə Ali Məhkəməyə müraciət etməyib, yəni söhbət saxtalaşdırmadan gedir.

Bu məsələyə nöqtə qoymaq üçün, deyim ki, vaxtıyla mən Mir Cəfər Bağırovun ölümü ilə bağlı onun yaxın qohumu, keçmiş ekologiya naziri, professor Hüseyn Bağırovla söhbət etmişəm: güllələnmiş Bağırovun nəşinin qalıqları tapılıb, xaricə (səhv etmirəmsə, İngiltərəyə) ciddi ekzpertizaya göndərilib və təsdiq edildikdən sonra, oğlu Cahangirin yanında dəfn edilib.

Mir Cəfər Bağırovla bağlı bu cür şayiələrə, obıvatel söhbətlərinə, sensasiyaçılığa, ağlasığmaz mülahizələrə rus tarixçilərinin (sovetoloqlarının) yazılarında da rast gəlirik və elə bil, fürsət düşüb, kimin ağlına nə gəlir, yazır, hətta onun, yəni Bağırovun milliyyətcə fars (!) olduğunu da uydururlar. **(Bax: «Независимая газета», 26 сентября 2023.)**

İnqilabçı-bolşevik, 1937-ci ildə Rusiyanın Baş prokuroru olmuş, «xalq düşmənlərini» amansızcasına «ifşa» etmiş, sonra da özü «xalq düşməni» kimi güllələnmiş Aleksandr Antonov-Ovseyenkonun oğlu Anton Antonov-Ovseyenko Sovet vaxtı dissident idi və elə o vaxt da, Sovet İttifaqı dağılandan sonra da Stalin və Stalinin silahdaşları (əsasən də çekist orqanlarına rəhbərlik etmiş Yaqoda, Yejov, Beriya) haqqında yazılmış kitabların müəllifidir. Onun Mir Cəfər Bağırov barədə yazdıqlarını oxuyanda, elə bil, Hollivudun qorxu-vahimə filmlərinin senarisini oxuyursan: guya «Mir Cəfər» Bağırovun əsil adı deyil – onun, yəni Bağırovun bolşevik qardaşının adıdır və Bağırov qardaşını öldürüb (!!), onun adı və sənədlərini mənimsəyərək, bizim tanıdığımız Mir Cəfər Bağırov olub. Aydın məsələdir ki, bu qorxulu nağılın üzərində dayanmağa, bunu təkzib etməyə ehtiyac yoxdur, yalnız onu deyim ki, Mir Cəfər Bağırovun böyük qardaşları Mir İbrahim və Mir Musa Quba mahalında tanınmış şəxslər idi və Molla Mir Musa, bildiyim dərəcədə, nüfuzlu din xadimi olub.

Doğrusu, mən buna da təəccüb etdim ki, hətta ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi kimi ciddi bir təşkilatının da 1953-cü ildə Mir Cəfər Bağırov haqqında hazırladığı iki səhifəlik arayışda yazılıb ki, guya Lavrenti Beriya gizli fəaliyyəti zamanı (belə çıxır ki, 19-20 yaşlarında) Bağırovun bacısı ilə ailə qurub.

Ancaq, baxın, KQB ilə sıx əlaqəsi olan və əsərlərində bilavasitə KQB sənədlərinə əsaslanan məşhur rus sovet yazıçısı Yulian Semyonov isə Stalin dövrü və Stalin ətrafı partiya-dövlət xadimləri arasında nüfuzuna görə Mir Cəfər Bağırovu «əfsanəvi Bağırov» adlandırır.

Mir Cəfər Bağırov haqqındakı ədəbiyyatda sənədlərə, səriştəli xatirələrə əsaslanan ciddi tədqiqatlar, yazılar da var və onun şəxsiyyəti, fəaliyyəti Azərbaycan və rus tədqiqatçıları ilə bərabər, xarici ölkə sovetoloqlarının da diqqətini cəlb edib. Professor Robert Taker monoqrafiyasında yazır ki, Mir Cəfər Bağırov Azərbaycanda «Stalinin cəmiyyəti təmizləmə siyasətini müstəsna qəddarlıqla həyata keçirirdi.» **(Роберт Такер. Сталин. Москва, «Весь Мир», 2006, стр. 733.)**

«Müstəsna qəddarlıq» ifadəsində həqiqət varmı?

Stalinin məşhur sözü yada düşür: «İnsan var – problem var, insan yoxdur – problem də yoxdur!»

Stalin bu sözləri bəlkə də heç deməyib – mən bunu dəqiq bilmirəm, ancaq bu sözlər bu gün 1937-38-ci illər üçün Sovet İttifaqında, o cümlədən də Azərbaycanda həyata tətbiq edilən ideoloji-inzibati epiqraf kimi səslənir, hətta belə demək mümkünsə (elə bilirəm ki, mümkündür) Sistemin mənəvi borcunu (!) ifadə edir.

Mir Cəfər Bağırov Stalinin və ümumiyyətlə, Kremlin göstərişlərini (əmrlərini) sözsüz və cani-dildən yerinə yetirən, hakimi-mütləq səlahiyyətləri ilə Azərbaycan Kommunist Partiyasının Birinci katibi, əslində isə vali (qubernator) təyin edilmiş, həmin səlahiyyətlərdən tam şəkildə istifadə və görünür, bəzən də sui-istifadə edən, Sovet imperiyası miqyasında isə taleyi Kremldən asılı olan (həyatının faciəvi sonu bunu bir daha təsdiq etdi) Sistemin tanınmış və böyük kaliberli partiya-dövlət xadimlərindən biri idi.

1933-53-cü illər arasında bütün Azərbaycan Mir Cəfər Bağırovun zəhmi altında idi, ancaq inzibati-ideoloji canfəşanlığı və sözsüz bacarığı, ciddi və güclü xarakteri Kremldə də onun yerini möhkəmlətmiş, Kremlətrafı (Stalinətrafı demək daha doğru olar) mühitdə, başqa qubernatorlar (respublikaların birinci katibləri) arasında nüfuzunu artırmışdı və yüksək vəzifəli Kreml məmurları belə, nəinki onunla hesablaşır, ondan ehtiyat edirdilər. Xarici sovetoloqlar Mir Cəfər Bağırovu «Azərbaycanın Stalini» adlandırırdılar və bu yerdə şişirtmə yox idi.

Akademik Musa Əliyev 1940-cı illərdə Respublikada elm və təhsil sahəsində yüksək vəzifələrdə (Azərbaycan KP MK katibi, Nazirlər Soveti sədrinin müavini, Elmlər Akademiyasının prezidenti) işləmişdi və mən bu görkəmli alimin gündəliklərində Mir Cəfər Bağırovla bağlı maraqlı müşahidələrə, epizodlara rast gəldim. **(Надежда Исмайлова. Своим почерком – дневники Мусы Алиева, Баку, «Чашыоглы», 2022.)**

Baxın, 1941-ci ilin əvvəlində Musa Əliyevi SSRİ Neft Sənayesi Nazirliyində təhsil müəssisələri şöbəsinin rəisi vəzifəsinə, eyni zamanda Moskva Neft İnstitutunda dərs deməyə dəvət edirlər və nazir İvan Sedin Mir Cəfər Bağırovla danışmadan, bu məsələni respublika partiya təşkilatının o vaxtkı ikinci katibi Pyotr Çeplakovla razılaşdırır. Musa Əliyev Moskvaya köçüb, yeni vəzifədə işə başlayır və 1942-ci ildə SSRİ Ali Məktəblər Dövlət Komitəsinin sədri (yəni nazir) Sergey Kondratyevin tapşırığı ilə ali məktəblərdə yoxlama aparmaq üçün Zaqafqaziyaya ezam olunur. Musa Əliyevin göstərişlərinin sözsüz yerinə yetirilməsi barədə ona şəxsən Stalinin imzası ilə mandat verilir və o, Tiflisdə yoxlamasını bitirib, Bakıya gələndə Stalinin imzaladığı mandatı MK-nın katibi Sultan Qafarzadəyə təqdim edir. Qafarzadə bu imzanı görən kimi, mandatı ondan alır və Mir Cəfər Bağırova göstərəcəyini deyir.

Uzun sözün qısası, Musa Əliyev yoxlamalarını bitirib, Moskvaya qayıtdıqdan bir müddət sonra SSRİ Nazirlər Soveti sədrinin (yəni Stalinin) müavini Rozaliya Zemlyaniçka onu yanına çağırır və məlum olur ki, Mir Cəfər Bağırov iki dəfə Zemlyaniçkaya zəng edərək, Musa Əliyevin onunla razılaşdırmadan Moskvaya aparıldığını bildirərək, onu geri, yəni yenidən Bakıya qaytarmağı tələb edir. Ancaq hər iki nazir – Sedin və Kondratyev də öz növbələrində Zemlyaniçkadan xahiş edirlər ki, Musa Əliyev geri qaytarılmasın və Moskvada öz işində qalsın.

Rozaliya Zemlyaniçka (Zalkinq) həmin məşhur və qəddar bolşevik qadın idi ki, Leninin yaxın silahdaşı olmuşdu, 1920-ci ildə Krımda yerli sakinləri və əsir düşmüş əsgərləri kütləvi surətdə güllələtdirmişdi. Bu qorxulu xanım bolşevikin «Yoldaş İblis» ayaması var idi, ancaq o da, Mir Cəfər Bağırova «yox» deməkdən, onunla mübahisə etməkdən çəkinərək, Musa Əliyevin geri qaytarılmasını lazım bilir.

Bir az irəli gedərək yazım ki, Mir Cəfər Bağırov 1953-cü ildə Moskvada Lavrenti Beriya «ifşa» olunan plenumda çıxış edərkən, MK katibi Mixail Suslov (sonralar Leonid Brejnev dövrünün «boz kardinalı») onun sözünü kəsib: « – MK-nın işçiləri Bakıya gəlməkdən qorxurdular» – demişdi və bu, həqiqət idi, halbuki başqa respublika rəhbərləri Sov.İKP MK-dan gələn ən kiçik rütbəli partiya məmuru ilə də hesablaşırdı.

Zemlyaniçkanın yanında Musa Əliyevin məsələsi müzakirə olunarkən, nazir Kaftanov deyir ki, Bağırov Stalinin imza atdığı bir mandatın sahibinin Moskvada qalmağını, Moskvada işləyib yüksəlməyini qəbul edə bilməz və Musa Əliyev Bakıya qayıtmalı olur – onu, SSRİ-də neftlə bağlı bütün ali məktəblərə rəhbərlik edən Musa Əliyevi... Bakı Neft İnstitutunda dosent vəzifəsinə təyin edirlər. Musa Əliyev yazır ki, Moskvadan sonra onu Bakıda ilk dəfə görəndə, Mir Cəfər Bağırov: « – Hə, sənsən? – deyir. – Elə bilirdin ki, məndən qaçacaqsan? Görürsən, yenə mənim tabeliyimdəsən.»

Mən ona görə bu epizodun üzərində dayanıram ki, Zemlyaniçka da, SSRİ-nin iki naziri də öz işçilərini müdafiə edə, Mir Cəfər Bağırova «yox» deyə bilmirlər, ondan ehtiyat edirlər, çəkinirlər və bu ehtiyatın, çəkinmənin əsası var idi. Bağırov o təpərin sahibi idi ki, misal üçün, 1938-ci ildə SSRİ Ali Sovetinin sessiyasında çıxış edərək, o zaman İttifaq miqyasında çox tanınmış və nüfuzlu Ədliyyə naziri Nikolay Krılenkonu olduqca kəskin tənqid etmiş, hətta onu gülüş hədəfinə çevirmişdi və bu tənqiddən sonra Krılenko həbs olunmuş və “xalq düşməni” kimi güllələnmişdi. Sovet respublikalarının rəhbərləri arasında kimsə İttifaq miqyaslı bir naziri, həm də Stalinin iştirak etdiyi bir məclisin yüksək xitabət kürsüsündən belə kəskin tənqidə məruz qoya bilərdimi? Çətin. Ola bilsin ki, Mir Cəfər Bağırov bilavasitə Stalinin tapşırığını yerinə yetirmişdi, ancaq beləydisə, bunun özü də Bağırova yaxınlığın, ona etibarın, güvəncin ifadəsi idi.

Ancaq o biri tərəfdən də Musa Əliyevlə bağlı bu epizod Mir Cəfər Bağırovun təbiətindəki siyasi qısqanclıqdan da az demir.

Bu sözləri yazarkən, xatırlayıram ki, həmin Sergey Kaftanov 1950-ci illərin sonlarında SSRİ Dövlət Radio və Televiziya Komitəsinin sədri olub və rəhmətlik Teymur Əliyev də (Teymur Elçin) o vaxt Azərbaycan Dövlət Radio və Televiziya Komitəsinin sədri vəzifəsində işləyirdi. Sonralar Teymur müəllim mənə danışırdı ki, bir dəfə Moskvada Kaftanovla görüşləri zamanı Mir Cəfər Bağırovdan söz düşüb və Kaftanov dərindən köks ötürərək: « – Hə, möhkəm (güclü) kişi idi!» – deyib («Да, сильный был мужик!»).

Bu da yəqin Mir Cəfər Bağırovun yaddaşı və kin-küdurəti haqqında az söz demir ki, həmin Neft sənayesi naziri İvan Sedin də bir neçə ildən sonra neft problemləri ilə bağlı Bakıya gəlir və onu restorana aparıb, elə içirdib kefləndirirlər ki, biyabırçı vəziyyətə düşür. Aydın məsələdir ki, Bağırovdan xəbərsiz belə bir iş etməzdilər və Bağırov da dərhal bu biabırçılıqla bağlı bilavasitə Stalinə müraciət edir, məlumat verir və İvan Sedin vəzifəsindən azad olunur.

Başqa bir misal.

Azərbaycan KP MK-nın 3-cü katibi vəzifəsində işləmiş, Sov.İKP-nin XIX Qurultayının (Stalinin keçirdiyi son qurultay idi) nümayəndəsi olmuş Həsən Məmməd oğlu Həsənov xatirələrində elə həmin Qurultayda baş vermiş belə bir hadisədən danışır: Qurultayda çıxış edən Mir Cəfər Bağırov Azərbaycan Yazıçılar İttifaqına biganə yanaşdığı üçün SSRİ Yazıçılar İttifaqını tənqid edir. Bundan sonra SSRİ Yazıçılar İttifaqının sədri, Sovet İttifaqında ən məşhur və səlahiyyətli ədəbiyyat generalı, başlıcası isə Stalinin yaxşı münasibət bəslədiyi, Kreml kabinetlərinin qapıları həmişə üzünə açıq olan Aleksandr Fadeyev söz

alaraq, Bağırova cavab verərək, onun dediklərini təkzib edir. Qurultayın Rəyasət Heyətində oturmuş Mir Cəfər Bağırov əsəbiləşərək, elə Qurultayın işi gedə-gedə yerindən qalxıb, Malenkova, sonra da Molotova yaxınlaşır və Fadeyevin çıxışına qiymət vermək üçün komissiya yaradılmasını tələb edir. Onun tələbiylə Mixail Suslovun sədrliyi ilə komissiya yaradılır, ancaq Bağırov Suslovun sədrliyinə də etiraz edir, nəhayət, komissiyaya Sov.İKP MK katibi Pyotr Pospelov sədrlik edir və qurultayın növbəti iclasında isə Aleksandr Fadeyevin bəyanatı oxunur: « – Mən yoldaş Mir Cəfər Bağırovdan üzr istəyirəm.»

Təkrar edirəm: söhbət Stalinin iştirak etdiyi Qurultaydan və Stalinin hörmət bəslədiyi, Sov.İKP MK-nın üzvü, SSRİ Ali Sovetinin deputatı, saymaqla bitməyən bir çox nüfuzlu ədəbi və siyasi-ictimai qurumların üzvü və rəhbəri olan bir şəxsdən gedir.

Həsən Həsənov yazır: «Bu bəyanat Qurultay nümayəndələrini silkələdi, həyəcana gətirdi.» **(Həsən Həsənov. Ləyaqətli şəxsiyyət. Bakı, Elm, 2004.)**

Kremlin və konkret olaraq, Stalinin Azərbaycana (bu mənada Azərbaycan – Mir Cəfər Bağırov demək idi) münasibətinə xəsarət yetirə biləcək ən kiçicik hadisənin qarşısını almaqda, bəzən isə mürəkkəb bir vəziyyətin yaratdığı probemi həll etməkdə Mir Cəfər Bağırov qətiyyətli və cəsarətli idi və bu zaman o, hansısa əxlaq prinsiplərini, hansısa subardinasiyanı bir kənara ataraq, effektli tədbir görməyi bacarırdı və görürdü.

Tarixçilər məşhur bir hadisə barədə yazırlar və mən yenə bu hadisənin bilavasitə şahidi olmuş Musa Əliyevin xatirələrinə istinad etmək istəyirəm. O, yazır ki, respublikadan Moskvaya anonim şikayət məktubları get-gedə artır və nəhayət, bu şikayətləri yoxlamaq üçün Stalinin tapşırığı ilə SSRİ Dövlət nəzarəti naziri, general-polkovnik Lev Mexlis öz müavini Yemelyanovun rəhbərliyi ilə Azərbaycana komissiya göndərir. Partokratların «Stalinin Baş inspektoru» adlandırdıqları Lev Mexlis Stalinin ən yaxın və sədaqətli adamlarından biri, birincilərdən biri idi. Bu gün rus sovetoloqları onu «Stalinin sədaqətli köpəyi» adlandırırlar və bu məcaz həqiqətdən doğur.

Bakıya təşrif buyuran Yemelyanov yüksək enerji və görünür, bir az da təkəbbürlə yoxlamalara başlayır və üzə ciddi çatışmazlıqlar çıxarır (məs., Nazirlər Soveti sədrinin müavini Əzizağa Əzizbəyovun əmanət kassasında 700 min pulu olduğu aşkar edilir, bu isə o zaman fövqəladə bir hadisə idi) və Mir Cəfər Bağırov bu yoxlama gedişatına şəxsən müdaxilə edir: belə işlərdə təcrübəsi və səriştəsi olan KQB işçisi bir xanım vasitəsilə Yemelyanovu yoldan çıxarırlar və onların gizlin çəkilmiş intim fotolarını Bağırov birbaşa Stalinə göndərir. Yoxlama əhvalatı bununla qurtarır ki, bədbəxt Yemelyanov özünü güllələyib, intihar edir.

Mən rəhmətlik Eldar İsmayılovun kitabında **(Власть и народ – 1945-1953. Баку, «Адилоглы», 2003)** Mir Cəfər Bağırov hikkəsinin gücünü-qüvvətini göstərən başqa maraqlı bir epizoda da rast gəldim: general-polkovnik Kolpakçı Azərbaycanda yerləşdirilmiş 4-cü sovet ordusunun komandiri təyin olunur və Bakıya gələn kimi, tələb edir ki, Bağırov onun görüşünə gəlsin, bir sıra başqa tələbləri dərhal yerinə yetirilsin. Mir Cəfər Bağırov, aydın məsələdir, onun

görüşünə getmir və ay yarım ərzində Kolpakçının Bakıdan uzaqlaşdırılmasına nail olur.

Vladimir Yakovleviç Kolpakçı İkinci dünya müharibəsində geniş şöhrət qazanmış, ordu generalı rütbəsinəcən qaldırılmış nüfuzlu bir sovet sərkərdəsi idi və onun bu cür tezliklə Bakıdan qovulması təbii ki, yalnız Stalin səviyyəsində həll oluna bilərdi.

Mir Cəfər Bağırovun məhkəməsində şahid kimi dindirilən DTK işçisi Pavel Jentov da belə bir hadisə danışır: 1943-cü il, müharibənin qızğın vaxtında mərkəzi «NKVD»-nin şöbə müdiri, Ali Sovetin deputatı Qusev Azərbaycan Daxili İşlər Komissarlığında yoxlamalar aparmaq üçün Bakıya göndərilir və özbaşınalıq hallarını, pozuntuları üzə çıxarır. «İnturist» otelində onun qaldığı nömrəyə gizlin aparat quraşdırılır, onu da bir «NKVD» qadını ilə görüşdürür və onların biabırçı intim fotolarını çəkib, Moskvaya göndərirlər – Qusev Yemelyanov kimi özünü güllələməsə də, dərhal işdən azad edilir.

Mir Cəfər Bağırov yüksək inzibati təşkilatçılıq qabliyyətinə malik, iradəli və artıq dediyim kimi, cəsarətli, prinsipial və qəddar, kinli, qətiyyətli və əsəbi, impulsiv, eyni zamanda korrupsiya baxımından təmiz bir şəxsiyyət idi. Görünür, Mir Cəfər Bağırov tərifə, şöhrətə də biganə olmayıb və bizim tanınmış teatr xadimimiz, rəhmətlik Məhəmməd Bürcəliyevin xatirələrində səciyyəvi, eyni zamanda dövrün və münasibətlərin xarakterini göstərən belə bir epizod var:

«1951-ci ilin soyuq yanvar ayı idi. Bir gün xəbər gəldi ki, Mir Cəfər Bağırov Ənvər Məmmədxanlının «Şərqin səhəri» pyesinin tamaşasına baxacaq. Mən də teatrın direktoruyam, həm də baş rollardan birini oynayıram. Fikrim budur ki, Mir Cəfər Bağırovdan teatrın təmiri, rekonstruksiya olunması üçün bir şey qopardım. İşıqçılara tapşırdım ki, Bağırov rolunu ifa edən Xalq artisti Əşrəf Yusifzadə səhnəyə çıxan kimi, projektorları tuşlasınlar lojada oturmuş katib Mir Cəfər Bağırovun üstünə... Tamaşa qurtardı, qulbeçələrdən biri rəngi qaçmış halda qrim otağına gəlib dedi ki, Bürcəliyev, «Kişi» səni çağırır. Onun sifətində mən öz faciəmi oxudum. Dedim, axı hələ qrimimi silməmişəm. Doğrusu, minlərlə adamı gedər-gəlməzə göndərən, elə bizim teatrdan Ələkbər Seyfini sürgün etdirən Bağırovla üz-üzə gəlməyə qorxurdum. Qulbeçə getdi, bir azdan sonra daha təşvişlə qayıdıb bildirdi ki, Bağırov deyir, eybi yoxdur, qrimdə gəlsin. Sibirin şaxtası dondururdu burnumu. Getdim kabinetimə, Bağırov qəti səslə soruşdu: « – Familiyan!?» Familiyam yadıma düşmədi ki, düşmədi. Rəhbərlərdən biri dedi ki, Bürcəliyevdir, yəqin yadından çıxıb. Mir Cəfər Bağırov məni xeyli süzdükdən sonra gülümsündü: « – Təbrik edirəm, – dedi. – Yaxşı tamaşadır. Bəs teatrın binası niyə soyuqdur?» « – Yoldaş Bağırov, 0,5 düyümlük boru tapılmır. Ona görə də qalmışıq belə.»... Hə, bu söhbət axşam saat 10-da oldu. Səhər saat 9-da Dəmiryol vağzalından xəbər gəldi ki, sizin teatrın adına 0,5 düyümlik boru gəlib, özü də bir vaqon, gəlin, aparın.» **(«Kaspi» qəzeti, 27 noyabr 2018.)**

1920-ci illərdən tutmuş Lavrenti Beriyanın məhvinə qədərki dövrdə Sovet İttifaqında Böyük Terrorun ən məşhur və qorxulu təşkilatçılarının və icraçılarının bir qismi 1921-ci ildən Mir Cəfər Bağırovun rəhbərliyi altında yetişmiş və inzibati karyeralarının ilk pillələrini qalxmış adamlar idi (marşal Lavrenti Beriya,

generallar Bladimir Dekanozov, Yuvelian Sumbatov-Topuridze, Ruben Markaryan, Xoren Qriqoryan, Timofey Borşşev, Stepan Yemelyanov – bu çilingəri, sonradan tramvay işçisini Mir Cəfər Bağırov general, SSRİ Ali Sovetinin deputatı, uzun illər Azərbaycanın Daxili işlər naziri etmişdi...) və onlar əgər belə demək olarsa (güman edirəm ki, olar), Bağırov məktəbini keçmişdilər. Başqa bir qism (generallar Vsevolod Merkulov, Boqdan və Amayak Kabulov qardaşları, Solomon Milşteyn, Sergey Qoqlidze, Stepan Mamulov (Mamulyan), Varlam Kakuçaya, Mixail Qvişiani, Lavrenti Tsanava, Pyotr Şariya...) onunla eyni vaxtda Zaqafqaziyada işləmişdilər və Lavrenti Beriya Sovet İttifaqında inzibati orqanların başına gətirildikdən sonra, bu çekistləri də Moskvaya çağırmış, onları İttifaq miqyaslı rəhbər vəzifələrə yerləşdirmişdi.

Mir Cəfər Bağırov Beriya ilə dostluqdan başqa, xarakteri, bacarığı, enerji və səriştəsi ilə sonrakı illərdə də bu adamların qarşısında öz hörmətini və məhrəmliyini (!) qoruyub saxlamışdı, keçmiş komandirin və keçmiş kolleqanın nüfuzu keçmişdə qalmamışdı. Bu cəhət də, yəni Mir Cəfər Bağırovun yalnız Azərbaycan çekistlərinin yox, bir çox sovet rəhbər çekistlərinin də qarşısında avtoritet olması, görünür, SSRİ partiya və dövlət rəhbərliyinin onunla hesablaşmasında, onunla ehtiyatla davranmasında, onu saymasında az rol oynamamışdı.

Başqa bir səciyyəvi cəhəti də bir daha qeyd etmək istəyirəm: adlarını çəkdiyim bu adamlar, dediyim kimi, həm minlərlə faciələrin təşkilatçıları, amansız icraçıları idisə, eyni zamanda özləri də şəxsən faciə qəhrəmanları idi – Sistem onların vasitəsilə ailələri qırdı, dağıtdı, viran qoydu, sonra da onların özlərini güllələdi.

## *3.*

İosif Stalinin 60 illiyini bütün Azərbaycan təntənə ilə bayram edirdi, qəzetlər sevimli rəhbərin şəkilləri və birdən-birə ilhama gəlmiş şairlərin ona həsr etdikləri şeirlərlə çap olunurdu və Mir Cəfər Bağırov Bakı Opera Teatrında keçirilən qızğın və hərarətli yubiley gecəsində Stalini, əgər səhv etmirəmsə, Sovet İttifaqında ilk dəfə "canlı Lenin" adlandırdı.

Müharibədən sonra ta Sovet İttifaqı dağılana qədər KQB-də işləmiş, bu gün də Rusiya mətbuatında və sovetşünaslığında "əfsanəvi KQB-çi hesab edilən ordu generalı Filipp Bobkov yazır ki, "Stalindən tutmuş Qorbaçova qədər bütün partiya liderləri Leninin bayrağına bürünür və onun ideyalarına and içərək, getgedə artan bir sürətlə Lenin yolundan uzaqlaşırdılar." **(Филипп Бобков. КГБ и власть, Москва, «ЭКСМО», 2003, стр. 208.)**

Ancaq "Lenin yolu" – yəni konkret олараг, nə?

1920-ci illərin əvvəllərindəki inqilabi coşğunluq, "oxuma tar, oxuma tar,// istəmir proletar// səndə bulunsun "Qatar" – inqilabi romantikasının və yeni həyat uğrunda mübarizə əzminin dalğaları yalnız arxada qalmamışdı, yerini qorxuya, daha artıq dərəcədə yalançı ritorikaya, təmənnalı demoqogiyaya vermişdi.

“Lenin yolu” – tamamilə əsası, bünövrəsi olmayan bir şəkildə ideallaşdırılmış, daha dəqiq desəm, fetişləşdirilmiş və tamamilə də ünvansız bir məfhuma çevrilmişdi.

Sovet İttifaqı dağılandan sonra Lenin haqqında gizlinlər üzə çıxdıqca, əyani şəkildə bir daha məlum oldu ki, covet pionerlərinin sevimli “Lenin babası” savadlı və əqidəli bir adam olmaqla bərabər, həm də “Min bir gecə”dəki qırx quldur başçısı kimi əli qanlı bir zalım imiş.

Mir Cəfər Bağırov da “Yolumuz Lenin yoludur!” – deyirdi, ancaq məsələ burasında idi ki, bu deyimin Leninə heç vəchlə dəxli yox idi. Bağırov üçün (və yalnız onun üçün yox!) “Lenin yolu” – yəni Stalinin tapşırıq və tələbləri, siyasi-ideoloji-inzibati təkid və təqibləri idi.

1930-cu illərin gənc yazıçısı Mirzə İbrahimov həyat yoldaşı Sara xanıma yazdığı səmimi məktublarda Mir Cəfər Bağırovun atalıq qayğısından danışır və bunu mən ona görə yada salıram ki, Mirzə müəllim iş tapmaq, bir tikə çörək pulu qazanmaq üçün Cənubi Azərbaycandan Bakıya gəlmiş, neft buruqlarında fəhləlik etmiş çox kasıb bir kişinin oğlu idi. Bir müddətdən sonra atası rəhmətə gedir və Mirzə İbrahimov uşaq yaşlarından fəhləlik edir, öz fərasəti, eləcə də yeni sovet quruluşunun yaratdığı imkanlar nəticəsində təhsil alır, yazı-pozu ilə məşğul olmağa başlayır, bir sözlə, ağıllı, dediyim kimi, fərasətli və eyni zamanda kimsəsiz bir gənc olur. Repressiyalardan söz düşəndə, bir çox məqamlarda Mir Cəfər Bağırovun qəddarlığı üzə çıxır, ancaq kimsəsiz belə bir gəncə «atalıq qayğısı» göstərmək, əlbəttə, adamın yalnız qəddarlığından yox, eyni zamanda bu qəddardakı həssaslıqdan, diqqətcillikdən, qayğıdan xəbər verir.

Bu mənada Mir Cəfər Bağırovun qayğıkeşliyi yəqin ki, az olmayıb və burası da var ki, bu qayğıkeşliyin arxasında sinfi-məfkurəvi bir əzm də dayanırdı: yeni insan – gənc kommunistlər nəsli yetişdirmək, yəni bu qayğıkeşliyin özü də, çox güman ki, yalnız sırf insani qayğıkeşlik yox, eyni zamanda ideoloji qayğıkeşlik idi.

Bu yerdə rəhmətlik Mirzə müəllimin dediyi o qayğıkeşliklə bağlı, başqa bir fakt yadıma düşür: Mir Cəfər Bağırov Heydər Hüseynova çox qayğı göstərmişdi, bu cavan alimin şöhrət qazanması, məşhurlaşması üçün çox əlverişli şərait yaratmışdı, onu elə həmin Mirzə müəllimlə bərabər Elmlər Akademiyasının təsisçilərindən biri və vitse-prezidenti, Ensiklopediya və Lüğətlər İnstitutunun, daha sonralar Sovet vaxtı çox prestijli Partiya Tarixi İnstitutunun direktoru təyin etmişdi, ona dörd cildlik «Azərbaycanca-rusca lüğət»in Baş redaktoru kimi, Stalin mükafatı verdirmişdi. Heydər Hüseynov Azərbaycanda ideoloji cəbhənin stalinsayağı kommunizm quruculuğunda fəal iştirak edirdi və onun gözgörəti hamisi şəxsən Mur Cəfər Bağırov idi, ancaq Mirzə müəllimdən fərqli olaraq, onun sonrası necə oldu?

Sonra Mir Cəfər Bağırov onu gözlənilmədən məhv etdi.

1950-ci ildə akademik Heydər Hüseynovun «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» monoqrafiyasına qarşı bilavasitə Mir Cəfər Bağırovun tapşırığı ilə böyük tənqid (əslində isə siyasi-inzibati hücum) kampaniyası başlamışdı və bu hücumun əsil səbəbi o idi ki, monoqrafiya Bağırovun başının üstündən Moskvada Stalin mükafatına təqdim olunmuş və bu mükafatı almışdı.

Hərçənd Həsən Həsənov xatirələrində yazır ki, tələsik şəraitdə də olsa, təqdimat barədə Bağırova məlumat verilmişdi, ancaq guya onun yadından çıxmışdı və doğrusu, bu «yaddan çıxmaq» məsələsi mənə şübhəli görünür, çünki bütün məxəzlər, xatirələr onu göstərir ki, Mir Cəfər Bağırov olduqca iti yaddaşa, güclü hafizəyə malik olub.

Belə bir söhbət gəzirdi ki, «Pravda» qəzetində Stalin mükafatı almış əsərlərin siyahısı çıxır və Mir Cəfər Bağırov gözlənilmədən ilk dəfə bu məsələdən xəbər tutur. Elə həmin gün Heydər Hüseynovu çağırtdırır və Stalin mükafatı almış kitabı kabinetində zərblə onun başına çırpır.

Mən bir müddət rəhmətlik şair və tərcüməçi İmran Seyidovla qonşu olmuşam, eyni binada eyni blokda yaşamışıq və o, vaxtıyla Elmlər Akademiyasında Heydər Hüseynovun köməkçisi işləmişdi. Bir gün ondan Heydər Hüseynovla bağlı belə bir hadisənin həqiqət olub-olmadığını soruşanda, İmran müəllim həmin dövrü yenidən yaşayırmış kimi, acı bir həyəcanla təsdiq etdi ki, bəli, həqiqətdir. « – Kitab da qalın və ağır idi…»

1950-ci il iyulun 14-də Mir Cəfər Bağırovun iştirakı ilə (deyilənə görə 2 mindən çox iştirakçı olub) böyük müşavirə keçirilib və müşavirədə Bağırov «Azərbaycan ziyalılarının növbəti vəzifələri haqqında» geniş məruzə edib. Məruzə də, ən seçmə alimlərin, yazıçı və şairlərin çıxışları da əslində Heydər Hüseynovun monoqrafiyasının tənqidinə («ifşa»sına) həsr edilib və Bağırovun məruzəsi «marksizm-leninizm elmi xəzinəsinə qiymətli bir hədiyyə», «dedikcə şərəfli» bir əsər kimi qiymətləndirilib. **(«İnqilab və mədəniyyət» jurnalı, 1950, № 8, səh. 118-19.)**

Mir Cəfər Bağırov ədəbi tənqidi, ictimai fikri ittiham edirdi ki, Heydər Hüseynovun monoqrafiyasının Şeyx Şamilin timsalında Qafqazda müridizmi təbliğ edən antiideoloji mahiyyəti nə üçün kəskin tənqidə məruz qalmayıb, əksinə, bir sıra hallarda hətta təriflənib və elmi-ədəbi ictimaiyyət nümayəndələri də bu ittiham istiqamətini rəhbərliyə götürərək (Qorxu!), məruzəçinin «ittihamlarından Cəfər Cəfərov, Məmməd Cəfər, Mikayıl Rəfili yaxalarını kənara çəkə bilməyəcəklər» yazır, misal üçün, Mirzə Feyzulla Qasımzadəni «realist olmayan» Bakıxanov və «burjua alimi, monarxist» Kazım bəy haqqında yazdığına görə «marksist nəzəriyyatçılığı ilə heç bir əlaqəsi olmayan təzkirəçi», «sovet yazıçısı platformasında durmayan bir tənqidçi» adlandırırdı **(Yenə orada, səh. 121.)**

Mən bağırovşünaslıqda məşhur olan, nəhayətdə Heydər Hüseynovu intihara gətirib çıxaran bu məsələ barədə təzədən ətraflı danışmaq istəmirəm, yalnız səciyyəvi bir məqamı qeyd edirəm: Müşavirədə akademik Məmməd Arif Dadaşzadə də çıxış edir, ancaq onun, görünür, bir az liberal əhvali-ruhiyyəli çıxışı Mir Cəfər Bağırovu əsəbiləşdirir və o Arif müəllimin çıxışını yarımçıq kəsərək, qışqırır: « – Sən Türkiyə casususan!» («Ты турецкий шпион!»)

Arif müəllimin oğlu və mənim əziz dostum, rəhmətlik Araz Dadaşzadə – filologiya elmləri doktoru, professor – danışırdı ki, atam da, anam da uzun müddət hürkü-qorxu içində idi ki, gəlib onu aparacaqlar, gecə küçədən maşın səsi gələndə, o saat oyanırdıq, nəfəsimizi qısıb, qulaq asırdıq görək, bizim mənzilin pilləkanlarını qalxan var, ya yox.

Böyük və dəhşətli repressiyaların müqabilində bəlkə də kiçik epizoddur, ancaq 1937-38-ci illərdən sonrakı dövrün də ab-havası və Mir Cəfər Bağırov kin-küdurətinin, bəzi məqamlarda isə tamam amansızlığının yaratdığı şərait barədə müəyyən təsəvvür yaradır.

Musiqişünas, publisist Firudin Şuşinski müharibədən sonra indiki BDU-nun tarix fakültəsinə daxil olur və Nəriman Nərimanova bəslənən qərəzli siyasi münasibətin yanlış olması barədə MK-ya məktub yazır. Mən hələ aspirant vaxtlarımda o dövrün mətbuatını araşdırarkən belə bir gözlənilməz hadisəyə rast gəldim ki, Mir Cəfər Bağırov çıxışında qəzəblə «hansısa bir tələbə Həsənov» (rusca: «nekiy student Qasanov») Nəriman Nərimanov haqqında ziyanlı məsələ qaldırıldığını deyir (Firudin Şuşinskinin familiyası Həsənov idi) və çox koloritli bir adam olan rəhmətlik Firudin mənimlə söhbətində qəlyanını tüstülədə-tüstülədə deyirdi ki, başıma nə oyun açdılar, bu öz yerində, amma universitetdə bizə dərs deyən müəllimlər mənim oturduğum auditoriyaya girməyə belə cürət etmirdilər, elə bil cüzamlıydım, məndən kənar qaçırdılar.

Bu yerdə kiçik bir haşiyə çıxmaq istəyirəm.

Rəhmətlik Ənvər Yusifoğlu repressiyaya uğramış, həbs və sürgün edilmiş yazıçılarımızdan biri idi və Yazıçılar İttifaqında katib işlədiyim həmin 70-ci illərdə o da “Azərbaycan” jurnalının nəsr şöbəsində işləyirdi. Mən bir neçə dəfə sadə, iddiasız, əsil ədəbiyyat zəhmətkeşi olan Ənvər müəllimlə repressiyalarla bağlı söhbət etmək istədim, ancaq o, belə bir söhbətə həvəs göstərmədi, yadımdadır, yalnız bir dəfə bunu dedi ki, “istəyirdilər İlyas Əfəndiyevin əleyhinə ifadə verim, mən də vermədim.” (Yəqin söhbət İlyas Əfəndiyevin ədəbiyyata gəldiyi 1939-cu ildən sonrakı vaxtlardan gedir və sonralar Ənvər müəllimin bu sözlərini onun qızı da xatirələrində deyirdi.)

Başqa bir misal da çəkmək istəyirəm: aspiranturanı bitirdikdən sonra mən EA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi işləyirdim və professor Qulamhüseyn Beqdeli də o zaman orada çalışırdı. O, 1946-cı ildə Cənub hadisələrindən sonra Şimala mühacirət etmiş və klassik ədəbiyyatımızın tədqiq və təbliğində mühüm xidmətləri olan alimlərimizdən (Qafar Kəndli, Həmid Məmmədzadə, Mirzə Abbaslı və b.) biri idi. İranda məşhur zadəgan ailəsində doğulmuş, Məhəmməd Rza şahla bir sinifdə oxumuş və belə bir yüksək sinfi mənsubiyyətinə baxmayaraq, milli təəssübkeşliyi və əqidəsi onu xalq hərəkatına gətirmişdi və Sovet Azərbaycanına mühacirət etdikdən sonra Beqdelini heç bir əsas olmadan həbs edib, Usaq Şərq çöllərinə göndərmişdilər. Yaş fərqinə baxmayaraq, onunla məhrəmanə münasibətimiz var idi və mən haçan cəhd edirdim ki, o, həmin hadisələrdən söhbət eləsin, alınmırdı. Yalnız bir dəfə əlinin barmaqlarını göstərərək: “ – Bax, bu dırnaqlarımın arasına iynə soxurdular ki, saxta ittihamları təsdiq edim.”

Şah taxtdan salınandan sonra professor Beqdeli İrana köçdü və bilmirəm o, həmin saxta ittihamları bonuna almışdı, ya yox, ancaq fakt budur ki, düz yeddi il – 1947-dən 1954-cü ilə qədər Uzaq Şərq çöllərində həbs həyatı yaşamışdı. Rəhmətlik Qulamhüseyn müəllim İranda da vəfat etdi.

İndi isə mən Mir Cəfər Bağırovla bağlı tamam fərqli və bağırovşünaslıqdakı başqa bir məşhur və mühüm, hətta xalqımız üçün taleyüklü hadisə haqqında

bir neçə kəlmə demək istəyirəm: müharibədən sonra Ermənistanın partiya rəhbəri Qriqor Arutinov (bu gün erməni sovetoloqlar böyük rəssam Martiros Saryanı və klassik Avetik İsaakyanı güllələnmədən məhz Arutinovun xilas etdiyini yazırlar) məktubla Siyasi Büroya müraciət edir və Dağlıq Qarabağ Muxtar Vilayətinin bu respublikaya verilməsi barədə məsələ qaldırır. Müharibədən sonrakı dövrdə Stalinin yaxın, o zaman bəlkə də ən yaxın (İosif Stalindən bəhs edərkən sırf insani mənada «yaxın», hətta «ən yaxın» ifadələri nisbi məfhumlara çevrilir) silahdaşı, səlahiyyətinə və partiya nüfuzuna görə, faktiki olaraq, Stalindən sonra ikinci şəxs, Stalinin vəfatından sonra isə qısa müddət ərzində birinci şəxs olan Georgi Malenkov o məktubu, şübhəsiz ki, Stalinin göstərişi ilə, fikir bildirmək üçün Mir Cəfər Bağırova göndərir.

Təklif belə bir partiya yüksəkliyindən göndərilirsə, deməli, müqəddərat həll olunur və Siyasi Büro (Stalin) səviyyəsində bu barədə düşünürlər, çünki əksinə olsaydı, məktub Mir Cəfər Bağırova yox, arxivə göndərilərdi; ikinci bir tərəfdən də ağlım kəsmir ki, Qriqor Arutinov belə bir ciddi məktubu əvvəlcədən Siyasi Büro üzvlərindən kimlərləsə (ola bilər ki, elə Malenkovun özü ilə) danışıq aparmadan yazmağa cürət etsin.

Bəs, Mir Cəfər Bağırov nə edir?

Bağırov da həmin məktubun ətraflı cavabını Malenkova (əslində isə Stalinə!) göndərir və çox ciddi və qəti şəkildə bildirir ki, bu təklifə ancaq belə bir şərtlə razıdır ki, Şuşa Azərbaycanda qalır, eyni zamanda Ermənistan ərazisində azərbaycanlıların yaşadığı rayonlar (Vedi, Əzizbəyov, Qarabağlar rayonları), Gürcüstanda Borçalı mahalı və Rusiya Federasiyasındakı (!!) Dərbənd və Qasımkənd rayonları bütövlükdə Azərbaycana verilsin. **(Oxucular hər iki sənədi orijinalda oxuya bilərlər: Adıgözəl Məmmədov. M.C.Bağırov. Tam məxfi, Bakı, «Elgün», 2012, səh. 172-177.)**

Güman edirəm ki, bu «razılıq»dakı cəsarəti uzun-uzadı izah etməyə ehtiyac yoxdur və rəhmətlik akademik Tofiq Köçərli yazır ki, Stalin Siyasi Büronun Mir Cəfər Bağırovun da iştirak etdiyi iclasında bu məktubla tanış olduqdan sonra, belə dərkənar qoyur: «Dəli-zad olmamısız ki! Arxivə.»

Qriqor Arutinovla bağlı kiçik br haşiyə çıxmaq istəyirəm: yuxarıda dedim ki, erməni müəlliflər 1937-ci ilin əvvəllərindən İosif Stalinin vəfatınacan Ermənistana rəhbərlik etmiş bu partiya xadiminin bir sıra məşhur sənətkarları repressiyalardan xilas etdiyini yazırlar, hətta Anastas Mikoyanın gəlini (general-leytenant Aleksey Mikoyanın həyat yoldaşı) və Arutinovun qızlığı Nami Mikoyanın yazdığına görə, Stalindən sonra Nikita Xruşşov Qriqor Arutinovun fəaliyyətini yoxlamaq üçün komissiya göndərir və məlum olur ki, 1937-38 də daxil olmaqla, on yeddi ildə Arutinov bir güllələnmə sənədinə belə, qol çəkməyib.

Doğrusu, bu, şübhəli bir iddiadır, çünki Vikipediya göstərir ki, 1937-ci ildə SSRİ «NKVD»-sinin qərarı ilə Ermənistanda fövqəladə «Üçlük» yaradılıb və Qriqor Arutinov da bu «üçlüyün» tərkibində olub. Yeqişe Çarens, Aksel Bakunts kimi onlarla məşhur erməni yazıçı və şairləri, başqa sənət xadimləri, hətta katalikos I Xoren Muradbeqyan həbs olunub, güllələnib, ancaq Ermənistanın partiya rəhbərinin bunlardan xəbəri olmayıb?

Biz mövzumuza qayıdaq.

Azərbaycan xalqının taleyi ilə bağlı başqa bir epoxal (və faciəvi) hadisə – 21 Azərlə bağlı Mir Cəfər Bağırovun mövqeyi və fəaliyyəti necə olmuşdur? Görünür, «mövqe» sözü burada yerinə düşmür, çünki mövqe sahibi Moskva idi – oranın mövqeyi necə idisə, Mir Cəfər Bağırovun da mövqeyi elə idi, söhbət qlobal məsələlərdən gedirdisə, Bağırovun mövqeyinin heç bir əhəmiyyəti yox idi. Onun mövqeyi o zaman güclü və həlledici idi ki, söhbət yalnız Azərbaycandaxili məsələlərdən, hətta Hamletin sözləri ilə desəm, bilavasitə Azərbaycandakı olum-ölümdən gedir.

Ancaq fəaliyyətin, əməlin əlbəttə, müxtəlif nüansları, cizgiləri var ki, sırf milli mənlikdən doğur və etnik mənsubiyyətin genetik-insani xüsusiyyətlərindən xəbər verir.

Mir Cəfər Bağırov və 21 Azər, ümumiyyətlə, İkinci dünya müharibəsi zamanı və müharibədən sonrakı 1946-cı ildə BMT Təhlükəsizlik Şurasınacan gedib çıxmış Cənubi Azərbaycan hadisələri mövzusu XX əsr tariximizin çox ciddi və hələ də geniş, dövrün beynəlxalq geosiyasi konteksti daxilində elmi tədqiqata ehtiyacı olan bir mövzudur. Bu hadisələr o zaman ABŞ başda olmaqla dünya miqyaslı mürəkkəb geosiyasi mahiyyət daşıyırdı və hədəf böyük dövlətlərin bir-biri ilə toqquşan siyasi maraqları idi. Azərbaycan tarixçilərinin bu mövzu ilə bağlı ciddi tədqiqat işləri var, ancaq mövzunun miqyası o qədər genişdir ki, dediyim kimi, bir daha araşdırılmalı, açılan arxivlərin vasitəsilə daha dərindən tədqiq edilməlidir və yəqin ki, belə də olacaq. Mən təfərrüata varmadan yalnız onu deyə bilərəm ki, Mir Cəfər Bağırov bu hadisələrin ilk çağlarından etibarən Cənubi Azərbaycanla bağlı Stalin siyasətinin yaratdığı münbit zəmindən istifadə edərək, sona qədər ciddi milli fədakarlıqla çalışmış, var gücü ilə əlindən gələni etmişdir. Doğrusunu deyim ki, arxiv sənədləriylə, Mir Cəfər Bağırovun Stalinə göndərdiyi məktublarla, telefon danışıqlarından tutmuş cürbəcür iclasların stenoqramları ilə tanış olduqdan sonra məndə belə bir təəssürat yarandı ki, Cənubi Azərbaycan hadisələrinin faciəli sonluğu, Mir Cəfər Bağırovun özünün də şəxsi faciəsinə çevrilmişdi.

İngilis tarixçisi Djeffri Robert yazır ki, Mir Cəfər Bağırov 1945-ci ilin aprelində Stalinə göndərdiyi məktubda Cənubi Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsi, yaxud müstəqil Cənubi Azərbaycan Xalq Respublikası, yaxud da burjua-demokratik quruluşlu Respublika, bunlar mümkün olmazsa, İran dövləti daxilində mədəni muxtariyyət yaradılmasını təklif edir. Məsələ Siyasi Büroda müzakirə olunur və Siyasi Büro iyun ayında bu məsələnin təşkilati həllini hazırlamağı Bağırova, Molotova və Sergey Kavtaradzeyə (SSRİ Xarici İşlər nazirinin – Molotovun müavini – E.) tapşırır. **(Джеффри Роберт. Вячеслав Молотов – сталинский рыцарь «холодной войны», Москва, АСТ, 2014, стр. 146.).**

Görünən budur ki, Mir Cəfər Bağırov Sovet İttifaqında Cənub məsələsini qaldıran ilk dövlət xadimlərindən biri (bəlkə birincisi?) olub və ətrafındakıların (Həsən Seyidov, Həsən Həsənov) yazdığına və dediyinə görə o, 21 Azərin süqutunu daxili və güclü bir sarsıntı ilə qarşılayıb.

Gecə saat 2-də Stalin telefonla zəng edir və sovet qoşunlarının Cənubi Azərbaycandan çıxarılacağını deyir. Bu xəbərdən sarsılmış Mir Cəfər Bağırov az qala yalvarmağa başlayıb: « – Bunu etməyin!..», ancaq dediyim kimi, beynəlxalq vəziyyət elə idi ki, Üçüncü dünya müharibəsi baş verə bilərdi, Stalin isə buna hazır deyildi və bunu istəmirdi. Stalin həmin telefon söhbətini yarımçıq kəsib, dəstəyi asandan sonra Mir Cəfər Bağırov bir müddət heç nə demədən, özünə qapanıb, nəhayət: « – Stalinin göstərişidir! Partiyanın göstərişidir!» – deyə özündən asılı olanları həmişəki cidd-cəhdlə yerinə yetirməyə başlayıb.

1947-ci ildə Seyid Cəfər Pişəvərinin öldürülməsində isə Mir Cəfər Bağırov heç vəchlə təşəbbüskar yox, dolayısı yolla yalnız icraçı (tapşırığı yerinə yetirən) ola bilərdi, çünki qəsdən törədilmiş bu avtomobil qəzasını, şübhəsiz ki, bilavasitə Stalinin tapşırığı ilə o zamankı Dövlət Təhlükəsizliyi Nazirliyi həyata keçirmişdi və təsdiq edilmiş faktdır ki, sürücü Karnik Melixyan DTN-nin agenti, Pişəvərini (onunla birlikdə general Qulam Yəhyanı da) müşayiət edən isə bilavasitə DTN katibliyinin rəisi idi (hadisədən sonra nazir müavini olmuşdu). Bağırov özü də məhkəmədə Pişəvərinin ölümü barədə suala: « – Bunu Moskvadan soruşun» – demişdi, Moskva isə nə idi (daha doğrusu, kim idi?) – Stalin.

Mən ona görə əminliklə «şübhəsiz» deyirəm ki, hədəfə alınmış şəxslərin yalançı (əvvəldən hazırlanmış) avtomobil qəzaları vasitəsilə aradan götürülməsi Sistemin tətbiq etdiyi qətl formalarından biri idi və belə bir faktı yada salmaq istəyirəm: 1947-ci ildə məşhur teatr rejissoru, Yəhudi Antifaşist Komitəsinin ilk sədri Solomon Mixoels guya Minskdə avtomobil qəzasında həlak olmuşdu (sonra da Moskvada təntənə (!) ilə dəfn edilmişdi). Ancaq 1954-cü ildə SSRİ-nin keçmiş Təhlükəsizlik naziri Viktor Abakumov (o da, özündən əvvəlki nazirlər kimi, güllələndi) ifadəsində bildirdi ki, Mixoels şəxşən Stalinin göstərişi ilə qətlə yetirilib.

Mir Cəfər Bağırov rus dilini təmiz bilirdi, bütün rəsmi yazışmaları, iclasları rus dilində aparırdı və məruzələri, çıxışları da əsas etibarilə rus dilində olurdu, ancaq Azərbaycan dilində az danışsa da, bu, onun əsas (doğma) dili idi. Onu yaxından tanıyanların dediyinə görə, ləzgi dilini də təmiz bilirdi və 12-13 yaşlarına qədər ibtidai təhsilini mollaxanada, fars dilinin tədris olunduğu Azərbaycandilli məktəbdə aldığını da nəzərə alsaq, yəqin yaxşı-pis bu dili də bilirdi. O, bir fərd kimi nə qədər istedadlı, ağıllı, fərasətli olsa da, belə görünür ki, intellektual hazırlığı fitri istedadı və bacarığı səviyyəsində deyildi və bu cəhət Bağırovun müasirləri və ondan sonrakı sovet rəhbərləri – Xruşşov, Brejnev, Çernenko, Qorbaçov və başqaları, eləcə də Stalinin ətrafı: Molotov, Kaqanoviç, Kalinin, Voroşilov, Orcekinidze, Mikoyan, Şvernik, Andreyev və başqaları üçün də səciyyəvi idi.

Onunla birlikdə işləyənlər, onunla təmasda olanlar deyir və yazırlar ki, Mir Cəfər Bağırovun rus dilini bilən azərbaycanlılardan xoşu gəlirdi və o dövrü öyrəndikcə hiss edirsən ki, bunun səbəbi, görünür, ruspərəstlikdən də daha artıq o idi ki, Azərbaycanda yaşayan ruslarla birlikdə ermənilər, ukraynalılar, başqa xalqların nümayəndələri təhsillərini rus dilində aldıqları üçün, partiya

və sovet orqanlarında öz karyeralarını nisbətən asan qura bilirdilər. O dövrlə bağlı elmi ədəbiyyatla, xatirələrlə, o dövrün mətbuatı ilə tanış olduqca, yeni yaradılan zavod və fabrik direktorlarından, müəssisə rəhbərlərindən tutmuş respublika miqyaslı rəhbər işçilərəcən azərbaycanlı kadrları irəli çəkmək tendensiyası aydın görünməkdədir və bu mənada rus dili ciddi əhəmiyyət daşıyırdı.

Yeri düşmüşkən deyim ki, Stalin hakimiyyəti tam ələ aldıqdan sonra, SSRİ-nin sonuna kimi müttəfiq respublika partiya komitələrinin ikinci katibi vəzifəsinə Moskvadan milliyyətcə rus olan partiya funksionerləri təyin edilirdi, yalnız Ermənistanda ikinci katiblər də yerli kadr, yəni erməni olurdu və rus milliyyətli ikinci katib ancaq 1988-ci ildə, Sovet İttifaqı dağılmağa başlayanda gedib Ermənistana çıxdı. Nüfuzuna görə, Stalinin tam etibarını və inamını qazandığı üçün, müharibədən sonrakı dövrdə Mir Cəfər Bağırov da bu vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail olurdu (Ələşrəf Əlizadə, Həsən Seyidov, Mir Teymur Yaqubov, Vitali Səmədov).

Ancaq o da hiss olunur ki, Mir Cəfər Bağırov bu məsələyə çox ehtiyatla yanaşırdı, milli kadların irəli çəkilməsini kommunizm ideologiyası və Sistemin maraqları ilə əsaslandırmağı bacarırdı (bəlkə də bu, yalnız siyasi manevr deyildi, onun özü də elə bu cür düşünürdü) və bəzən də bu ehtiyat hissi əndazədən çıxırdı. Əndazə hissinin bu cür itirilməsinin nəticəsiydi ki, Mir Cəfər Bağırov, misal üçün, Bakının ən uca nöqtəsində – o yerdə ki, burda ucaldılacaq heykəl Bakının hər tərəfindən görünsün – Sergey Kirovun heykəlini ucaltdı.

Sergey Mironoviç Kirov 1920-ci ildə Azərbaycanı işğal edərək, Azərbaycan Demokratik Respublikasını dağıdan XI bolşevik ordusu ilə Bakıya gələn və həmin illərin əvvəllərində Azərbaycanda partiyaya rəhbərlik edən, sonra Leninqrada göndərilən, Siyasi Büroya üzv seçilən və1934-cü ildə Leninqradda da qətlə yetirilən bolşevik idi. Stalin bu qətldən istifadə edərək, Sovet İttifaqında gələcək Böyük Terrorun – 1937-38-ci illər repressiyasının ilkin mərhələsinə başladı və Mir Cəfər Bağırov Sistemə (Stalinə) sədaqətini nümayiş etdirərək, qədim Gəncənin adını dəyişib, Kirovabad etdi, Respublikanın əsas universitetinə, onlarla, bəlkə də yüzlərlə kolxoza, cürbəcür müəssisələrə, küçə və prospektlərə onun adını verdi, Bakıda Kirovun ev-muzeyini yaratdı.

Bakının, dediyim kimi, ən uca nöqtəsində hündür qırmızı qranit pyedestal üzərində ucaldılmış bu nəhəng heykəl təmtəraqlı və təntənəli sosialist realizminin parlaq nümunəsi idi və bütün Bakı da Sergey Kirovun nəhəng çuqun ayaqlarının altında idi. Bu sosrealizm nümunəsini məşhur heykəltəraş Pinxos Sabsay yaratmışdı və rəsmi ideologiya bu heykəli Bakının embleminə çevirmişdi. Sergey Mironoviç Kirov Bakının başı üzərindən əlini qalib kommunizmin işıqlı gələcəyinə sarı uzatmışdı və o zaman kimin ağlına gələrdi ki, düz 51 ildən sonra ekskavator, elə bil, hərəkətə gələn nəhəng dar ağacı kimi, trosu o heykəlin boğazına salıb, onu aşırıb, dağıdacaq?

Yazıçı dostlar hərdən zəngləşib, Dənizkənarı bulvarda gəzişməyə (söhbətləşməyə) çıxırdılar və İlyas Əfəndiyev deyirdi ki, bulvarda üzüaşağı gedəndə başımı yuxarı qaldırmıram ki, Kirovun heykəlini görməyim. Azərbaycan ziyalı-

larının o heykələ nifrətini göstərən bu sözləri yazarkən xatırlayıram ki, rəhmətlik professor Firudin Hüseynov danışırdı ki, aspirant olduğum vaxtlar – 1950-ci illərin sonlarında (hələ «KQB»-nin qılıncının dalı da, qabağı da kəsdiyi bir vaxtda!) bir axşam elmi rəhbərim Mir Cəlal müəllimlə Dənizkənarı bulvarda gəzirdik. Projektorların gur işığı yenə Kirovun heykəlinə tuşlanmışdı. Birdən, heç bilmirəm necə oldu ki: « – Mir Cəlal müəllim, – dedim. – O heykəlin yerinə kimin heykəlini qoymaq olardı?» Mir Cəlal müəllim də ayaq saxladı və başını qaldırıb, o heykələ baxdı: « – Qardaş, kim o heykəli ordan sala bilsə, – dedi, – onun da heykəlini orda qoymaq olar!»

O heykəli bir nəfər yox, ayağa qalxmış Azərbaycan xalqı pyedestalı ilə bərabər yerə saldı və 1991-ci ildə Bakı sakinləri şəhərin müxtəlif tərəflərindən mənəvi rahatlıq və çox pozitiv bir maraq içində o heykəlin edamına tamaşa edirdi – bu, xalqın hiss-həyəcanını ifadə edən kütləvi mənəvi-siyasi bir edam idi. Azərbaycan xalqı o heykələ o qədər nifrət bəsləyirdi ki, aradan 30 ildən artıq bir vaxt keçib, ancaq o heykəl hələ də yaddan çıxmayıb və mən bu günlərdə saytlardan birində Leninin (söhbət Bakının mərkəzi meydanında ucaldılmış nəhəng Lenin heykəlindən gedir) və Kirovun həmin heykəllərinin əridildiyi İstehsalat Kombinatından yazılmış (və manşetə çıxarılmış!) reportaja rast gəldim.

Mir Cəfər Bağırov bir tərəfdən Marietta Şaqinyanın Ermənistanda nəşr olunmuş və azərbaycanlılar barədə təhqiramiz mülahizələr söylədiyi kitabı, eləcə də Nizami Gəncəvi haqqında yazdığı antiazərbaycan ruhlu əsəri, yaxud Georgi Xolopovun (məşhur Şamaxı erməniləri Lalayevlərdən idi, familiyasını dəyişmişdi) Moskvada çap edilmiş və azərbaycanlılara qarşı qərəzli münasibət ifadə edən romanı haqqında bilavasitə Kremlə çox ciddi və cəsarətli etiraz məktubu yazaraq, həmin kitabları yığışdırmağa nail olurdu. Yaxud o zaman partiya müqəddəsinə çevrilmiş Stepan Şaumyanın oğlu Lev Şaumyanın «Pravda» qəzetində dərc etdirdiyi məqalədə «26-lar»dan bəhs edib, azərbaycanlı komissar Məşədi Əzizbəyovun adını çəkmədiyi üçün, onun da, qardaşının da anti-Azərbaycan mövqeyini partiya qurultayının tribunasından kəskin tənqid edir və bununla kifayətlənməyib, bu barədə birbaşa Stalinə məktub yazırdı. Yaxud da Azərbaycanda Konservatoriyanın müəllim və tələbələri arasında azərbaycanlıların sayının az olmasını aradan qaldırmaq məqsədi ilə xüsusi (və rəsmi!) Komissiya yaradırdı və bütün bunlar, əlbəttə, şəxsi cəsarət tələb edirdi.

“YouTube”da Böyük Sovet Ensiklopediyası Baş redaktorunun müavini Lev Şaumyanın qızı, Stepan Şaumyanın nəvəsi, şərqşünas Tatyana Şaumyanın müsahibəsi var və o, deyir ki, Mir Cəfər Bağırov Stepan Şaumyana və onun ailəsinə “amansız nifrət bəsləyirdi”, “ifşaedici materiallarla dolu qovluqla» Moskvaya gəlirdi. Əgər həqiqətən beləydisə, güman edirəm ki, bunun səbəbi Mir Cəfər Bağırovun şəxsi-qərəzliyi yox, onun siyasi və milli təəssübkeşliyi olub. Son illər nəşr olunan xatirələr, üzə çıxan sənədlər sübut edir ki, Sovet dönəmində mətin bolşevik kimi təqdim və təbliğ edilən, haqqında Azərbaycan şairlərinin poetik mədhiyyələr yazdığı Stepan Şaumyanin timsalında söhbət özünü bolşevik libasına pərçim etmiş qatı erməni irqçisindən gedir və

Azərbaycan və erməni xalqlarına mənsub yüzlərlə, hətta minlərlə insanın bir-birini qırması məhz bu irqçinin əməllərinin nəticəsidir.

Qısa bir haşiyə çıxmaq istəyirəm: 1981-ci ildə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Nizaminin 840 illiyini keçirməklə bağlı qərar qəbul edildi və bu, o zaman ədəbiyyatımızın təbliği, ədəbiyyat tariximizin öyrənilməsi baxımından tarixi bir hadisə, nadir bir qərar idi, çünki ənənə belə idi ki, yubileylər üçün yalnız yuvarlaq rəqəmlər əsas götürülürdü. Yazıçılar İttifaqında işlədiyim vaxtlar idi və bir gün MK-nın yeni ideoloji katibi, cavan və enerjili Həsən Əziz oğlu Həsənov mənə telefonla zəng etdi ki, Leninqrad da (Sankt-Peterburq) Nizaminin yubileyini keçirmək istəyir. Qısası, Qabil, Nəriman Nəsənzadə, Araz Dadaşzadə, Səyavuş Məmmədzadə, jurnalist Mailə Muradxanlıdan ibarət bir heyətlə Leninqrada getdik və vaxtıyla Mir Cəfər Bağırovun kəskin tələbi ilə kitabı qadağan edilmiş həmin Georgi Xolopov o zaman Leninqrad Yazıçılar İttifaqının rəhbərlərindən biri, Sovet İttifaqında əsas ədəbiyyat jurnalları sırasında olan "Zvezda"nın Baş redaktoru idi (nə az, nə çox, düz 34 il "Zvezda"nın Baş redaktoru oldu!).

Doğrusu budur ki, Xolopov bizimlə olduqca mehriban görüşdü, bizim şərəfimizə evində ziyafət verdi və həmin ziyafətə Sovet İttifaqının ən görkəmli balerinalarından olan, SSRİ Xalq artisti Olqa Lepeşinskayanı, bir sıra başqa məşhur Leninqrad ziyalılarını da dəvət etmişdi. Səmimi bir məclis idi, mən Xolopovla yanaşı oturmuşdum, xudmani söhbətləşirdik və fürsətdən istifadə edib, ondan soruşdum: " – Siz Bağırovla görüşmüşdüz?" Xolopov elə bil, sualımı eşitmədi, tələsik ayağa qalxıb, Azərbaycan xalqı haqqında yaxşı bir sağlıq dedi və mən gördüm ki, o, Mir Cəfər Bağırov barədə söhbətdən qaçır, daha sıxma-boğmaya salmadım.

Bir halda ki, bu haşiyədə Olqa Lepeşinskayanın adını çəkdim, onu da deyim ki, stalinşünaslıqda ara-sıra belə bir məlumatla da rastlaşırıq: guya Olqa Lepeşinskaya Stalinin sevgilisi olub və onlar hərarətli bir eşq yaşayıblar. **(Bax: Проект Игоря Оболенского. Мемуары матери Сталина. 13 женщин Джугашвили, Москва, АСТ, 2013, стр. 294-300.)**

Olqa Lepeşinskaya 1940-cı illərdə dörd dəfə dalbadal Stalin mükafatı alıb və çox güman ki, bu hərarətli eşq haqqında dastanın yaranmasına və yayılmasına səbəb də elə bu mükafatlar olub, o biri tərəfdən də, deyəsən axı biz də hərdən yaddan çıxarırıq ki, "Yoldaş Stalin" həm də insan – Qafqazlı bir kişi idi. Mən internetdə baxdım: 1981-ci ildə Olqa Lepeşinskayanın 65 yaşı olub və sizə deyim ki, yaraşıqlı, səliqə-sahmanlı, geyim-kecimi də, makiyajı da açıq-aşkar kübar zövqünü göstərən 65 yaşlı bu qadının o zaman hələ də qoruyub saxladığı işvəsi zəngin hissiyyatla və olsun ki, zərif və romantik macəralardan da yan keçməyərək yaşanmış bir həyatdan xəbər verirdi. Lepeşinskaya Stalindən sonra 55 il (özü də Stalinlə bağlı necə təlatümlü illər!) yaşayıb və 2008-ci ildə 92 yaşında vəfat edib.

Ancaq əsas söhbətimizə qayıdaq.

Mir Cəfər Bağırov o biri tərəfdən də elə həmin 1951-ci ildə «Kitabi-Dədə Qorqud»u «mahiyyətinə burjua-millətçilik zəhəri hopmuş», «irticaçı xarakter

daşıyan» bir abidə olduğunu elan edirdi və bundan sonra anti-«Dədə Qorqud» kampaniyası başlayırdı. Dünənəcən bu abidənin həqiqi qiymətini vermiş istedadlı Azərbaycan ədəbiyyatşünasları Mir Cəfər Bağırovun bu iddiasını təsdiq etmək məcburiyyətində qalır və əvvəllər bu abidəyə yüksək qiymət verdikləri üçün üzr istəyirdilər (bunu da deməyi borc bilirəm ki, yalnız rəhmətlik akademik Həmid Araslı üzr istəmir). Azərbaycan Yazıçılar İttifaqı xüsusi iclas keçirir və görkəmli (eləcə də görkəmsiz) yazıçı və şairlər Mir Cəfər Bağırovun (o günlərdə Mir Qəzəbin) «Dədə Qorqud» qərəzçiliyini qızğın müdafiə edirdi.

O biri tərəfdən isə məşum 37-ci ildə bilavasitə Mir Cəfər Bağırovun təşəbbüsü ilə Moskvada, SSRİ Yazıçılar İttifaqı İdarə Heyəti qarşısında rus dilində Azərbaycan poeziyası antologiyasını hazırlayıb, nəşr etmək məsələsi qaldırılır və Vladimir Luqovskoy, Pavel Antokolski, Pavel Pançenko və Marqarita Aliger kimi məşhur rus sovet şairləri klassik və müasir Azərbaycan poeziya nümunələrini tərcümə etmək üçün Bakıya dəvət olunur. Mir Cəfər Bağırov onları şəxsən qəbul edir və həqiqət budur ki, iki saatdan çox çəkən bu qəbul onun milli mənada bu məsələyə nə dərəcədə mühüm əhəmiyyət verdiyini göstərir.

Qəbul zamanı Luqovskoy Vaqifin və Vidadinin, Pançenko Seyid Əzimin və Sabirin şeirlərini, Antokolski Füzulinin «Leyli və Məcnun»undan parçaları öz tərcümələrində Mir Cəfər Bağırova oxuyurlar və mən istəyirəm o qəbulun koloriti haqqında müəyyən təəssürat yaratmaq üçün rəsmi məlumatdan sitat gətirim: «Tərcümələr Bağırov yoldaşa təsir bağışlamışdır. Bağırov yoldaş bir saata qədər davam edən nitqində antologiyanın mühüm əhəmiyyətini və xüsusilə xalqımızın yaradıcılıq simasını göstərməkdə onun oynadığı böyük rolu qeyd etmişdir.»

Nizami Gəncəvinin məhz Azərbaycan şairi kimi təbliğ və təşviq edilməsində, onun əsərlərinin Azərbaycan, eləcə də rus və başqa sovet xalqlarının dillərinə tərcümə edilməsində, yalnız Bakıda yox, Moskvada və Sovet İttifaqının başqa respublikalarında nəşr olunmasında, yalnız Azərbaycan ədəbiyyatşünaslığında deyil, rus və sovet ədəbiyyatşünaslığında akademik Yevgeni Bertelsin «Böyük Azərbaycan şairi Nizami Gəncəvi» monoqrafiyasınacan Nizami yaradıcılığının tədqiq edilməsində, bu yaradıcılığın bütün respublikalarda dərsliklərə salınmasında, 800 illik yubileyin ittifaq miqyasında keçirilməsində, 1947-ci ildə Gəncədəki (Kirovabaddakı) Nizami Gəncəvi heykəlinə görə heykəltəraş Fuad Əbdürəhmanova Stalin mükafatı verilməsində, 1949-cu ildə Bakıda Nizaminin nəhəng heykəlinin (müəllifi Fuad Əbdürəhmanov, memarlar Mikayıl Hüseynov və Sadıq Dadaşov) ucaldılmasında və s. Mir Cəfər Bağırovun mühüm rolu olmuşdur. Həmin dövrdə bizim ədəbiyyatşünaslıqda ayrıca bir nizamişünaslıq istiqaməti yarandı və bu istiqamətin geniş elmi-nəzəri əhatəsi kontekstində, ümumiyyətlə ilkin orta əsrlər Azərbaycan ədəbiyyatşünaslığının effektli tədqiqatları nəticəsində Nizaminin azərbaycanlı müasirləri də öyrənildi, təbliğ edildi, özümüzə qaytarıldı (Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani Şirvani, Fələki Şirvani və b.)

ABŞ kinorejissoru Ruben Mamulyan (əslən Tiflis ermənilərindən idi) Hollivudda Üzeyir Hacıbəyovun «Arşın mal alan»ını erməni operettası kimi ekranlaşdırır və bu film İran şəhərlərində göstərilməyə başlayır. Xəbər Üzeyir

bəyə çatanda o, bu barədə Mir Cəfər Bağırova müraciət edir və Bağırov Üzeyir bəyin birbaşa Stalinə məktub yazmasının təşəbbüskarı olur. Beləliklə də 1945-ci ildə Bakıda «Arşın mal alan» filmi çəkilir, böyük uğur qazanır və «Vikipediya»nın yazdığına görə dünyanın 86 dilinə tərcümə edilərək, 136 ölkədə (!) göstərilir, 1946-cı ildə bilavasitə Mir Cəfər Bağırovun təşəbbüsü ilə filmin yaradıcı kollektivi Stalin mükafatı alır (Rza Təhmasib, Nikolay Leşenko, Rəşid Behbudov, Leyla Cavanşirova (Bədəlbəyli), Münəvvər Kələntərli, Ələkbər Hüseynzadə, Lütfəli Abdullayev).

İndi fikir verin, bu təşəbbüslər və fikirlər hara, «Dədə Qorqud»u «xalq düşməni» (!) elan etmək, yaxud Azərbaycan kommunistlərinin XIII qurultayında (1937) Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın adı çəkiləndə Mir Cəfər Bağırovun hiddətlə yerindən: "rəzillər!" (rusca qışqırıb: "мразь" və bu sözün tərcüməsi bizim rusca-Azğrbaycanca lüğətdə (1990) belədir: "alçaq adamlar", "əclaf adamlar") – deyə bu şairlərə bu cür alçaldıcı münasibət bildirməsi hara – bu ziddiyyət və paradoks həm şəxsiyyətin xarakterindəki və fəaliyyətindəki ziddiyyətlərdən, qarmaqarışıqlardan xəbər verir, həm də dövrün ziddiyyət və paradokslarını ifadə edir.

Söhbət həmin dövrdən gedir ki, Bakının mərkəzində, açıq havada «Doğma Stalini göz bəbəyimiz kimi qoruyalım!», «Xalq düşmənlərinə ölüm!», «Alçaq ikiüzlü xalq düşmənlərini mühakimə etməli!» şüarları ilə mitinq keçirilir və Mir Cəfər Bağırov o mitinqi açaraq, «Neft Bakısının əməkçiləri buraya insanlıq simasını itirmiş xalq düşmənlərinə, cəmiyyətin alçaq tör-töküntülərinə qarşı öz dərin nifrətlərini izhar etmək üçün toplaşmışdır» – deyir, «quldur dəstəsindən olan banditlərdən», «faşist sürüsünün qanlı cəlladlarından» danışır, sonra «xalq düşmənlərinə ölüm!» tələb edən müxtəlif peşə sahiblərinin, o cümlədən də yazıçıların nümayəndəsi çıxış edir. Bu həmin günlərdir ki, ədəbi orqanlar Maksim Qorkinin məşhur (və deyildiyi zamanın kontekstində qorxunc!) «Əgər düşmən təslim olmazsa, onu məhv edərlər!» şüarı altında tribuna açır və bir çox yazıçılar həmin tribunadan «İllərlə Ruhulla Axundov, Hənəfi Zeynallı kibi kontrrevolyusion xəyanətkarların kultura və ədəbiyyat cəbhəsində çalışmaları biz yazıçılardan daha artıq sayıqlıq tələb edir», «Əllərində hələ bizim sevimli Sergey Mironoviç Kirovun, şanlı qızıl əsgərlərimizin, mühəndislərimizin, staxanovçularımızın qanı qurumamış, xalqların müəllimi, atası, dostu, böyük Stalini öldürməyə çalışırlardı», «Xalq düşmənləri əziz atamız Stalini əlimizdən almaq istəyirlərdilər» və s. deyə vətəndaşları, ilk növbədə isə öz həmkarlarını xalq düşmənlərini aşkar və ifşa etməyə çağırırdı. **(Bu və bu tipli çağırışların müəllifləri ilə maraqlananlar «Ədəbiyyat qəzeti»nin 1937-ci il nömrələrinə baxa bilər.)**

Bu həmin dövrdür ki, əslində donoslar, xəfiyyə məlumatları məqalə adı ilə mətbuatda dərc edilirdi: «İfşa edilmiş xalq düşməni Hacıbaba Nəzərli Yazıçılar İttifaqının üzvlüyündən kənar edilmişdir. Lakin bu alçağın həmfikirlərinin, məsələn, Hüseyn Mehdinin hələ də sovet yazıçıları sıralarında qalması təəccüblü deyilmidir?..» «Alçaq və əclaf Mustafa Quliyev, Hacıbaba Nəzərli, Ə.Trinic, Əli Nazim, Xəlil İbrahim və başqa nacinslər, həmçinin qəddar averbaxçı Hüseyn Mehdi...» və s. **(«Kommunist» qəzetinin 1937-ci il nömrələri.)**

Doğrusu, bu nümunələri oxuculara təqdim edəndə adam xəcalət çəkir, ancaq nə etməli, xəcalət çəksək də, çəkməsək də, bu bizim tariximizdir və özümüzü görməməzliyə vurmaq tariximizi saxtalaşdırmaq deməkdir. Mən bu çağırış, donos müəlliflərinin adlarını çəkmirəm (onsuz da mətbuatda, arxiv sənədlərində hər şey var – yazıya isə pozu yoxdur!), çünki əsas müəllif – nəhəng müəllif! – Qorxudur, özünüqorumaq, yaşamaq instinktini çırpınladıb-titrədən, səfərbər edən Qorxu. Mən bu müəlliflərə (o cümlədən yazıçılara!) bəraət qazandırmaq fikrindən uzağam, ancaq səbəb (və həqiqət!) budur – əvvəldə də yazdığım həmin Qorxu.

Uzun onilliklər repressiyanın məşəqqətlərini çəkmiş və bu məşəqqətləri yüksək bədiiliklə təsvir etmiş böyük rus yazıçısı Varlam Şalamov indiyəcən saxladığım bir müsahibəsində o dövrdən bəhs edərkən, deyir: «İnsan özünü dərhal itirmir. İnsan əvvəlcə gücünü itirir, sonra da onunla birlikdə əxlaqını (mənəviyyatını) itirir.» **(«Совершенно секретно», 2007, № 6.)**

Siz Qorxunun gücünə baxın ki, Vadim Kojinovun yazdığı kimi, «Stalinin özündən çox stalinçi olan», ancaq buna baxmayaraq, güllələnən Nikolay Buxarin **(Вадим Кожинов. Правда сталинских репрессии, или кому нужны большие жертвы, Москва, Алгоритм, 2010, стр. 89.)** «KQB» zirzəmisindən Stalinə məktublar yazaraq, sözün əsil mənasında yalvarır ki, onu güllələməsinlər, heç olmasa zəhərləsinlər, ancaq bu yalvarışlar Stalinə təsir etmir və Buxarin güllələnməyə aparılanda da qışqırır: «Stalin bəşəriyyətin ümididir!» **(Александр Орлов. Тайная история Сталинского времени, Москва, Алгоритм, 2014.)**

Güllələnməyə məhkum olunmuş bütün keçmiş siyasi rəhbərlər, marşallar, inzibati orqan rəisləri istisnasız olaraq ən son məqamlarına qədər bütün iftiralara, böhtanlara qol çəkir, özləri haqqında bütün saxta ittihamları təsdiqləyir və durmadan Stalini vəsf edirdilər və bütün bu absurd – hökm sürən həmin böyük Qorxunun şüurlu, ya da təhtəlşüur ifadəsi idi.

Mən sovet paradoksları barədə artıq yazmışam və Sistemin yaratdığı Böyük Terrorun özündə də izahata gəlməyən, heç bir məntiqə sığmayan qəribə paradokslar var idi. Mikayıl Rəfili 1937-ci ildə düşmən kimi «ifşa» olunur, Yazıçılar İttifaqından xaric edilir – bu, artıq ən azı Sibirdir, amma ona toxunmurlar, sağ qalır, yaxud da Mehdi Hüseyn «qatı averbaxçı» kimi «ifşa» olunur, Yazıçılar İttifaqının üzvlüyündən namizədliyə keçirilir, ancaq sağ qalır. 1920-ci ildən əvvəl yazmağa başlamış qələm sahiblərinin hamısı – Hüseyn Caviddən, Əhməd Cavaddan, Seyid Hüseyndən (Kazımoğludan), Yusif Vəzir Çəmənzəminlidən, Sultan Məcid Qənizadədən, Qafur Qantəmirdən tutmuş Salman Mümtaz, Xəlil İbrahim və Əli Səbriyəcən – «ifşa» olunur, güllələnən güllələnir, Sibirə göndərilən göndərilir, yalnız Abdulla Şaiq və Məmməd Səid Ordubadi sağ qalır, yaxud nə «ifşa» məqalələrində, nə «ifşa» toplantılarındakı məruzə və çıxışlarda, nə də cürbəcür qərarlarda, rəsmi sənədlərdə Əliağa Vahidin adına rast gəlirik, elə bil, bu adda şair yoxdur, Süleyman Sani Axundov isə 1939-cu ilin əvvəlində öz əcəli ilə vəfat edir (bəlkə də bu «ifşa»lar dəhşəti içində ürəyi partlayır). Mikayıl Rzaquluzadə «pantürkist», «millətçi» kimi zamanın kontekstində ən ağır (ölümcül!) ittihamlarla «ifşa» olunur, ancaq sağ qalır, heç

həbs də olunmur. Mən rəhmətlik Mikayıl Rzaquluzadəni yaxşı tanıyırdım, hələ gənc yaşlarımdaykən Yazıçılar İttifaqında işləyəndə onunla çox təmasda olmuşdum və o, hər hansı bir satqınlıq edib, sağ qalan, sonra da başı dik gəzə-gəzə qətlə yetirilənləri tərifləyən adam deyildi.

Deyirlər ki, Mir Cəfər Bağırov Ordubadi ilə dost idi, hətta Bağırovun oğlu Cahangirin yas məclisini də Məmməd Səid aparmışdı – olsun; Rəfili Bağırova məktub yazıb, o da Rəfilini müdafiə edib – ola bilər; Şaiq çox təmiz və heç bir intriqalara qarışmayan, kənarda dayanmış adam idi – düzdür, kübar və iddiasız Şaiq belə adam idi; Vahidi xalq sevirdi, həyat tərzi ilə xalqın az qala mifoloji və sevimli qəhrəmanına çevrilmişdi – bəli, doğrudur və bütün bu «ifşa»ların, qətllərin, sürgünlərin, izaholunmaz bu paradoksların müəllifi də Sistem idi – bu da tamam doğru bir fikirdir. Ancaq məsələ burasındadır ki, Mir Cəfər Bağırovun nəinki 1937-38-ci illərdə, ümumiyyətlə 1933-1953-cü illər arası fəaliyyəti onun adını Azərbaycanda Sistemin sinoniminə çevirmişdi və güllənənlər arasında onun özünün keçmiş dostları yox idi? Hüseyn Cavidi bəyəm xalq az sevirdi və mənən də, əməllərində də təmiz insanlar, kənarda dayanıb, siyasətə qarışmayanlar az güllələnmişdi? Mikayıl Müşfiq ilk şeirlərinin çapından sonra tanınan, get-gedə sürətlə məşhurlaşan, oxucuların sevimlisinə çevrilən bir gənc deyildimi?

Sistem üçün dost, rəhm, sevilib-sevilməmək məfhumları yox idi – Stalinin qətlə yetirdiyi insanların arasında onun Avel Yenukidze, yaxud Nikolay Buxarin kimi çox yaxın dostları var idi (hələ onun özünün yaxın qohum-əqrabasını demirəm!), eynən də Mir Cəfər Bağırovun təmasda olduğu, birgə işlədiyi, oturub-durduğu insanların məhv edilməsi.

Şaiqin, Vahidin, Ordubadinin Böyük Terrorun yaratdığı hərc-mərclik içində salamat qalması yalnız barmaqla sayılacaq təsadüflər idi və bu təsadüflər həmin məntiqə sığmayan paradokslara borclu idi. Mən yalnız bir nəfərin adını çəkə bilərəm ki, elə həmin Şaiqdən, yaxud Vahiddən, hətta məhv edilmiş Caviddən, Müşfiqdən, Yusif Vəzirdən, Abbas Mirzədən, başqalarından tamam fərqli, başdan-başa qatı antisovet bioqrafiyaya malik ola-ola, onu ölümdən Mir Cəfər Bağırov xilas edib: Üzeyir bəy Hacıbəyli.

Bu yazını işləyərkən, hərdən içimdən qapqara bir şükranlıq hissiyyatı keçirdi – 1937-38-ci illər terroru ümumiyyətlə, bütün Azərbaycan mədəniyyətini kökündən yox edə bilərdi, yəni bu illərin Azərbaycan mədəniyyətinə vurduğu zərbə yalnız ağır, faciəli, dəhşətli yox, həlledici ola bilərdi, bu mədəniyyət ibtidai bir vəziyyətə düşə bilərdi. Baxın, Sistem Abbas Mirzə Şərifzadə, yaxud Ülvi Rəcəb kimi böyük aktyorları güllələdi, ancaq «Kommunist» qəzetində – qorxulu «ifşa»edici partiya orqanında dərc edilmiş bir məqalədəki «ifşa»ları oxucuların diqqətinə çatdırmaq istəyirəm: «Budur, Mirzəağa Əliyev! Çar kazakının oğlu olan bu adam musavat zabiti olmuşdur. Həmişə belində tapança olaraq qoçuluq edərmiş. Xalqın ifşa edilmiş əclaf düşmənləri Dadaş Bünyatzadə, Həmid Sultanov, Ruhulla Axundov, Əhməd Bədi Trinic və başqaları ilə sıx əlaqə saxlamış, onların keyf məclislərində təlxəklik etmiş, kontrrevolyusion anekdotlar söyləmiş, xaricdə yaşayan keçmiş arvadı ilə əlaqə saxlamışdır...» və s., və

i.a. Sonra: «Budur, Möhsün Sənani!» və Sənaninin «ifşa»sı, «Budur, Fatma Qədri!» və Qədrinin «ifşa»sı **(«Kommunist» qəzeti, 30 sentyabr 1937)** və beləcə də, başqa aktyorlarımızın ifşası. İndi, bir anlıq təsəvvür edək ki, Abbas Mirzə ilə, Ülvi Rəcəblə bərabər, Mirzəağa Əliyev də, Möhsün Sənani də, Fatma Qədri də, Azərbaycan teatr sənətinin başqa bu kalibrli aktyorları da güllələnir, o boşluqdan, vakuumdan sonra bu gün biz hansı səviyyədəki teatr sənətimizdən danışa bilərdik?

Bu cür vəziyyət Azərbaycan ədəbiyyatında da yarana bilərdi və yada salaq ki, az qala iyirmi il Azərbaycan oxucuları – məktəb şagirdlərindən tutmuş universitet tələbələrinəcən kimsə Cavidi, Müşfiqi, Çəmənzəminlini, Cavadı, başqalarını oxuya bilmədi, milli ədəbiyyatın böyük bir hissəsinin milli şüurun və mənəviyyatın inkişafında hansı rolu oynaya bilərdisə, bundan məhrum oldu. Azərbaycan ədəbiyyatşünaslığı bu mirasdan bəhrələnə bilmədi və tədqiqatlar natamam istiqamətdə aparıldı, buna görə də tam elmi-nəzəri mənzərəni yarada bilmədi. İndi siz təsəvvür edin, bu 37-38 qırğınından salamat çıxmış qələm sahibləri – yazıçılar, şairlər, ədəbiyyatşünaslar, folklorşünaslar da Sistemin ətdoğrayan makinasına düşsəydi, onların da kitabları yandırılsaydı, o zaman yalnız bizim ədəbiyyatımız, ədəbiyyatşünaslığımız, ictimai fikrimiz yox, mənəvi dünyamız nə günə düşəcəkdi?

Bu gün mətbuatda, saytlarda ara-sıra rast gəldiyimiz Süleyman Rəhimov, Mirzə İbrahimov, Əli Vəliyev, Mir Cəlal, Mehdi Hüseyn, Əbülhəsən, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Məmməd Rahim, başqaları, eləcə də həmin nəsildən olan ədəbiyyatşünaslar – Həmid Araslı, Mirzə Feyzulla Qasımzadə, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Mirzəağa Quluzadə, Məmməd Hüseyn Təhmasib, Mikayıl Rəfili, Əli Sultanlı, Əkrəm Cəfər, Cəfər Cəfərov, Abbas Zamanov, Əkbər Ağayev, Cəfər Xəndan, başqalarına qarşı: “– Siz nə üçün sağ qalmısız?» – kimi qərəzli sosial-psixoloji münasibət, yanaşma ədəbiyyatımızın tarixi və taleyi ilə bağlı yalnız aysberqin görünən hissəsini görməklə kifayətlənməyin, yəni alt qata enə bilməməyin, bu iqtidarda olmamağın, ya da enmək istəməməyin nəticəsidir.

Ona görə də bu gün dövrün ədəbiyyatı da, ədəbi prosesi də, mühiti də mətbuatdan, arxiv materiallarından öyrənilməlidir – buna söz yox, onsuz da, təkrar edirəm, yazıya pozu yoxdur, ancaq olanlarla, köhnə təbirlə desəm, vaqeələrlə bağlı ədəbiyyata, sənətə, elmə: « – Sən nə üçün sağ qalmısan?» ovqatı ilə hücum etmək heç vəchlə doğru deyil.

Bəli, o dövrlə bağlı bəzən ağrılı (və prinsipial!) suallar meydana çıxır və şübhəsiz ki, bu suallara təmkinlə, hissə qapılmadan, yüz ölçüb, bir biçməklə cavab vermək elmi və mənəvi borcdur. Baxın, bu gün Azərbaycan ədəbiyyatşünaslığı bu tipli məsələləri qaldırır və cavab tələb edir: “Məsələn, 1939-cu ildə Əli Nəzmi və Əmin Abid Mirzə Fətəli Axundzadənin fəlsəfi əsərlərini toplayıb, çap ediblər. Araşdırın, baxın görün o əsərlər kimin adından çap olunub? Çobanzadənin Füzuli haqqında əsəri kimin adı ilə işıq üzü görüb?” **(Professor Nizaməddin Şəmsizadə. “Mənə Puşkini verin, mən də Belinski olum”,**

**“Xalq qəzeti”, 20 dekabr 2023.)** Təkrar edirəm, cavab impulsiv, kinli-küdurətli, təşəxxüslü yox, ədəbi, obyektiv və Cabbarlının qəhrəmanının dediyi kimi, “sübutalnı-dokumentalnı” olmalıdır.

Hələ cavan yaşlarımda, aspirant ikən kitabxanada 1937-38-ci illərin mətbuatını vərəqlədikcə, məndə elə bir təəssürat yaranırdı ki, elə bil, söhbət Azərbaycandan yox, sürrealist bir dünyadan gedir və elə o cavanlıq çağlarımda «Kommunist» qəzetindən – rəhbər partiya orqanından! – dəftərçəmə köçürtdüyüm bu folklor nümunələrinə baxın:

***Əziz Şmidti göndərdin uzaq ellərə,***
***Təyyarə ilə uçdu bələd oldu yollara,***
***Sancdılar al bayrağı buzlu dağlara,***
***Xaricilər düşdü haldan-hala, Stalin.***
*(Aşıq Avak)*

***Stalin marşurutu, səni min yaşa,***
***İgidlər planını çatdırdı başa,***
***Lenin ordenini taxdılar döşə,***
***Hər biri korpusa komandir oldu.***
*(Aşıq Mirzə)*

***Oxudum qəzetdə, mən oldum hali,***
***Terrorçu salmış qeyli-qali,***
***Casus, ziyançı o kəs xəyali***
***Məhv etdin, dağıtdın, yaşa Stalin!***
*(Aşıq Əsəd)*

Əgər siyasi-inzibati nadanlıq və vəhşilik hətta xalqın folklorunu cəmi bir-iki ildə bu cür bərbad hala salmışdısa, bunun axırı nə ola bilərdi? Bunu da deməliyəm ki, belə bir ədəbi biabırçılıq yalnız Azərbaycan deyil, bütün başqa respublikaların da ədəbiyyatı və folklorunda yayılan, inkişaf edən xərçəng hüceyrələri idi.

Və elə bil, bu absurd misralar qrafoman makulaturası yox, elə həmin sürrealist dünyanın nəğmələridir və bu sürrealist dünyanın region rəhbəri – Mixail Bulqakovun Pontiy Pilatı kimi prokurator-hakimi isə Mir Cəfər Bağırov idi (bəlkə də başqa cür deyək: bu, rəhbərlik Mir Cəfər Bağırovun bəxtinə yazılmışdı?).

## *4 .*

Mən belə bir maraqlı fakta rast gəldim ki, Mir Cəfər Bağırov 1937-ci il iyulun 1-də Stalinin qəbulunda olub və 40 dəqiqə çəkən bu görüşdə o zaman Xalq Komissarları Sovetinin sədri (Baş nazir) Vyaçeslav Molotov da iştirak edib. Nə barədə söhbət olub-olmayıb – məlum deyil, ancaq maraqlı dediyim burasındadır ki, məhz həmin görüşün səhəri, yəni iyulun 2-də Siyasi Büro (Stalin) yəqin ki, dünya dövlətçiliyində və kargüzarlığında ən qara sənədlərdən birini, birincilərdən birini – «antisovet elementləri» haqqında qərar qəbul edir.

Elə həmin gün də bu qərar İosif Stalinin imzası ilə müttəfiq respublikaların, bütün vilayətlərin rəhbərlərinə göndərilir və həmin qərara görə «antisovet elementlər»i dərhal güllələmək, eləcə də konslagerlərə göndərmək səlahiyyətinə malik üç nəfərdən ibarət «Üçlük» («Troyka») institutu təsis edilir. Stalinin teleqramına əsasən «Üçlük»lərin tərkibi və güllələnəcək, eləcə də konslagerlərə göndəriləcək, sürgün ediləcək insanların kvotası (güllələnmə və sürgün cədvəli) tərtib edilib, beş gündən gec olmayaraq, təsdiq üçün Moskvaya, MK-ya göndərilməli idi.

İyulun 1-də Mir Cəfər Bağırovla Stalinin görüşü zamanı bu qərar müzakirə olunubmu-olunmayıbmı – indi bu barədə yalnız güman söyləmək olar, fakt isə budur ki, bir neçə gündən sonra Siyasi Büro Mir Cəfər Bağırovun Bakıdan göndərdiyi təklifləri qəbul edir: Azərbaycan Respublikasının Yuvelian Sumbatov-Topuridze sədr olmaqla Teymur Quliyev və Cahangir Axundzadədən (bu partiya xadiminin özü də bir neçə aydan sonra «xalq düşməni» kimi güllələnib) ibarət «Üçlük»ü təsdiq edilir və ilkin olaraq 1000 (min) nəfərin güllələnməsi, 3000 (üç min) nəfərin isə sürgünə göndərilməsi limitləşdirilir.

Onu da deyim ki, Siyasi Büronun həmin iclasında bu şeytani limitlər yalnız Azərbaycanla bağlı yox, SSRİ üzrə bütün yerlərdəki partiya rəhbərlərinin təklifləri təsdiq edilmişdi. Misal üçün, Ermənistana güllələnmə üçün ilkin olaraq 500 (beş yüz), sürgün üçün 650 (altı yüz əlli) limit müəyyən edilmişdi, Zaqafqaziyada ən yüksək rəqəmlər isə Gürcüstana (Stalinin vətəninə!) aid idi: güllələnmə 1419 (min dörd yüz on doqquz), sürgün – 1562 (min beş yüz altmış iki). Ancaq Siyasi Büronun qərarından sonra da bu ilkin limitlərə yenidən baxılmış və onlar «NKVD»-də dəyişdirilmişdir: Azərbaycanda güllələnmə limiti 1500-ə (min beş yüzə), sürgün limiti isə 3750-yə (üç min yeddi yüz əlliyə) qaldırılmışdır.

İnsan həyatı ilə tam bir özbaşınalıq, dərəbəylik hadisəsi olan bu «Üçlük» cəlladlığı hələ Vladimir Lenin zamanı Sovet İttifaqı, o cümlədən də Azərbaycan tarixi üçün yeni bir hadisə deyildi və 1921-ci ilin əvvəllərində Azərbaycanda yeni hakimiyyətin qurulduğu və möhkəmləndiyi dövrdə «əksinqilabçılara» qarşı təcili tədbirlər görmək üçün Azərbaycanda fövqəladə səlahiyyətli «Üçlük» yaradılmışdı. Bu «Üçlük» Zaqafqaziya Sərhəd Dairəsinin rəisi Vladimir (Volf) Qureviçin sədrliyi ilə (bu adam artıq haqqında bəhs etdiyim həmin cəllad Mixail Frinovskinin bacısının əri idi) Mir Cəfər Bağırov və Pavel Qnesindən ibarət idi. Məxəzlərin göstərdiyinə görə, təxminən 5 il fəaliyyət göstərmiş bu «Üçlüyün» qərarı ilə 67 452 (altmış yeddi min dörd yüz əlli iki) insan güllələnmişdi – bu da tariximizə yazılmış və qismən də Mir Cəfər Bağırovun adı ilə bağlı qara bir rəqəmdir.

Mən dedim ki, qələm adamlarının bəzi çağırış və donos məqalələri xəcalət hissi doğurur, ancaq Mir Cəfər Bağırov 1937-ci il iyunun əvvəllərində, artıq Böyük Terrorun başlandığı bir vaxtda partiya qurultayının yüksək tribunasından «Yazıçılar İttifaqının bu gün belə öz sıralarını Seyid Hüseyn, Salman Mümtaz, Yusif Vəzir, Sanılı, Hüseyn Cavid və başqaları kimi qəddar burjua millətçilərindən təmizləmədiyi faktdır!» deyirsə, Talıblını, Şahbazini, Əli Nazimi, Əhməd Cavadı «xalq düşməni», Hüseyn Cavidi «qəddar müsavatçı» adlandırırsa, bu –

artıq hökmdür, yerinə yetirilməli güllələnmə, gedərgəlməzlik hökmüdür və yerinə yetirilir də. Daha burada xəcalətə yer yoxdur, bu – fəlakətdir.

Sistemin repressiyalarında elə bir cəldlik var idi ki, dərhal işə düşürdü, yəni güllələnən təcili güllələnir, konslagerlərə, Sibirə, Qazaxıstanın soyuq və kimsəsiz çöllərinə göndərilənlər təcili yük vaqonlarına doldurulurdu və bu repressiyaların əsasında patoloji yalan, iftira, saxtakarlıq dururdu. Rəsmi orqanlar Mikayıl Müşfiqin güllələnməsini gizli saxlayıb və yaxınlarına ünvanlanan məktubda ona 10 il iş verildiyini bildirmişlər, ancaq yalnız 50-ci illərin əvvəllərində məlum oldu ki, onu 1938-ci il yanvarın 6-da Nargin adasında ayağına daş bağlayaraq, güllələyib dənizə tullayıblar. Müşfiqin həyat yoldaşı Dilbər Axundzadə 70-ci illərdə hərdən Yazıçılar İttifaqına gəlirdi və bir dəfə mənimlə söhbətində dedi ki, biz axıracan elə bilirdik Mikayıl sağdır. Bunu da deyim ki, Müşfiqdən sonra Dilbər xanımın özünü də həbs edirlər və o zaman bu zərif qadının 23 yaşı var idi.

Bəyəm Mir Cəfər Bağırovun bu qeyri-insani və qəddar saxtakarlıqlardan xəbəri yox idi? Əlbəttə var idi.

Mən uşaq vaxtlarından yaxşı xatırlayıram ki, bizim evə gəlib-gedən yazıçılar – İlyas Əfəndiyevin az saylı qələm dostları – etibarlı, məhrəmanə söhbətlərində KQB-nin binası dəniz kənarına yaxın olduğu üçün, ora «Dəniz qırağı» deyirdilər («filankəs «Dəniz qırağı»nın adamıdır...»), Mir Cəfər Bağırova isə «Dördgöz» deyirdilər və bu, ancaq onun eynək taxması ilə bağlı deyildi – «Dördgöz», yəni gözündən heç nə yayınmayan, hər şeyi görən, ancaq eyni zamanda, yəqin ki, bu «dördgöz»lükdə təhtəlşüur olaraq, nağıllarımızdan gələn bir dev, dördbaşlı əjdaha baxışları da ifadə olunurdu.

Müşfiqdən əvvəlki nəslə mənsub Əhməd Cavad qəddarlıq və kəmfürsətliklə Novruz bayramı günü Yazıçılar İttifaqından çıxarılmış, sentyabrda isə güllələnmişdi və ona qarşı əsas ittihamlardan biri də Türkiyədə şeirlərinin çap olunması idi, arvadı Şükriyə xanım isə acar knyazı Süleyman Becanın qızı idi. Şükriyə xanım uzun illərin sürgününü yaşadı, qızı və oğlanları da min bir məşəqqətlə böyüdü. Onların oğlu, rəhmətlik Yılmaz mənə danışırdı ki, atamızın güllələndiyini biz ancaq Xruşşov zamanı bildik. Sonralar isə məlum oldu ki, Əhməd Cavad heç güllələnməyib də, sadəcə (?!) «NKVD»-nin zirzəmisində dindirmə zamanı o qədər döyülüb ki, elə orada da bu işgəncələrdən vəfat edib.

Bir halda ki, söz yazıçılardan düşdü, mən maraqlı bir epizodu da qeyd etmək istəyirəm və bu epizodu mən rəhmətlik Əli Vəliyev haqqında yazdığım xatirə-portretdə də söyləmişəm, ancaq elə bilirəm ki, burada da yerinə düşər.

Mir Cəfər Bağırova cavab qaytarmaq, onun sözünün üstündən söz demək – bu, mümkün olan bir iş deyildi və mən başqa sahələri bilmirəm, ancaq yazıçılar arasında ilk və son dəfə Əli Vəliyev ona cavab qaytarıb. Müharibə təzəcə qurtaran vaxtlar Bağırov yazıçıların müşavirəsini çağırır və İlyas Əfəndiyevi də cavan yazıçıların nümayəndəsi kimi (o, 1940-cı ildən Yazıçılar İttifaqının üzvü idi) həmin müşavirəyə dəvət edirlər.

İlyas Əfəndiyev danışırdı ki, sir-sifətindən qəzəb yağan Mir Cəfər (məhrəm söhbətlərdə ona Mir Qəzəb də deyirdilər) müşavirə başlayar-başlamaz, Səməd Vurğunun son illər yaradıcılığını, fəaliyyətini kəskin tənqid edir və müşavirəni də

buna görə çağırdığını deyir. Bundan sonra o dövrün tanınmış yazıçı-şairlərinə bir-bir söz verərək, münasibət bildirməklərini tələb edir və çıxış edənlər də kimisinin əlinə fürsət düşdüyü üçün, kimisi də qorxusundan Səmədi tənqidə başlayır.

Mən ad çəkmək istəmirəm, çünki o dövrün koloritini bir daha hiss etmək üçün o rəhmətliklərin adlarını çəkib, ruhlarını incitməyə ehtiyac yoxdur – o müşavirənin aurası Qorxu, həyəcan, xof, özünü qoruma (saxlama) instinktindən ibarət idi. Vaxtıyla İlyas Əfəndiyev bu hadisəni danışanda, mən qeyd etmişdim və arxivimdə axtarıb tapıb, söhbətin ardını uzaq 14 fevral 1967-ci il tarixli o qeydlərdə yazdığım kimi də təqdim edirəm:

«Bağırov sözü Əli Vəliyevə verəndə, o da: « – Düzdür, yoldaş Bağırov, – dedi. – Səməd Vurğunun nöqsanları var, amma o, böyük talantdır». Bağırov qəzəblə onun sözünü yarımçıq kəsib, xüsusi vurğu ilə dedi: « – Talant idi!» Birdən Əli Vəliyev Bağırova baxa-baxa gözlənilmədən uca səslə: « – Xeyr! – dedi. – O, indi də talantdır!» və üzünü yana çevirib, eləcə dik dayandı. Araya elə bir sükut çökdü ki, elə bil, adamlar heç nəfəs də almır. Bağırov qalın eynək şüşələrinin arxasından gözlərini Əli Vəliyevə zilləmişdi, adama elə gəlirdi ki, bu saat mizin üstündə nə varsa, hamısını Əli Vəliyevin üstünə çırpacaq, ancaq bir müddət heç nə demədi, sonra ayağa qalxdı. Onun əllərində ekzema var idi, qaşındığı üçün hərdən əlinə bir dəstə karandaş alıb, ovuclarında bir-birinə sürtürdü. Bu dəfə də əlinə bir dəstə karandaş alıb, ovuclarında şaqqıldada-şaqqıldada var-gəl etməyə başladı, sonra üzünü eləcə tribunada dayanıb qalmış Əli Vəliyevə tutub, saktit səslə: « – Keç otur» dedi, sözü də başqasına yox, elə Səmədin özünə verdi. Səməd çox təsirlənmişdi, tribunaya çıxanda bir az kövrəldi. Bağırov tamam mülayim bir səslə: « – Yaxşı, özünü ələ al, – dedi. – Bu tənqidlərdən nəticə çıxarmaq lazımdır.» Əli Vəliyevin eləcə söz qaytarmağı, Mir Cəfəri əməlli-başlı yumşaltmışdı.»

Bunları yazıram və fikirləşirəm: Mir Cəfər Bağırov kommunist idimi?

Söhbət onun neçənci ildən partiyaya üzv olmasından, kimlərin ona zəmanət verib-verməməsindən getmir (istintaq zamanı da, məhkəmədə də bu barədə xeyli sorğu-sual olmuşdu), söhbət əqidədən, sidq-ürəkdən gələn inamdan və bağlılıqdan gedir və mən bu suala da birmənalı cavab verə bilmirəm.

Mir Cəfər Bağırov və Lavrenti Beriya SSRİ respublikaları arasında yeganə iki partiya rəhbərləri idi ki, 1930-cu illərin əvvəllərindən Birinci katib kimi fəaliyyətə başlamış və 37-38-dən sağ çıxmışdılar (Nikita Xruşşov 1938-ci ildə müvəqqəti Ukraynaya göndərilmişdi, sonra da yenidən Moskvaya çağırıldı, eyni zamanda Politbüronun üzvü idi; Qriqor Arutinov 1937-də bu vəzifəyə gətirilmişdi və s.). Stalin Bağırovu güllələmədi ona görə yox ki, onunla münasibəti var idi. Stalin o tiran idi ki, Şərqdə də, Qərbdə də ən yaxın qohumlarını da güllələdir, qalanlarını da sürgünə göndərirdi və bu mənada o, tarixdə atalarını, qardaşlarını, övladlarını öldürən, onların gözlərini çıxartdıran, ən yaxın dostlarını, silahdaşlarını zəhərləyən imperatorların, şahların, sultanların varisi idi, dostluq, qohumluq Stalini heç bir mənəvi-insani öhdəliyə məcbur etmirdi.

Görünür, Stalin Mir Cəfər Bağırovun yüksək işləmək iqtidarını, tapşırıqları yerinə yetirmək bacarığını, çalışmaq qabiliyyətini qiymətləndirirdi və bu, Stalin

üçün çox səciyyəvi bir cəhət idi. Onun irəli çəkdiyi, birgə işlədiyi Molotov, Kaqanoviç, Malenkov, Mikoyan, Xruşşov, Beriya, Kuybışev, Jdanov, Bulqanin, Şerbakov və başqaları faydalı, yaxud bəd əməllərinə baxmayaraq, yüksək iş qabiliyyətinə, təşkilatçılığa malik, gecə-gündüz işləyən adamlar idi və inqilabdan sonra geridə qalmış aqrar, ac-yalavac bir ölkənin qısa müddətdə super imperiyaya çevrilməsi onların zəhmətinin, partiya (Stalin) qarşısında məsuliyyətinin nəticəsi idi. Hətta 1930-cu illər repressiyalarının qəddarlığı və kütləviliyi də bu repressiyaları təşkilatlandıran və icra edən Henrix Yaqoda və Nikolay Yejov kimi yırtıcıların yüksək iş qabiliyyətlərinin (qara istedadlarının!) sayəsində əldə olunurdu. Mir Cəfər Bağırov beş dəfə Sovet İttifaqının ən yüksək Lenin ordeni ilə təltif edilmişdi, bir çox başqa orden və medallar almışdı və Stalin o rəhbər deyildi ki, kimisə, xüsusən də yüksək vəzifəli partiya işçisini şəxsi münasibətə görə bu cür qiymətləndirsin.

Əgər Lavrenti Beriya 32 yaşında Zaqafqaziya Partiya Təşkilatının, eyni zamanda Gürcüstan KP MK-nın birinci katibi olursa, yaxud Anastas Mikoyan 25-26 yaşlarında artıq Rusiyada böyük bir vilayət partiya komitəsinə rəhbərlik edirsə, 31 yaşında SSRİ-nin Daxili və Xarici Ticarət komissarı (naziri) vəzifəsində işləyirsə, yaxud da Lazar Kaqanoviç elə o yaşlarında artıq Kremldə MK katibi seçilirsə və bu adamlar bu cür böyük, ciddi, məsuliyyətli və miqyaslı vəzifələrin öhdəsindən gəlirlərsə, elə bu cür səciyyəvi göstəricilər Stalin əsabələrinin bacarığından və yüksək iş qabiliyyətlərindən xəbər verir. Azərbaycan ərazisinə və əhalisinə görə böyük Sovet respublikalardan biri olmasa da, Mir Cəfər Bağırov məhz bu tipli Sovet partiya və dövlət xadimləri arasında, həm də ön sırada idi.

1938-ci ildə Moskvada Azərbaycan incəsənət dekadası keçirildi və dekada bitdikdən sonra Stalinin iştirak etdiyi qəbulda SSRİ Komissarlar Sovetinin sədri Vyaçeslav Molotov badə qaldırıb: « – Azərbaycan bolşeviklənininin rəhbəri yoldaş Bağırovun şərəfinə!» – sağlıq deyirdisə, bu, şübhəsiz ki, Mir Cəfər Bağırovun nüfuzunun və yalnız Molotovun yox, Stalinin də ona münasibətinin ifadəsi idi, çünki Molotov Ctalinin Bağırova yaxşı münasibət bəslədiyini bilməsəydi, heç vaxt belə bir sağlıq deməzdi.

Yeri düşmüşkən deyim ki, həmin qəbulda Stalinin şərəfinə sağlığı isə Mir Cəfər Bağırov özü yox, onun tapşırığı ilə Üzeyir bəy Hacıbəyov söyləmişdi və bu tapşırıq isə şübhəsiz ki, Üzeyir bəyin Sistemin nəzərində tamam bərbad (ölümcül!) bioqrafiyası müqabilində onu qorumaq, onun mövqeyini daha da möhkəmlətmək istəyinin ifadəsi idi. O zaman yarımca addım kifayət idi ki, Sistem Üzeyir bəyi cəhənnəm yarğanına tullasın – Üzeyir bəy ADR-in nəşrə başladığı rəsmi (dövlət) qəzetin redaktoru idi, o qəzetin ki, orada bircə cümləsi dərc edilmiş insanları belə, ən aşağısı Sibir çöllərinin çovğunu-qasırğası gözləyirdi və ADR üçrəngli müstəqillik bayrağını ucaldanda, o bayrağı “Sarsılmaz bayrağımız!” – deyə “Azərbaycan”da alqışlayan da Üzeyir bəy olmuşdu. Hələ mən orasını demirəm ki, Üzeyir bəyin doğma qardaşı, Fransada yaşayan siyasi mühacir Ceyhun bəy Hacıbəyli Sovet İttifaqının ən aktiv və barışmaz əleyhdarı (“qəddar düşməni”) idi. Belə bir, dediyim kimi, ölümcül bio-

qrafiya sahibinin salamat qalması, əlbəttə, möcüzə idi və bu möcüzənin müəllifi Mir Cəfər Bağırov idi.

Bəzən elə bir təəssürat yaranır ki, Stalində qeyri-xristian Qafqaz və Sibir xalqlarına qarşı siyasi etimadsızlıq kompleksi var idi və elə təkcə bir faktı – Qafqaz xalqlarının, yaxud Krım tatarlarının, eləcə də on minlərlə azərbaycanlıların sürgün olunması, müharibədən sonra isə yüz mindən çox azərbaycanlının vaxtı ilə Ermənistana verilmiş doğma torpaqlarından Azərbaycana köçürülməsi və s. xatırlamaq olar. Yeri düşmüşkən, xatırlayıram ki, bizim görkəmli yazıçımız Məmməd Oruc «Köçürülmə» romanında bu sürgün məşəqqətlərini dəqiq və yaxşı bir bədiiliklə təsvir edib. Ancaq bu gün son illərdə ən populyar sovetoloqlardan (stalinçilərdən) biri olan İqor Pıxalov kimi bəzi müəlliflər hətta bu vəhşi köçürülmələrə (didərginçiliyə) də haqq qazandırır.

İqor Pıxalov müharibə vaxtı işğal olunmuş Krımda dərc edilən hansısa bir əyalət qəzetində faşist Almaniyası və şəxsən «Adolf Hitler əfəndi» haqqında xoş sözlər yazılmış bir məqaləyə istinad edərək, Krım tatarlarının kütləvi sürgününə bəraət qazandırır. **(Игорь Пыхалов. За что Сталин выселял народы?, Москва, Яуза, 2010, стр. 77.)**

Əgər bir nəfərin «Adolf əfəndi» dediyi üçün bütün Krım tatarları amansızcasına sürgün olunmalıdırsa, o zaman əsir düşdükdən conra 125 minlik rus ordusu yaradıb, «Adolf əfəndinin» bayrağı altında Sovet İttifaqı ilə ölüm-dirim döyüşünə başlamış məşhur Andrey Vlasov, eləcə də Pyotr Krasnov, Fyodor Truxin, Vasili Malışkin, Aleksandr Budıxo və başqa rus sovet generallarına görə rus xalqı cavab verməlidir? Bir sıra Sovet İttifaqı qəhrəmanları, hətta iki dəfə Sovet İttifaqı qəhrəmanları olan Bronislav Antilevski, Semyon Bıçkov kimi rus sovet zabitləri də əsir düşdükdən sonra SSRİ-yə qarşı vuruşublar və bunun intiqamını rus xalqından almaq lazımdır? Hələ mən orasını demirəm ki, müasir Rusiyada Dövlət Dumasının deputatı general Krasnova abidə ucaltmaq barədə qərar layihəsi hazırlayır, Moskvanın keçmiş meri Qavriil Popov isə general Blasovu "demokratiya uğrunda mübariz" adlandırır və Vlasovun şərəfinə memorial yaratmağı təklif edir. **(Bax: Леонид Млетин. Нож в спину. История предательства, Москва, Центрполиграф, 2-14, стр. 79.)**

Biz deyəsən yenə uzaqlara gedirik…

Stalinin vəfatına qədər davam edən Mir Cəfər Bağırov epoxası rəhbərin ona etibarının və şübhəsiz ki, Bağırovun özünün bacarığının, qabiliyyətinin, işgüzarlığının, tapşırıqları dərhal artıqlaması ilə yerinə yetirməsinin, aşkar görünən bolşevizminin nəticəsi idi.

Mir Cəfər Bağırov 1927-ci ildə Azərbaycanda inzibati orqanlara rəhbərlikdən uzaqlaşdırılaraq, Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin rəisi təyin edilir və o zaman Məhəmməd Əmin Rəsulzadə Türkiyədə nəşr edilən «Yeni Qafqasiya» jurnalında acı bir sarkazm ilə məşhur sözlərini yazmışdı: «Azərbaycan xalqının cəlladı Bağırovu Su Təsərrüfatına başçı qoymuşlar, zənn edirəm ki, Zaqafqaziya çaylarının suları Azərbaycan oğullarının qanına bulaşmış əllərini yuyub təmizləməkdə ona kömək edəcəkdir…» **(Bax: «Odlar yurdu» qəzeti, № 17, sentyabr, 1988.)** Mir Cəfər Bağırov isə, öz növbəsində Məhəmməd Əmin

Rəsulzadəni "Azərbaycan xalqının cəlladı" adlandırır. **(Вах: Эльдар Исмаилов. История «большого террора» в Азербайджане, Москва, РОССПЕН, 2015, стр. 100.)**

Ancaq Mir Cəfər Bağırovun bu kənarlaşdırılması iki ildən çox çəkmir və Stalin 29-cu ilin avqustunda Vyaçeslav Molotova məktub yazır: «Bağırovu (əvvəlki günahlarına baxmayaraq), Azərbaycan Çekasının sədri təyin etmək lazım olacaq: indi o, yeganə adamdır ki, Azərbaycan kəndlərində baş qaldırmış müsavatçıların və ittihadçıların öhdəsindən gəlməyi bacaracaq. Bu, ciddi məsələdir və bu yerdə zarafat etmək olmaz.» (Elə burada qeyd edim ki, Stalin «baş qaldırmış müsavatçılarla» birlikdə ittihadçıların da adını çəkir, Lavrenti Beriya isə gündəliklərində yazır ki, 1920-ci illərin əvvəllərində «Azərbaycanda İttihadı darmadağın etdim.» **(Лаврентий Берия. «Без Сталина России не быть!», Тайный архив Берии, Москва, «Яуза-Пресс», 2012, стр. 28.)**

Stalinin Molotova məktubundakı təklifi əslində təlimat və tapşırıqdır – «çekistlərin sədri» kimi onun vəzifəsi dəqiq müəyyənləşdirilir və görünür, Mir Cəfər Bağırov yüksək etimadı doğrultduğu üçün (bəlkə də Stalinin əvvəlcədən düşündüyü plana əsasən), qısa bir müddətdən sonra Moskvaya çağırılır: iki il ÜK(b)P MK-nın yanında marksizm-leninizm kurslarının dinləyicisi olur və bu kursları bitirdikdən sonra yenə də Stalinin təşəbbüsü ilə Moskvada MK aparatında məsul təlimatçı vəzifəsinə, bir neçə aydan sonra isə Azərbaycan Xalq Komissarları Sovetinin sədri, bir ildən də sonra KP MK-nın birinci katibi vəzifəsinə təyin edilir.

O zaman Mir Cəfər Bağırovun 38 yaşı var idi və bu cavan adamın bu dərəcədə sürətli karyerası («əvvəlki günahlarına baxmayaraq»!), heç şübhəsiz ki, bilavasitə kadr məsələlərinə çox həssas yanaşan Stalinin ona münasibətinin ifadəsi idi. Bura orasını da əlavə etsək ki, Moskva rəhbərliyində Bağırovun əleyhinə işləyən Lev Mexlis, yaxud Anastas Mikoyan kimi saray intriqa ustaları, Stalinə yaxın nüfuzlu şəxslər var idi, o zaman Stalinin Mir Cəfər Bağırova inamının və etibarının nə qədər yüksək olduğunu təsəvvür etmək mümkündür. Düzdür, 1930-cu illərin sonlarından etibarən Bağırovun Lavrenti Beriyanın timsalında güclü Kreml dayağı var idi, ancaq biz bilirik ki, Stalin üçün əsas özünün qənaəti, özünün təəssüratı idi.

Lavrenti Beriya və Mir Cəfər Bağırov başqa müttəfiq respublikaların rəhbərləri kimi yerli «NKVD»-dən asılı deyildilər, onlar müttəfiq respublikalar arasında yeganə partiya rəhbərləri idi ki, yerli «NKVD»-ləri tam şəkildə özlərinə tabe etmişdilər və əslində, Azərbaycanda da, Gürcüstanda da "NKVD" – elə onların özü, güclü və sərt, amansız xarakterə malik Mir Cəfər Bağırov və Lavrenti Beriya idi.

Mir Cəfər Bağırovun uzun illər boyu maqnit kimi hakimiyyətinin əsas səbəbi onda idi ki, o, Azərbaycan Sovet Sosialist Respublikasını tam şəkildə ələ almağı, buradakı dəmir qayda-qanunu Sistemin şəksiz dayağına çevirməyi bacarmışdı və görünən budur ki, Stalin bunu qiymətləndirirdi. Bağırov hakimiyyət uğrunda mübarizədə köhnə və nüfuzlu bolşeviklərdən Trotski, Zinovyev, Kamenyev kimi Stalinə rəqib deyildi, milliyyətcə rus olan Buxarin, Kirov, Rıkov kimi gürcü

Cuqaşvilinin qarşısını kəsə biləcək potensial etnik-siyasi fiqurlar da deyildi. Mir Cəfər Bağırov vəzifə baxımından Malenkov, Xruşşov, Beriya, Jdanov, Kaqanoviç kimi Stalinin onlardan aşağı kaliberli yetişdirməsi idi. Düzdür, Stalin Aleksey Kuznetsov, yaxud Nikolay Voznesenski kimi yetişdirmələrini əvvəlcə Kremlə gətirdi, sonra da çox keçmədi ki, güllələtdirdi, ancaq onlar Siyasi Büroda (yəni partiya-dövlət rəhbərliyində) nüfuz və səlahiyyətlə bağlı Stalindən sonrakı ikinci yerə yiyələnməkdən ötrü digər Stalin yetişdirmələri (elə həmin Malenkov, Beriya, Xruşşov, Kaqanoviç, Bulqanin) ilə rəqib idilər və Kuznetsovun da, Voznesenskinin də karyeralarının (və özlərinin) sürətlə məhv olmasında da saray intriqaları öz rolunu oynadı. Mir Cəfər Bağırov isə kənarda idi, bütün şəksiz bacarığı, təşkilatçılıq istedadı, xarakteri ilə nəinki effektlə Sistemə qulluq edirdi, o, Azərbaycanda bu Sistemi bəlkə də ümumsovet göstəricisindən yüksək mərtəbəyə qaldırmışdı.

Mən Bağırov hakimiyyətiylə bağlı «maqnit» sözünü işlətdim: bu hakimiyyət «xalq düşməni» kimi ifşa eləmək istədiyi, güllələyəcəyi, ya da gedərgəlməzə göndərəcəyi insanı canının qorxusundan hara qaçırsa qaçsın, harda gizlənirsə gizlənsin, maqnit kimi dartıb, özünə çəkərək istədiyini edəcəkdi.

Mir Cəfər Bağırov fanatik kommunist kimi fəaliyyət göstərirdi, korrupsiyanın düşməni idi, ancaq eyni zamanda onun vaxtında kolxozlarda pambıq, ya yun planını doldurmaq üçün kəndlinin yorğanının, döşəyinin yununu, pambığını çıxarırdılar və mən bunu uşaq, yeniyetmə vaxtlarımda Füzulidə elə həmin kənd camaatının dilindən, onların İlyas Əfəndiyevlə söhbətlərindən eşitmişəm. Yuxarıda yazdım ki, Mir Cəfər Bağırov korrupsiya baxımından təmiz adam idi və o, həqiqətən, rüşvətə, maliyyə maxinasiyalarına qarşı amansız idi, ancaq planı doldurmaq naminə kəndlinin yorğan-döşəyini söküb aparmaq dolayısı yolla korrupsiya deyilmi? Düzdür, bunu kolxoz, uzaqbaşı, raykom səviyyəsində məmurlar edirdi, ancaq dediyim kimi, Respublikada milçək uçsaydı belə, xəbərdar olan Mir Cəfər Bağırov bundan xəbərsiz idi? Əlbəttə yox.

Bağırovun Azərbaycana rəhbərlik etdiyi dövr kontekstində, əslində, «rəhbərlik» məfhumu həmin 1933-1953-cü illər arasındakı dövrü tam şəkildə ehtiva etmir, çünki mülkədar öz şəxsi torpağının, yaxud sahibkar öz şəxsi fabrikinin necə sahibi idisə, Stalin də eləcə SSRİ-nin sahibi idi və Bağırov da həmin Stalin sahibliyi daxilində nə qədər maksimum sahib olmaq mümkün idisə, o dərəcədə də Azərbaycanın sahibi idi. Belə eybəcər dövlət idarəçiliyini Sistem yaratmışdı və Mir Cəfər Bağırov da bu münbit zəmindən tam şəkildə istifadə (və sui-istifadə!) etməyi bacarmışdı.

Belə geniş bir fikir yaranıb ki, Bağırovla Lavrenti Beriya siyasət aləmində mümkün olmayan dərəcədə səmimi dost olublar və onların həyat yoluna baxanda bu fikrin həqiqət olduğu şübhə doğurmur.

Roman Rudenko Beriyanı dindirərkən soruşur: « – Bağırovla münasibətiniz necə idi?» Beriyanın cavabı: « – Yaxşı. Mən Bağırovu partiyaya ən sadiq adamlardan biri hesab edirəm. Bir-birimizin evinə gedib-gəlirdik.» Beriyanın həbsindən sonra həbs və sürgün həyatı yaşayan və 84 illik həyatının sonunacan ona sadiq qalan, onun haqqında deyilənlərin yalan olduğunu söyləyən arvadı

Nino Qeqeçkori də (məşhur menqrel-gürcü zadəgan nəslindən idi) dindirmə zamanı Mir Cəfər Bağırovla bağlı deyirdi: « – Biz çox yaxın idik. O, Moskvaya gələndə bizdə olur, biz Bakıya gedəndə onların evində qalırdıq.»

Beriyanı uşaqlıqdan tanıyanların söylədiyinə görə, o, Suxumi peşə məktəbində oxuyarkən, tarix müəllimi ona deyib: « – Sən ya Zəlimxan kimi qaçaq olacaqsan, ya da Fuşe kimi məşhurlaşacaqsan.»

Lavrenti Beriya o zaman bütün Gürcüstanda məşhur azərbaycanlı Zəlimxan kimi qaçaq olmadı, hersoq Jozef Fuşe qədər, Sovet İttifaqında isə Fuşedən qat-qat artıq məşhurlaşdı, ancaq Fuşe kimi öz əcəli ilə ölə bilmədi. Stalin epoxasının səriştəli tədqiqatçılarından biri Yelena Prudnikova Beriya haqqındakı (və Beriyaya tam bəraət qazandıran) monoqrafiyasında yazır ki, Mir Cəfər Bağırov 1921-ci ilin aprelində Azərbaycan Fövqəladə Komissiyasının («DTK»-nın – «KQB»-nin ilkin adı) sədri təyin edilərkən, etibarlı kadrlar seçib, ətrafına toplamağa başlayır və o vaxt Lavrenti Beriyanı da məxfi-operativ şöbə rəisinin müavini, sonra isə özünün müavini vəzifəsinə təyin edir. **(Е.А.Прудникова. Берия – преступления, которых не было, Санкт-Петербург, «Нева», 2005, стр. 62-63.)**

Bəzi məxəzlər isə Mir Cəfər Bağırovla Lavrenti Beriyanın dostluğunun 1916-cı ildən başladığını yazırlar və guya o zaman dörd gənc inqilabçı – Bağırov, Lavrenti Beriya, Vsevolod Merkulov və Yevgeni Dumbadze Bakıda tanış olaraq, gizli siyasi dərnək yaradır, marksist ədəbiyyatı öyrənir və təbliğ etməyə başlayır. Bu cavanları marksist ədəbiyyatla – Marksın, Engelsin, Plexanovun, Leninin, Trotskinin, Jordaniyanın əsərləri ilə guya «Avel əmi» deyə çağırdıqları Avel Yenukidze təmin edirmiş və 1920-ci ildə Serqo Orconikidze, Sergey Kirov və onlara qoşulmuş Anastas Mikoyan 11-ci orduyla Bakıya daxil olan gün Bağırov, Beriya, Dumbadze, Boqdan Kabulov və Vladimir Dekanozov Gənc Komunistlər Bürosu yaradırlar.

Azərbaycanda gənc Mir Cəfər Bağırovun bioqrafiyası bəzi qaranlıq məqamlara baxmayaraq, əsasən dəqiq tarixlərlə öyrənilib və bu deyilənləri təkzib edir, eyni zamanda Yevgeni Dumbadzenin xatirələrində də bu barədə heç nə deyilmir **(maraqlananlar internetdə tanış ola bilərlər: Е.Думбадзе. На службе чека и коминтерна, Париж, 1930),** ancaq mən bu versiya ilə bağlı belə bir tarixi faktı qeyd etmək istəyirəm ki, adları çəkilən həmin gənc inqilabçıların hamısı rəhbər vəzifəli tanınmış çekistlər oldu və mən bu çekistlərin gələcək həyatı ilə maraqlananda, məlum oldu ki, onları aşağı-yuxarı eyni tale gözləyirmiş: Sistem bu versiyada adı çəkilən romantik gənc inqilabçıların yeddisini də «xalq düşməni» kimi güllələdi. Stalinin yaxın ailəvi dostlarından biri, bir müddət bəlkə də birincisi olan Avel Yenukidze 1937-ci ildə güllələndi; Dumbadze 1930-cu illərdə xaricə qaçdı və 1941-ci ildə geri qaytarılaraq güllələndi; Stalinin vəfatından sonra Beriya, Merkulov, Boqdan Kabulov (çekist qardaşı Amayik ilə birlikdə – bu qardaşlar «NKVD» generalları və Tiflis erməniləri idi) və Dekanozov (Dekanozişvili – Bakı gürcülərindən idi; şahidlərə inansaq, güllələnməyə aparılanda özünü yerə yıxıb, sürünə-sürünə ağlayır və yalvarırmış) eyni vaxtda, Bağırov isə bir az sonra güllələndi.

Burasını da deyək ki, Lavrenti Beriya daxili işlər komissarı təyin edildikdən sonra, artıq dediyim kimi, Merkulovu, Kobulov qardaşlarını, Sergey Qoqlidzeni, Dekanozovu, Qvişianini və bir sıra başqa qafqazlıları özü ilə Moskvaya apararaq NKVD-nin rəhbər vəzifələrinə təyin etdi və hətta Siyasi Büro üzvlərinin belə ehtiyat etdikləri, qorxduqları bu adamlar Mir Cəfər Bağırovla da yaxın idilər. Yenə təkrar edirəm: bu amil onun SSRİ-nin partiya rəhbərliyindəki, Kremldəki nüfuzunun yaranmasında və artmasında az rol oynamayıb.

Vaxtı ilə Stepan Şaumyanın katibəsi olmuş Olqa Şatunovskaya yazır ki, Bağırovu Beriya ilə o tanış edib və guya Beriya 1920-ci ildə Bakıda təxribatçı kimi həbs olunub, Bağırov da onu həbsdən azad edib. Şatunovskayanın özü də 37-də «ifşa» olunanlardan və Nikita Xruşşovun qızğın anti-Stalin kampaniyasında fəal və həvəslə iştirak edənlərdən biri idi. Ola bilər ki, artıq yaşlaşmış və repressiyaya məruz qalmış bu qocaman bolşevik qadın Beriyanın da, Bağırovun da qarasına danışmaqla Nikita Xruşşova bir az yarınmaq istəyib.

1920-ci illərin əvvəllərində Mir Cəfər Bağırov Azərbaycan Baş Siyasi İdarəsinin («QPU») rəisi olduğu zaman Lavrenti Beriya onun tabeçiliyində işlədiyi vaxtlardan etibarən, görünür, onların arasında rəsmi rəis-əməkdaş münasibətindən artıq dərəcədə şəxsi və etibarlı dostluq münasibətləri yaranıb və sonralar Zaqafqaziya Federasiyası yaranarkən, Beriya Federasiya KP MK-nın birinci katibi olur, Bağırov isə artıq Azərbaycan KP MK-nın birinci katibi idi və onlar çox effektli şəkildə bir-birilərini müdafiə edirdilər.

Belə bir versiya var ki, 1937-ci ilin əvvəllərində Nikolay Yejov Beriyanın həbsi ilə bağlı Gürcüstan Daxili işlər naziri (narkomu) Qoqlidzeyə (sonralar Beriya ilə birlikdə güllələndi) order göndərir və bundan xəbər tutan Beriya təcili və gizli şəkildə Bakıya gəlir və Bağırovun köməyi ilə Moskvaya uçur.

Yulian Semyonovun yazdığına görə, Beriya Lazar Kaqanoviçin vasitəçiliyi ilə Stalinlə görüşməyə nail olur və bu görüşdən sonra Beriyanın ulduzu yenidən parlamağa başlayır. Yulian Semyonov, dediyim kimi, «KQB»-yə məhrəm bir yazıçı-publisist idi və onun söylədiyi bu hadisə bir də ona görə inandırıcı görünür ki, Lazar Kaqanoviçin böyük qardaşı Mixail Kaqanoviçin şərlənməsinin və intiharının əsas səbəbkarı Nikolay Yejov idi – çox güman ki, Beriya-Yejov qarşıdurmasında Kaqanoviç həmişə ehtiyatlı olsa da, belə bir mövqe tuta bilərdi.

Stalinin Mir Cəfər Bağırova, əgər belə demək olarsa, nisbi-isti münasibət bəsləməsində Beriyanın da rolu, görünür, az olmayıb və ayrı-ayrı faktlara, nüanslara fikir verəndə Stalin-Beriya-Bağırov arasında bu nisbi-isti münasibət hiss olunmaqdadır. Bağırov Sov.İKP MK-nın Beriyanın «ifşa»sına həsr olunmuş plenumdakı uğursuz çıxışında deyir ki, «bir dəfə Stalinlə Beriyagilə getmişdik» və ancaq elə Beriyanın evinə Bağırovun Stalinlə müştərək baş çəkməsi, əlbəttə, az söz demir.

Yeri düşmüşkən bir məsələni də qeyd etmək istəyirəm: belə bir tarixi fakt var ki, Beriya bir müddət Müsavata yerləşdirilmiş bolşevik agenti kimi fəaliyyət göstərib və 1920-ci illərin əvvəllərində mahiyyətə bələd olmayanlar onu əslində müsavat agenti hesab ediblər. Bu da maraqlı bir faktdır ki, Azərbaycan Demokratik Respublikası Əksinqilabla Mübarizə Təşkilatının rəisi (yəni Daxili

işlər naziri) Nağı bəy Şeyxzamanlı Lavrenti Beriya haqqındakı məqaləsində yazır: "Beriya sosialist kimi çar üsuli-idarəsinin qatı əleyhinə idi. İşimizə yarayacağını bildiyimizdən qəbul etmişdim. 21 yaşında ciddi görkəmli bir şəxs idi. Onu senzura şöbəsinə götürmüşdüm. Az sonra onun işinə çox can yandırdığını görüb şöbəyə şef təyin etdim. O, bir anası olduğunu və çox kasıb yaşadıqlarını mənə bildirmişdi. İdarədən aldığı maaş və ərzaqla maddi vəziyyətini bir az düzəldə bilmişdi. Təmiz işi, enerjisi, qafqazlı gürcü olması və ruslara qarşı son dərəcə nifrəti olması ilə özünü mənə sevdirmişdi. Xəzər dənizi yolu ilə limanımıza gələn paroxodların sərnişinlərindən ələ keçirdiyi məlumatları mənə ətraflı surətdə raport verirdi." **(Bax: Nağı Keykurin. Nağı bəy Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədaisi, Bakı, 2007, səh.72.)**

Əgər Beriya ADR-də həqiqətən bolşevik agenti kimi fəaliyyət göstəribsə, Nağı bəyi bu dərəcədə aldada bilibsə, deməli, lap gənc vaxtlarından mahir bir casus kimi cilddən-cildə girməyi bacarıb, yox, əgər o, ADR-in təhlükəsizlik orqanında Nağı bəyin dediyi kimi, əqidə və daxili bir saflıqla xidmət edibsə və birdən-birə 180 dərəcə dönərək, mətin bolşevik nüfuzu qazanıb, Sovet inzibati orqanlarına başçılıq edib, SSRİ-nin qüdrətli rəhbərlərindən biri olubsa, bu da onun böyük bacarığından, məharətindən və fitri vergisindən xəbər verir.

Nağı bəy Şeyxzamanlıdan başqa, ADR-in və ADR dövrünün Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə kimi məşhur simaları da Türkiyə mətbuatında Lavrenti Beriyanın ADR-dəki fəaliyyəti barədə yazıblar və ola bilərmi ki, “NKVD” bu yazılardan xəbər tutmasın? Bu barədə Stalinə məruzə edilməsin? Yaxud Nikita Xruşşov var gücü ilə Beriyaya qarşı hərəkətə gətirdiyi təbliğat maşınında nə üçün belə bir mühüm ifşaedici materialdan istifadə etməyib? Bu cür bir çox suallar ortaya çıxır.

Kremlin (ümumiyyətlə, tarixən sarayların!) siyasi mətbəxi cavabsız suallarla zəngindir.

Mən Stalin dövründən bəhs edən sənədli ədəbiyyatda belə bir fikrə də rast gəldim ki, guya Feliks Dzerjinski Beriyanın da, Bağırovun da vəzifədən azad edilərək, həbs olunmaları barədə əmr verib. Stalin məsələyə qarışıb və onlar öz vəzifələrində qalıblar, ancaq Yelena Prudnikova bu faktın həqiqət olmadığını yazır. **(Е.А.Прудникова. Берия – преступление, которых не было, Санкт-Петербург, «Нева», 2005, стр. 82-83.)**

Beriya haqqında başqa bir monoqrafiyanın müəllifi Boris Sokolov da bu faktı uydurma hesab edir və yazır ki, Serqo Orconikidze Beriyaya qarşı bu ittihamın yanlış olduğunu təsdiq edir, hətta Stalinin də bundan xəbərdar olduğunu bildirir. **(Борис Соколов. Берия – судьба всесильного наркома, Москва, «Вече», 2003, стр.25.)**

Ancaq başqa bir məşhur və nüfuzlu sovetoloq, professor Əbdürəhman Avtorxanov isə Lavrenti Beriya ilə birlikdə Mir Cəfər Bağırovun da həqiqətən müsavat agenti olduqlarını yazır və hər halda bu versiyaya da diqqətlə yanaşmaq lazımdır. Milliyyətcə çeçen olan Əbdürəhman Avtorxanov 1940-cı illərin əvvəllərində SSRİ-dən qaçmış və Avropada, ABŞ-da görkəmli sovetoloq-tarixçi kimi məşhurlaşmışdı. Onun Stalin, Beriya, ümumiyyətlə “Kreml mətbəxi”

haqqında yazdıqları elmi sovetologiyanın sanballı nümunələri sayılır və Avtorxanovun Beriya ilə Bağırov haqqında dedikləri məndə belə bir təəssürat yaratdı ki, onların ikili kəşfiyyat fəaliyyəti göstərmələri barədə ehtimalı bir kənara atmaq düzgün olmaz – bu ehtimalın tədqiqə ehtiyacı var. Bəlkə onların qarşılıqlı məhrəmliyi elə həmin müştərək gizlindən başlayıb?

Doğrusu, bu yazını işləyərkən, bu tipli suallar ortaya çıxdıqca, mənim fikrimdə trafaret bir cavab yaranıb: Hər şey ola bilər.

1953-cü il iyunun 26-da Siyasi Büronun iclasında (o zaman Rəyasət Heyəti adlanırdı) marşal Jukov başda olmaqla bir qrup hərbçi (bəzi məxəzlərə görə, guya general-mayor Leonid Brejnev də – gələcək Baş katib – onların arasında olub) Lavrenti Beriyanı həbs ediblər – bu, rəsmi versiyadır. Almaniya Demokratik Respublikasında qarışıqlıq olduğu üçün, Beriya Berlinə getmişdi və həmin gün, yəni iyunun 26-da Moskvaya qayıtmalı idi. Ancaq yaxşı olar ki, mən bu söhbətin ardını məşhur rus tarixçisi-sovetoloqu Nikolay Zenkoviçin emosional təsviri ilə davam edim. Zenkoviç yazır:

"İyunun 26-da Beriya Berlindən Moskvaya qayıtdı. Lavrenti Pavloviçi aerodromda Mikoyan qarşıladı. Beriya Anastas İvanoviçə hərarətlə ADR-dəki vəziyyət barədə danışırdı. Narazılıq aradan götürülüb. Qarışıqlıq yatırılıb.

Mikoyan başı ilə təsdiq edə-edə səssizcə qulaq asırdı. Hiyləgər Kreml tülküsünün sifətində bircə əzələ belə, qımıldanmırdı. Limuzin Moskvanın küçələrindən şütüyərək, Kreml darvazalarına yaxınlaşdı. Sütunları ağaran qədim sarı sarayda isə Rəqasət Heyətinin üzvləri artıq yığılmışdı. Yolda Mikoyan dedi ki, Rəyasət Heyətinin üzvləri Berlindəki vəziyyət barədə Beriyanın məlumatını dinləmək üçün yığışıblar. Heç nədən şübhələnməyən Lavrenti Pavloviç qıvraq və gümrah addımlarla tanış iclas zalına doğru getdi." **(Николай Зенькович. Маршалы и генсеки, Москва, «ОЛМА-ПРЕСС», 2000, стр. 245.)**

Beləliklə, Anastas Mikoyan Lavrenti Beriyanı sakitcə edama apardı.

Başqa bir geniş yayılmış versiyaya görə isə, həmin gün Beriyanın mənzilinə basqın edib və onu qətlə yetiriblar. Zenkoviç yazır ki, SSRİ-nin keçmiş komsomol rəhbəri Nikolay Mixaylov (sonralar MK katibi, mədəniyyət naziri olmuşdu) Lavrenti Beriyanı mühakimə edən məhkəmənin üzvü olub və illər keçdikdən sonra Beriyanın oğlu Serqoya deyib ki, həmin məhkəmə tamam bir fars idi, yarımqaranlıq məhkəmə zalında oturub, yalnız «hə», «yox» deyən müttəhim Beriya deyildi. **(Həmin kitab, səh. 145.)** Beriyanın oğlu, professor Serqo Beriya (bir müddət anasının «Qeqeçkori» familini götürməyə məcbur edilmişdi) atasının məhz evdə qətlə yetirilməsi haqqında ətraflı bəhs edib... **(Серго Берия. Мой отец Лаврентий Берия, Москва, Современник, 1994.)**

Azərbaycanda Lavrenti Beriyanın adını daşıyan bir çox müəssisələr, Kənd Təsərrüfatı İnstitutu, qəsəbələr, kolxozlar, şəhər və rayonlarda prospekt və küçələr var idi və onun 50 yaşı tamam olanda Mir Cəfər Bağırov Bakının Şəhər rayonuna onun adının verilməsi xahişi ilə Stalinə məktub yazmışdı, ancaq cavab gəlməmişdi. Kirovabad (Gəncə) Dövlət Teatrı da Beriya adına idi və mən bunu yazanda Şekspirin məşhur sözləri yadıma düşdü: «Bütün dünya teatrdır, insanlar isə – aktyor.»

Bizim ailə fotoalbomunda da Beriyanın əvvəlindən və sonundan xəbər verən belə bir foto var: mənim həyat yoldaşım Nüşabə xanım uşaq baxçasına getdiyi vaxtlar kollektiv foto çəkdiriblər və o uşaq baxçası da "Lavrenti Beriya adına uşaq baxçası" olub. Görünür, çəkiliş onun "ifşa"sı günlərinə təsadüf etdiyi üçün, fotoqraf baxçanın adı yazılmış başlıqda "Lavrenyi Beriya" sözlərini qaralayıb, ancaq "adına" sözü qalıb.

Kimin adına uşaq baxçası? Heç kimin.

Əzəmətli, dev bir dövlət xadimi bir anda hansısa bir fotoqrafın pozanı ilə heç kimə (ya da heç nəyə) çevrilmişdi.

Lavrenti Beriyanın adının hər yerdə silinməsi Sovet İttifaqında elə bir qlobal siyasi cidd-cəhdlə və partiyalı sayıqlıqla aparılırdı ki, absurd və tragikomik hərc-mərcliyə gətirib çıxarırdı: baxın, rəhmətlik Əbülhəsənin sovet ordusunun faşizm üzərindəki qələbəsinə (rəşadətə) həsr olunmuş və hakim ideologiyanın təqdir və təbliğ etdiyi iri həcmli "Müharibə" romanında iki dəfə Beriyanın adı çəkildiyi üçün, romanın kitabxanalardan yığışdırılması barədə Azərbaycanda KP MK bürosu (!) qərar qəbul etmişdi.

Bir-birini «ifşa» edənlər, bu gün «ifşa» edib, sabah eyni ittihamlarla özü «ifşa» olunanlar, güllələnmə hökmü kəsənlər, sonra da özləri eyni maddələrlə həbs olunub güllələnənlər – bütün bunları oxuduqca, öyrəndikcə, həqiqətən adama elə gəlir ki, bütün bu hadisələr teatrda ifa olunur, bütün bu öldürülənlər və öldürənlər – aktyorlardır, rejissorlar isə – hansısa mifik və qorxunc varlıqlardır.

Stalindən sonrakı sovet rəhbərliyi, ilk növbədə isə Nikita Xruşşov nəhəng ideoloji təbliğat aparatını var gücləri ilə işə saldı və Lavrenti Beriyanın qəddar siyasi- ideoloji düşmən, casus, qanqster, haramzadə obrazı yaranmağa başladı və yaradıldı.

Adam hərdən tərəddüd edir: bəlkə həqiqətən tarixi qaliblər yazır?

Beriya seksual manyak kimi təqdim və təbliğ olunurdu, guya maşınla Moskvanın küçələrini gəzib, xoşuna gələn yüzlərlə qızları, qadınları elə küçədə oğurlatdıraraq, onları zorlayırdı. Rəsmi-inzibati dairələr bu məsələdə əsas şahid kimi Beriyanın şəxsi mühafizəsinin rəisi polkovnik Rafael Sərkisovdan istifadə edirdi. Rafael Sərkisov (Sərkisyan) gəncəli idi və məşhur «NKVD» generalı Pavel Sudoplatovun (Stalinin tapşırığı ilə Lev Trotskinin qətlinin təşkilatçısı) yazdığına görə, Anastas Mikoyanın qohumu olduğu üçün öz «NKVD» karyerasını qura bilmişdi. Lavrenti Beriyanın işində «Sərkisov siyahısı» deyilən bir sənəd var və burada 27 qadının adı və ünvanı yazılıb. Sərkisovun verdiyi ifadəyə görə, bunlar guya Lavrenti Beriyanın cinsi təcavüzünə məruz qalmış qadınlardır və yenə də Sərkisovun ifadəsinə görə, guya Beriya bu işdə vasitəçi kimi məhz ondan istifadə edib.

Yuri Jukov «You Tube»dakı müsahibələrindən birində deyir ki, «Sərkisov siyahısı»ndakı qadınlar elə Sərkisovun özünün təcavüz etdiyi adamlardır və özünü Beriya ilə birlikdə güllələnməkdən xilas etmək üçün öz etdiklərini Beriyanın boynuna yıxır. Ümumiyyətlə, bu adamın Beriyanın sovet vətəndaşlarına xalis bir iblis kimi təqdim olunmasında müstəsna rolu olub və o, Beriyaya is-

tintaqın tələb etdiyi bu tipli şər və böhtanlar atdığına görə həqiqətən güllələnmədən xilas olur – ona cəmi 10 il həbs cəzası verilir.

Beriyanın həyat yoldaşı Nino Qeqeçkorinin dediyinə görə isə «Sərkisov siyahısı»ndakı o quraşdırma 27 qadın əslində «NKVD» əməkdaşları olublar və Mixail Qorbaçov «perestroykasından» sonra sovetologiyada müxtəlif fikirlər səslənsə də, Beriyanı müdrik və ədalətli bir dövlət xadimi kimi az qala ideallaşdırma cəhdləri yaranmağa başlasa da, bu günün özündə belə onu hətta Stalini zəhərləyib öldürməkdə də ittiham edirlər.

Eduard Şevarnadze Ukrayna jurnalisti Dmitri Qordon ilə müsahibəsində Lavrenti Beriyanın Stalini zəhərlədiyinə daxilən inandığını deyir və belə bir hadisə danışır: Stalin Soçiyə istirahətə gələndə keçmiş seminariya yoldaşları Kabanidze və Tseradzeni qonaq dəvət edir və onlarla söhbət əsnasında Beriyadan söz düşür. Stalin ayağa qalxıb, vanna otağına gedir və onları da əlinin işarəsi ilə çağırıb, heç kim dinləyə bilməsin deyə, krantda suyu açaraq deyir: «Lavrentinin məsələsi həll olunub.»

Guya Beriya bundan xəbər tutub və iki-üç aydan sonra da Stalini zəhərləyib. Doğrusu, bu əhvalat həqiqətdən çox, kento folkloruna oxşayır.

Mən Stalinin Soçiyə nə zaman getməsi ilə maraqlandım və məlum oldu ki, o, sonuncu dəfə Soçiyə 1950-ci ildə gedib. Bunu da deyim ki, «Hiyləgər tülkü», «Qoca tülkü» kimi ayamaları ilə tanınan Eduard Şevardnadze bu müsahibəni verərkən, artıq xeyli yaşlaşmışdı və yaddaşında da, görünür, problemlər yaranmışdı, bir sıra məlum faktları qarışdırır, səhv salırdı.

Serqo Beriya hadisənin bilavasitə şahidlərinə (söhbət üç dəfə Sosialist Əməyi Qəhrəmanı, general-polkovnik Boris Vannikov, yaxud iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general Sultan Amet-xan kimi tanınmış şəxslərdən gedir) və sənədlərə istinad edərək, sübuta yetirir (yaxud yetirmək istəyir) ki, Lavrenti Beriya elə həmin gün, yəni iyunun 26-da qəflətən öz mənzilində güllələnib və bir sıra sovetoloqlar, tarixçilər də bu versiyanı qəbul və təsdiq edirlər.

Lavrenti Beriya gürcü və rus dillərindən başqa Azərbaycan və erməni dillərini də yaxşı bilirdi və tanınmış rus jurnalisti, siyasi şərhçi Maksim Şevçenko da sovet epoxası ilə bağlı ən məlumatlı tarixçilərdən biri olan Yevgeni Spisınə verdiyi müsahibəsində deyir ki, Beriyanın məhkəməsində iştirak edən Mir Cəfər Bağırov azərbaycanca ona nəsə deyib, ancaq Beriya heç nə başa düşməyib, yəni mühakimə edilən Lavrenti Beriya yox, onun oxşarı olub.

Əgər doğrudan da belədirsə, əgər doğrudan da Lavrenti Beriya qətlə yetirilib, həbs edilən, mühakimə edilən isə onun oxşarı olubsa, deməli Beriya ilə bağlı Nikita Xruşşovun, Vyaçeslav Molotovun, Anastas Mikoyanın, guya onu həbs edən marşalların – Jukovun, Moskalenkonun, guya Beriyanı tapança ilə şəxsən güllələyən Batiskinin memuarları, intervüləri, dedikləri, Baş prokuror Roman Rudenkonun dindirmə stenoqramları, bu stenoqramlarda Georgi Malenkovun, Nikita Xruşşovun, Kliment Voroşilovun, Lazar Kaqanoviçin, başqa Siyasi büro üzvlərinin dərkənarları, qeydləri, istintaq, məhkəmə və edamla bağlı məktublaşmalar və s. – hamısı sonradan quraşdırılıb, saxtadır, yalandır, – o zaman nəyə inanasan?

Və kim zəmanət verə bilər ki, Mir Cəfər Bağırovla bağlı dindirmə stenoqramları, şahid ifadələri, məktublaşmalar həqiqətdir?

Doğrusu, hərdən elə bir təəssürat yaranır ki, repressiya saxtakarlıqları və bu saxtakarlıqların doğurduğu rəsmi sənədləşdirmə hərc-mərcliyinin içində hər hansı bir həqiqəti üzə çıxarmaq mümkün deyil. Çox zaman müəlliflərin Stalin, Beriya, yaxud Bağırov və başqaları haqqında söylədikləri fikirlər daban-dabana zidd olur və bu fikirlərin, mülahizələrin, nəticələrin hamısında da öz növbəsində müxtəlif rəsmi sənədlərə istinad edilir.

Ancaq biz hissə qapılmayaq və bu söhbəti başlamışıqsa, davam edək.

## *5.*

Rəsmi variant belədir ki, Lavrenti Beriya 1953-cü il iyunun 26-da Sov.İKP MK Rəyasət Heyətinin (Siyasi Büronun) iclasında həbs edilib və bu hadisə haqqında məlumat iyulun 2-də keçirilən Sov.İKP MK plenumunda verilib, elə orada da artıq həbs edilmiş, ya da artıq öldürülmüş Beriyanın fəaliyyəti müzakirə («ifşa») olunub. Mir Cəfər Bağırov isə plenumun işində iştirak etmək üçün iyulun 1-də Mir Teymur Yaqubov və Teymur Quliyevlə birlikdə Moskvaya gedib və Beriyanın aqibətindən xəbərsiz olan (?!) Mir Cəfər Bağırov elə hava limanından ona, yəni Beriyaya zəng edib, işdə də, evdə də onu tapa bilmədiyi üçün əvvəlcə Nikolay Baybakova, Baybakovun qeyri-müəyyən cavabından sonra isə Anastas Mikoyana zəng edib: « – Mənim Lavrentim hardadır?» («– Qde moy Lavrentiy?»). Baybakov da, Mikoyan da dərhal Nikita Xruşşova telefon açaraq, Bağırovun bu telefon zəngini («Mənim Lavrentim hardadır?») ona xəbər veriblər.

Mənim üçün bir sirri-xudadır ki, aradan keçən bu beş-altı gündə necə olub ki, Mir Cəfər Bağırov Beriyanın aqibətindən xəbər tutmayıb, halbuki rus tədqiqatçılarının yazdığına görə, iyunun 26-da Moskvanın küçələrinə tanklar yeridildikdən sonra, şəhərdə Beriya haqqında xəbər yayılmağa başlayıb. Bağırovun Moskva və bilavasitə Kremllə, inzibati orqanlarla geniş əlaqələrini nəzərə alsaq və bura onu da əlavə etsək ki, o, həm də Rəyasət Heyəti üzvlüyünə namizəd idi, doğrusu, belə bir məlumatsızlıq, xəbərsizlik qəribə görünür, təəccüb, hətta heyrət doğurur. Ola bilər ki, bu xəbəri cidd-cəhdlə Bağırovdan gizlədiblər? Ancaq nə üçün? Bağırov Sovet İttifaqını Siyasi Büronun əleyhinə qaldıracaqdı, yaxud Beriyanı xilas edəcəkdi, yaxud da Azərbaycanı Sovet İttifaqından çıxaracaqdı?

İkinci məsələ: Bağırov həmin gün Xruşşovla görüşür və Beriyanın «ifşa»sından xəbər tutur, ancaq Xruşşov soruşanda ki, «siz aeroportdan Beriyaya zəng etmişdiz?» Bağırov «yox» cavabını verir və zəng etdiyini danır. Məgər Mir Cəfər Bağırov kimi Kreml mətbəxinə bələd olan, təcrübəli adam (çekist!) başa düşmürdü ki, Baybakov da, Mikoyan da bu zəng barədə Xruşşova, yaxud bu hadisələrdə Xruşşovla müttəfiq olan Malenkova xəbər verəcəklər?

Gizlətmək istəmirəm, istər-istəməz fikrimdən keçir ki, deyəsən, Mir Cəfər Bağırovun çekistliyi də bir az şişirdilib...

«Sovet İttifaqının və sovet xalqının qatı düşməni», «İngiltərənin casusu», «Moskva küçələrində gənc qızları zorla yatağına gətirtdirən əxlaqsız manyak»

kimi Lavrenti Beriyanı damğalayan həmin plenum altı gün davam edib və Mir Cəfər Bağırov da çıxış edərək, Beriyanı «buqələmun, partiyamızın, xalqımızın ən qəddar düşməni», «ikiüzlü əclaf» («двуличный подлец») adlandırır.

Siyasət aləmində hətta ən səmimi dostluq belə bir anın içində «əclaf» ola bilər və gördüyümüz kimi, olur da.

Mən bir az əvvəl deyəsən yanılmışam – elədir, siyasətdə və hakimiyyət hərisliyində «dost» şərti və çox zaman da müvəqqəti bir məfhumdur.

Kommunist partiyasının tarixindəki o məşhur plenumda Mir Cəfər Bağırov bəlkə də həyatının ən uğursuz çıxışını etdi və bu uğursuzluğun səbəblərindən biri də yəqin o idi ki, Georgi Malenkov, Nikita Xruşşov, Mixail Suslov, başqaları tez-tez onun sözünü kəsib, atmacalar atırdı, onun Beriya ilə dostluğunu qabardırdı. Bağırovun çıxışının stenoqramını nəzərdən keçirərkən elə bir təəssürat yaranır ki, plenum Beriyanın ifşasına yox, elə Mir Cəfər Bağırovun fəaliyyətinin, Beriya ilə dostluğunun müzakirəsinə həsr olunub. Aydın hiss edilir ki, dünənki dostlarının aqressiv hücumundan şaşıran və bu cür münasibətə öyrənməmiş Mir Cəfər Bağırov zəngin təcrübəsinə, bu cür siyasi-əxlaqi dönüklükləri çox görüb-götürməyinə baxmayaraq, özünü itirib, fikirlərini toplayaraq, konyukturanın tələb etdiyi istiqamətlə gedə bilmir (getmək istəmir yox, məhz gedə bilmir). **(Bu barədə geniş məlumat üçün bax: Борис Соколов. Берия – судьба всесильного наркома, Москва, «Вече», 2003, стр. 370-74.)**

Stalin öldükdən sonra, Lavrenti Beriya Sovet İttifaqının təhlükəsizlik orqanlarını yenidən öz əlinə almağı bacardı və o, səlahiyyəti, imkanları və nüfuzu etibarilə Nazirlər Sovetinin sədri Georgi Malenkovdan da, partiyanın birinci katibi Nikita Xruşşovdan da üstün idi. Çox güman ki, Mir Cəfər Bağırovun Zaqafqaziya respublikaları rəhbərləri arasında ilk dəfə Siyasi Büro üzvlüyünə salınmasında bu cəhət də ciddi rol oynamışdı və belə düşünmək olar ki, bu təyinatın gələcək perespektivləri Beriya ilə Bağırov arasında müəyyənləşdirilmişdi – söhbət Bağırovun Moskvaya aparılmasından, İttifaq miqyaslı böyük vəzifə tutacağından gedə bilərdi.

Niyə də yox?

Tədqiqatçı Adıgözəl Məmmədov belə bir versiya irəli sürür ki, Lavrenti Beriya hakimiyyəti ələ alacağı təqdirdə, onun «apardığı bu siyasi hakimiyyət dəyişkənliyinə M.C.Bağırov da hazırlaşırdı» **(Adıgözəl Məmmədov. M.C.Bağırov. Tam məxfi, Bakı, «Elgün», 2012, səh. 216)** və bu, inandırıcı bir versiyadır, yəni söhbət siyasi-strateji müttəfiqlikdən gedır. Bu da mənim yadıma düşür ki, rəhmətlik Süleyman Rüstəm deyirdi, hələ 1940-cı illərin sonlarında Bağırovun SSRİ Neft sənayesi naziri təyin ediləcəyi barədə söz-söhbət gəzirdi və o, bu vəzifəyə getməkdən imtina edirdi.

Lavrenti Beriyanın aqibəti mənə məşhur Şərq şahlarının, Ağa Məhəmməd şah Qacarın, yaxud Nadir şah Əfşarın sui-qəsd nəticəsində öldürülməsini xatırladır və Stalindən sonra Beriyanın da, Bağırovun da siyasi yüksəlişi heç dörd ay çəkmədi. Georgi Malenkov və Nikita Xruşşov cütlüyü Molotovun, Kaqanoviçin, Bulqaninin, Voroşilovun, Mikoyanın, marşal Jukovun köməyi ilə Beriyanı aradan götürdü və bu adamların bir qismi Beriyanın dostu, yaxud belə

bir dostluğa can atan (Georgi Malenkov, Nikita Xruşşov, Anastas Mikoyan), bir qismi isə ondan qorxan və bu qorxuya görə də onunla heç olmasa yaxşı münasibət yaratmaq istəyən adamlar idi (Lazar Kaqanoviç, Klement Voroşilov, Nikolay Bulqanin, Georgi Jukov, Mixail Suslov və b.) Beriya aradan götürüldükdən sonra, onu ən kəskin «ifşa» edənlərin çoxu, öz karyeraları ilə elə şəxsən Beriyaya borclu idilər və misal üçün, həmin «ifşa»çılardan biri SSRİ Nazirlər Soveti sədrinin müavini, Şuşalı İvan (Ovanes) Tevosyan idi. Serqo Beriya yazır ki, bu adamı vaxtilə bilavasitə Lavrenti Beriya irəli çəkmiş, Beriyanın daimi köməyi ilə də o, SSRİ Gəmiqayırma naziri təyin edilmişdi – aydın məsələdir, siyasi satqınlıq heç vaxt və heç vəchlə nadir bir hadisə olmayıb.

Moskvada sovetoloq Sergey Kremlevin geniş şərhləri ilə Lavrenti Beriyanın üç hissəli gündəlikləri və bəzi başqa yazıları nəşr edilib: «Stalin göz yaşlarına inanmır» (1937-1941), «Mən ikinci müharibəyə dözə bilməyəcəyəm» və «Biz atom bombası ilə yaşayırıq!». Sovetoloqlar, Beriya haqqında yazan tarixçilər bu gündəlikləri tam şəkildə təsdiq etmirsə də, təkzib də etməyiblər və bir sıra tanınmış rus sovetşünasları etibarlı mənbə kimi onlardan istinad edirlər.

Gündəliklərdəki bir məqam elə Beriyanın özünün taleyi ilə bağlı mistik bir müştərəklik hissi doğurur: Beriya 1938-ci ildə SSRİ Xalq daxili işlər komissarıdır və kabinetində «xalq düşməni» kimi güllələnmiş Nikolay Buxarinin 24 yaşlı arvadı (Buxarin üçüncü dəfə özündən 26 yaş kiçik qadınla evlənmişdi) Anna Lorinanı dindirir. Beriya yazır ki, bu qadını da xalq düşməninin arvadı kimi güllələmək lazımdır, bir müddətdən sonra isə qeyd edir: «Yazıqdır, qoy yaşasın...»

Bu rəhmdillik – əgər belə demək olarsa, «zalım bir rəhmdillik» (!) təsiri bağışlayır, ancaq baxın, 1953-cü ildə Lavrenti Beriya – qoy, titulları və siyasi-əxlaqi damğaları bir də təkrar edək: Siyasi Büronun üzvü, marşal, Sovet İttifaqı Qəhrəmanı, SSRİ Daxili işlər naziri, eyni zamanda SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini – Kommunist Partiyasının, Sovet İttifaqının qəddar düşməni və imperializmin casusu kimi güllələndikdən sonra, bu «xalq düşməni»nin 81 yaşlı anası təcili olaraq (!) Tiflisdən Abxaziyanın Gülrip rayonuna sürgün edilir, arvadı, oğlu, eləcə də 30 nəfər yaxın qohumu da Sibirə, Urala və Qazaxıstan çöllərinə sürgün olunur. **(Вах: Виктор Винтер. Дневники Берии подтверждают: Виктор Суворов прав! Москва, 2012, стр.29.)**

Dünənə qəldər kommunizm quruculuğu yolunda birgə çalışdıqları, Lenin mavzoleyinin tribunasından zəhmətkeşləri birgə salamlayan, hərbçilərin raportlarını birgə qəbul edən Nikita Xruşşovun, Georgi Malenkovun, Kliment Voroşilovun, Anastas Mikoyanın, Nikolay Bulqaninin və başqalarının işə saldığı hakim ideologiya Lavrenti Beriyanın iblisanə obrazını yaradırdı (və buna nail də olmuşdu), ancaq o, elə həmin adını çəkdiyim və çəkmədiyim ali Kreml sakinlərindən biri idi – Beriyanın əli kimi, onların da əli qanlı idi.

Beriyanın «ifşa»sından bir neçə gün sonra tələm-tələsik Kremldən göndərilmiş MK katibi Pyotr Pospelovun rəhbərliyi ilə Bakıda MK-nın plenumu keçirildi və dünənəcən Mir Cəfər Bağırovun kölgəsindən də qorxanlar bu dəfə onun özünü «ifşa» etdilər. Ən çox «ifşa» edənlər də ona ən çox yaltaqlananlar idi.

Mir Cəfər Bağırov da o plenumdakı çıxışında Beriya haqqında deyir: «Mən Malenkova dedim ki, o əclaf (Lavrenti Beriya – E.) məni alçaqcasına aldadırmış.»

Hələ antik dövrün klassik misalı yada düşür: Sezarın ən çox etibar etdiyi yaxın adamlardan biri Brut idi.

Mir Cəfər Bağırov Siyasi Bürodan da, MK-dan da, Azərbaycan rəhbərliyindən də götürüldü, oktyabr ayına qədər işsiz qaldı, sonra Rusiyadakı «Kuybışevneft» Birliyinin rəis müavini təyin edildi, 54-cü ilin martında isə partiyadan da çıxarıldı, sonra həbs olundu, sonra da güllələndi və bu yerdə ayrıca qeyd etmək istəyirəm ki, Mir Cəfər Bağırov rəsmi sənədlərdə yazıldığı kimi, repressiya cinayətlərinə görə güllələnmədi. Əgər repressiya cinayətlərinə görə güllələnmək idisə, o zaman elə Xruşşovun özünü, Malenkovu, Voroşilovu, Mikoyanı, Kaqanoviçi, Andreyevi, Vışinskini, başqalarını da güllələmək lazım idi. Mir Cəfər Bağırov Lavrenti Beriyanın dostu olduğu üçün güllələndi və elə bil ki, sağlığında Beriyadan qorxub-hürkdükləri üçün onun üzünə gülən, qoluna girən, məqam axtaran partiya-dövlət rəhbərləri Bağırovun edamı ilə Beriyanın ölüsündən də intiqam alırdılar. Əslində, qurd kimi burun-buruna dayanmış həmin sovet rəhbərləri ilk növbədə Beriyanın, sonra da Bağırovun qətlində bir yerdə və müttəfiq idilər. Beləliklə də Bağırov-Beriya siyasi epopeyası sona yetdi.

Bundan sonra isə Beriyanın ailəsi kimi, Bağırovun da ailəsi, yaxın qohumları təqib edilməyə, sıxışdırılmağa başladı, yeganə oğlu ilə arvadı, nəhayət, Moskvada məskunlaşa bildi, hətta Qubada yaşayan bacısı Seyid Fatmanın ev-eşiyi məhkəmə hökmü ilə əlindən də alındı.

Mir Cəfər Bağırovu Fövqəladə Komissiya sədrliyindən çıxarıb Tiflisə, Zaqafqaziya Su İdarəsinin rəisi vəzifəsinə göndəriləndə bu vəzifə dəyişikliyi onu aktiv siyasətdən uzaqlaşdırır, mənən sındırırdı. O, Tiflisdən Azərbaycan KP MK-nın nüfuzlu katibi Ruhulla Axundova məktublar yazırdı və doğrusu, Ruhulla Axundovun taleyindən xəbərim olmasaydı, məktubları oxuyanda haçansa onun, yəni Mir Cəfər Bağırovun Ruhullanı güllələtdirəcəyinə inanmaq çətin olardı, çünki bu məktublar dostun məhrəm bir dosta göndərdiyi məktublar idi, dost mənəvi iztirablarını dostla bölüşür, sınıxmış əhvalını dosta söyləyirdi.

Sergey Kirov Azərbaycana rəhbərlik etdiyi dövrdə Ruhulla Axundov əslində partiyanın 2-ci katibi idi və Stalin ona xüsusi simpatiya nümayiş etdirirdi. 1934-cü ildə Moskvada, Kommunist Partiyasının XVII Qurultayı zamanı Stalin onu camaatın gözü qarşısında qucaqlayıb öpmüşdü – Stalin isə, biz yaxşı bilirik ki, camaatın gözü qarşısında (və ümumiyyətlə!) nə etdiyini və niyə etdiyini bilən adam idi.

Üç ildən sonra məlum oldu ki, bu Stalin öpüşü istər-istəməz İuda öpüşü kimi bir şey imiş.

Stalinin inqilabçı-bolşevik Koba kimi Bakı fəaliyyəti zamanı Ruhulla Axundov çox gənc idi, ancaq 1920-ci ilin əvvəllərindən etibarən yəqin ki, onlar artıq tanış idilər. Ruhulla Axundov vaxtıyla Zaqafqaziya bolşevikləri Qəzənfər Musabəyov, Levon Mirzoyan, İvan (Mamiya) Oraxelaşvili, eləcə də Sergey Kirovla birlikdə Məhəmməd Əmin Rəsulzadə haqqında tənqidi kitab hazırlamışdı və 1923-cü ildə çapa getməzdən əvvəl məhz Stalin bu kitabı oxuyub, onlara məktub yazır.

Məktubda kitabın məzmunu daha da kəskinləşdirmək üçün altı benddən ibarət məsləhət (əslində göstəriş) verir və Rəsulzadənin «Azərbaycan Purişkeviçi» kimi təqdim olunmasını, onun Azərbaycan xalqına xəyanət etməsini xüsusi vurğulamağı məsləhət görür.

XVII Qurultayda Stalinin Ruhulla ilə o cür səmimi görüşünün şahidlərindən biri də, aydın məsələdir, qurultay iştirakçısı Mir Cəfər Bağırov olub və mən şübhə etmirəm ki, onun kimi gözündən heç nə yayınmayan, daxilində dramatik hakimiyyət ehtirası (!) daşıyan bir insan həmin dəqiqələrdə çox güclü siyasi qısqanclıq duyğuları yaşayıb. Mənim təsəvvürümdə Ruhulla Axundovu «Baş xalq düşməni» səviyyəsinə qaldıran da o qısqanclıq hissinin yaratdığı və yəqin ki, get-gedə artan kin-küdurət, qərəz və qəzəb olub.

Həqiqətən də, fakt bu idi ki, iyirminci illərdə, otuzuncu illərin birinci yarısında heç kimi və heç nəyi unutmayan Stalin Ruhulla Axundova yaxşı münasibət bəsləyirdi və 1926-ıı ildə Sergey Kirov Azərbaycandan gedəndə (o, Leninqradın partiya rəhbəri təyin olunmuşdu), Moskvadan Ruhulla Axundova AKP MK-nın birinci katibi vəzifəsi təklif olunmuşdu və o, bu təklifdən imtina etmişdi. Hətta çox xoşagəlməz bir hadisədən sonra da Ruhulla öz partiya nüfuzunu saxlaya bilmişdi və tarixçilərin tez-tez xatırlatdığı həmin hadisə belə olmuşdu: 1928-ci il apreli 18-də Moskvadan Bakıya qayıdan Ruhulla Axundov qatarın restoranında Xoxlov familiyalı bir nəfər köhnə bolşeviklə nə üstündəsə mübahisə edərək, ona bir sillə çəkir. Məşhur partiya jurnalisti, Stalinin sevimlisi Mixail Koltsov (Moisey Fridlyand) bu hadisə ilə bağlı «Pravda» qəzetində felyeton çap etdirir, çox keçmir ki, rəsmi ideologiyanın böyük sovet şairi «vəzifəsinə» təyin etdiyi Vladimir Mayakovski Koltsovun felyetonuna istinad edərək geniş siyasi əks-səda doğuran «Pompadur» şeirini yazır, Ruhullanı «görkəmli sovet pompaduru» adlandırır ("bildiyini edən", "özbaşına olan", "Burda mənəm, Bağdadda kor xəlifə!" mənasında; orijinalda: «Выдаюшийся советский помпадур»).

Sergey Kirov Leninqrada gedir, Ruhulla Axundov onun yerini tutmaqdan imtina etdir və Stalin Azərbaycanda əmək komissarı vəzifəsində işləyən məşhur avantürist Levon Mirzoyanı (1939-cu ildə o da Qazaxıstanda həbs edilərək, güllələndi) gözlənilmədən Azərbaycan K(b)P MK-nın birinci katibi təyin edir (deyilənə görə, Serqo Orconikidzenin təklifi ilə).

Levon Mirzoyan Koltsovun felyetonundan və Mayakovskinin şeirindən sonra Ruhulla Axundovla bağlı yaranmış siyasi qalmaqaldan istifadə edərək, onu nüfuzlu vəzifəsindən uzaqlaşdırmağa nail olur. Partiya xətti ilə ciddi töhmət almış Ruhulla Axundov Moskvaya gedərək, Qırmızı Professorlar İnstitutunda təhsil almağa başlayır, ancaq görünür, Mixail Koltsovun və Vladimr Mayakovskinin bədii yaradıcılığı Stalinə o qədər də təsir etmir və Ruhulla Axundov Azərbaycana qaytarılaraq, yenidən respublika K (b) P MK-nın ikinci katibi təyin edilir. (Artıq Levon Mirzoyan başqa işə göndərilmiş və onun yerinə keçmiş feldşer Nikolay Gikalo Azərbaycana rəhbər təyin edilmişdi; 1938-ci ildə Levon Mirzoyan kimi o da güllələnir.)

Daha sonra Ruhulla Axundov Azərbaycan, Gürcüstan və Ermənistanın tabe olduqları ÜK(b)P Zaqafqaziya Ölkə Komitəsinin üçüncü katibi təyin edilir və bu

həmin vaxtdır ki, Azərbaycanda Mir Cəfər Bağırov, Gürcüstanda isə Lavrenti Beriya epoxası başlayır.

Eyni zamanda, görünür, şəxsi olaraq da onların münasibətləri pozulur və bu, Ruhulla Axundovun həyat yoldaşı Frida Şlyomovanın xatirələrində də aydın hiss olunur. Burası da yəqin oxucu üçün maraqlı (və əlamətdar) olar ki, 1938-ci ildə «xalq düşməni» kimi güllələnən Ruhulla Axundovdan bir müddət sonra Mixail Koltsov da – Stalinin sevimlisi və SSRİ-nin o zamankı Baş jurnalisti «xalq düşməni» kimi güllələndi.

Ruhulla Axundov əksər bolşeviklər kimi (Stalin və Trotskidən tutmuş Xruşşov və Molotova qədər!) ali təhsil almamışdı, ancaq bu adamın, yəqin güclü fitri qabiliyyəti olub və buna görə də dövrünün seçilən savadlı adamlarından biri idi. Azərbaycan ədəbiyyatının, tarixinin, ictimai fikrinin öyrənilməsində, milli jurnalistikanın, tərcüməçiliyin, ədəbiyyatşünaslığın, linqvistikanın, xüsusən lüğətçiliyin inkişafında onun ciddi xidmətləri olmuşdu və bir sıra Azərbaycan yazıçıları, ədəbiyyatşünasları 20-30-cu illərin burulğanlarından məhz bu bolşevikin köməyi ilə xilas edilib, yaradıcılıqla məşğul ola bilmişlər, hərçənd o, yeri düşəndə, misal üçün, Əli Nazim kimi gənc, istedadlı və yaxşı ədəbi perspektivli tənqidçi və ədəbiyyatşünasa vulqar sosioloji cəbhədən hücum çəkib, siyasi ittihamlar da verirdi (və bu ittihamlar bir müddətdən sonra Əli Nazimin qısa və faciəli həyatında az rol oynamamışdı).

Yaxud Nəriman Nərimanovu millətçilikdə ittiham edib, ona qarşı mübarizə aparan, onu didərgin salan milli bolşeviklərdən biri də Ruhulla Axundov olmuşdu, ancaq bütün bunlara baxmayaraq, o, Azərbaycan filoloqlarının himayədarı hesab olunurdu və bolşeviklərin 1920-ci ildə güllələdiyi ədəbiyyatşünas və pedaqoq Firudin bəy Köçərlinin «Azərbaycan ədəbiyyatı tarixi» 20-ci illərin ortalarında məhz Ruhullanın təşəbbüsü və təzyiqi ilə nəşr olunmuşdu. Bu da yəqin onun humanitar sahədə nüfuzunun göstəricisi idi ki, 1934-cü ildə Azərbaycan yazıçılarının 1-ci qurultayı keçirildi və ideoloji bir təntənə ilə keçirilən bu qurultayda yekun olaraq son sözü Mir Cəfər Bağırov yox, məhz Ruhulla Axundov söylədi. Partiya mətbuatı iri və yağlı şriftlərlə yazırdı: "Gurultulu alqışlarla qarşılanan Ruhulla Axundov yoldaş iki saatlıq nitqilə Azərbaycan şura yazıçıları qurultayının yekunları və qarşıda duran böyük vəzifələr haqqında çıxışda bulunmuşdur." **("Qommunist" qəzeti, 18 iyun 1934.)** Onun nitqi hazırlanaraq, iki gündən sonra muhum əhəmiyyətli ideoloji material kimi tam şəkildə mətbuatda dərc edildi.

Bunu da deyim ki, Ruhulla Axundovun özü də istedadlı publisist və SSRİ Yazıçılar İttifaqına üzvü idi – bir sözlə, bu məşhur və mötəbər rəhbər xadim də dünyagörüşündə və fəaliyyətində dövrün ziddiyyətlərini əks etdirən və belə görünür ki, kommunizmə aparan işıqlı gələcəyə qəlbən inanan və cani-dildən həmin gələcək uğrunda çalışan bir partiya adamı idi.

Yadıma gəlir, 1980-ci illərin əvvəllərində bir dəfə söhbət əsnasında keçmiş siyasi hadisələrdən danışmaqla o qədər də arası olmayan Mirzə İbrahimov « – Ruhulla əsil kommunist idi!» – dedi və bu mənim üçün bir az gözlənilməz oldu, çünki Ruhulla Axundovun «ifşa»sında «Həyat» pyesi ilə bağlı ittiham da var idi.

«Əsil kommunist» ifadəsi Mirzə müəllim təbirində yüksək qiymət idi və birini qoyub, o birinə keçirəm, mən həmişə təəssüf etmişəm ki, rəhmətlik Mirzə müəllim kimi çox zəngin siyasi bioqrafiyası olan bir qələm sahibi xatirələrini yazmadı – belə bir memuar yazılsaydı, sovet dönəmini tədqiq edən Azərbaycan tarixşünaslığı üçün zəngin mənbə ola bilərdi.

1980-ci illərin ortalarında mən bizim məşhur salnaməçimiz Qulam Məmmədlinin xahişi ilə onun Nəriman Nərimanov haqqında tərtib etdiyi qiymətlit salnamənin redaktoru idim, kitaba ön söz yazmışdım və bir dəfə salnaməni çapa hazırlayarkən söhbət əsnasında ondan yaxşı tanış olduğu Ruhulla Axundov haqqında soruşdum. Rəhmətlik Qulam müəllim: « – Nərimanova münasibətdə səhv mövqedəydi, ancaq ümumilikdə, qiyamət oğlan idi» – dedi. Repressiyaya uğrayaraq, uzun müddət Sibirdə həbsxana həyatı sürmüş, hələ 1910-cu illərdə «Solğun çiçək» romanını yazmış rəhmətlik Əli Səbri də Ruhullanı həmişə xoş təəssüratlarla xatırlayırdı.

Ruhulla Axundov 1936-cı il dekabrın 17-də səhər tezdən işə gedərkən öz mənzilinin girişində həbs edildi və Azərbaycanda «37» dəhşəti, xüsusən ziyalıların məhv edilməsi onun həbsi ilə başladı. Sistem (indiki halda Azərbaycanda Mir Cəfər Bağırov) Ruhulla Axundovu Azərbaycanda «kontrrevolyusiyanın» lderi kimi təqdim edirdi və 37-38-ci illərdə güllələnən, Sibir konslagerlərinə, sürgünə göndərilən ziyalıların, o cümlədən də yazıçıların həbsi məhz «qəddar kontrrevolyusioner» Ruhulla Axundov «bandasına» mənsub olmaqla əsaslandırılırdı. Onun özünün isə həbsinin ilkin səbəblərindən biri kimi bu göstərilirdi ki, guya o, «kontrrevolisiyon» məqsədlər güdərək, gənc proletar yazıçısı Mirzə İbrahimovun «xalq düşmənləri»ni ifşa edən «Həyat» pyesini «gizlədərək» , teatrda tamaşaya qoyulmasını ləngitmişdi.

«Həyat» rəhmətlik Mirzə müəllimin bədii cəhətdən bəlkə də ən zəif əsəri, ümumiyyətlə sovet dövrü Azərbaycan dramaturgiyasının zəif, ancaq dövrlə bağlı simtomatik nümunələrindən biri idi və 1936-37-38-ci illərdə real həyatda «ifşa» olunan «xalq düşmənlərini» «Həyat» pyesi eyni amansızlıq və eyni özbaşınalıqla teatr səhnəsində «ifşa» edirdi. Görünür, elə buna görə də Mir Cəfər Bağırov «Həyat» pyesini yüksək qiymətləndirdi və elə Bağırovun sayəsində də bu pyes ədəbiyyatda heç vəchlə hadisə olmadığı halda, böyük siyasi-ictimai hadisəyə çevrildi.

Mirzə müəllim Mir Cəfər Bağırov dövrünün son mogikanlarından biri idi və mən onu yaxşı tanıyırdım, 1980-ci illərdə Yazıçılar İttifaqında onunla birlikdə işləmişdim, buna görə də deyə bilərəm ki, söhbət ağıllı, hazırlıqlı, tədbirli, zirək, hər şeyi dəqiq ölçüb-biçən, bacarıqlı, lazım gəldikdə ən yüksək tribunadan belə öz sözünü deyə bilən, ziddiyyətli bir həyat yolu keçmiş adamdan gedir. Mir Cəfər Bağırov dövründə lap gənc yaşlarından SSRİ-nin deputatı (sonralar da bu deputat statusunu 55 il qoruya bildi!), nazir, Baş nazirin müavini, akademik, Stalin mükafatı laureatı, 3 dəfə Lenin ordeni almış, Yazıçılar İttifaqının sədri olmuş Mirzə müəllim Bağırovdan sonra da Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri təyin edildi və bir neçə ildən sonra Azərbaycan dilinin statusunu qaldırmaq, onu həqiqi mənada dövlət dilinə çevirmək təşəbbüsünə görə Nikita

Xruşşovun qəzəbinə düçar oldu, Siyasi Büroda müzakirə zamanı Xruşşov onu «rəhbərliyə dürtülmüş düşmən» adlandırdı. **(Бах: Леонид Млечин. Никита Хрущев, Москва, «Молодая гвардия», 2021, стр. 172.)**

1956-cı ildə Gəncədə qətl hadisəsi baş vermişdi – öldürən milliyyətcə azərbaycanlı, öldürülən qadin isə rus idi və bu hadisə o qədər şişirdilib mühüm milli-siyasi səviyyəyə qaldırılmışdı ki, Kremldə Siyasi Büronun müzakirəsinə çıxarılmışdı. Bu məsələni Respublika partiya aktivində müzakirə etmək üçün SSRİ Daxili işlər naziri və Nikita Xruşşovun şəxsi dostu Nikolay Dudorov Azərbaycana ezam edilmişdi. Həmin partiya aktivində iştirak etmiş rəhmətlik Süleyman Rəhimov danışırdı ki, Mirzə tribunaya qalxıb, Dudorovun üzünə ağır sözlər dedi, hətta onu ittiham etdi, dedi ki, "yoldaş Dudorov, siz niyə tez-tez o qatilin azərbaycanlı olduğunu qabardırsız? Mən sizə onlarla hadisə sadalaya bilərəm ki, öldürülən azərbaycanlı, qatil lsə rusdur. Biz çoxmillətli bir ölkənin vətəndaşlarıyıq. Bu cür hadisələrdə milli mənsubiyyəti qabartmaq və siyasiləşdirmək, Lenin milli siyasətinə ziddir." Süleyman Rəhimov deyirdi ki, Dudorov özünü itirmişdi, çox pərt idi, Mirzəyə düz-əməlli bir cavab verə bilmədi.

Yəqin çox kənara çıxıram, ancaq bilavasitə şahidi olduğum bir xatirəni də qısaca söyləmək istəyirəm: 1978-ci ildə Ukraynada Azərbaycan ədəbiyyatı və incəsənəti günləri keçirirdik və Ukraynanın partiya rəhbəri, Sov.İKP Siyasi Bürosunun ən nüfuzlu üzvlərindən biri olan Vladimir Şerbitski Azərbaycandan gəlmiş qonaqların bir qrupunu qəbul etdi. O, sosialist Ukraynasının tarixindən, müasir günlərindən, bütün sahələrdə əldə etdikləri uğurlardan və s. danışdı və özünü çox sadə və səmimi aparsa da, bu səmimiyyət, bu danışıq tərzi elə idi ki, elə bil, yüksək mərtəbədə əyləşmiş boss (xaç atası) xeyli aşağılarda oturub ona qulaq asan kiçik dəstə üzvü ilə danışır. Protokolda nəzərdə tutulduğu kimi, cavab nitqini o vaxt bizim KP MK-nın ideoloji işlər üzrə yenicə seçilmiş katibi Kamran Bağırov söylədi və yəqin belə bir nəhəng partiya balinası qarşısında ilk dəfə çıxış etdiyi üçün rəhmətlik Kamran müəllim həyəcanlı idi, çıxışı o qədər də uğurlu olmadı, bir az sönük çıxdı. Sonra Şerbitski eyni tərzdə hamıya uğurlar arzuladı, sağollaşdı və ayağa qalxıb, getmək istəyəndə, zalda oturmuş Mirzə müəllim (onun ikinci dəfə vəzifəsiz vaxtları idi) gözlənilmədən əlini qaldırıb söz istədi, irəli çıxıb, aksentlə danışsa da, hərdən şəkilçilərdə səhv etsə də rus dilində 7-8 dəqiqəlik elə bir nitq söylədi ki, Azərbaycanı gözgörəti Şerbitskinin əyləşdiyi mərtəbəyə – onunla eyni səviyyəyə qaldırdı. Onun o vaxt dediyi bu sözlər indiyəcən yaddaşıma hopub qalıb: "Yoldaş Şerbitski! Görürəm ki, MK-nın bu yaraşıqlı binası Kiyevin yeni bir tikintisidir. Bu binanın da Kiyevdəki başqa yeni tikintilər kimi, binövrəsi qoyulan torpağa isə Ukraynanı faşizmdən azad edərkən həyatlarını qurban vermiş azərbaycanlı oğulların da qanı tökülüb." Onun çıxışından sonra Şerbitskinin dediyi sözlər də yaxşı yadımdadır: " – Mən böyük Şərq müdrikləri barədə çox eşitmişdim, ancaq sizin timsalınızda onu ilk dəfədir ki, görürəm! Sizə ürəkdən gələn bir səmimiyyətlə təşəkkür edirəm!"

Mirzə müəllim Nikita Xruşşov zamanı «millətçi» damğası ilə vəzifədən kənarlaşdırıldı, ancaq bir müddətdən sonra yenə öz siyasi statusunu bərpa edə

bildi, 1981-ci ildə yenidən Yazıçılar İttifaqının sədri kimi çalışdı. O, Heydər Əliyevin bilavasitə təşəbbüsü, ümumittifaq nüfuzu və aktiv müdaxiləsi nəticəsində Sovet İttifaqı miqyasında siyasi-ideoloji baxımdan çox hörmətli və mühüm beynəlxalq təşkilat olan, aparatı Moskvada yerləşən Asiya və Afrika Ökələri ilə Sovet Həmrəylik Komitəsinin sədri təyin edildi (bu, SSRİ naziri ranqında bir vəzifə idi), Sosialist Əməyi Qəhrəmanı oldu.

Ancaq biz Ruhulla Axundovla bağlı söhbətimizə qayıdaq.

Ruhulla öz səviyyəsində olan respublika rəhbər işçiləri arasında ən uzun müddət – təxminən dörd ay, 1937-ci ilin aprelinə kimi – istintaq zamanı ittihamlara qarşı müqavimət göstərir, çekistlərin boksçu yumruqlarına baxmayaraq, tamam absurd ittihamları təsdiq etmirdi və yanlız dörd aydan sonra onu sındırıb, istənilən ifadələri ala bilirlər. Sentyabrda Ruhulla Axundov Moskvaya aparılır, onun istintaqı Moskvada, Lyublyanka zirzəmilərində davam edir və onu məşhur sadist L.S.Altman (sonralar o da «xalq düşməni» kimi güllələndi) başda olmaqla Moskva çekist müstəntiqləri dindirməyə başlayır.

Ümumiyyətlə, Azərbaycanda demək olar ki, bütün rəhbər işçilər – milli bolşeviklər «ifşa» olunmuşdu və 37-38-ci illərin mətbuatını, repressiya ədəbiyyatını nəzərdən keçirdikcə, həqiqəti ayrıd etmək mümkün deyil, çünki həqiqət yoxdur. Başqaları kimi, çekistlər də bir-birini «kontrrevolyusionçuluqda» və s. «ifşa» edir və bir-birlərini güllələyirdilər, eləcə də kommunistlər. Baxın, Azərbaycan kommunistlərinin qurultayında Komissarlar Sovetinin sədri (Baş nazir), gənc və enerjili Hüseyn Rəhmanov çıxış edir və rəsmi məlumatda deyilir: «Hüseyn Rəhmanov yoldaş qurultayın diqqətini xalq düşmənlərinin ifşa edilməsinə kəskin surətdə cəlb edir və xalq təsərrüfatının bütün sahələrində düşmənlərin ziyançılıq işinə və bu işin müxtəlif metodlarına dair çox fakt göstərir. Sonra Rəhmanov yoldaş silahlarını yerə qoymayan, partiya qarşısında səmimi olmaq istəməyən və son günədək davam etdirdikləri öz əclaf işlərini partiyadan gizlədən S.M.Əfəndiyevdən, H.Sultanovdan, Qədirlidən və Dövlətovdan danışır.» **(«Kommunist» qəzeti, 8 iyun 1937.)**

Qısa müddətdən sonra Hüseyn Rəhmanovun özü də dünənə qədər bir yerdə işlədiyi bu adamların taleyini yaşayır, onu da eyni ittihamlarla tutub, güllələyirlər və indi məlum olur ki, Mir Cəfər Bağırov onun işgəncəli dindirmələrində bəzən şəxsən iştirak edir. (Belə bir versiya var ki, guya maarif naziri Məmməd Cuvarlinskini də Bağırov özü güllələyib, ancaq bu barədə hansısa bir mənbə yoxdur.) Yaxud, Azərbaycan bolşeviklərinin Sovet İttifaqı miqyasında tanınan, görünür, ən bacarıqlı və təcrübəli nümayəndələrindən biri, Zaqafqaziya Komissarlar Şurasının sədri kimi mühüm və nüfuzlu vəzifədə işləmiş Qəzənfər Musabəyov «sayıqlığı on qat artırmağı, xalq düşmənlərinin kökünü daha amansız kəsməyi, onların maskalarını üzlərindən qoparmağı, əbləh xəstəliyi olan siyasi qayğısızlığa və korluğa tutulan adamlara tuş və kəskin zərbələr vurmağı» tələb edir **(«Ədəbiyyat qəzeti», 23 iyun 1937.),** az keçmir ki, Musabəyov özü «xalq düşməni» kimi «ifşa» olunub, o qədər döyülür, məşəqqət çəkir ki, çekistlər onu növbəti dindirməyə aparmaq üçün kameraya gələndə koykanın altında gizlənir və onu güclə dartıb çıxarırlar.

Yalnız Hüseyn Rəhmanov, Qəzənfər Musabəyov yox, Ruhulla Axundov da, Dadaş Bünyadzadə, Soltan Məcid Əfəndiyev də, Əliheydər Qarayev də, Həmid Sultanov, Ayna Sultanova da, Mirzə Davud Hüseynov da, Çingiz İldırım da, başqa azərbaycanlı bolşevik rəhbərlər də bu cür bir-birlərini «ifşa» edə-edə, hamısı cidd-cəhdlə eyni qayıqda avar çəkə-çəkə ölümə doğru üzürdülər və əslində bütün ölkə – alimlər, yazıçılar, partiya işçiləri, fəhlələr, kolxozçular, müəllimlər – hamı! – bir-birini «ifşa» edirdi – burada hansı həqiqəti axtarıb, tapmaq mümkündür?

Eyni aqibətlə bitən bir-birini «ifşa» mənzərəsi yalnız Azərbaycan gerçəkliyinin ifadəsi deyildi və misal üçün, baxın: 1937-ci ilin iyununda Özbəkistanın partiya rəhbəri Akmal İkramov Siyasi Büroya məktub yazaraq, Özbəkistan Xalq Komissarları Sovetinin sədri Fayzulla Xocayevin əslində «xalq düşməni» olduğunu təkidlə sübut etməyə çalışır və onun «ifşa» edilməsinə icazə istəyir. Siyasi Büro (yəni Stalin) bu icazəni verir və Fayzulla Xocayev Daşkənddə həbs olunur. Sentyabrda isə Akmal İkramovun özü «ifşa» edilərək, partiyadan çıxarılır və 1938-ci ilin martında onların ikisi də eyni məhkəmə qarşısında dayanır və ikisi də bir gündə eyni ittihamla güllələnir.

Bu «ifşa»lardan sonrakı həbslər, güllələnmələr adi həbslər, adi (!) güllələnmələr deyildi, belə görünür ki, istintaqdan, dindirmədən başlayan bu prosesdə hansı həssas işgəncə, zülm, rəzalət, şərəfsizlik, alçaltma desən, tətbiq edilirdi. Fikir verin: Soltan Məcid Əfəndiyev Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri, yəni Azərbaycan Respublikasının nominal rəhbəri (prezidenti) idi və Mir Cəfər Bağırov Stalinə göndərdiyi məktubda (əslində, bu da mahiyyət etibarilə «donos» idi) onun «burjua millətçilərini və müsavatçı elementləri himayə etdiyini» yazır və bundan sonra Soltan Məcid həbs olunur, Azərbaycan «NKVD»-sinin Tsiman familiyalı böyük müstəntiqi isə onu hər dəfə: « – Ey, prezident!» – deyə ələ salasala döyür. Dövrün ümumi mənzərəsini, müdhiş koloritini görmək, hiss etmək üçün onu da deyim ki, bu həmin Soltan Məcid Əfəndiyev idi ki, həbs edilməmişdən əvvəl öz növbəsində Ruhulla Axundovu "siyasi əclaf" adlandırırdı.

Döyülən bəzi «xalq düşmənləri» ittihamları təsdiq etmir, müqavimət göstərmək istəyirdilər və belə bir tərslik bəzən çekistləri qeyzə gətirirdi, onlar and içirdilər ki, lazımi ifadələri alacaqlar. Ancaq nəyə, kimə and içə bilərdilər? Sistem ateist cəmiyyət qurur, məscidləri, kilsələri, sinaqoqları dağıdırdı (yadıma düşür ki, keçmiş Hüsü Hacıyev küçəsində yaşadığımız Yazıçılar Evinin yanındakı qədim məsciddə köhnə ayaqqabıların təmiri sexi açmışdılar), az-çox savadlı din xadimlərini təqib və məhv edirdi və istər müsəlman, istər xaçpərəst, istərsə də yəhudi çekist Allaha, peyğəmbərlərə necə and içə bilərdi?

Buna görə də çekistlər «Müqəddəs Stalinə and içirəm!», «Böyük Leninin mavzoleyinə and olsun!», «Əziz atamız Stalinə and olsun!», «Kommunist vicdanıma and içirəm!» – deyə and içə-içə, məhbusları döyə-döyə istədiklərinə nail olurdular və beləliklə də "xalq düşmənləri" saxta ittihamları təsdiq edir, qəddar "xalq düşməni" olduqlarını boyunlarına alırdılar.

Qəhrəmanları Allahlara müraciət edən antik faciələr yada düşür, sadəcə o faciələrin qəhrəmanları da, aktyorlar da Zevsə, Apollona, Afroditaya inanırdılar,

onlara and içirdilər, çekistlər isə «xalq düşmənlərini» döyə-döyə, ağlasığmaz ittihamları təsdiq etdirə-etdirə, absurd ittihamlara qol çəkdirə-çəkdirə and içdikləri Sistemdən – Stalindən, Leninin mavzoleyindən (!), özləri özlərindən qorxurdular.

Mənim Ruhulla Axundov haqqında geniş bəhs etməyimin iki səbəbi var: a) onun həyatı dövrün səciyyəsini ifadə etdiyi kimi, konkret olaraq Mir Cəfər Bağırov haqqında da çox söz deyir; b) maraqlı ikinci cəhət isə odur ki, Lyublankada Ruhulla Axundovdan, eləcə də Moskvaya aparılmış Qəzənfər Musabəyovdan, Həbib Cəbiyevdən, Azərbaycan Xalq Komissarları Sovetinin keçmiş sədrləri Dadaş Bünyadzadədən, Hüseyn Rəhmanovdan və başqa azərbaycanlı məhbuslardan... Mir Cəfər Bağırovun və Lavrenti Beriyanın əleyhinə ifadə almağa başlayırlar.

Gürcüstanda da vəziyyət təxminən eyni idi və görünür, müəyyən bir dövrdə onların, yəni Bağırovla Beriyanın da başının üstünü qara buludlar bürümüşdü. Dindirilən azərbaycanlı məhbuslar, o cümlədən də Ruhulla Axundov öz «ifadələrində» Mir Cəfər Bağırovun və onun əlaltısı Yuvelian Sumbatov-Topuridzenin «kontrrevolisiyon» fəaliyyətləri haqqında məlumatlar verirdilər.

1937-ci ildə Stalin Moskvada MK-nın plenumunu keçirir və «Partiya işindəki nöqsanlar və trotskist və başqa ikiüzlüləri ləğv etmək tədbirləri haqqında» geniş məruzə edir, sonda geniş də son söz söyləyir. Məruzənin də, son sözün də bütün cümlələrində, hansı məsələdən – təsərrüfatdan, partiya quruculuğundan, yaxud da siyasətdən bəhs etməsindən asılı olmayaraq, Sistem caynağından süzülən insan qanının yaratdığı ab-hava hiss olunur. Mir Cəfər Bağırov da Bakıda partiya aktivinin martın 21-dən 24-nə qədər – 4 gün çəkən yığıncağını keçirir və bu yığıncaqdakı məruzəsində deyir: «Düşmən bizim zəif cəhətlərimizi öyrənir və bunlardan istifadə edir. Bizdə, Azərbaycanda kontrrevolusiyon burjua millətçiləri uzun zaman pozucu antisovet iş görmüşlər.» Sonra xəbərdarlıq edir ki, onlar «vahid faşist casusları, ziyançılar və diversantlar bandasında birləşmişlər. Bizim təqsirimizdir ki, biz onların əsil simasını bunca uzun zaman tanıya bilməmişik.»

Bu özünütənqiddə, əslində, özünümüdafiə var və görünür, Bağırov hiss edir ki, Sistemin qara buludları onun da başının üstünü ala bilər. Bir az əvvəl «Pravda»nın baş məqaləsində Azərbaycanda kənd təsərrüfatının vəziyyəti kəskin tənqid olunur və Hüseyn Rəhmanovla birlikdə Mir Cəfər Bağırovun da adı çəkilirdi.

Belə görünür ki, bütün zahiri qüdrətə və toxunulmazlığa baxmayaraq, bu daxili qorxu yalnız Bağırovun yox, 37-38-ci illərdə Sovet İttifaqındakı bütün partiya akula və balinalarını müşayiət edib, onları daha kəskin, daha qəti və qəddar «ifşa»lara təhrik edib. Ancaq Mir Cəfər Bağırovla bağlı, görünür, qəflətən – 1938-ci ilin əvvəlində vəziyyət dəyişib: Ruhulla Axundov, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Hüseyn Rəhmanov və başqaları ilə bağlı sənədlər arasında Nikolay Yejovun şəxsən imzaladığı belə bir qətnamə var: «Hamısını mən şəxsən yenidən dindirəcəyəm. Sonra MK-ya. Yejov. 30/1.» **(«Всех передопрошу лично. Затем в ЦК. Ежов. 30/1.»)**

Belə bir dönüş yəqin ki, ancaq Stalinin müdaxiləsindən sonra baş verə bilərdi və görünür, Stalin ssenaridə düzəlişlər edib. Bu barədə müxtəlif fərziyyələr söyləmək mümkündür, ancaq fakt budur ki, Yejovun «şəxsən yenidən dindirdiyi» azərbaycanlı bolşeviklərin hamısı 1938-ci ilin aprelində Moskvada güllələnir. Deyirlər, Ruhulla Axundov güllələnməyə aparılarkən vaxtıyla millətçilikdə ittiham etdiyi Nəriman Nərimanovu nəzərdə tutaraq, deyib: «Kaş, doktor sağ olaydı, diz çöküb, ondan üzr istəyəydim...» Olsun ki, bu sözlər də folklor nümunəsidir, ancaq hər halda, əlamətdardır.

Ola bilsin ki, Ruhulla Axundov Sovet İttifaqında hadisələrin gedişatı ilə bağlı hardasa hansısa iradlarını bildirib (mən buna inanmıram), yaxud hansı səbəblərə görəsə onunla Mir Cəfər Bağırov arasında şəxsi düşmənçilik yaranıb (hər şey ola bilər), ancaq bu tipli mümkün səbəblərə belə baxmayaraq, 1920-ci illərdə Bağırovun Tiflisdən ona yazdığı o məktubları oxuyandan sonra, Ruhulla Axundovu o dərəcədə məşəqqətli «ifşa»ya məruz qoymaq – əlbəttə, qeyri-insani bir işdir. Bu sözləri yazıram və fikrimdən keçir ki, belə bir qanlı hərc-mərclik, özbaşınalıq, qəddarlıq, belə bir dəhşətli Qorxu içində insanilik axtarmaq Don Kixotun yel dəyirmanları ilə vuruşmağı kimi bir şey deyilmi?

Azərbaycandakı «xalq düşmənləri» arasında rəsmən ən çox lənətlənən Ruhulla Axundov idi.

Mən şübhə etmirəm ki, Mir Cəfər Bağırov Stalindən əvvəl Lavrenti Beriya ilə də razılaşdırmasaydı, Ruhullanı məhv edə bilməzdi, çünki baxın, Ruhulla Axundov 1923-cü ildə Beriyaya ən yüksək səviyyəli xasiyyətnamə vermişdi və orada Beriyanın «böyük təşkilatçılıq bacarığını», onun «qiymətli, yorulmaz bir işçi» olduğunu xüsusi diqqətə çatdırırdı, «Azərbaycan Fövqəladə Komissiyasında da, MK aparatında da (Beriya bir müddət MK-da işlər idarəsinin müdiri vəzifəsində də işləmişdi – E.) fəaliyyətinin parlaq (!– E.) nəticələr verdiyini» yazırdı. **(Борис Соколов. Берия. Судьба всесильного наркома, Москва, «Вече», 2003, стр. 30.)**

Bu arayış Lavrenti Beriyanın karyerasında əhəmiyyətli rol oynamışdı.

Taleyin oyununa bax ki, 1920-ci illərin əvvəllərində Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova millətçi damğası vurub, onu Azərbaycandan uzaqlaşdırmağa nail olan, faktiki onu çərlədən azərbaycanlı bolşevik rəhbərlərin özləri – Ruhulla Axundov, Mirzə Davud Hüseynov, Əliheydər Qarayev, Əyyub Xanbudaqov və başqaları eyni zamanda məhz «nərimanovşina»da (nərimanovçuluqda), yəni millətçilikdə təqsirləndirilib, güllələndilər.

Bunları yazıram və başqa bir azərbaycanlı bolşevik Əliheydər Qarayevin mübarizəsini və aqibətini xatırlayıram. Ruhulla Axundovun fəaliyyətində və XX yüzil Azərbaycanın siyasi mənzərəsində nə qədər nisbi pozitivi varsa, həmin fəaliyyət və mənzərədə Əliheydər Qarayevin bir o qədər neqativi var. Yeri düşdükcə bu yazıda adlarını çəkdiyim və çəkmədiyim azərbaycanlı bolşeviklərin hər birinin həyatı həm insani, həm də siyasi baxımdan sanballı və əhatəlidir – burada fanatiklik də var, avantüra da, inam, əqidə də var, konyuktura, kəmfürsətlik də, sədaqət, mərhəmət də var, xəyanət, qəddarlıq da – bir sözlə,

onların hər biri haqqında yazmaq olar və yəqin ki, lazımdır da. Ancaq mən növbəti dəfə mövzumdan uzaqlaşmamaq üçün, Əliheydər Qarayevin siyasi karyerasının başlanğıcı və sonu barədə bir neçə söz demək istəyirəm.

Belə bir söhbət gəzir ki, Azərbaycan Demokratik Respublikası parlamentinin son iclasında Əliheydər Qarayev Respublikanın bolşeviklərə, yəni 11-ci işğalcı rus-sovet ordusuna təslim olunmasını cidd-cəhdlə təkid edəndə və nəhayət, həmfikirləri ilə birlikdə buna nail olduqdan sonra, Məhəmməd Əmin Rəsulzadə ona deyib: " – Əliheydər, bolşeviklər səni güllələyəndə, məni xatırlayarsan!"

Əliheydər Qarayev son məqamda Məmməd Əmini xatirlayıb, ya yox – bu əsas deyil, əsas odur ki, onun 41-42 yaşlı ömrü puç olmuş arzularının, mahiyyətcə antimilli fəaliyyətinin, ortodoks bir bolşevik sayıqlığı ilə daima sosial sərhəd keşiyində dayanmasının, kor-koranə sinfi təəssübkeşliyin və bu sosial mühafizənin, sinfi təəssübkeşliyin insani hiss-həyəcanları, münasibətləri az qala yox etməsinin – bütün bunların toplusu idi.

## *6.*

Mən yazıçıları dedim, böyük-kiçik məmurlar da öz aralarında Mir Cəfər Bağırovu «Kişi» – deyə çağırırdılar («Kişi baxdı», «Kişi dedi», «Kişi bilir»...), ancaq ikinci bir tərəfdən, yalnız partiya, sovet və inzibati işçilər yox, sadə camaat, geniş kütlənin böyük bir hissəsi də Mir Cəfər Bağırovu «Kişi» adlandırırdı və bunun səbəbi də yəqin onda idi ki, sadə insanları incidən kiçik rəhbərlər – kolxoz və sovet sədrlərindən, inzibati orqan funksionerlərindən tutmuş, raykom katiblərinəcən – Mir Cəfər Bağırovdan qorxurdular. Sadə insanlar bəzən onun həmin "kiçik rəhbərlər"in qudurğanlığına qarşı gücünün və ədalətinin şahidi olurdular və Mir Cəfər Bağırovun timsalında şikayət və ümid edə biləcəkləri bir hökmdar görürdülər.

Bu «Kişi!» ifadəsinin qüdrətini ona yaxşısı-pisi ilə birlikdə uzun illər boyu fəaliyyəti qazandırmışdı, ancaq mənə çox təsir etmiş bu fakta fikir verin: o, həbs edildikdən sonra SSRİ Baş prokuroru Roman Rudenko (Nürnberq məhkəməsində SSRİ tərəfindən ittihamçı) Moskvadakı məşhur Butırsk həbsxanasında Mir Cəfər Bağırovu dindirməyə başlayır və 1954-cü il 9 aprel dindirməsi zamanı Rudenko ondan Beriyanı nə üçün ifşa etmədiyini soruşur. Bağırovun cavabını stenaqramda olduğu kimi yazıram: «Düzünü (vicdanla) bildirirəm ki, mənim buna kişiliyim çatmadı» (orijinalda: «Честно заявляю, что у меня не хватило мужества»).

Elə bir təəssürat yaranır ki, elə bil, «Mir Cəfər Bağırov» bu şəxsin adı yox, onun vəzifəsinin adı olub və vəsifədən sonra söhbət həmin Mir Cəfər Bağırovdan (Mir Qəzəbdən!) yox, mənən sındırılmış bir şəxsdən – sındırılmış adi (!) bir insandan gedir.

Həmin dindirmə protokolunda belə bir maraqlı fakt da var: Beriyanın şəxsi mühafizə rəisi Sərkisov ifadəsində göstərib ki, birlikdə Moskvada maşında gedərkən, Beriya Bağırova deyib: «Gözlə, biz səni də Moskvaya gətirəcəyik» və Rudenko bu söhbətin olub-olmadığını soruşur. Bağırov: «Mümkündür ki,

belə bir söhbət olub, ancaq xatirimdə deyil» – deyir. (Artıq dediyim kimi, Stalinin vəfatından sonra hakimiyyət bölgüsü zamanı Mir Cəfər Bağırov Siyasi Büro üzvlüyünə namizəd seçildi və çox çəkmədi ki, Lavrenti Beriya aradan götürüldü, Bağırov da qaldırıldığı ucalıqdan müdhiş bir uçuruma atıldı.)

Ancaq bütün bunlar Mir Cəfər Bağırov şəxsiyyətinin yalnız görünən tərəfləridir. Görünməyən tərəf də var idimi?

Əgər varıydısa da çox dərinlərdə gizlədilmişdi.

Mən bu yazını işləyərkən tez-tez fikrimdən keçir və təkrar etməyə daxili bir ehtiyac hiss edirəm ki, Mir Cəfər Bağırov şəxsiyyəti haqqında birtərəfli, birmənalı qərar vermək mümkün (və düzgün!) deyil və bu şəxsiyyətin miqyası sovet siyasi xəritəsini və siyasi mətbəxini ehtiva etdiyi üçün, 1920-ci illəri də əlavə etsək, daha çox bir dövrdə onun fəaliyyəti və taleyi barədə yazmaq – əslində yalnız Azərbaycanın yox, Sovet İttifaqının iyirmi, hətta otuz illik tarixi haqqında yazmaq deməkdir.

Mən hələ sovet vaxtı «Ölüm hökmü» romanımda Mir Cəfər Bağırovun daxili aləmi, ziddiyyətləri, dövrün mürəkkəbliyi və izaholunmaz paradoksları barədə yazmışam və aradan keçən bu onilliklər ərzində Bağırov da daxil olmaqla Sovet İttifaqına həsr edilmiş xeyli sənədli ədəbiyyat, arxiv materialları, Siyasi Büro stenoqramları nəşr edilib, üzə çıxıb, ancaq mən indi də elə həmin fikirdəyəm.

Mir Cəfər Bağırovun adı çəkilən kimi dəhşətli, anlaşılmaz, xaotik repressiyalar yada düşür və bu repressiyaların da miqyası o qədər geniş və mahiyyəti hələ də o qədər müəmmalı və qaranlıqdır ki, nəinki Bağırovun, hətta Stalinin özünün də repressiya qurbanı ola biləcəyi yalnız fantaziya məhsulu deyil. Yadımdadır, «Ölüm hökmü» romanımda yazmışdım ki, 1937-ci ildə Lenin də «xalq düşməni» elan edilə bilərdi və keçmiş menşevik, Böyük Terrorun isə qorxulu prokuroru Andrey Vışinski məhkəmə zalında həmişəki kimi yenə də: « – Onu (yəni Lenini!) quduz it kimi gəbərtmək lazımdır!” – qışqıracaqdı (bu, onun sevimli ifadəsi ildi.) Sağ qalan qocaman bolşeviklərdən tutmuş pioner və komsomolçularacan, fəhlə və kolxozçulardan tutmuş şairlərə, alimlərə, partiya bürokratlarınacan hamı «İkiüzlü Lenini axıracan ifşa etməli!», «Leninə ən ağır cəza!» və s. kimi şüarlarla növbəti və qızğın mitinqlər keçirəcəkdi.

Mir Cəfər Bağırovun güllələnməsində isə Nikita Xruşşovun mühüm rolu olduğuna şübhə yoxdur və Bağırovun aqibəti ilə bağlı sənədlərdəki dərkənarlar, ünvanlar əsas etibarilə Nikita Xruşşovun şəxsi-qərəzliyinə aparıb çıxarır.

Xatirələrindən bəhs etdiyim Həsən Həsənov Cəbrayıl rayonunun Soltanlı kəndindən idi və sonradan-sonra – 1960-70- ci illərdə – İlyas Əfəndiyevin onunla “həmyerli” (Qarabağlı mənasında) “salam-məleykümü” yaranmışdı, hərdənbir Dənizkənarı bulvarda rastlaşırdılar. Elə həmin illərdə Həsən Həsənov İlyas Əfəndiyevə danışmışdı ki, Xruşşov Ukraynada MK-nın birinci katibi olanda Mir Cəfər Bağırovla birlikdə, hərəsi öz işi ilə bağlı Kremldə Stalinin qəbulunu gözləyirmiş və Stalin ilk olaraq Bağırovu qəbul edib. Bir xeyli müddətdən sonra Mir Cəfər Bağırov Stalinin kabinetindən çıxıb və istehza ilə Xruşşovun kepkasının dimdiyini aşağı çəkərək: « – Hələlik, Nikituşka!» («Poka, Nikituşka!») – deyib.

Doğrusu, tanış olduğum ədəbiyyatda mən belə bir epizodla rastlaşmamışam, ancaq 1990-cı illərdə bir dəfə İmam Mustafayevlə (1954-59-cu illərdə Azərbaycanın partiya rəhbəri olmuşdu) söhbət əsnasında ondan bu barədə soruşdum, o da təsdiq etdi ki, belə bir hadisə olub, hətta impulsiv Nikita Xruşşov artıq özü Baş katib olandan sonra bu hadisəni bir neçə dəfə qəzəblə, Bağırovun aqibətini də istehza ilə xatırlayıbmış.

Həsən Həsənov da, İmam Mustafayev də Mir Cəfər Bağırov ətrafının yüksək vəzifəli adamları, onunla gündəlik təmasda olan şəxslər idi və elə bilirəm ki, onların dediklərinə folklor kimi yanaşmaq düzgün olmaz. Ukrayna SSRİ-də Rusiya Federasiyasından sonra ikinci böyük və nüfuzlu respublika, Nikita Xruşşov isə eyni zamanda Siyasi Büronun üzvü idi və onun Stalinin qəbul otağında oturub, Mir Cəfər Bağırovun çıxmağını gözləməsi, əlbəttə, təhqiramiz bir iş idi. Bu hadisə Stalin dövrünün yəqin ki, ötəri (ancaq yaddaqalan) bir epizodudur və Bağırovun güllələnməsinin də əsas səbəbi, aydın məsələdi ki, bu da, buna bənzər epizodlar da yox, onun Lavrenti Beriya ilə dostluğu, bu dostluğun (bu siyasi-inzibati tandemin) gələcək perespektivi olmuşdu.

"Kreml mətbəxi"nə yaxşı bələd olan Fyodor Burlatski Xruşşovdan bəhs edərkən, Nikkolo Makiavellinin bir fikrini xatırlayır: «Brut özünü səfehliyə vursaydı, Sezar olardı.» **(«Литературная газета», 1988, № 8.)**

Bic və enerjili Nikita Xruşşov elə bu yolla – özünü "səfehliyə" vuraraq, sadəlövh göstərərək hakimiyyəti ələ aldı və 10 il Sovet İttifaqına rəhbərlik etdi, «Atamız əziz Stalin!» – deyən elə həmin kütlənin «Əziz Nikita Sergeyeviçi» oldu. Sovet tarixində onun adı ilk növbədə Sov.İKP-nin XX qurultayında (1956) Stalin kultunu, şəxsiyyətə pərəstişi kəskin tənqid etməsi ilə qalacaq, hərçənd sonradan o, özünə kult yaratmağa başladı və onun dostu Mixail Şoloxovun Stalinlə bağlı bir sözü Moskva yazıçılarının arasında populyar idi: «Bəli, şəxsiyyətə pərəstiş var idi, ancaq şəxsiyyət də var idi!» – yəni dolayısı yolla bu o demək idi ki, indi isə pərəstiş var, ancaq şəxsiyyət yoxdur.

Bu da əlamətdar bir faktdır ki, Stalini repressiyalarda ittiham edən Nikita Xruşşov, son illərdə «KQB» məxfi sənədləri, arxivlərdəki məktublar, stenoqramlar, dərkənarlar (ancaq hələ də hamısı yox) üzə çıxdıqdan sonra məlum oldu ki, əlləri repressiya qurbanlarının qanına bulaşanlardan biri – birincilərdən biri elə Nikita Xruşşov özü olub. **(Bu barədə bax: Ю.Н.Жуков. Тайны и истории. Москва, Тера-книжный клуб, 2000; yaxud: Simon Sebaq Montefiorenin göstərilən kitabı və s.)**

Həsən Həsənov xatirələrində belə bir hadisə danışır və onu yazdığı kimi də təqdim edirəm: «1953-cü ilin payızında Mustafayev (söhbət İmam Mustafayevdən gedir – E.) Xruşşovun yanına getmişdi. Mən ondan Xruşşovun yanına nə üçün getdiyini soruşdum. O, dedi: Xruşşov dedi ki, Bağırovun məsələsi ilə məşğul olmaq lazımdır. Mən dedim: Bağırovun məsələsi məgər bitməyib? O, işdən çıxarılıb, respublikadan gedib, tay Bağırovun nə məsələsi ola bilər? Bu suallarıma Mustafayev cavab verdi ki, Xruşşov dedi, bu əclafın

bioqrafiyası ilə dərindən məşğul olmaq lazımdır. Buradan mən nəticə çıxardım ki, Bağırovun işi olduqca pisdir.»

Azərbaycanda Mir Cəfər Bağırovun vəzifə verdiyi, telefonla belə onunla ayaq üstə danışan, haqqında ləyaqətsizcəsinə təriflər yağdıran adamlar onun üzünə durdu, bu dəfə onunla birlikdə başqalarını yox, bir-birlərinə macal vermədən onun özünü «ifşa» etdilər.

Lavrenti Beriya haqqında böyük və maraqlı kitabın müəllifi Sokolov belə bir sual verir: «Bir insan kimi Beriya kim idi?» Və bu suala bu cür cavab verir: «Bu zaman fantaziyaya qapılmağa məcbur olursan.» **(Борис Соколов. Берия – судьба всесильного наркома, Москва, «ВЕЧЕ», 2003.)**

Güman etmirəm ki, zəngin fantaziya belə, Lavrenti Beriyanın, eləcə də Mir Cəfər Bağırovun bir insan kimi kimliyini müəyyənləşdirə bilmir, çünki onların həyatı və fəaliyyəti fərdi şəxsiyyətdən daha artıq dərəcədə dövrün faktorunu, xarakterini, hadisələrini ifadə edir.

Cani-dildən Kremlin (Stalinin) dirijorluğu ilə fəaliyyət göstərsə də, Üzeyir bəyin «Leyli və Məcnun»unu «primitiv opera» adlandıran, ancaq sonradan «Koroğlu»nu yüksək qiymətləndirən və Üzeyir bəyi qoruyub saxlayan, yaxud «Dədə Qorqud»u zərərli «düşmən abidəsi» (!) elan edən, yaxud da Nəriman Nərimanovla bağlı «nərimanovşina» deyə yalançı siyasi müxalifət yaradan və bir çoxlarını «nərimanovşina»da (millətçilikdə) ittiham edib, gedər-qayıtmaza göndərən Mir Cəfər Bağırov qəlbən Azərbaycana bağlı idimi?

Mən bu suala da mütləq bir cavab verə bilmirəm, çünki xislət – bir sirri-Xudadır.

Belə bir maraqlı epizoda fikir verin: Bakı Partiya komitəsinin katibi və Bağırovun arvadının qohumu Qildin MK-da şöbə müdiri işləyən Musa Əliyevin fəaliyyəti barədə Mir Cəfər Bağırova «donos» yazır və Musa Əliyev xatirələrində deyir ki, məsələ Büroda müzakirə edildikdə, Qildinin böhtanı üzə çıxır. Bu da əsəbiləşmiş Mir Cəfər Bağırovun Qildinin üstünə qışqırmağıdır: « – Sən bu qədər ildir Azərbaycan çörəyi yeyirsən, ancaq azərbaycanlılara nifrət edirsən! Xüsusən də səndən ağıllı olanlara!»

Bu sözlər elə bil ki, artıq başqa bir Mir Cəfər Bağırovun nadir portret cizgilərindən biridir.

Mən Cənubi Azərbaycan hadisələri barədə qısaca da olsa, artıq yazmışam, ancaq bu da yadıma düşür: Həsən Həsənov da İlyas Əfəndiyevə danışıb ki, Mir Cəfər Bağırov müharibə illərində də, sonra da Cənubi Azərbaycan hadisələri ilə bağlı ürəkdən gələn bir ehtirasla çalışırdı, Cənubda baş verənlər barədə tez-tez telefonla birbaşa Stalinə məlumat verirdi və bu məlumatları, düzdür, olduğu kimi çatdırırdı, özündən heç nə əlavə etmirdi, ancaq Stalinin xasiyyətinə yaxşı bələd olduğu üçün, danışığı elə qurur, elə aparırdı ki, nəticə Azərbaycanın xeyrinə olsun.

O biri tərəfdən də Bağırovun çıxışlarında, məruzələrində ana xətlərdən biri millətçiliklə mübarizədir və onun «millətçi» axtarışı bəzən fantasmoqorik bir zirvəyə qalxırdı.

Mən yuxarıda dedim ki, Mir Cəfər Bağırov impulsiv adam idi, baxın: «Pravda»dan sonra Sovet İttifaqının ikinci rəsmi qəzeti «İzvestiya»da Mirzə İbrahimovun məqaləsi dərc edilir və Həsən Həsənov xatirələrində yazır ki, məqalədə maarif sahəsində nə qədər inkişaf etdiyimizi göstərmək üçün Mirzə İbrahimov Azərbaycanı Mərakeşlə müqayisə edir. Həsən Həsənov yazır: «Bağırov bu məqaləni oxuyub, mənə zəng etdi və soruşdu: «İzvestiya» qəzetində İbrahimovun məqaləsini oxumusan? Mən cavab verdim ki, oxumuşam. Dedi: «Ordan nə nəticə çıxarmısan?” Etiraf etdim ki, mən orda elə bir şey görməmişəm. O, mənə dedi: «Deməli heç nə anlamamısan. O, (Mirzə İbrahimov – E.) millətçidir. O, sübut etmək istəyir ki, Azərbaycan da Mərakeş kimi müstəmləkədir. Ona görə də o, onları müqayisə edir. Səməd Vurğunu, Süleyman Rüstəmi, institutlardan başqa kimləri istəyirsiniz çağırın, qoy, Mirzənin məqaləsinin əleyhinə yazsınlar. Qoy, yazsınlar ki, Mirzə millətçidir, o, savadsızdır, o, yetkinləşməmişdir, yarımçıqdır.»

Həsən Həsənov Mir Cəfər Bağırovun tələb etdiyi məqaləni yazdırır və mən o məqaləni yazanın, ona qol çəkən rəhmətliklərin – dövrün məşhur şair və ədəbiyyatşünaslarının adını yenidən sadalamaq istəmirəm, ancaq Həsən Həsənov həmin məqalənin çapını bir az gecikdirir, iki gündən sonra isə Bağırov yenidən maraqlanır ki, məqalə yazıldımı, kimlər qol çəkdi? Biləndən sonra ki, tapşırığı yerinə yetirilib, yumşalır və Həsən Həsənov yazır ki, bir müddətdən sonra onun xahişi ilə Bağırov həmin məqalənin çapını təkid etmir.

Mir Cəfər Bağırovun rəhbərliyi dövründə Azərbaycan bütün sahələrdə inkişaf edib və onun Moskvadakı (Kremldəki) nüfuzu sayəsində Respublikaya ayrılan vəsaitdə xəsislik etmirdilər (edə bilmirdilər). Bu dövrdə kütləvi savadlanma prosesi böyük uğurlar qazanıb, milli elm və mədəniyyət sürətlə inkişaf edib, Sumqayıt, Mingəçevir kimi sənaye şəhərləri salınıb, böyük sənətkarlar yetişib və Azərbaycan mədəniyyətini – teatrı, opera və baleti, simfonik musiqini, rəngkarlığı, kinonu qısa zamanda Avropa səviyyəsinə qaldırıb, yeni yaranmış janrları (misal üçün, balet, yaxud roman) Azərbaycan mədəniyyətinin milli faktoruna çeviriblər, Azərbaycan ədəbi dili təmizlənərək, ərəb və fars ibarə və izafətlərindən qurtularaq saflaşıb və s., ancaq terror da, sındırılmış talelər də qanlı hərflərlə həmin dövr tariximizə yazılıb. Bütün bu hadisələr obyektiv səbəblərlə bərabər, respublika daxilində Mir Cəfər Bağırovun adı ilə bağlıdır və mən hərdən fikirləşirəm ki, onun hökmranlığı həmin obyektiv səbəblərlə birlikdə davam etsəydi, Azərbaycanı daha nələr gözləyirdi?

Mən bu sualı ona görə verirəm ki, Musa Əliyevin yazdığına görə Mir Cəfər Bağırovun məhkəməsində bir sirr də açılıb: onun kabinetindən 1952-ci ildə nazir Yemelyanovun «NKVD»-də hazırlanıb, Bağırova göndərdiyi bir siyahı tapılıb və bu qara siyahıda həbs edilməli 53 nəfərin, o cümlədən Musa Əliyevin, Səməd Vurğunun, Mirzə İbrahimovun və başqalarının adı olub. **(Bu barədə bax: Надежда Исмайлова. Своим почерком, Баку, 2022, стр. 309.)**

Əlbəttə, Mir Cəfər Bağırovdan söz düşəndə onu itaətkarcasına «Xozeyin» adlandıran Yemelyanov bilavasitə Bağırovdan tapşırıq almasaydı, özbaşına belə

bir siyahı tərtib edib, ona göndərə bilməzdi və görünür, Mir Cəfər Bağırov Stalin səviyyəsində yeni bir «37» ab-havası hiss edib, bəlkə də Kremldən gizli tapşırıq alaraq, hazırlığa başlayıb – nə bilmək olar, adamın ağlına hər cür güman gəlir.

Mən düşünürəm: Təsəvvür edək ki, Mir Cəfər Bağırov “xalq düşməni” kimi “ifşa” edilib güllələnir, onun yerində isə bu yazıda adları çəkilən Ruhulla Axundovdan, Dadaş Bünyadzadədən, Qəzənfər Musabəyovdan tutmuş Soltan Məcid Əfəndiyevə, Hüseyn Rəhmanova, Əliheydər Qarayevəcən azərbaycanlı bolşeviklərdən biri Azərbaycana rəhbərlik edir – nəsə dəyişmiş olacaqdımı?

Yox, heç nə dəyişməyəcəkdi. Repressiyanın miqyası bəlkə bir qədər az, bəlkə də, əksinə, daha çox olacaqdı, mahiyyət isə dəyişməyəcəkdi.

Mir Cəfər Bağırovun məhkəməsi o zaman çekist tarixinin baş çekisti hesab edilən Feliks Dzerjinskinin adını daşıyan klubun (indiki Şəhriyar klubu) böyük zalında keçirilirdi və mənim oxuduğum 7 nömrəli məktəb o klubun bir neçə addımlığında yerləşirdi, məktəblə Yazıçılar İttifaqının binası arasında da «26 Bakı komissarı»nın adını daşıyan bağ (indiki Sahil bağı) uzanırdı.

O məhkəmə günlərinin ab-havası indiyə kimi mənim xatirimdədir və indi düşünürəm ki, elə bil, o günlərin həyəcanı, hansısa bir gözlənti, ərəfə hissi, «ey gidi dünya!..» əhval-ruhiyyəsi, ovqatı bizim məktəbin də, o bağın da aurasına hopmuşdu.

Adamlar iki-bir, üç-bir o bağa gəlib, söhbət edə-edə orda dolaşırdı və onları ora gətirən, əlbəttə, 26 Bakı komissarlarının xatirəsi yox, yaxşısı-pisi ilə bərabər, Bağırov nigarançılığı, Bağırov aqibəti idi. Biz də uşaqlarla o bağa çıxıb, Mir Cəfər Bağırov haqqında bir-birimizə orda-burda eşitdiyimiz ağlasığan və sığmayan şayiələrdən danışırdıq: «Bağırov deyil, oxşarıdır, Moskvadan gətiriblər...», «Çekist dostları Bağırovu qaçırıb, o, yenə qayıdacaq...» – yadımda qalanları deyirəm. Maraqlısı, bəlkə də səciyyəvisi o idi ki, biz bir-birimizlə pıçıltıyla danışırdıq və bir-birimizə söylədiyimiz o şayiələr, o pıçıltı elə bil, bizi başqa bir sirrli-sehrli dünyaya aparırdı. Uşaq vaxtlarımdan yazıçıları tanıdığım üçün, o günlərdə o bağda gəzişən, hərdən də ayaq saxlayıb, daha artıq bir həyəcanla (görünən həyəcanla) nəsə deyən Mehdi Hüseyni, Süleyman Rüstəmi, Mir Mehdi Seyidzadəni, Böyükağa Qasımzadəni, gənc Əliağa Kürçaylını xatırlayıram və onların nə danışdığını eşitməsək də, həyəcanlarını hətta biz uşaqlar da hiss edirdik – onlar, əlbəttə, Bağırovun məhkəməsindən danışırdılar.

O zaman biz Bakıdakı Cənubi Sovet meydanında (indi Nəriman Nərimanovun heykəli olan meydanda) yaşayırdıq və həqiqət budur ki, o meydanın ətrafındakı məhəllələrin sadə camaatı Mir Cəfər Bağırova qahmar çıxırdı. Bu camaatın arasında anası-atası, bacı-qardaşı həbs olunanlar, sürgünə göndərilənlər, bəlkə güllələnənlər də var idi və indi bunları xatırlayanda görürəm ki, bizim o köhnə Bakı koloritli, lazım olanda söyüş söyən, qarğış edən məhəllələr intiqam hissi ilə yaşamırdı.

Deyə bilmərəm ki, bu yerdə söhbət ürəyiyumşaq məhəllə mərhəmətindən gedir, yox, bu məhkəmə yəqin ki, aradan üç il keçməsinə baxmayaraq, Mir

Cəfər Bağırov şəxsiyyətiylə bağlı inanılmazlığın, heyrətamizliyin ifadəsi idi. O da yadımdadır ki, həmin günlərdən birində axşamçağı həyətimizə girəndə qonşumuz, Azdramanın artisti Sadıq Salehlə rastlaşdıq və o, atamla salamlaşıb: « – Dünya Mir Cəfərə də qalmadı!..» – dedi. Görün, nə qədər illər keçsə də, bu məşhur ifadə («Dünya filankəsə də qalmadı...») məhz Sadıq Salehin deyimində mənim hafizəmə hopub və hər dəfə bu ifadəni eşidəndə rəhmətlik Sadıq Saleh də yadıma düşür, Mir Cəfər Bağırov da.

Sovet hökumətinin, sovet quruluşunun çox zülmünü-zillətini görmüş, əzab-əziyyətini çəkmiş nənəm (İlyas Əfəndiyevin anası), Stalin öləndə « – Axır ki, gorbagor oldu!» – deyə sinə dolusu rahat nəfəs alan Bilqeyis xanım belə, xatırlamıram ki, həmin məhkəmə günlərində Mir Cəfər Bağırov haqqında nəsə ağır bir söz desin və Bilqeyis xanım o sadə məhəllə camaatından fərqli olaraq, çox cod xasiyyətli bir qadın idi, sovet quruluşuna qarşı onun daxilindəki kini, ədavəti, qərəzi mülayimləşdirmək heç vədə mümkün olan bir iş deyildi. İndi bu sözləri yazarkən fikirləşirəm ki, bəlkə də Mir Cəfər Bağırovun da xasiyyətindəki sərtlik, cəsarət, sanbal Bilqeyis nənəmin daxilində təhtəlşüur bir hörmət hissi yaratmışdı.

Bunları yazdıqca yadıma düşür, danışırdılar ki, məhkəmənin ilk iclasında məhkəmə üzvləri, prokuror Roman Rudenko içəri girib, onların ardınca da Bağırov səhnəyə gətiriləndə zaldakı adamların hamısı ayağa qalxıb və məhkəmə üzvləri də, Rudenko da hərə öz yerində əyləşib, zaldakı insanlar isə oturmayıb. Nəhayət, guya Bağırov zala müraciətlə: « – Oturun...» – deyib və adamlar da yalnız bundan sonra oturublar.

Məhkəmədə Mir Cəfər Bağırovu prokuror kimi Roman Rudenko ittiham edirdi və bu həmin Rudenko idi ki, dediyim kimi, Nürnberq məhkəməsində müttəfiqlərin SSRİ tərəfindən ittihamçısı idi, 27 il Sovet İttifaqının Baş prokuroru olmuşdu, 1960-cı illərdə Sovet İttifaqında dissidentləri təqib və həbs etdirənlərin, onları psixi xəstəxanalara göndərənlərin başında dururdu. Bu adamın ittihamçı kimi Bakıya, məhkəməyə göndərilməsi, əlbəttə, Nikita Xruşşov başda olmaqla Siyasi Büronun Mir Cəfər Bağırov şəxsiyyətinə münasibətini, elə bilirəm ki, dəqiq ifadə edir və mən bilən dərəcədə Rudenko 27 illik Baş prokurorluğu zamanı 1953-cü ildə şübhəli (mübahisəli) Lavrenti Beriya məhkəməsindən, 1956-cı ildə də Mir Cəfər Bağırovun məhkəməsindən başqa heç bir məhkəmədə bilavasitə ittihamçı olmayıb.

Məhkəmədə Mir Cəfər Bağırovla birlikdə Azərbaycan «NKVD» komissarları, nazirləri Stepan Yemelyanov, Ağasəlim Atakişiyev, müavin Timofey Borşşev, Azərbaycan «NKVD»-sinin rəhbər işçiləri Xoren Qriqoryan (sonradan Ermənistan «NKVD»-nin narkomu), Ruben Markaryan (sonradan Dağıstan «NKVD»-nin narkomu) mühakimə olunurdu və Yemelyanovla Atakişiyevin hərəsinə 25 il iş kəsilmiş, qalanları güllələnmişdi.

O zaman Xoren Qriqoryanın anasına məktubları üzə çıxdı və bu adam fəxarət və qürurla anasına bildirirdi ki, azərbaycanlılardan necə intiqam alır,

azərbaycanlıları necə güllələtdirir. Bu həmin Xoren Qriqoryandır ki, 1921-ci ildə 19 yaşı olanda Mir Cəfər Bağırov onu «ÇK»-da işə götürür, onu pillə-pillə bəsləyərək, sinəsini ordenlərlə dolduraraq, ona general rütbəsi verdirərək, Azərbaycan çekistlərinin rəhbərlərindən biri etmişdi və əslən Şuşalı Ruben Markaryanı da eləcə Bağırov yetişdirmişdi, onu da Azərbaycan çekistlərinin rəhbərlərindən biri etmişdi – bunların ikisi də eyni vaxtda Mir Cəfər Bağırov epoxasının qolu zorlu nazir müavinləri idi.

Bakı həbsxanası rəisinin müavini Q.Sərkisov (bu adam Beriyanın gözətçisi yox, başqası idi) istintaqa ifadə verəndə deyirdi ki, «NKVD»-nin kabinetlərində döyülən məhbusların qışqırtısı, ah-naləsi bütün binanı başına götürürdü və gecə saat 10-dan sonra nə içəri, nə də çölə heç kim buraxılmırdı. Komissar Sumbatov (Beriyanın və Bağırovun ən yaxın silahdaşlarından biri, məşhur «37-38» cəlladı Yuvelian Sumbatov-Topuridze) məhbusları döyməyə başlayırdı və Mir Cəfər Bağırovun özü də bəzən gəlib, bu işgəncəli dindirmələrdə şəxsən iştirak edirdi. Sərkisovun dediyinə görə, Ayna Sultanovanı soyundurub uzadırdılar və əllərinə qalın yaş əski parçaları almış əməkdaşlar (çekistlər) Bağırovun işarəsi ilə bu qadını o qədər döyürdülər ki, az qalırdı dəli olsun, çöməlib əllərini qaldıraraq: «Stalin! Stalin! Stalin!» – qışqırırdı.

Adam bu müdhiş rəzalətə inanmaq istəmir, ola bilər ki, Q.Sərkisov yaranmış şəraitdən suitifadə edib, Bağırova böhtan atırdı? Hər şey ola bilər, ancaq Mir Cəfər Bağırovun bu dəhşətli «NKVD» vakxanaliyasından tam şəkildə xəbərdar olmasına mənim şübhəm yoxdur, çünki o, hər şeyi, xüsusən də «NKVD»-ni ciddi şəxsi nəzarətində saxlayırdı və məhkəmədə onun Qriqoryan, Borşşev, Markaryan kimi əlaltılarının müdhiş əməlləri üzə çıxdıqda: « – Məni güllələmək yox, şaqqalamaq lazımdır!» – deməsi, mənə bir az teatrlaşdırılmış həyəcan və peşmançılıq təsiri bağışlayır – təkrar edirəm, «NKVD»-də onun bilmədiyi şey yox idi.

Keçmiş həbsxana nəzarətçisi A.M.Tağıyev isə istintaqa verdiyi ifadəsində müdhiş və müdhiş olduğu qədər də normal ağla sığışmayan, başa düşülməyən, anlaşılmaz bir faktı qeyd edirdi: məhbuslar güllələnməzdən əvvəl xüsusi kameralara gətirilir və burada güllələnmək üçün çağırış növbələrini gözləyirdilər. Həmin kamerada güllələnmə növbəsi gözləyən məhbusları döyməyə başlayırdılar və Sumbatov-Topuridze də, müavini Gerasimov da hərdən kameraya gəlib, məhbusları şəxsən döyürdülər. Onu da deyim ki, belə bir iblisanə prosedur yalnız Azərbaycanda yox, bir çox sovetoloqların sənədlərə istinad edərək yazdığına görə, bütün Sovet İttifaqında yerinə yetirilirdi.

Doğrusu, qanlı bir mərasimə, az qala etiqad ayininə çevrilmiş bu olayı mən heç cürə izah edə bilmirəm: kütləvi sadizm ifadəsi idi, yoxsa bolşevik fanatizmi hipnozu rol oynayırdı, yoxsa da çekistlərin Sistemdən qorxusunun, xofunun, hürküsünün təzahürü idi, buna görə də sədaqətlərini nümayiş etdirirdilər? Deyə bilmirəm.

Epoxalar dəyişdi, nəsillər bir-birini əvəz etdi və az qala yüz ildən sonra da xalq Mir Cəfər Bağırovun Bakıda tikdirdiyi bir körpüyə hələ də «Bağırov kor-

püsü» deyir. El arasında belə bir söz gəzir ki, Bağırov növbəti dəfə Moskvaya uçmaq üçün maşınla aeroporta gedərkən, xeyli müddət yolun ortasından keçən dəmir yolunun qabağında dayanıb, uzun bir qatarın keçib getməsini gözləyib və bundan əsəbiləşərək bu körpünü saldırıb. Ola bilər ki, həqiqətən də belə olub, ancaq faciə burasındadır ki, bu gün də «Bağırov körpüsü»ndən keçəndə Hüseyn Cavid və Mikayıl Müşfiq, Abbas Mirzə və Ülvi Rəcəb, Ömər Faiq Nemanzadə və Bəkir Çobanzadə, Yusif Vəzir Çəmənzəminli və Əhməd Cavad, Sultan Məcid Qənizadə və Salman Mümtaz... yada düşür.

Yada düşür, sarsıdır və bu müdhiş təəssürat səni bürüyəndə, suda boğulan saman çöpündən yapışan kimi, bir təskinlik axtarırsan, fikrindən keçir, nə yaxşı ki, salamat qalanlar da olub.

Nədənsə, bu da yadıma düşdü ki, güllənənən Ruhulla Axundovun yeganə övladı Fərid də, başına milli bolşeviklərin min bir oyun açdığı, vəfatından sonra da yalançı siyasi «narimanovşina» – deyə millətçilik libasına pərçim edilmiş Nəriman Nərimanovun yeganə övladı Nəcəf də və güllələnmiş Mir Cəfər Bağırovun oğlu Cahangir (Vladimir) də faşizmə qarşı müharibədə həlak olublar.

Cahangir 1943-cü il fevralın 4-də cəbhəyə yola düşməzdən əvvəl Mir Cəfər Bağırova göndərdiyi məktubda yazırdı: “Səbirsizliklə cəbhəyə göndərilməyimi gözləyirəm və mən sübut edəcəyəm ki, sənin oğlun öz atasına və Vətənə layiqdir. Bərk-bərk öpürəm, sənin Vladimirin.”

Mir Cəfər Bağırov belə sevimli bir oğul böyütmüşdü.

Bağırovun ikinci oğlu, onu tanıyanların (məsələn, Moskvada yaşayan tanınmış pianoçu Tamilla Mahmudovanın) dediyinə görə, çox mədəni və nəzakətli bir adam olan professor, elmlər doktoru Cem Bağırov 1994-cü ildə Moskvada vəfat edib, Bağırovun yeganə nəvəsi Mir Cəfər isə Hindistana ezamiyyətə gedib, elə orada da avtomobil qəzasında həlak olub.

Bununla da Mir Cəfər Bağırovun nəsli sona yetdi, ondan heç kim qalmadı.

Bu da bir tale yazısıdır.

Bütün Azərbaycan Mir Cəfər Bağırovun əlində idi, onun bir imzası kifayət idi ki, insan ömrünə son qoyulsun, yaxud da onu sırf insanı mənada xoşbəxt etsin, ancaq bütün bunlarla bərabər, o, özü xoşbəxt idimi? Başa düşürəm, xoşbəxtlik nisbi məfhumdur, ancaq yenə də, təkrar edirəm, o, bu dərəcədə bir qadirlik, Azərbaycandakı bu dərəcədə bir alilik içində özünü xoşbəxt hiss edirdimi?

Mir Cəfər Bağırov Azərbaycandakı hakimi-mütləqliyini sevirdi, insanların taleyinin ondan asılı olması daxilən – şüurlu, ya da təhtəlşüur olaraq, onu qürurlandırırdı və əgər o, xoşbəxt idisə, bu xoşbəxtliyin də səbəbi onun üçün vəzifəsi və hakimliyi idi. Bəlkə də belə deyildi, ancaq mənim təsəvvürümdəki Mir Cəfər Bağırov belədir və bu təsəvvürü bilavasitə hadisələrin, sənədlərin, mənə obyektiv görünən xatirələrin təəssüratı yaradıb.

Mən bu yazını yazarkən, hərdən fikrimdən keçirdi ki, görəsən, Mir Cəfər Bağırov gecə yerinə girib, yuxuya getməzdən əvvəl ölümə göndərilən o insanları xatırlayıb, vicdan əzabı çəkirdi?

Çətin sualdır.

Bir tərəfdən, niyə də yox?

Bəlkə doğrudan da o, səhərəcən yerində vurnuxurdu, bəlkə həqiqətən əzab çəkirdi, dəhşətə gəlirdi və ayağa qalxıb, yuxu dərmanı içirdi?

Bəlkə də, əksinə, onun üçün adi olan bir iş günündən sonra yorulub, tez də yuxuya gedirdi?

Ona görə çətin sualdır ki, bizim tanıdığımız Mir Cəfər Bağırov canlı insandan artıq dərəcədə siyasi-ictimai və inzibati bir anlayışdır.

Rəhmətlik Rəsul Rza deyirdi ki, onun da iştirak etdiyi bir toplantıda Bağırov: « – Müşfiqi nahaq verdim...» – deyib və əgər bu, Bağırovun peşmançılığıdırsa, belə bir peşmançılığın özündə də adamı üşüdən bir soyuq var – yadıma düşdü, heyifsiləndim, sonra yenə unutdum...

Süleyman Rüstəm müharibədə igidliklə döyüşmüş və həlak olmuş Cahangirin – Mir Cəfər Bağırovun təyyarəçi oğlunun yas mərasimində iştirak etmişdi və mənə danışırdı ki, Bağırovun olduqca pərişan bir görkəmi var idi, elə bil, bizim tanıdığımız Mir Cəfər deyildi, hiss olunurdu ki, özünü ələ almaq istəsə də, bacarmır.

Yəni Mir Cəfər Bağırov adi insan, adi ata kimi (!) dərd içində imiş...

Əlbəttə, yəqin elə belə də olub.

Məhkəmə zamanı təcridxanada ona təhkim olunmuş bir nəfər Mir Cəfər Bağırovun dövrünü və fəaliyyətini tədqiq edən tarixçi Adıgözəl Məmmədova söyləyir ki, Bağırov məhkəmənin hökmündən sonra xahiş etdi ki, oğlu Cahangirin qəbrini ziyarət etməyə icazə versinlər. İcazə verilir və Bağırov oğlunun baş daşını qucaqlayıb, öpərək xeyli müddət ağlayır, «Sənin yanında dəfn olunmaq istəyirdim, ancaq qismət olmadı...» – deyir.

Mir Cəfər Bağırovun cangüdəni olmuş Məhəmməd Şıxəliyev də müsahibəsində deyir ki, hərdən rayonlara çıxan Bağırov, sərhəddən Cənubi Azərbaycana baxıb, ağlayırdı.

Olsun ki, həqiqətən belə də olub.

Ancaq məsələ burasındadır ki, biz (və tarix!) belə Mir Cəfər Bağırovu tanımırıq.

Və şəxsən mən buna çox təəssüf edirəm.

Mir Cəfər Bağırov qəlbən, öz qapalı dünyasında Stalini sevirdimi, ona daxilən hörmət edir, ehtiram bəsləyirdimi?

Deyə bilmərəm, çünki belə bir sualda söhbət daha çox sentimentli insani hisslərdən gedir, ancaq buna mənim şübhəm yoxdur ki, Mir Cəfər Bağırov Stalindən qorxurdu.

Mir Cəfər Bağırovun xüsusən 1937-38-ci illərdə «xalq düşmənləri»ni «ifşa» etdiyi çıxışlarında, məruzələrində həmin «ifşa»ların qətiliyi və qəddarlığı içində onun özünüqoruma, özünüsaxlama, özünüxilasetmə instinkti açıq-aşkar hiss olunur və belə bir daxili qorxu, məncə, bütün başqa hissləri, o cümlədən də inam hissini üstələyirdi.

Əgər istintaq sənədlərinin həqiqiliyinə inansaq, dindirmə zamanı Roman Rudenko Mir Cəfər Bağırovdan soruşur: « – Azərbaycanda sizə və Beriyaya qarşı guya terror aktları təşkil edilməsi ilə bağlı neçə iş açılmışdı?» Bağırov cavab verir: « – Mənim məlumatıma görə 16-17 iş.» Rudenko: « – Bu işlərə görə nə qədər adam güllələnmişdi?». Bağırov: « – Yadımda qalmadığı üçün, deyə bilmərəm. Ancaq belə hallarda adətən güllələyirdilər.» Rudenko: « – Siz ciddi surətdə inanırdız ki, sizə qarşı terror hazırlayırdılar?» Bağırov: « – Yox, inanmırdım.»

Elə bu kiçik sual-cavabın özü epoxanın illüstrasiyasıdır.

Bağırovun etiraf etdiyi o „16-17 işdən“ biri də bax, bu faciədir: Uzun illər Partiya İnstitutunda işləmiş tarixçi İ.Eminbəyli 1919-cu ildə Müsavat qəzeti „Azərbaycan“da məqalə dərc etdirdiyi üçün guya „Əksinqilabçı və millətçi təşkilatın“ üzvü olduğuna görə həbs edilir və bu adam Sovet vaxtı artıq „Kommunist“ qəzetinin redaktoru, Konservatoriyanın rektoru olmuşdu. Bu talesiz tarixçinin boynuna qoyurlar ki, o, nəinki terrorçu dəstənin üzvi olub, şəxsən özü Mir Cəfər Bağırovu qətlə yetirmək istəyib və onu da başqaları kimi güllələyirlər. **(З.Мелик-Асланова, Н.Милайлова. От лжи – к правде, «Бакинский рабочий», 20 февраля 1990.)**

«Yoldaş Stalin» şəxsin yox – epoxanın adı idi.

«Yoldaş Stalin» – bu epoxanın yaratdığı və bu epoxanı idarə edən Sistemin adı idi.

«Mir Cəfər Bağırov» – həmin Sistemin ünvanlarından biri idi və buna görə də: «Mir Cəfər Bağırov kim idi?» – sualına cavab vermək mümkün deyil.

Sistem Mir Abbasın oğlu Mir Cəfəri yox edib və onun əvəzinə «yoldaş Mir Cəfər Bağırov»u yaradıb.

Mir Cəfər Bağırovun vəzifədən çıxarıldıqdan sonra ta ki, güllələndiyi vaxta qədər Georgi Malenkova və Nikita Xruşşova yazdığı məktublar, ərizələr, istintaq zamanı verdiyi cavablar – əgər bütün bunlar saxta deyilsə, sındırılmış, alın yazısına, taleyə məğlub olmuş və bu məğlubiyyətə görə də şaşırmış, mənən səndələyən, özünü səfərbər edə bilməyən tənha və köməksiz bir insanın yazdıqları, dedikləridir.

Vəzifədən sonrakı iki-üç ildə Mir Cəfər Bağırov adi bir insan idi, ancaq o, adi insan olmağa hazır deyildi. Musa Əliyev gündəliklərində yazır ki, «Bağırov Stalini yamsılayaraq, ona oxşamaq istəyirdi və öz rəqibləri üzərində amansız eksperimentlər aparanda buna nail də olurdu.»

Bəs, Stalin necə? Vicdan əzabı çəkirdi?

Bu da çətin sualdır.

***30 dekabr 2023***
***Bakı***



*Firuzə MƏMMƏDLİ*

## ŞƏHİD ANALARINA

Yağmurdumu, yağır gəlir,
Ağrı-acı doğur gəlir.
Ha əyirsən, ağır gəlir
Dərdin sevincdən, ana.

Açıldı şeytan düyünü,
Çox gözləmişdin bu günü.
Bəs dərdin şəhid yükünü
Necə gəzdirirsən, ana?

Gah qazanan, gah itirən,
Səbr, dözümdü bu vətən.
Çiynində şəhid gətirən
Qələbəmizə tən ana.

## YOXMU

***Özümlə söhbət***

Özün başdan-başa səhvsən, qüsursan,
Niyə danışmırsan, niyə susursan?
Bəlkə toy-mağarsan, bəlkə hüzürsən,
Doğmana, yadına güvənin yoxmu?

Yaxşı da gözünə yaman görünür,
Biganə dərdinə yanan görünür.
Ümidlər, inamlar yalan görünür,
Niyə nifrətlisən, sevənin yoxmu?

Dünənlər üzünə qabarır daha,
Səni huş gətirib-aparır daha.
Göynəyir ömrünün qubarı daha,
Bəxtinin göyündən enənin yoxmu?

Düşüb ayağına, o yollar qaçır,
Aqillər, nadanlar, zayıllar qaçır.
Arxamca fitnələr, feillər qaçır,
Səni bu qaç-qovdan yenənin yoxmu?

Naz-nemət önündə qısadır əlin,
Taytıyan ömrünə əsadır əlin.
Bir ümid puçunda cəzadır əlin,
Sabahı çiynində dünənin yoxmu?

Oğrudan-doğruya göz ağardılır,
Suala, sorğuya göz ağardılır.
Yaradan sarğıya göz ağardılır,
Barı anlayanın, dinənin yoxmu?

Yarəb, çarəsizlik əldə silahdır,
Sonda ölən ümid hələ ki, sağdır.
Bir müjdə xəbərə ruhum oyaqdır,
Ədalət divanı quranın yoxmu?

## TAM SƏMİMİ

Heç kəsə istəkli deyiləm daha,
Hamıdan, hamıdan uzaqlaşmışam.
Yoxdu bir arzuya meylim daha,
Küsmüşəm, – bu yaşda uşaqlaşmışam.

Məni aldadanlar arzuya çatdı,
Şər atıb satanlar arzuya çatdı.
Bu araqatanlar arzuya çatdı,
Yadam, ta hamıya yasaqlaşmışam.

Bəxt məni görməyə meyl etmir, neynim?
Dərdini bölməyə meyl etmir, neynim?!
Canım da ölməyə meyl etmir, neynim?!
Haqqa varan yolda yazıqlaşmışam.

## BƏLKƏ

Nə yerə, nə göyə sığıram daha,
Yerlə Göy arası cığıram daha.
Vaxtın qulağına çığıran daha
Nə baxtdır, nə tale, – əcəldi, bəlkə.

Mənə "gəl" söylədi ölüm mələyi,
Köçürüm canıma, görün mələyi.
Hardasa, uzaq bir yolun mələyi
Məni soyudacaq ocaqdı bəlkə.

Çəkilir hüsnünə həsrət naxışı,
Cızılır çöhrəmdə əsəb naxışı.
İlahi, bu qədər əzab naxışı
Sənə aparası macaldı bəlkə.

## BİLMİRƏM

Qorxu dolu yuxularım çin oldu, –
Bir ömürdə neçə qara gün oldu.
Məni sənə sürgün edən kim oldu?!
Allah, Allah... Necə sayım? Bilmirəm.

Adın – elə başım üstdə qəm kimi,
Neylədimsə, qarşıladın kəm kimi.
Kimi sevdim, kimi seçdim mən, kimi?
Kimdən kimə sayıqlayım? Bilmirəm.

Daha həyat – daha ölüm; fərqi yox,
Yaş çoxunda göz yaşının dərdi yox.
Qəlbdə istək qovğası yox, hərbi yox, –
Kimi, nəyi ayaqlayım? Bilmirəm.

Saçım kimi tülənmədə ömür-gün,
Ümid-ümid sülənmədə ömür-gün.

Dağ su olub, çilənmədə ömür-gün,
Yanım, bişim, soyuqlayım? Bilmirəm.

* * *

Ona yol tapa bilmir,
Hiss daha, duyğu daha.
Qarsıb sısqa canını
Ömrün soyuğu daha.

Yadlara meyli yoxdu,
Doğmalara həniri.
Daha yol da gözləmir,
Öz ömrünü gəmirir.

İçində sevinc adda
Qığılcım da yoxdu ta.
Söz adında qalxanı,
Qılıncı da yoxdu ta.

Gömüb əməl çeşməsin,
Yenib könül ağrısın.
Hər xatirə döngədə
Diz çökür ki, ağlasın.

## YENİDƏN

Gələrəm qəflətən, birdən gələrəm,
Deyərsən, bəlkə də pirdən gələrəm.
Çəkilib getdiyim yerdən gələrəm,
Gələrəm, özümü tapım yenidən.

İtib getdim elə vaxt itkisində,
Keçər boynubükük haqq itkisi də.
Mən aza bilməzdim baxt itkisində
Açılar baxtıma qapım yenidən.

Üzüm xoş üzlərdən sevinər yenə,
Sevincdən quraram evimi yenə.
Bəlkə ağ günləri geyinib yenə,
Uğura bir addım atdım yenidən.

Təbəssüm gücünə, sevgi gücünə,
Tutaram üzümü dost sevincinə.
Düşüb bir gecənin rahat küncünə,
Qalxaram səhəri dadım yenidən.

## SİMURQ LƏLƏYİ

Deyəsən çatıb zamanı, –
Deyin, gülün, lağ eləyin.
Tutun budaq qollarından,
Yarpaq-yarpaq silkələyin.

Deyin, niyə ad almadı?
Ömrü mükafat olmadı.
"Şah" nidası "mat" olmadı,
Cırnadın, lap ağ eləyin.

Nə gün gördü, nə gün verdi,
Ay bətnindən ulduz dərdi.
Ümidlərdən üz döndərdi,
Daşdan çıxdı hər diləyi.

Amma ki, mən göz nuruyam,
Gah bulanıq, gah duruyam.
Ömrünə yollar yürüyən
Kəbəsiyəm saf ürəyin.

Çapıb keçir ömür-gün də,
Gah sondayam, gah da öndə.
Çırpınıram bu düyündə,
Yoxdu bir "simurq lələyim".

* * *

İçərimdə bir həzin,
Bir acı intizar var.
Yüz ildir məni gəzən
Qazılmamış məzar var.

Daha ömür-gün ağır
Yükdü, daşıyammıram.
Dünənki ürəyimlə
Bu gün yaşayammıram.

Sevgi, duyğu, hiss, ağıl,
İsti sözümdən qaçır.
Qohum-qardaş, dost-tanış,
Daha gözümdən qaçır.

Çöküb ağ vərəqlərə
Qaranəfəs ömür-gün.
Silib təmizləsəm də,
Güzgü-güzgü ölür gün.

Bəzən heyim dirçəlir
Dost qoluma girəndə.
Bilirəm, kim nə çəkir
Məni belə görəndə.

Eh... bu yaş da bir ömrün –
Şikəstə, şur muğamı.
Allah hamıya versin
Belə yaş ərməğanı.

## DÜNYANI

Ömrümdən-günümdən yox olub gedir,
Ümid qalalarım yıxılıb gedir.
Gözlərim zülmətə sıxılıb gedir,
Artıq görəmmirəm uca dünyanı.

Nə yaxın oluram, nə də gen daha,
Düşmüşəm badətək əlindən daha.
Yalvardım, yapışdım qələmdən daha: –
"Sənsə də incitmə qoca dünyanı".

İlahi, az deyil sızlayanların,
Dərdini gözlərdən gizləyənlərin.
Gözü yolda qalan gözləyənləri
Ovut ki, sevincdən quca dünyanı.

## BİR ALLAH BİLİR

Açılır əlləri çarəsizliyin,
Ümidin ümidsiz çiyni qısılır.
Alnı düyünlənir fərasətimin,
Var-gəl sitəmində günü qısalır.

Dost-düşmən adından qınayım kimi?
Niyə möhürləndi bu sirr bilənlər?
Kimdən umub-küsüm, sınayım kimi?
Hara yoxa çıxdı qədirbilənlər?

Özünü yenən də özüməm elə,
Bir Allah bilir ki, kiməm, nəçiyəm.
Dizini qatlayan dözüməm elə,
Bilmirəm dərdim nə, özüm necəyəm.

Yazılan bəxt deyil, vaxta ölçüdür,
Yazılır, pozulur məndən uzaqda.
Bütün mizanlar da saxta ölçülür,
Bütün ölçülər də mizanda saxta.

Bir Allah bilir ki, özüm deyiləm,
Ağ bildiyim bəxtlə qara gedirəm.
Namərd qapısını niyə döyürəm,
Bir Allah bilir ki, hara gedirəm.

## SAKİT OL

***İçərim mənimlə dalaşmadadır***

Sakit ol, sakit ol, dinməz ol, görək
Başımız bizimlə yola gedirmi?
Yolunda can qoyub, saç ağartdığın
Ağıl bazarında pula gedirmi?

Yetişmir dadıma öz əlim, qolum,
Elə öz hayında yaxın da, yad da.
Bir kəsim yox daha ömründən qovum,
Bir kəsim yox daha həmdəmim adda.

Boyat xəyallara varmağım da yox,
Canda bir həsrətin istisi qalıb.
İpə-sapa yatan barmağım da yox,
Qələmdən bir nisgil, bir küsü qalıb.

Ömür mücrüsündə daş-qaşımmı var?
Varımda yoxamsa, yoxda varam mən.
Yükümə girəsi sirdaşımmı var? –
Dünyadan dərd dolu ömr aparam mən?!

## BU DÜNYA

Haçansa, arzunun harasındasa
Vardı bu kainat, vardı bu dünya.
Baxırdım ömrümün sonundan bəri,
Baxırdım: "Nə yaman dardı bu dünya!"

Yıxıldım, tapdayıb ayaqlayandı,
Tale oyununda oynaqlayandı.
Kiminə biganə, kimə həyandı,
Kiminə sonadək yardı bu dünya.

Nəşələn qəlbincə, ağla boyunca,
Hissə sarmaşıqdı, ağla oyuncaq.
Bas odlu sinənə, ağla doyunca,
Dərdini inlədən tardı bu dünya.

Bir də ərk elədim, üzünə çıxdım,
Sandım ki qışından, yazına çıxdım.
Yenə öz dərdimin izinə çıxdım,
Düz imiş kürədi, şardı bu dünya.

# ♦Hidayətin 80 yaşı



*Azərbaycanın görkəmli yazıçısı, şair, dramaturq, publisist, teatr xadimi və diplomatı Hidayət Orucun 80 yaşı tamam olur.*

*Onun həyatı, ədəbi-ictimai fəaliyyəti həm də dəyərli bir Azərbaycan ziyalısının keçdiyi şərəfli yolun tarixidir. Bu tarix Qərbi Azərbaycanın Meğri rayonunun Maralzəmi kəndindən başlanır. Ömrünün 40 ilini qədim Oğuz ellərinin tarixi ərazisi olan Sovet Ermənistanında yaşamış Hidayət, Azərbaycan türkü olduğunu unutmamışdır. Əsrlər boyu bizə düşmən kəsilən bir qövmün içərisində milli mənliyini qorumuş, orada – bizə nifrət püskürən bir ölkədə Azərbaycan mədəniyyətinin, ədəbiyyatının və teatrının inkişafı yolunda əlindən gələni əsirgəməmişdir. 24 yaşında İrəvanda Azərbaycan teatrının direktoru vəzifəsində çalışmış Hidayət 16 il milli teatrımızın yeni bir səhifəsinin yazılmasında böyük xidmət göstərmişdir.*

*Ədəbi yaradıcılığa altmışıncı illərin sonlarında başlamış Hidayətin ilk şeir kitabı – «Məni səsləyəndə»dən ta bu günə qədər şeir, nəsr, publisistika və dram əsərlərindən ibarət 40-dan artıq kitabı işıq üzü görüb, həm də bu kitabların bir çoxu müxtəlif xalqların dillərində nəşr edilib.*

*Azərbaycan ədəbiyyatının son əlli ildəki inkişaf yollarında onun da dəstxətti aydın görünür və bu yaradıcılıqda Azərbaycan insanının obrazı, milli-mənəvi dəyərlərimiz, azadlıq duyğuları əks olunub.*

*1984-cü ildən ədəbi fəaliyyətini Bakıda davam etdirmiş yazıçı «Gənclik» nəşriyyatında rəhbər vəzifədə çalışmışdır.*

*İnsan yaşa dolduqca, həyat təcrübəsi, xüsusilə, bir yazıçı kimi şöhrəti artdıqca onun başqa yaradıcı keyfiyyətləri də üzə çıxır. Hidayətin ictimai-siyasi fəaliyyəti də bunu sübut edir: onun Azərbaycan Respublikasının Milli siyasət məsələri üzrə Dövlət müşaviri vəzifəsində fəaliyyəti dövlətçiliyimizin tarixində də unudulmayacaq. Son illər ölkəmizin Qırğızıstanda səfiri vəzifəsində çalışmış, iki xalqın ictimai-mədəni həyatının canlanmasında əsl diplomat kimi tanınmışdır.*

*Hidayətin kitabları çoxdur. Lakin onlardan ikisi onun şah əsərləridir – «Burdan min atlı keçdi» təkcə publisistik yox, həm də bədii tarix əsəridir və «Heydər Əliyev və Azərbaycanda milli siyasət» kitabı isə Ulu Öndərin fəaliyyətinin bir mühüm problem ətrafında elmi-publisistik düşüncələrini əks etdirir.*

*Hidayət müəllim, illər keçsə də, nə fiziki, nə də mənəvi baxımdan əsla dəyişməyib. Boyu kimi, mənəvi aləmi də ucadır.*

*Biz, "Azərbaycan" jurnalının kollektivi Hidayəti 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, bir şəxsiyyət, bir yazıçı kimi ona sağlam həyat, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

***HİDAYƏT***

# İRƏVANDA YANAN ÇIRAQ

♦ ***Proloqlu, epiloqlu, iki hissəli, yeddi şəkilli, epik, lirik, mistik dram***

**İştirakçılar:**

***SULTAN OĞUZ*** *– yazıçı*
***SAH İSMAYIL XƏTAİ*** *– Səfəvi Dövlətinin hökmdarı*
***RƏVANQULU XAN*** *– İrəvan hakimi*
***TARİXÇİ***
***FİRƏNGİZ*** *– elmi işçi*
***EMİL SƏRDAROV*** *– prokuror müavini*
***USUB KİŞİ*** *– Dincərlikdə qaravulçu*
***SƏLTƏNƏT*** *– Sultan Oğuzun xanımı*
***NAİRA*** *– Ermənistan SSR DTK-nın əməkdaşı*
***QƏRİNƏ ŞAHNƏZƏROVNA*** *– Abovyan rayon məhkəməsinin sədri*
***HİMAYƏDAR*** *– SSRİ Yazıçılar İttifaqının katibi*
***SÜSƏN*** *– poçt işçisi*
***HAYQAZ*** *– milis rəisi*
***AŞOT*** *– milis nəfəri*
***SUREN*** *– böhtançı şahid*
***VARTAZAR*** *– dincərliyin direktoru*
***BİRİNCİ QARAÜZLÜ***
***İKİNCİ QARAÜZLÜ***
***RADİOSƏS***
***KATİBƏNİN SƏSİ***
***TELEFONDAN EŞİDİLƏN SƏS***
***ZURNAÇI, DAVULÇU, ÇIRAQLI ADAMLAR, QARAPALTAR ADAMLAR***

***MƏKAN – QƏRBİ AZƏRBAYCAN. ZAMAN – 1980-Cİ İLLƏR***

*Hadisələr saray içinə bənzəyən təbiət tipli bir meydanda cərəyan edir. Bütün personajlar daim meydandadırlar.*

**Proloq**

*Ətraf qaranlıqdır. Qeybdən Səfəvi Dövlətinin hökmdarı Şah İsmayıl Xətainin səsi eşidilir:*

*Biz əzəldən ta əbəd meydanə gəlmişlərdənüz,*
*Şahi-mərdan eşqinə, mərdanə gəlmişlərdənüz...*

**TARİXÇİ:** *(Səsi qeybdən gəlir).* Diqqət!.. Diqqət!.. Dinləyin!.. Eşidin və heç zaman unutmayın – XX əsrin əvvəllərində minlərlə soydaşımız Qərbi Azərbaycandan sürgün olundu. 1948-1953-cü illərdə 150 min qardaş-bacımız öz dədə-baba yurdundan köçürüldü. 1988-ci ilin deportasiyası, sonrakı 20 Yanvar müsibəti, 26 Fevral Xocalı soyqırımı erməni şovinizmini "çiçəkləndirdi". Bir gündəmi, bir ildəmi gəldi başımıza bu müsibətlər?! Əlbəttə, yox! Unutqanlıq faciəmizdir! Biz o illəri öyrənməliyik! O dəhşətləri, faciələri əbədi xatırlamalıyıq, bugünkü nəsillərə, gələcəyə çatdırmalıyıq və heç zaman unutqan olmamalıyıq.

*Yavaş-yavaş göy üzündə Ayın şöləsi yayılmağa başlayır. Tədricən İrəvan Xan Sarayının yarımqaranlıq silueti görünür. Ay hilal vəziyyətinə gəldikcə özümüzü sarayın iç hissəsində hiss edirik. Pəncərədən süzülən Ay işığında sarayın içi yarımqaranlıq şəkildə canlanır. Sarayın baş tərəfində Rəvanqulu xanın ruhu siluet şəklində görünür. Rəvanqulu xan sarayın uca yerində asılmış nisbətən böyük çırağa od salır, taxtına tərəf irəliləyir. Taxta çatar-çatma,z bir an içində qara yel qalxır. Qara yel sarayı yenicə işıqlandıran çırağı söndürür və öz burulğanında qeybə çəkir. Rəvanqulu xanın ruhu sarayın içi boyu hərəkət edir. Qeybdən Şah İsmayıl Xətainin səsi Rəvanqulu xanın qulaqlarında cingildəməyə və əks-səda verməyə başlayır.*

**ŞAH İSMAYIL XƏTAİ**: *(Xəyalən görünür və səslənir).* Ey Rəvanqulu xan! Mən – Səfəvi hökmdarı Şah İsmayıl Xətai səni İrəvan qalasının hakimi təyin edərkən, sənə çıraq bağışladım. Dedim, qalada yandırasan ki, o çıraq əbədi işığa çevrilsin! Hanı çırağın işığı?..

*Şah İsmayılın səsi əks-səda verdikcə Rəvanqulu xan təlaş edir. Ayın sısqa işığında diz çökür, əllərini göyə açaraq, dua edir.*

**RƏVANQULU XAN**: Ey yerin-göyün sahibi olan ulu Tanrım!.. Yenə qara yel qalxdı, yenicə yandırdığım Şah İsmayıl Xətainin yadigarı olan çırağımı söndürdü!.. Özün görürsən – başımız üzərində əsən qara yellər əsrlərdir ki, bizi rahat buraxmır. Sən özün bizi qara yellərdən qoru, ulu Tanrım!.. İrəvan Qalası bizə dədələrimizin yadigarıdır! Başımızın tacı, gözümüzün nurudur!.. Xalqımızın, millətimizin güvənc yeridir! Bizim güvəncimizi qırma, ey yerin-göyün sahibi!.. Qarabağımızda qəhrəman igidlərimizin yandırdığı çıraqların odundan bizə od göndər!.. Qoyma çırağımız sönsün! Ulu Tanrım, bizə kömək ol!..

*Ayın işığı getdikcə zəifləməyə başlayır. Yavaş-yavaş ətrafa qaranlıq çökür.*

## Birinci şəkil

*Sarayın bir küncündə sısqa yanan çırağın işığında tarixin gedişatını yazan Tarixçi əlindəki çıraqla ətrafı işıqlandıraraq, bütün saray boyu dolaşır. Hər tərəfdə, gözləri önünə gələn, donmuş insanların siluetləri canlanır. Sanki onlar tarixin o üzündə qalmış dədələrimizin və düşmənlərimizin siluetləridir. Tarixçi Çıraqla bir-*

*bir həmin siluetlərə yaxınlaşaraq onları işıqlandırır və nəhayət, Çıraqla söhbətə başlayır.*

**TARİXÇİ:** *(Çırağa),* Mən kiməm?!. *(Çırağın dilindən özü-özünə cavab verir).* İnsan!.. *(Çırağa),* Sən kimsən?!. *(Çırağın dilindən özü-özünə cavab verir).* Hadisələrin şahidi... *(Çırağa),* Bunlar kimdirlər?!. *(Çırağın dilindən özü-özünə cavab verir).* Tarixi yaradan insanlar... *(Çırağa),* İnsanlar!.. İnsan, hardan gəlirsən?.. *(Çırağın dilindən özü-özünə cavab verir).* Beşikdən... *(Çırağa),* Hara gedirsən?.. *(Çırağın dilindən özü-özünə cavab verir).* Əbədiyyətə... *(Ümumi danışır).* Suallar da əbədidir, cavablar da... Əvvəlim yadıma gəlmir, heç beşiyim də... Ancaq həmişə mənə elə gəlib ki, beşiyim atamdır, anamdır, babamdan qalan evimizdir, yaşadığım torpaqdır... Bir onu bilirəm ki, anam beşiyimin başı üstündə mənə həmişə şirin yuxu gətirən həzin laylalar oxuyub, ninnilər deyib. Ruhumu, könlümü xoş avazla ovudub-ovundurub, o avaza öyrədib, vərdiş etdirib... Həmin vaxtlar qara fikirli, qara ruhlu qonşularımız ermənilər isə yenicə doğulan körpələrinin qulağına pıçıldayırdılar... *(Bir anlıq Tarixçinin gözlərinə qara geyimli, birinin əlində bələyə bükülmüş bir körpə olan bir ovuc insan silueti görünür. Qeybdən onların səsləri eşidilir və o səslər Tarixçinin qulaqlarında əks-səda verərək ətrafa yayılır).* “Türk sənin düşmənindir!..”, “Türk sənin düşmənindir!..”, “Türk sənin düşmənindir!..” ...Baxın, fərqə baxın!.. Bir tərəfdə Türk anasının könül alan həzin laylası, xoş ovqat gətirən şirin ninnisi, digər tərəfdə məkrli insanların intiqam hissləri ilə aşıb-daşan qəzəb dolu “öyüdü!..” Mən Qərbi Azərbaycandanam. İrəvandanam... Öz xalqımı tanıdığım kimi, tarix boyu, bir-bir, iki-bir yanımıza gəlib yerləşən, yaltaqcasına xoş sözlərlə ürəyimizi almağa çalışan, beləliklə, torpaqlarımızda özlərinə yurd tutan erməniləri də yaxşı tanıyıram. Bütün həyatım boyu onlarla mübarizə aparmışam. Heç vaxt da onların məkrli siyasəti məni yolumdan döndərə bilməyib... Ölüm dəhşətlidir – kimin başqa sözü ola bilər? Ancaq insanla birlikdə onun xatirələrinin də ölməsi daha dəhşətlidir. Şükür olsun yaradana ki, mənim xatirələrim hələ ölməyib. Ona görə də danışıram, qələmə alıram... Mən müşahidəçiyəm, gördüklərimi yazıram, fikirləşdiklərimi söyləyirəm. Müşahidəmdə olan hər incə məqama münasibətimi bildirirəm. İndi, yaddaşımın bir küncündə məni daim narahat edən bir hadisəni xatırlayacağam... Diqqət yetirin!..

*Tarixçi yavaş-yavaş öz məkanına çəkilir. Çırağını masasının üstünə qoyur və yazmağa başlayır. O yazdıqca ətrafa telefon səsi yayılır. Telefon səsinin sədaları altında Xan Sarayı Nairanın evinə çevrilir. Naira telefonun dəstəyini götürür. Qarşı tərəfdən zəhmli cavab eşidilir.*

**NAİRA**: Alo, eşidirəm...

**TELEFONDAN EŞİDİLƏN SƏS**: Sultan Oğuz getdikcə həddini aşır. Əvvəl “Yurd” romanını yazdı. Bizə qarşı açıq mövqe qoydu... İndi də “İrəvanda yanan çıraq”... O, bu romanla daha da irəliyə gedir. Bizim bu torpaqlarda izimizin-tozumuzun olmadığını isbat edir. Necə yəni Şah İsmayılın Rəvanqulu xana bağışladığı çıraq?

Belə bir çırağın olduğunu biz bilirik, qazıntılar da sübut edir. Ancaq biz o çırağın Roma imperiyasından bizim tərəfimizdən gətirilmiş olduğunu sübut edəcəyik. Bunun üçün ciddi çalışmalar aparırıq... Sən təcili Sultan Oğuzu ciddi nəzarətə götür. Çalış, bu aralarda heç kəslə əlaqə qura bilməsin. Tək-tənha qalsın. Əlavə tapşırıqlar alacaqsan!..

**NAİRA**: Bəs həyat yoldaşı?..

**TELEFONDAN EŞİDİLƏN SƏS**: Bir müddət Sultandan onu da ayırın.

**NAİRA**: Bağışlayın, amma... *(Öz-özünə),* necə?..

*Telefonda eşidilən səs kəsilir. Naira otaqda var-gəl edərək bir xeyli düşünür və təcili otaqdan çıxır. Məkan Sultan Oğuzun evinə çevrilir. Naira ilə Səltənət qarşı-qarşıya dayanıblar.*

**NAİRA**: Səltənətcan, matax, sən çox yaxşı adamsan, evdarsan, qayğıkeşsən, Sultan Oğuzun başına pərvanətək dolanırsan, onu çox sevirsən, hörmət qoyursan, o da səni çox sevir, ancaq sizin uşağınızın olmaması məni çox narahat edir. Belə bir ideal ailənin uşaqsız qalması insafdan deyil...

**SƏLTƏNƏT**: Çox sağ ol, Nairə. Bu narahatlığın üçün sənə minnətdaram, ancaq nə edim? Əlimdən heç bir iş gəlmir. İllərlə həkimlərə baş vurduq, olmur ki olmur. bizimki də belə gətiribmiş...

**NAİRA**: Matax, qulaq as, bizim bir yaxın tanışımız var, o da sənin kimi idi. Göyçədə bu işləri yaxşı bilən gizli bir ara həkimi tapıb. Sizlərdə "türkəçarə" deyərlər. Bu müalicə üsulu əslində sizinkidir. Biz sizdən götürmüşük... Amma... yaxşı edirik...

**SƏLTƏNƏT**: Nairə, onsuz da sizin çox şeyiniz yoxdu, hər şeyi bizdən götürübsünüz. Dolma bişirmə kimi...

**NAİRA**: *(Qəhqəhə çəkir).* Yaxşı edirik.

**SƏLTƏNƏT**: Sonra da deyirsiniz: "Erməni dolması..."

**NAİRA**: *(Qəhqəhə çəkir).* Ha-ha-ha...

**SƏLTƏNƏT**: Hələ erməni qəhvəsini demirəm... Musiqimizi, mahnılarımızı da çırpışdırırsınız... Amma... heç vaxt bizim kimi oxuya bilmirsiniz...

**NAİRA**: Səltənətcan, öz aramızdı, sənin də ürəyin dolu imiş ha... *(Qəhqəhə çəkir).* Ha-ha-ha...

**SƏLTƏNƏT**: *(Nairanın qəhqəhəsinə məhəl qoymur).* Yalan deyirəm?

**NAİRA**: *(Uğunur).* Düz deyirsən, matax, amma indi biz sənin uşaq məsələni danışırıq... Hə... Tanışımız gedib o türkəçarə həkimin yanına, bircə həftə gizlincə müalicə alıb, indi uşağa qalıb. Bunu eşidəndə gözümün qabağına ilk sən gəldin. Axı, bilirsən ki, mən səni çox istəyirəm. Ona görə də düşündüm, sən mütləq o həkimin yanına getməlisən.

**SƏLTƏNƏT**: Sultan bu işə nə deyər, bilmirəm, qoy özünə deyim...

**NAİRA**: Ay qız, belə şeyləri kişiyə deməzlər...

**SƏLTƏNƏT**: Axı, Sultansız heç vaxt heç yerə getməmişəm...

**NAİRA**: Göyçədə sənin doğmaların, qohumların yoxdu?

**SƏLTƏNƏT**: Var.

**NAİRA**: Vəssalam da, Sultana de ki, bir həftəlik onlarla görüşməyə, dincəlməyə getmək istəyirəm, icazə ver. O səni çox istəyir, arzunu yerdə qoymaz... Bilirsən, kişilər belə işlərə pis baxırlar, ona görə də sən tək getməlisən.

**SƏLTƏNƏT**: Yaxşı, Nairə, çox sağ ol. Ancaq bu bir az xəyanətə oxşayır...

**NAİRA**: Ay qız, nə xəyanət? Əksinə, sən ona sürpriz hazırlayırsan, mislibərabəri olmayan bir sürpriz.

**SƏLTƏNƏT**: Yaxşı. Qoy görüm Sultanı necə razı salıram.

*Naira gedir. Səltənət yan otağa keçir. Radionun səsi ətrafa yayılır.*

**RADİOSƏS**: SSRİ Yazıçılar İttifaqının İdarə Heyəti Ermənistan SSR Yazıçılar İttifaqının təklifi ilə Ermənistan yazıçıları Jorj Babayanın "Torpaq", Sultan Oğuzun "İrəvanda yanan çıraq" romanlarını SSRİ Dövlət mükafatına təqdim etdi.

**SULTAN OĞUZ**: *(Radiodan eşitdiyi xəbərə hiddətlənir).* Nə?.. Bu nə deməkdir?.. Bu nə həyasızlıqdır?!. Necə yəni Ermənistan yazıçısı?.. Necə yəni Ermənistan Yazıçılar İttifaqının təklif etdiyi? Mən Azərbaycan yazıçısıyam!.. Ermənilər mənim əsərimi heç çap etmədilər. Mən o romanı Azərbaycanda çap etdirdim. Mükafata təqdim olunmasına baxılanda isə Ermənistan Yazıçılar İttifaqı min cür təpki göstərdi. Mükafat üçün şəxsən öz adımdan SSRİ Yazıçılar İttifaqına göndərdim. İndi nə oldu ki, ermənilər mənim əsərimə sahib çıxdılar? Nə baş verir?!. Burda bir iş var!.. Mütləq bir erməni məqsədi var! Yox!.. Mən bunu belə qoya bilmərəm! Bu saat gedib, Moskvaya teleqram vurub etirazımı bildirəcəm!.. Mənə elə adla verilən heç bir mükafat lazım deyil!.. Bunlar məni xalqımın gözündə heçə döndərmək istəyirlər! Bu, olmayacaq!..

*Sultan Oğuzun başı gicəllənir, başını ovuclarının içinə alaraq dayandığı yerdə stula oturur, gözlərinə qaranlıq çökür və ətraf qaranlığa qərq olur. Pəncərədən süzülən sısqa işıqda Nairanın evinin xəyalvari canlandığı görünür. Naira divanda oturub. Onun gözləri önündən kino lenti kimi keçən Moskvadakı Himayədarla olan söhbəti canlanır.*

**HİMAYƏDAR**: Nairacan, matax, bu iş mümkün deyil...

**NAİRA**: Mümkün olmayan iş yoxdur, savutanem...

**HİMAYƏDAR**: Matax, o roman bizim Erevana gəlmə millət olduğumuzu isbat edir. Onun SSRİ Dövlət Mükafatına təqdim olunması ermənilərin ölümü deməkdir.

**NAİRA**: Qorxma, biz bir cızmaqara romanla öləsi millət deyilik...

**HİMAYƏDAR**: Hə, yəqin ki, o, sadəcə, təqdim olunacaq, ancaq mükafatı Babayan alacaq.

**NAİRA**: Mükafatı məhz Sultan Oğuz alacaq.

**HİMAYƏDAR**: Sən nə danışırsan, Naira, biz özümüzə xəyanət edirik?..

**NAİRA**: Biz o mükafatı öz xeyrimizə istifadə edəcəyik, dostum. O mükafat "Böyük Ermənistan" ideyasına təkan verəcək. Bu, tapşırıqdır, sən həll et, vəssalam.

**HİMAYƏDAR**: Necə həll edim?!.

**NAİRA**: Orasını sən bilirsən!

**HİMAYƏDAR**: Naira, məni belə çətin, cəncəl işlərə buyurmayın...

**NAİRA**: Bura bax, sən əvvəllər belə deyildin... Deyəsən, özünü itiribsən. Hər dəfə mənim əsəblərimlə oynayırsan. Biz səni o vəzifəyə nəyə görə yüksəltmişik?..

**HİMAYƏDAR**: Nairacan, sən məni düz başa düşmədin...

**NAİRA**: Özünü axmaq yerinə qoyma. Mən sənə heç nəyi öz başımdan demirəm. Mənə nə deyirlər, mən də onu deyirəm. Zəhmət çək, icra elə.

**HİMAYƏDAR**: Başım üstünə, Nairacan, gözüm üstünə, Nairacan.

**NAİRA**: Bax, belə!..

**HİMAYƏDAR**: Yaxşı, Nairiçka, bəs biz bu boyda həngamənin altından necə çıxacağıq? İşi öz xeyrimizə necə döndərəcəyik?

**NAİRA**: O plan artıq düşünülüb. Qeyri-millətdən olan bir-iki SSRİ miqyasında nüfuzlu adamı qızışdırıb, romanın əleyhinə yazdıracağıq, sürüyüb, yerlə-yeksan edəcəyik və millətlər arasına nifaq salan roman kimi mükafat verənləri də, alanı da rüsvay edəcəyik. Eyni zamanda, özümüzün aborigen olduğumuza dair dəlillər düzəldib ortaya qoyacağıq. Vəssalam... Bununla da Sultanın romanı gedəcək işinin dalınca, yəni, zibil yeşiyinə, biz isə əsas məqsədimiz üçün hərəkətə keçəcəyik...

**HİMAYƏDAR**: Əla!.. Düzünü deyim ki, bu, heç ağlıma gəlməzdi...

**NAİRA**: Qərar layihəsi yazılarkən, mətndə Ermənistan yazıçısı sözü mütləq yer alsın. Bir də, çalış, Sultan Oğuz Ermənistan Yazıçılar İttifaqının təklifi siyahısında təqdim olunsun.

**HİMAYƏDAR**: Niyə?

**NAİRA**: Bilirsən ki, Sultan Oğuz imzası çox nüfuzlu imzadır. Bir kəlməsi ilə bütün Ermənistan türklərini ayağa qaldıra bilər. Ancaq bu şüar altında mükafat almaq Sultanı türklərin gözündə yerdən yerə vuracaq. Bu da bizim işimizə yarayacaq.

**HİMAYƏDAR**: Hə, anladım. Ancaq, Nairacan, Sultanı Ermənistan Yazıçılar İttifaqının siyahısına daxil etmək çox qəliz məsələdir. Bunu gərək Yerevandan edəsiniz. Onların razılığı olmalıdır. Yoxsa, Ermənistan Yazıçılar İttifaqı tufan qoparar, məsələni qarışdırar.

**NAİRA**: Ona vaxt yoxdur. Zaman daralıb.

**HİMAYƏDAR**: Yox, bu mümkün deyil. Erməni yazıçıları məni asarlar.

**NAİRA**: Yenə başladın?!. Deyəsən, öz ampluandan çıxa bilmirsən, dığa!.. Məni, özünlə bağlı mütləq lazım olan yerə raport vermək məcburiyyətində buraxırsan...

**HİMAYƏDAR**: Başa düşdüm, Nairacan!.. Mən hər şeyi həll edəcəm...

**NAİRA**: Bax, belə!.. Nəhayət!.. Unutma ki, milli strategiya olan yerdə hər şey arxa plana keçir. Çözülməyəcək heç bir şey qalmamalıdır... Biz türklərin ağlını elə qarışdırmalıyıq ki, daş başlarına düşənə qədər oyalansınlar. Bizi özlərinə həqiqi qardaş hesab etsinlər... Hə, sabah ilk reyslə sənə bir yeşik beş ulduzlu “Erebuni” konyakı gələcək. Dostlarınla paylaşarsan.

**HİMAYƏDAR**: Baş üstə...

**NAİRA**: Hələ orası da var... O mükafatın pulunu da sən alacaqsan. Hətta köhnə dostlar kimi iki yerə də bölə bilərik. Yarısı sənin, yarısı mənim. *(Qəhqəhə çəkir).* Nə deyirsən, xoşuna gəlir?

**HİMAYƏDAR**: *(Çaşqınlıqdan kəkələyir).* Nə, pu-pul?.. Mü-mü-mükafatın pulu?..

**NAİRA**: Bəli, bəli, mükafatın!.. O qədər pulu türk dığasına bağışlaya bilmərik axı!..

**HİMAYƏDAR**: Əslində, pul məsələsi pis olmazdı, ancaq o necə olacaq?

**NAİRA**: Biz hər şeyi ölçüb-biçmişik. Həmin vaxt Sultan xəstəxanalıq olacaq, pulu arvadı almağa gələcək, pul təsadüfən oğurlanacaq, vəssalam... *(Qəhqəhə şəkir).* Necədir?..

**HİMAYƏDAR**: Nə bilim, Nairacan, mat qalmışam... Yəni bu mümkündür?.. Sultan şübhələnməz?..

**NAİRA**: *(Qəhqəhələrlə),* İşinə bax, onu millətinin taleyindən başqa heç nə düşündürmür... Hə, türklər necə deyir? "Həm ziyarət, həm ticarət". İşi iş, pulu da pul. Sovetin havayı puludur, al, kef elə...

**HİMAYƏDAR**: Sən unikal qadınsan, Naira!..

**NAİRA**: *(Yumşaq əhvalla, sakit tərzdə, təəssüflə danışır).* Mən ömrümü nahaq yerə bir mənasız türklə qonşuluq etməklə çürütməmişəm ki!.. Tapşırıq yerinə yetirmişəm!.. Hələ də vəzifəmi icra edirəm... Sən də vəzifənə bax, matax...

**HİMAYƏDAR**: Bəs bizim Jorjun – Babayanın işi necə olacaq? Böyük ehtirasla mükafatı o alacağına inanır. Bu xəbər onu infarkt edəcək.

**NAİRA**: Böyük Ermənistan naminə sənin Jorjun – Babayanın bir az gözləməli olacaq. Savutanem. İnfarktı isə Babayan yox, Sultan Oğuz keçirəcək.

**HİMAYƏDAR**: O niyə? Ermənistandan erməni yox, onu mükafat sahibi edirik. Daha nə istəyir.

**NAİRA**: Sultan üçün mükafat, mal-mülk, var-dövlət, ad-san yox, millətinin gələcəyi əsasdır...

**HİMAYƏDAR**: *(Tədirgin),* Nə isə, baxaq görək bu işləri necə yoluna qoyuruq... Sən axırda mənim sonuma çıxacaqsan, Naira. Dua et ki, canım öz ermənilərimizin əlində çıxmasın!

*Pəncərədən düşən sısqa işıq itir. Sultan Oğuzun yavaş-yavaş özünə gəldiyi hiss olunur. O özünə gəldikcə ətraf işıqlanmağa başlayır. Sultan Oğuz başını ovuclarının içindən götürür. Ətrafına nəzər salaraq nə baş verdiyini anlamağa çalışır. Onu qara basır. Qeybdən qulağına səslər gəlir.*

**NAİRA**: Sultan... Sultan... Təbrik edirəm, əziz qonşum...

**SULTAN OĞUZ**: *(Qarabasma altındadır).* Babayan qala-qala Ermənistan Yazıçılar İttifaqı heç vax mənim əsərimi elə nüfuzlu mükafata təqdim etməz. Burda mütləq bir oyun var. Yəqin yenə öz xeyirlərinə bir əməl düşünüblər.

**NAİRA**: Neqativ olma, yoldaş Sultan Oğuz, pozitiv düşün, mənim əziz qonşum... Ermənistan hökuməti sənin əsərinə sahib çıxmaq istəyir, səni başa çəkir, sən isə qədirbilməzlik edirsən.

**SULTAN OĞUZ**: Naira, siz ermənilər heç vaxt boş yerə adamı başa çəkməzsiniz. Hətta boş yerə qonşuluq da etməzsiniz... Mütləq bir çıxarınız olmalıdır. Görünür, bu gedişi mələk donunda görünmək üçün edirlər ki, arxasınca növbəti deportasiyanı hazırlasınlar. Ürəyimə çoxdan damıb ki, türklərsiz Ermənistan yaratmaq istəyirlər.

**NAİRA**: *(İstehza ilə),* vay, vay, vay... Xəbərim yoxmuş, mənim əziz qonşum Sultançik münəccimmiş? *(Sərt səslə bağırır).* Hardan çıxarırsan bu boş, mənasız fikirləri?..

**SULTAN OĞUZ**: Jorj Babayanın "Torpaq" romanından!.. O roman dördüncü deportasiyaya hazırlıq kursunun proqramı kimi yazılıb. Məgər aydın deyil?..

**NAİRA**: Bəs sənin əsərindəki çıraq nəmənədir?..

**SULTAN OĞUZ**: O çıraq gerçəkdir! Həqiqətdir!..

**NAİRA**: Oy, oy, oy, gerçək... həqiqət... Boş-boş danışma, Sultan Oğuz... Sən yazıçı adamsan, nəyinə gərək siyasət?.. Yaxşısı budur, sən erməni humanizminə qiymət ver. Ermənistan Yazıçılar İttifaqı öz yazıçısının əsəri ilə yanaşı sənin romanını da, baxmayaraq ki, çıraq-mıraq deyə ağzına gələni yazmısan, o boyda mükafata layiq görüb, bir də gördün, mükafatı da elə sənə verdirdilər, sən bundan danış.

**SULTAN OĞUZ**: *(Əsəbiləşir).* O adla verilən mükafatı mən istəmirəm!.. Ermənistanlı yazıçı!.. Bu nə deməkdir?.. Az qala desinlər ki, erməni yazıçısı!..

**NAİRA**: Ey qədirbilməz, qəlbiqara qonşu – Türk!..

*Qarabasma daha da heyrətamiz vəziyyət alır. Naira Səltənətin səsi ilə danışır.*

**NAİRA** - **SƏLTƏNƏTİN SƏSİ İLƏ:** Sultançik, sən yaxşısı budur ondan danış ki, Dövlət mükafatının məbləği nə qədərdir!.. Nə vaxt gedirik Moskvaya? *(Barmaqlarını bir-birinə sürtərək bic-bic gülümsünür).* Halalca pullarımızı almağa? Nə qədərdir? Yüz min? Milyon? Sənə qurban olum Allah, sevincdən adamın içi işıqlanır. Bundan sonra biz SSRİ Dövlət mükafatçılarıyıq. Oy... ürəyim çırpınır. *(Sultan Oğuza yaxınlaşır. Sultanın əlindən yapışır, ürəyinin üstünə qoymaq istəyir).* Bax bir, gör necə çırpınır... *(Sultan əlini geri çəkir).* Gup-gup-gup... Döyünür... Məclislərdə yerimiz ən yuxarılarda olacaq. Deyəcəklər, baxın, SSRİ Dövlət mükafatçısının xanımı gəlir. *(Qəhqəhə çəkir).* Ha-ha-ha!.. Hansı imtiyazları var görəsən?..

**SULTAN OĞUZ**: Naira! Sən Səltənətin səsi ilə niyə danışırsan?!..

**NAİRA - SƏLTƏNƏTİN SƏSİ İLƏ:** Mən Səltənətəm, qəlbiqara adam...

**SULTAN OĞUZ**: Sən heç vaxt Səltənət ola bilməzsən, erməni! Səltənət ilahi bir türk qadınıdır!.. Bu vaxta qədər hələ fərqinizi anlaya bilməmisən?!. Pul, şan-şöhrət, imtiyaz Səltənəti heç vaxt dəyişdirə bilməz? Bu ola bilməz!.. Çıx get gözlərimin önündən... Ruhumu zəhərləyirsən!..

**NAİRA - SƏLTƏNƏTİN SƏSİ İLƏ:** İndi hər şey pulla ölçülür, ey mənim acyalavac qonşum, Sultançikim... *(Qəhqəhə çəkir).* Ha-ha-ha...

**SULTAN OĞUZ**: O, sənə görə elədir, mənə görə isə yox!..

**NAİRA** - **SƏLTƏNƏTİN SƏSİ İLƏ:** Yadından çıxıb, bayramlarda hədiyyə ala bilmədiyin üçün çəkdiyin xəcalətlər? Bəzən qəpik belə tapa bilmədiyin günlər?.. Hər şey pulla alınıb-satılır, yoldaş Sultan Oğuz!

**SULTAN OĞUZ**: Mənim Səltənətimin səsini öz mənfur simanla ləkələmə!.. Mən səninlə qonşu olmağıma, səni tanımağıma min peşmanam...

**NAİRA - SƏLTƏNƏTİN SƏSİ İLƏ:** Niyə? Mən çox məmnunam!..

**SULTAN OĞUZ**: Kəs səsini dedim...

**NAİRA**: *(Öz səsi ilə danışır).* Sus!.. Danışma!.. Ağzından fərli söz çıxmayacaq... Sən kor bir yazıçıdan başqa bir şey deyilsən!

*Naira artıq öz səsi ilə danışır. Sultan Oğuz düşdüyü vəziyyəti anlamağa çalışır. Özünü kənara çəkir. O anda Naira da qeybə çəkilir. Sultan Oğuzun özünə gəldiyi hiss olunur.*

**SULTAN OĞUZ**: Məni qara basırmış?.. Deyəsən, başıma hava gələcək... Bu mükafat məni dəli edəcək... Mən gedirəm poçta. Teleqram verib, mükafatdan imtina edəcəm... Əks halda, bu fürsət ermənilərin işinə yarayacaq!.. Bir güllə ilə iki dovşan vurmaq istəyirlər. Bir tərəfdən, məni millətimin gözündən salacaqlar, digər tərəfdən də, erməniləri bizimkilərin üstünə qaldıracaqlar... *(Qapıdan çıxır).*

## İkinci şəkil

*Nairanın evi. Naira hirslə otaqda var-gəl edir. Atacağı addımı düşünür. Telefona yaxınlaşır. Zəng edir. Qarşı tərəfdən cavab gəlir.*

**SÜSƏN**: Poçtdur, buyurun, Süsən eşidir.

**NAİRA**: Süsənim, mənəm, Naira.

**SÜSƏN**: O... çoxdandır səsinizi eşitmirəm, Nairikim. Necəsən?

**NAİRA**: Heç yaxşı deyiləm.

**SÜSƏN**: Niyə, nə oldu ki?

**NAİRA**: Bizim bu qonşu kişinin – Sultan Oğuzun başına hava gəlib...

**SÜSƏN**: Gələr də, kim olsa gələr. Mən də olsam, gələr. Elə indicə radio xəbər yaydı ki...

**NAİRA**: Qulaq as, Süsəncan, bu başıboş kişinin arvadı mənə yalvardı ki, ona kömək edim. Bilirsən də, mən heç kəsdən köməyimi əsirgəmirəm. Sultan mükafatdan imtina etmək üçün indi poçta gələcək. Moskvaya teleqram verəcək. Sən teleqramın mətnini yaz, pulunu al, “göndərdim” de, ancaq göndərmə.

**SÜSƏN**: Baaaa, o niyə belə edir axı. Sabahdan bəri poçta gələn hər erməni Ermənistan Yazıçılar İttifaqını söyür ki, niyə Babayanın o cür qiymətli əsəri ilə yanaşı, türkün əleyhimizə yazılmış bir cızmaqarasını da təqdim edib?

**NAİRA**: Məsələ burasındadır ki, Süsəncikim, bizimkilər bunun mənasını hələ bilmirlər. Səsi sonra çıxacaq. Amma Sultan özü bilir, ona görə də imtina etmək istəyir ki, türklərin başının altına yastıq qoya bilməyək. Başa düşdün?

**SÜSƏN**: Yox, düşmədim.

**NAİRA**: Yaxşı, sən dediyimi elə, gerisini düşünmə. Bu natsionalni məsələdir, Süsəncikim.

**SÜSƏN**: Yaxşı, necə deyirsən, elə də olacaq.

**NAİRA**: "Krasnıy mak"ın məndə.

**SÜSƏN**: Oy!.. Sevdim səni...

*Naira dəstəyi asır, yenidən qaldırır və nömrələr yığır.*

**NAİRA**: Məni SSRİ Yazıçılar İttifaqının katibi ilə calaşdırın...

*Bir an sonra Himayədarın silueti Nairanın gözləri önünə gəlir.*

**HİMAYƏDAR**: Alo!..

**NAİRA**: Salam, krasavçik.

**HİMAYƏDAR**: Oooo, Nairik, deyəsən sən mənim səsimdən doymursan. Nooldu, qonşun sevinir?

**NAİRA**: Yox! Duyuq düşüb ki, biz – ermənilər oyun oynayırıq.

**HİMAYƏDAR**: Ağıllıdır... O boyda əsəri yazan adamın bunu anlaması təbiidir.

**NAİRA**: Kül onun ağlına. Sabahdan bəri evində özbaşına danışır. Onun başı xarab olub. Teleqram vurmağa getdi. Mükafatdan imtina edir. Ayıq olun, teleqram gəlsə, məhv edin.

**HİMAYƏDAR**: Naira, sən evində onu güdürsən? Bunu necə bacarırsan?

**NAİRA**: Sənə aid olmayan işlərə qarışma! Sən öz işini gör!..

**HİMAYƏDAR**: Narahat olma, Nairacan! Geriyə gedən yollar qapalıdır.

**NAİRA**: Sağ ol! Görüşənədək! *(Dəstəyi asır).*

## Üçüncü şəkil

*Poçtun qarşısındakı park. Sultan poçtdan çıxır, qəbzi qatlayıb cibinə qoyur və skamyaya yaxınlaşır. Oturur. Uzaqda bir milis işçisi bir nəfər mülki şəxslə gizli söhbət edir. Milis əl işarəsi ilə Sultan Oğuzu göstərərək mülki şəxsə tapşırıq verir. Bu məqamda Sultan Oğuz sanki bir anlıq Səltənəti gözləri önündə görür. Onunla xəyalən danışır.*

**SULTAN OĞUZ**: Səltənət... Ey ömür səltənətimin, ey ruh səltənətimin sultanı Səltənətim!..

**SƏLTƏNƏT**: Ey həyatımın, varlığımın, ömrümün sultanı Sultanım!.. Baş tacım!..

**SULTAN OĞUZ**: Sən yaxşı insansan, Səltənət!.. İstiqanlısan... Gəncliyində də belə idin. Yeganə qız idin ki, şirin dilinlə, nazlı-işvəli xasiyyətinlə, gözəl ürəyinlə, mənə olan sevgini dönə-dönə, doymadan dilə gətirməyinlə könlümü ovsunlamışdın. Elə tilsimə salmışdın ki, hətta hamının önünə keçə bilirdin...

**SƏLTƏNƏT**: Çünki mən səni hamıdan çox sevirdim. Səni heç kəsə verə bilməzdim. Əlimdən alsaydılar, ölərdim... Mən sənsiz yaşaya bilməzdim. İllərdir

ki, evliyik, sənsiz heç vaxt ayrı qalmamışam. Həmişə bir yerdə olmuşuq. Hara getsək, bir yerdə getmişik!.. Bir tək bu dəfə cəmisi üççə günlük mən təkcənə Göyçəyə gəldim, burada da sənsiz darıxıram.

**SULTAN OĞUZ**: Mən də sənsiz darıxıram!.. İllah da bu gün!..

**SƏLTƏNƏT**: Niyə, ömrüm-günüm?.. Səni İrəvanda yalnız qoyub Göyçəyə getdiyim üçünmü?.. Neynim, dedim, barəbər gedək, sən gələ bilmədin. Toxta. Bir-iki günə dönəcəm yanına.

**SULTAN OĞUZ**: Bu gün məni qara basdı, Səltənət... Naira kabus kimi qarşımda dayanıb, sənin səsinlə mənə ağzına gələnləri dedi...

**SƏLTƏNƏT**: Sən nə danışırsan, Sultanım, gözlərimin işığı, səni qara niyə bassın?.. Həməncə çıxıb gəlirəm!.. Bundan sonra sənin yanından bir an belə ayrılmaram. Sən mənim həyatımın mənasısan!..

**SULTAN OĞUZ**: Yox-yox, tələsmə. İstirahət elə. Hər şey keçdi-getdi... Dərd böyükdür... Gələndə danışarıq... Özünə yaxşı bax... Göyçənin sahillərində gəz. Gələndə xəbər ver, qarşılayım...

*Mülki şəxs – Suren yavaş-yavaş, sezilmədən Sultana tərəf gəlir, zümzümə edərək ona yaxınlaşır.*

**SUREN**: Ay bagbançi, bağançi, bagıt bağıs nimançi... *(Sultana),* hayes?

**SULTAN OĞUZ**: Voç, turkem! *(Mülki şəxsin diqqətlə ona baxdığını görür).* Əyləşmək istəyirsiniz?

**SUREN**: *(İsteza ilə),* yox, yatmaq istəyirəm. Bura mənim yerimdir.

**SULTAN OĞUZ**: Belə soyuqda? Xəstələnərsiniz. Ev-eşiyiniz yoxdur? Gəlin, oturun. *(Suren onun yanında əyləşir).* Sualıma cavab vermədiniz?

**SUREN**: Stavropoldan gəlmişəm. Vaqonda pullarımı, sənədlərimi oğurlayıblar. İki-üç gündür burda yatıram. Teleqram vurmuşam, pul göndərəcəklər, gözləyirəm.

**SULTAN OĞUZ**: Adınız nədir?

**SUREN**: Suren...

**SULTAN OĞUZ**: Azərbaycanca belə harda öyrənmisiniz? Çox təmiz danışırsınız.

**SUREN**: Mən Vedibasarlıyam. Orda qonşularımızın hamısı türk idi.

**SULTAN OĞUZ**: *(Ona pul uzadır).* Götürün, gedin, mehmanxanada qalın. Sətəlcəm olarsınız.

**SUREN**: *(Nəzərləri puldadır).* Sənədim yoxdur. Heç yerə qəbul eləmirlər.

**SULTAN OĞUZ**: Siz pulu götürün, dil taparsınız.

**SUREN**: *(Pulu alır).* Bu çoxdu. Mən bunu necə qaytara bilərəm sizə?

**SULTAN OĞUZ**: Narahat olmayın. Qaytarmasanız da olar.

**SUREN**: Yox... Necə deyərlər, dağ dağa rast gəlməz, adam adama rast gələr. Tapıb qaytaracam.

*Milis işçisi Aşot gizli şəkildə Surenə yaxınlaşır və arxasında görünməz şəkildə dayanır.*

**SULTAN OĞUZ**: *(Aşota)* Nə lazımdır? *(Suren geri dönür. Aşotu arxasında görcək, təlaşlanır. Aşot cəld onun yaxasından yapışır).*

**AŞOT**: İt oğlu it! Sənə deməmişəm buralarda gəzmə? Sən bu vağzalın ətrafında görünəndən 5-6 adamın pulu, çamadanı yoxa çıxıb! Demədim gözüm səni buralarda görməsin? İndi səni qulaqlayıb aparıb atacam KPZ-yə. Onda ağıllanarsan.

**SUREN**: Ay qardaş, niyə mənə şər atırsan? Dedim axı, qəribəm... Pul gözləyirəm...

**AŞOT**: Mənə qardaş demə, tülkü! Mən milisəm. Dələduz, *(yamsılayır),* "niyə mənə şər atırsan? Pul gözləyirəm". Mən sənə şər atıram?!.

**SUREN**: Məssəb haqqı, mən siz deyən adamlardan deyiləm. Pulum gəlsin, çıxıb gedəcəm.

**AŞOT**: Mən sənə xəbərdarlıq eləmişdim? İndi KPZ-yə gedəcəyik. *(Sultana),* o günü dostum deyir ki, ən çox oğurluq edən türklərdir. Türk olsaydı, mən bu yaramazı aparmazdım e, ermənidi, amma oğurluq edir. Onu bağışlaya bilmərəm.

*Sultan Oğuz əsəbiləşir, ancaq təmkin göstərir.*

**SUREN**: *(Ağlayır).* Balalarına qurban olum, burax çıxım gedim *(getmək istəyir).*

**AŞOT**: *(Əsəbi, arxadan onun boynundan yapışır).* Hara?

**SUREN**: *(Müqavimət göstərir).* İşimə-gücümə. Vallah, bir də buraya gəlməyəcəm.

**AŞOT**: *(Sillə vurur).* Ay sən öləsən!..

**SULTAN OĞUZ**: Vurma! Burax onu!

**AŞOT**: Nə?

**SULTAN OĞUZ**: Dedim ki, onu burax! Sənin nə ixtiyarın var sadə sovet vətəndaşını vurursan?!

**AŞOT**: Görürəm sən türksən! Türksən?

**SULTAN OĞUZ**: Türkəm!

**AŞOT**: Allahına şükür elə ki, sənə bu torpaqlarda hələ nəfəs almağa icazə veririk.

**SULTAN OĞUZ**: O məlum deyil, kim kimin torpağında nəfəs alır.

**AŞOT**: Ara, nəfəsin canına dar gəlməsin... Niyə verdin o pulu ona? Belə alkaş oğruları elə sizin kimilərdir qudurdan, bir yandan oğurluq edir, əclaf, bir yandan da dilənir. Hələ bir tülkü kimi quyruq da bulayır. Xəbəriniz var ki, o günü Bakı qatarından beş çamadan yoxa çıxıb? Bura çatanda bir türk qadınının yükünü də oğurlayıblar. Bax, beləlləri... Nə qədər pul verdin ona?

**SULTAN OĞUZ**: Nə qədər verdim, verdim. Buraxın, çıxıb getsin.

**AŞOT**: Sən nə ixtiyarla mənə, bu boyda Sasunlu David Parkının sahə müvəkkilinə əmr edirsən? Deyirsən ki, oğrunu – dələduzu burax? Nədi? Yoxsa sən də bununla əlbirsən?

**SULTAN OĞUZ**: Bəs sən nə ixtiyarla insana əl qaldırırsan?

**AŞOT**: Ara, başın gövdənə ağırlıq eləməsin. Nə qədər ki, səni qapazlayıb toz eləməmişəm, çıx get. Çıx get də.

**SULTAN OĞUZ**: *(Aşota)* Bir dəqiqə bura gəlin.

**AŞOT**: Hə, nədi, döyəcəksən məni?

**SULTAN OĞUZ**: Mən adamdöyən deyiləm, ikicə kəlmə qulağınıza söz deyəcəm.

**AŞOT**: Nə, qulağımı yeyəcəksən? *(Surenə tərəf çevrilir).* Eşitdin, ara? Deyir, qulağını yeyəcəm.

**SULTAN OĞUZ**: Şər atma, mən sənə elə söz demədim.

*Aşot cəld öz əli ilə paqonunu qoparıb yerə atır.*

**AŞOT**: Ara, turk, sən mənim paqonumu qopartdın? Ara, sən sovet milisinə əl qaldırdın?

**SULTAN OĞUZ**: Ay erməni sovet milisi, həyasızlıq eləmə, mən nə vaxt sənə əl qaldırdım?

**AŞOT**: Ara, hələ bir sən məni söyürsən də?!.. *(Surenə)* Eşidirsən, savutanem? Qulağımı yemək istəməyi, paqonumu qoparıb yerə ataraq təhqir etməyi bəs deyil, hələ bir özümü də söyür!..

**SUREN**: *(Sultan Oğuza).* Ara, sən neynədin, aysdvas? Sən onu döydün-söydün?.. Məsəb haqqı, batdıq. Üç statyanı birdən qucaqladın. Biri olsaydı, tərəf durardım, üçünə gücüm çatmaz. Sən getdin, əlli-ayaqlı.

**SULTAN OĞUZ**: Sən nə danışırsan, ay ikiüzlü erməni. Mən ona neynədim axı? Mən sənin üstündə çəngələşirəm, sən isə…

**AŞOT**: Demək, elədiklərini danırsan? Dana bilməzsən. Paqonum yerdədi? Yerdədi. Qulağımı yemək istəyirdin? İstəyirdin! Özümü söydün? Söydün!.. Bu saat aparacam səni bölməyə.

**SULTAN OĞUZ**: Hara istəyirsən, ora gedək. Mən sənə heç bir şey etməmişəm. Sən isə bu adamı sillə ilə vurdun.

**AŞOT**: Mən vurdum?

**SULTAN OĞUZ**: Vurmadın?

**AŞOT**: *(Surenə)* mən səni vurdum?

**SUREN**: Vurdun?

**SULTAN OĞUZ**: Vurmadı?

**SUREN**: Vurdu?

**SULTAN OĞUZ**: Daha nə deyim? Sözüm qalmadı.

**AŞOT**: Amma sən qulağımı yemək istədin – Bir! Paqonumu qopardın – sovet milisinin paqonunu təhqir etdin – iki! Sovet milisini söydün – üç!.. *(Bağırır).* Düş qabağıma!.. *(Gözlərini bərəldir)* Sən hələ bir milisə müqavimət də göstərirsən? Bu da dörd?

**SULTAN OĞUZ**: Bağırmayın, sakit danışın. Hələ siz dediklərinizi sübut eləməlisiniz!..

**AŞOT**: Sübut? *(Surenin yaxasından tutub önə atır).* Al sənə sübut. Bu boyda ermənini gözün görmür? Şahidimdi, bu sənə yetmir?

**SULTAN OĞUZ**: O, olmayan şeyə necə şahidlik edər?

**AŞOT**: *(Surenə),* etməzsən?

**SUREN**: Məssəb haqqı…

**AŞOT**: *(Surenə bağırır).* Uzatma, gördün, ya yox?

**SUREN**: Deyəsən – gördüm axı.

**AŞOT**: Vəssalam. Bu da sübut. Cibindəkiləri də ver görüm…

**SUREN**: Nəyi?

**AŞOT**: Pulu.

**SUREN**: Niyə? Pulu axı, mənə o verib.

**AŞOT**: *(Nə deyəcəyini bilmir. Karıxır).* Pul… pu-pul… pul… dəlil... *(Hirslə bağırır).* Artıq suallar vermə. Ver pulu!.. Dələduz!.. *(Suren pulu cibindən çıxarıb verir. Pulu alır).* Düş qabağıma. Şahid... *(Sultan Oğuza).* Sən də düş qabağıma.

**SULTAN OĞUZ**: Mən heç yerə getməyəcəm.

**AŞOT**: Getməyəcəksən?.. *(Cibindən fit çıxarır, Sultan Oğuza göstərir).* Bu saat Sasunlu Davidin bütün milislərini buraya yığacam, zorla aparacam.

**SUREN**: Ara, aysdvas, işi çətinləşdirmə, öz xoşunla get ki, işin yüngül olsun. Bax, mən öz xoşumla gedirəm. *(Önə düşür, irəliyə doğru bir neçə addım atır).*

**SULTAN OĞUZ**: *(Surenə),* ay səni yaramaz…

*Aşot cibindən çıxardığı fiti səsləndirir. Fit səsinə ətrafdan bir neçə fit səsi eşidilir. Sultan Oğuz vəziyyətin qəlizləşdyini görüb, getmək məcburiyyətində qalır.*

**AŞOT**: *(Bağırır).* Düş qabağıma!..

**SULTAN OĞUZ**: *(Aşota)* Hara lazımdır, gedək. Mən heç kimdən, heç nədən çəkinmirəm.

*Sultan Oğuz Surenin getdiyi tərəfə gedir. Aşot özündənrazı halda onun arxasınca irəliləyir və gözdən itirlər. Tarixçi gedənlərin arxasınca baxır, sonra təəssüflə özü-özünə danışır.*

**TARİXÇİ:** Ermənilər İrəvanın ən gözəl yerlərindən birində Sasunlu Davidin heykəlini qoyublar, əlinə də qılınc veriblər. Şəhərin başında, Stalinin heykəlinin yerində qoyulan qadın heykəlinin də əlinə qılınc veriblər. Özləri də deyirlər ki, o, əlinə qılınc götürən yeganə erməni qadınıdır. Bir şəhərdə nə qədər at üstündə əli qılınclı heykəl olar? O qılınclar şəhərə gələn qonaqların başını kəsə biləcək hədə-qorxu rəmzidir? Özləri də bilmədən özlərinə gülürlər. Amma əməllərindən heç vaxt əl çəkmirlər. O heykəlləşən qılınclı ermənilərin törəmələri nə qədər əzazil olsalar da, bizim başımızı vura bilməyəcəklər!.. Əslində, bu şəhərin hər tərəfində Xan babalarımın at üstündə əli çıraqlı heykəlləri ucaldılmalıdır. Çünki, bu şəhər mənim şəhərimdir. Əcdadlarımın yadigar qoyduğu şəhərdir. Bu şəhər də, Zəngəzur da, Dərələyəz də, Göyçə də, Hamamlı da, Ağbaba da, Vedibasar da, Zəngibasar da, Uluxanlı da, Barana da, Cəlaloğlu da, Dərəçiçək də, Qaraqoyunlu da... Bir vaxtlar müvəqqəti də olsa əlimizdən getmiş Qarabağ da milli mənliyimizə, torpağımıza, qeyrətimizə, bir sözlə, özümüzə biganəliyimizin faciəsidir... O yurd yerlərimizin sakinlərinin hamısı narahat, nigaran, didərgin! Çoxları çoxdan bir ovuc külə dönüb torpağa qarışsa da, sərgərdan ruhları hələ də rahatlıq tap-

mayıb. “Toxmağangöldə”, İrəvan müsəlman məzarlığını deyirəm, Qərbi Azərbaycanın hər bölgəsində, hər şəhərində, hər kəndində qəbirləri dağılmış ulularımızın narahat ruhları bizi oralarda görmədikdə, Allah bilir, hansı əzabları çəkirlər. O ruhlar babalarımızın yatdığı həmin ərazilərimizi qarış-qarış dolanır, ulularımızın məzarını soraqlayır, ad çıxarmış, san qazanmış min-min ərlərimizin atlarının izlərini axtarırlar... Yaxşı ki, bu gün Ölkə başçımızın, qəhrəman Baş Sərkərdəmizin “Dəmir yumruğu”, cəsarəti, dərin siyasi iradəsi ilə coşan igid oğullarımızın hünəri sayəsində Qarabağımız özümüzə qaytarıldı... İnanıram ki, bütövlükdə Qərbi Azərbaycan da, bax, bu qədim İrəvan da, yurdumuzun qəriblikdə qalan başqa şəhərləri, kəndləri də öz doğma anasının – Böyük Azərbaycanın ağuşuna qayıdacaq!.. Qayıdacaq!.. Mütləq qayıdacaq!..

Tarixçi öz çırağının işığına tərəf gedir.

## Dördüncü şəkil

*Məhkəmə sədrinin kabineti. Sədr Qərinə Şahnəzərovna kreslosunda əyləşib, sənədlərlə tanış olur. Daxili telefon zəng çalır. Qərinə Şahnəzərovna selektorun düyməsini sıxır. Selektordan katibənin səsi eşidilir.*

**KATİBƏNİN SƏSİ**: Qərinə Şahnəzərovna, Sərdarov gəlib.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Kim?

**KATİBƏNİN SƏSİ**: Emil Sərdarov.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Bir an düşünür, tanımağa çalışır).* Emil Sərdarov?

**KATİBƏNİN SƏSİ**: Bəli, Azərbaycandan Emil Sərdarov.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Təlaş edir).* Nə durmusan? Təcili içəri dəvət et. *(Cəld ayağa qalxır, güzgünün önünə keçir, əlləri ilə saçına düzən verir).* İşə bax... Emil hara, bura hara?..

**EMİL SƏRDAROV**: *(Daxil olur. Qapı ağzında dayanaraq səslənir).*

*“Bir sən idin, bir mən idim, bir də sevgimiz,*
*Bir vurardı ürəyimiz, bizim qəlbimiz.*
*Nə sən gəldin, nə mən gəldim, getdi sevgimiz,*
*Nə sən dindin, nə mən dindim, bitdi sevgimiz...”*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Bir qədər çaşqın halda Emili seyr edir və birdən uşaq kimi özünü onun üstünə atır. Emili bağrına basır. Hər ikisi mehribancasına görüşürlər. Sonra Qərinə bir qədər kənara çəkilir və Emili yenidən seyr edir).* Emil... Emil... *(Ovuclarını jurnala bənzədərək, müəllimin jurnalda adları oxuduğu kimi etüd edir).* Qərinə Şahnəzərovna... *(Sanki müəllimin səsinə cavab verir).* Burda... Emil Sərdarov... Emil yoxdur?.. *(Qərinə Şahnəzərovna Emili təqlid edir. Sanki adını indicə eşitdi, təlaşla),* burda, burda... Mən burdayam... *(Qəhqəhə çəkir).* Həmişə eyni çağırış, eyni təlaşlı cavab. Elə bil, sən dərs başlamış yatırdın e, Emilçik...

**EMİL SƏRDAROV**: Qərinə Şahnəzər qızı... Unutmamısan...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sən Sultan Oğuzun şeirini unutmadığın kimi. “Bir sən idin, bir mən idim, bir də sevgimiz”... Elə bil, bizim üçün yazmışdı. Dilindən düşmürdü. Hər dəfə sən o şeiri söylədikcə, içim göynəyirdi...

**EMİL SƏRDAROV**: Niyə, mənə yazığın gəlirdi?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yox... Hisslərin içimi göynədirdi.

**EMİL SƏRDAROV**: Sən ki Sultanı sevirdin, mənim hisslərim sənin içini necə göynədə bilərdi?..

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Gülümsünür. Məhəbbət dolu nəzərlərlə və sanki peşmanlıqla Emilin gözlərinə baxır, sonra mövzunu dəyişir).* Evlənmisən?..

*Emil susur. Başını aşağı salır. Qərinə ona yaxınlaşır. Şəhadət barmağının ucu ilə Emilin telini sığallayır.*

**EMİL SƏRDAROV**: Eyni jest, eyni barmaq, eyni sığal. Hər şey əvvəlki kimi, sanki qarşında körpə uşaq dayanmışdı...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sualıma cavab vermədin... *(Emil yenə də susur və gözlərini Qərinənin gözlərinin içinə zilləyir).* Aydındır... Evlənməmisən...

**EMİL SƏRDAROV**: Bəs sən, sən niyə ailə qurmamısan?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sən hardan bilirsən?

**EMİL SƏRDAROV**: Mən axı prokuroram – çekistəm, hər şeyi bilmək vəzifəmdir...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Niyə evlənməmisən?

**EMİL SƏRDAROV**: Səncə?..

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Ola bilməz!.. Yəni məni bu qədər sevirdin?

**EMİL SƏRDAROV**: Hər halda, sən Sultanı sevdiyin qədər...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Eh, Sultan, Sultan... Sakit canı ilə hər kəsin könlünü fəth eləmişdi... Nə isə, qismət beləymiş... Nostaljiyə qapılmayaq...

**EMİL SƏRDAROV**: Sözü düşmüşkən, Sultanı görürsən?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yox. Harda görməliyəm ki?

**EMİL SƏRDAROV**: Eyni şəhərdə yaşayırsınız, dedim bəlkə...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yox, görüşmürük. Sadəcə, bu gün radioda eşitdim ki, Ermənistan Yazıçılar İttifaqı onun "İrəvanda yanan çıraq" əsərini SSRİ Dövlət Mükafatına təqdim edib. Doğrusu, sevindim, ancaq deyirlər o roman çox "xatalı" romandır. Bizim əleyhimizə yazılıb. İnanmıram ki, mükafatı qazana bilsin. Mən oxumamışam, ancaq guya, romanda söhbət Şah İsmayılın haçansa Rəvanqulu xana bağışladığı hansısa uydurma çıraqdan gedir. Nə isə, boş verək. Sən xoş gəlmisən bizim Erevana...

**EMİL SƏRDAROV**: Sən yenə bizim Erevan deyirsən?..

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Emil, yəqin ki, buraya mənimlə savaşmağa gəlməmisən...

**EMİL SƏRDAROV**: Yox da, sizin Erevan yox, bizim İrəvan...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Ay dad, yenə başladı da... Necə var idin, eləcə də qlıbsan. Körpə uşaq kimisən... *(Emilin boynunu qucaqlayır).* Kaş ki, o vaxtlar səni başa düşə biləydim... Nə isə,.. Keçin əyləşin, yoldaş çekist. *(Emilin qolundan yapışaraq stula əyləşdirir, özü də onunla qarşı-qarşıya oturur).* Gözlərimə inana bilmirəm... Nə işlə məşğulsan, neynirsən?

**EMİL SƏRDAROV**: Fizuli rayonunda prokuror müaviniyəm.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(İroniya ilə)* Sən gərək bu vaxta qədər ən azı nazir müavini olaydın.

**EMİL SƏRDAROV**: Bu yaş üçün bu da az deyil. O da olar, inşallah!

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yaxşı, de görüm, gəlişinin səbəbi nədir? Hər halda... yəqin ki... məni görməyə gəlməmisən...

**EMİL SƏRDAROV**: "Həm ziyarət, həm ticarət" deyək. Gəldim həm səni görüm, həm də.. *(Ayağa qalxır, rəsmi görkəm alır).* Qərinə Şahnəzərovna, məni bura bir cinayətkar çəkib gətirib. Xristafor adlı bir dələduz. Fizuli rayon şərab zavodundan altı ton spirt oğurlayıb qaçıb. Araşdırmalarımıza əsasən, Abovyan rayonunda qohumlarıgildə qalır. Tərtib etdiyimiz sənədlər məndədir. Xahiş edirəm, cinayətkarın tutulmasında mənə kömək edəsən.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Deyirəm da... Məni görməyə gəlməmisən... *(Rəsmi danışır).* Yoldaş Sərdarov, əvvəla, de görüm, altı ton spirti necə qaçırmaq olar? Bu, altı ədəd iynə deyil ki, yaxana sancıb, aradan çıxasan.

**EMİL SƏRDAROV**: Rəmzi danışırıqsa, onda deyin, yoldaş hakim, insanın könlünü necə oğurlamaq olur?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Gülür).* Könül oğurluğunun canisi Sultan Oğuzdur, o cinayəti ondan soruşarsınız *(Ciddi görkəm alır).* Bu, milis işidir. Mən sənə kömək edə bilmərəm.

**EMİL SƏRDAROV**: Qərinə, deyəsən, sən unudursan ki, bu işdə mənə kömək eləmək sənin birbaşa vəzifə borcundur.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Gülümsəyir, zarafatyana)* Ah, Emilcan, mən əvvəllər də deyirdim, indi də deyirəm, sən ölməli oğlansan *(Qəhqəhə çəkir).* Mən sənə yalnız belə kömək edə bilərəm... Abovyan rayonunun milis rəisi mənim tanışımdır. Mən ona zəng edərəm, mənim adımdan gedərsən onun yanına. Sənə nə lazımdırsa, kömək edər.

**EMİL SƏRDAROV**: Bu başqa məsələ... Çox sağ ol... Amma burda bir incə məsələ də var. Mənə qalmaq üçün nəzərlərdən uzaq bir yer də lazımdır. Rayon mehmanxanasında qalsam, Xristaforun adamları bundan xəbər tutar. Əməliyyat pozula bilər.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Bunu da həll edərik. "Dərəçiçək" dincərliyi Abovyan rayonundadır, direktoru da mənim tanışımdır. Ona tapşıraram, sənə yer ayırar. *(Gülümsünərək zarafatlaşır).* Razı qaldınız, yoldaş Sərdarov?

**EMİL SƏRDAROV**: Yerlə göy qədər *(Zarafatyana),* çox sağ olun, yoldaş hakim.

*Daxili telefon zəng çalır. Qərinə əl uzadıb selektorun düyməsini sıxır.*

**KATİBƏNİN SƏSİ**: Qərinə Şahnəzərovna, 36-cı milis bölməsindən xuliqan gətiriblər. Rəis özü də gəlib. Deyir, sizinlə əvvəlcədən danışıb. Gözləmə otağına keçirdim.

*Emil əl işarəsi ilə getmək üçün izn istəyir.*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Hə, məlumatlıyam. Gözləsinlər, indi dəvət edərəm. *(Selektoru qapadır).*

**EMİL SƏRDAROV**: Mən gedim, əlaqə saxlayarıq.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Səndən doya bilmədim... Ancaq yerləş, görüşüb, doyunca söhbət edəcəyik. İstəsən, Sultanı da taparıq, görüşüb xatirələrə dalarıq.

**EMİL SƏRDAROV**: *(Ayağa qalxır, qollarını geniş açır).* Gəl, bir səni bağrıma basım, ey gəncliyimin həsrət göyərçini!

*Qərinə gülür, Emilə yaxınlaşır. Onlar mehriban görüşürlər. Qərinə Emili qapıya qədər ötürür. Qapıdan katibəyə səslənir.*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Dəvət et, gəlsinlər.

*Qərinə öz yerinə keçir. Milis rəisi Hayqaz, Sultan Oğuz və polis nəfəri Aşot daxil olurlar. Qərinə Sultanı görcək, növbəti dəfə təlaşa düşür. Gözlərinə inana bilmir. Az qala, qapıya tərəf səslənmək, Emili geri çağırmaq istəyir. Ancaq artıq Emilin getmiş olduğunu dərk edir və nə deyəcəyini bilmir. Heyrətdən əlləri üzündə qalır. Sultan Oğuz isə başı aşağı dayandığına görə, Qərinənı görmür.*

**HAYQAZ**: Salam, Qərinə Şahnəzərovna. *(Sanki Sultan Oğuz yuxudan ayılır. Başını qaldırıb, Qərinəyə baxır).* Mən xuliqanı gətirmişəm, sənədləri də məndədir.

*Hayqaz sənədləri Qərinəyə tərəf uzadır. Ancaq Qərinənin baxışları Sultan Oğuzun üzündə olduğu üçün sənədin ona uzadıldığını fərq etmir.*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Hayqaz, sən neynəmisən?

**HAYQAZ**: Mən? Neynəmişəm?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Xuliqan dediyin bu adamdır?

**HAYQAZ**: Bəli. Özüdür ki, var. Həm də qatı xuliqandır. Hətta canidir.

*Qərinə Sultan Oğuza yaxınlaşır. Əl uzadır. Sultan Oğuz Qərinənin əlini sıxır.*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sultan müəllim, keçin əyləşin. *(Sultan göstərilən yerdə əyləşir).* Hayqaz, sən bilmirsən bu hörmətli adam kimdir?

**HAYQAZ**: Dedi fəhləyəm, adım da Sultan.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Dedi fəhləyəm? *(Səmimiyyətlə, şeir söyləyir).*

Adicə qara fəhləyəm, qardaş,
Qara fəhlə…
Usta fəhlələr cərgəsinə keçməmişəm hələ,
Nə taxta-şalban daşıyıram, nə də kömür,
Elə olsaydı, nə qəm,
Bu, başqa cür fəhləlikdir,
Bu, başqa ömür... Belə dedi?

**HAYQAZ**: Hə, elə belə də dedi.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Bu, Sultan Oğuzun cavanlıq şeirlərindən biridir. Yaxşı, Hayqaz, mən sənədlərlə yaxından tanış olandan sonra öz qərarımı verəcəm.

**AŞOT**: Möhtərəm hakim, mən görürəm, siz bu türkə xüsusi hörmət bəsləyirsiniz. Amma mən şikəst olmuşam. Əgər siz onun işinə baxmasanız, mən birbaşa respublika prokurorluğuna şikayət edəcəm. Bizim də sözümüzə baxarlar.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Dediyim kimi, sənədlərlə yaxından tanış olmalıyam.

**HAYQAZ**: *(Aşota).* Dayan, ara, səbirli ol. Qərinə Şahnəzərovna, yaxşı, siz sənədlərlə tanış olun, biz də o vaxta qədər bu Sultan fəhləni aparıb KPZ-yə salaq!

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Hayqazın qolundan tutub kənara çəkir və məxfi danışır).* Siz heç bilirsiniz ki, kimə ilişibsiniz? Başınıza bəla açmaq istəyirsiniz? Bu adam tanınmış, nəhəng bir yazıçıdır. Elə bu gün Ermənistan Yazıçılar İttifaqı onun romanını SSRİ Dövlət mükafatına təqdim edib. Alacaq-almayacaq, o sonrakı məsələdir, ancaq fakt odur ki, təqdim olunub. Bu iş milli münaqişə kimi partlayar, özünüzün də, mənim də başımı balta altına qoyarsınız. Sakitcə çıxın, gedin.

**HAYQAZ**: Bəs, cinayət?..

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Hirslənir)* Nə cinayət?

**HAYQAZ**: Milisi döyüb e... Qulağını gəmirmək istəyib, paqonunu cırıb, yerə atıb, tapdalayıb...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sən nə danışırsan, Hayqaz? Mən universitetdə beş il bu adamla bir yerdə, bir auditoriyada, bir parta arxasında oturmuşam. Bu günə qədər bir milçəyə belə əl qaldırmayıb, nə ağzına gələni danışırsan? Sakitcə milisini də al, çıx, get.

**HAYQAZ**: Bəs sənədlər?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sənədlərini də götür, cır, at.

**HAYQAZ**: Yox, cıra bilmərəm, o, dövlət sənədidir.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Nə dövlət sənədi? Mən bilirəm o necə dövlət sənədidir. Sən o sənəddən gündə neçəsini yazıb, sonra da cırıb atırsan. Guya bilmirəm?..

**HAYQAZ**: Onda, sənədləri götürüm, hər ehtimala qarşı, qalsın məndə.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Xeyr, sənədləri mənə təhvil veribsən, vəssalam, qalacaq məndə. Sultan müəllimi isə mən zaminə götürürəm. Gedə bilərsiniz.

**HAYQAZ**: *(Təəccüb və ironiya ilə)* Necə məsləhətdi... *(Məxfi danışır).* Amma, Qərinə Şahnəzərovna, bilin, bu dələduz yuxarının tapşırığı ilə saxlanılıb. Qonşusunu incidib. Qonşusu da bizim qızlardandır. Dərhal içəri girməlidir.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Hansı yuxarı?

**HAYQAZ**: Lap yuxarı.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Sərt səslə),* başa düşdüm, gedə bilərsiniz. Lazım gəlsə, yuxarı ilə mən danışacam.

*Hayqazla Aşot çaşqın halda kabineti tərk edirlər.*

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Sultan... Necəsən, Sultan? Nə içirsən, qəhvə?

**SULTAN OĞUZ**: Varsa, çay, zəhmət olmasa.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Qayğı ilə).* Bunlar səni dünəndən saxlayıblar?

**SULTAN OĞUZ**: Hə, dünən gecədən.

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Niyə saxlayıblar?
**SULTAN OĞUZ**: Səbəbini bilmirəm. Şərlədilər, tutdular.
**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Ev-eşik necədir?
**SULTAN OĞUZ**: Normaldır.
**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yaxşı... Qalx, yəqin ac olarsan, qalx gedək bizim bufetdə sənə özüm qulluq edəcəm. Yemək yeyək, sonra da zəng vuraram "Dərəçiçək" dincərliyinə, sənə yaxşı bir yer ayırtdıraram. Mənim maşınım səni aparar ora. Bir neçə gün orda dincələrsən. Emil Sərdarov da gəlib, o da orada qalacaq, axşamlar işdən sonra mən də gələrəm, birgə bir qədər vaxt keçirərik...
**SULTAN OĞUZ**: Emil? Bizim Emil?
**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Hə, bizim Emil... Elə indicə, sizin qabağınızca getdi. Bilsəydim sən burdasan, saxlayardım, görüşərdiniz. Ancaq eybi yox, dincərlikdə görüşərsiniz... Hə, səni ürəkdən təbrik edirəm, radioda...
**SULTAN OĞUZ**: Xahiş eləyirəm, təbrik eləmə... Mən o mükafatdan imtina etdim.
**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Niyə? Bu cür uğur...
**SULTAN OĞUZ**: Qərinə, xahiş edirəm, bunu müzakirə etməyək. Danışdıqca məni qara basır, qanım qaralır. Yaxşısı budur, gedək yemək yeyək, həqiqətən də, mən dünəndən acam.
**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yaxşı, sən elə istəyirsən, elə olsun. Gedək.

*Kabinetdən çıxırlar.*

## *Birinci hissənin sonu*

## İkinci hissə

## Beşinci şəkil

*Hər yan qaranlıqdır. Qeybdən Şah İsmayıl Xətainın səsi eşidilir və əks-səda verir.*

**ŞAH İSMAYIL XƏTAİ**: *(Xəyalən görünür və səslənir).* Ey Rəvanqulu xan! Mən Səfəvi hökmdarı Şah İsmayıl Xətai səni İrəvan qalasının hakimi təyin edərkən, sənə çıraq bağışladım. Dedim, çırağı İrəvan qalasında yandırarsan ki, o çıraq əbədi işığa çevrilsin! Hanı çırağın işığı?..

*Səs əks-səda verdikcə hava açılır. Hava açıldıqca Dərəçiçək dincərliyinin həyəti canlanır. Hər tərəfdə istirahət guşələri görünür. Yüksəklikdən erməni dilində "Toplantı iştirakçılarına eşq olsun" şüarı asılmışdır. Tarixçi şüarı oxuyur. Acı-acı gülümsəyir.*

**TARİXÇİ:** Baxın, bu şüara yaxşı baxın!.. Nə deyir?.. "Toplantı iştirakçılarına eşq olsun!" Bu şüar gizli keçiriləcək bir toplantının qonaqlarına aiddir. Həmin toplantıda ermənilər İrəvan təpəciklərinin birindən bu günlərdə tapılmış, Şah İsma-

yıl Xətainin Rəvanqulu xanı İrəvan hakimi təyin edərkən, İrəvanın rəmzinə çevrilməsi üçün ona bəxş etdyi, Sultan Oğuzun "İrəvanda yanan çıraq" romanında da haqqında bəhs olunan tarixi çırağın taleyini dəyişdirmək, guya vaxtilə ermənilərin Romadan gətirdikləri çıraq olduğunu isbat edərək öz xeyirlərinə dəyişdirmək niyyətindədirlər. Bununla onlar həm də Sultan Oğuzun romanını məhv etmək istəyirlər... Ölməz Mirzə Cəlilin bu sətirləri uşaqlığımdan yadımda qalıb: "...mən gözlərimi dünyaya açanda dünyanı qaranlıq görmüşəm...". Mən gözlərimi dünyaya açanda gördüklərimi Mirzə Cəlilin gördükləri ilə qarşılaşdırmışam, müqayisə aparmışam, təəccüblənmişəm, heyrətlənmişəm – Ustad o qaranlıqda elə aydın yazıları necə düşünüb, necə yazıb?..

*Ətrafa qaranlıq çökür.*

## Altıncı şəkil

*İki qütbdə qaraüzlü adamların silueti canlanır.*

**BİRİNCİ QARAÜZLÜ**: Sultan Oğuzu gözünüzdən qoymayın!..
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Başından yalançı təriflər yağdırın ki, mükafatdan imtina etməsin!
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Millətinin gözündən salmaq üçün tədbirlər də görün!.. Erməni yazıçısı olduğundan qürur duyduğunu fərəhlə dilə gətirdiyinə dair şayiələr yayın!
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Qərinə Şahnəzərovna Sultan Oğuzla bağlı işlərdən xəbərsizdir. Onu məlumatlandırın, vəziyyəti tənzimləsin!
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Füzuli rayonundan gələn prokuror müavini uydurma oğurluq işi ilə bizimkilərin diqqətini yayındırmaq istəyir, əslində isə, gizli toplantımızı pozmaq üçün gəlib. Onu ortadan götürün.
**İKİNCİ QARAÜZLÜ**: Hansı formada?
**BİRİNCİ QARAÜZLÜ**: Şorgözdür, lazım gəlsə, qızlarımızdan birini onun ağuşuna atın, səssizcə öldürün!..
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Bakıdan gəlmiş tarixçi qadın alimin əşyalarını səssiz-səmirsiz it-bat edin!..
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Çalışın, gizli toplantımız başlamadan dincərliyi tərk etsin!
**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..
**BİRİNCİ QARAÜZLÜ**: Xaricdən gələn qonaqlara diqqəti birə-iki artırın!.. Hədiyyələri çoxaldın! Qiymətli hədiyyələr olsun ki, qonqların gözləri qamaşsın,

çırağı biz istədiyimiz kimi görə bilsinlər. O türk çırağı, nəyin bahasına olursa-olsun, bizim çırağımız kimi qeydiyyata alınmalıdır!..

**İKİNCİ QARAÜZLÜ**: Baş üstə!..

*Siluetlər yox olur.*

## Yeddinci şəkil

*Ətraf işıqlanmağa başlayır. İşıqlandıqca Sultan Oğuzun şüara baxdığını görürük. Sultan Oğuz şüarı oxuduqdan sonra başını yelləyərək öndəki skamyalardan birinə tərəf irəliləyir. Bir an qulaqlarında at nallarının səsləri eşidilir. Az sonra dəli-dolu bir at kişnərtisi ətrafda əks-səda verir. Sultan Oğuzun əhvalı dəyişir. Gözlərini yumur.*

**SULTAN OĞUZ**: *(Öz səsi qulağında səslənir. Səs ətrafda əks-səda verir).*
*At kişnərtisi...*
*Nal səsi...*
*İçimi coşduran Vətən,*
*Yurd həvəsi...*
*Ulu dədələrimizin,*
*Xan atalarımızın qurmaq,*
*yaratmaq eşqi...*
*Qayğıkeş analarımızın məlhəm dolu, ılıq nəfəsi...*
*Cəfakeş nənələrimizin həzin laylası,*
*şirin ninnisi...*
*Canımda göynəyən ağrı yüklü həsrət...*
*Gözlərimdə qaynayan qisas hirsli nifrət...*
*Əcəba, nə vaxt tükənəcək,*
*bitəcək*
*məni daim mücadiləyə,*
*mübarizəyə,*
*qələbəyə,*
*zəfərə çağıran,*
*ruhumu sarsıdan bu dözülməz,*
*çəkilməz dərd?!..*

**USUB KİŞİ**: *(Uzaqdan Sultan Oğuzun gəldiyini görür, ona yaxınlaşır, incik halda görüşür).* Salam, Sultan müəllim.

**SULTAN OĞUZ**: Salam, xoş gördük, Usub kişi. Necəsiniz?

**USUB KİŞİ**: Sizcə, xətrini dünyalar qədər istədiyim bir yazıçının, ömrüm boyu inandığım bir türk kişisinin erməni yazıçısı olduğunu eşitdikdən sonra necə olmalıyam, hıy?

**SULTAN OĞUZ**: *(Təmkinlə),* Haqlısan, Usub kişi. Yerdən göyə qədər haqlısan!

**USUB KİŞİ**: Mən haqlı olduğumu bilirəm, sən haqsız olduğunu bilirsənmi, hıy?

**SULTAN OĞUZ**: Mən nəinki haqsız olduğumu, hətta ölməli olduğumu bilirəm.

**USUB KİŞİ**: *(Sanki, dediklərindən peşmanlıq çəkirmiş kimi, üzülür).* Əstəğfürullah, Sultan müəllim, ölsün səni istəməyənlər. Bə a kişi, bütün millətin gözü səndəykən, bir kəlmə sözünə dünyanı yıxmağa hazır olduğu halda, bu xəbər nə xəbər idi, hıy?

**SULTAN OĞUZ**: Bilmirəm, Usub kişi, anlamıram. Əsərimin çapına qadağa qoyan Ermənistan Yazıçılar İttifaqı həmin əsəri elə nüfuzlu mükafata təqdim eləməz. Burda mütləq bir oyun var. Görünür, millətimizə qarşı nə isə hazırlayırlar.

**USUB KİŞİ**: Vay bunların evi yıxılsın!.. Vay bunların anasını... satım!..

**SULTAN OĞUZ**: Mükafatdan imtina üçün Moskvaya teleqram verdim. Yazdım ki, ya məni azərbaycanlı yazıçı kimi təqdim etsinlər, ya da heç etməsinlər. Görək, nə cavab gələcək.

**USUB KİŞİ**: Vallah, Sultan müəllim, hamının səndən üzü dönüb, illah da bu işdən sonra... inanıblar ki, sən o mükafata əyilərsən... Əmbə, düzünü deyim ki, mən incisəm də, inanmamışam.

**SULTAN OĞUZ**: Bunların birinci məqsədi də elə millətin üzünü məndən döndərməkdir. Sağlıq olsun, "el gözü tərəzidir" deyiblər, inşallah, ağla qara görünər... Usub kişi, baş həkim yenə Vartazardır?

**USUB KİŞİ**: Ay onu görüm lənətə gəlsin.

**SULTAN OĞUZ**: Niyə, nolub ki?

**USUB KİŞİ**: Məni işdən çıxarıb.

**SULTAN OĞUZ**: Səbəb?

**USUB KİŞİ**: Burda dincələn bir qadının otağını qarət eləyiblər, bəzi şeylər aparıblar. Vartazar da "günahkar qaravulçudur" deyib, atdı mənim üstümə, işdən azad elədi.

**SULTAN OĞUZ**: Otaqdan nə aparıblar ki?

**USUB KİŞİ**: Deyilənə görə, cındırından cin hürkən köhnə bir çıraq şikli, bir köhnə, lazımsız xəritə, bir az da mənasız cızmaqara.

**SULTAN OĞUZ**: Oğurlanan əşyalar qiymətsiz şeylərə oxşamır. Qadın kimdi, hardan gəlib?

**USUB KİŞİ**: Bakıdan gəlib, azərbaycanlıdı. Firəngiz xanım. Su sonası kimi gözəl, ləyaqətli, əsl azərbaycanlı qadınıdır.

**SULTAN OĞUZ**: Firəngiz?

**USUB KİŞİ**: Hə, hə, Firəngiz. Dediyinə görə alimdi, tarixçidi. Məndən də narazı deyil...

**SULTAN OĞUZ**: Firəngiz... Ad mənə çox doğma gəldi...

**USUB KİŞİ**: Azərbaycandan bir prokuror da gəlib. Dünən gedib ona dedim ki, mənə kömək eləsin. Dedi ki *(ağzını əyir),* "mən indi bu işə qarışa bilmərəm". Heç qarışan günün olmasın... Bu da mənim Bakıdan gələn prokurorum. Sultan müəllim, biz səni ona görə çox istəyirik ki, heç kəsin yanını yerə vermirsən. Prokurora baxsana... Sultan müəllim, istəyirəm Firəngiz xanıma da deyim, hər halda, itən əşyaların sahibi odu. Vartazardan xahiş eləsin, məni işimə qaytarsın. Mən işdən

çıxsam, ölərəm. Bir də, o maaşa mənim böyük ehtiyacım var. Nəvələrin çörəyi o maaşdı. Bilirsən, rəhmətliyin uşaqları mənim üstümdədi... Sultan müəllim, Vartazara sən də deyərsənmi?..

**SULTAN OĞUZ**: Usub kişi, sən darıxma, kimsəyə də bir söz demə, mən özüm həll edəcəm.

**USUB KİŞİ**: *(Kefi kökəlir, sevincindən dil boğaza qoymur).* Ay sizi Allah qorusun, Sultan müəllim!.. Vallah, mən hamıya deyirəm, Sultan müəllim bütün Qərbi Azərbaycanlıların yiyəsidi, atasıdı. O olmasa, bu milləti burdan yerli-dibli didərgin salarlar... Bax, and olsun həzrəti Abbasın kəsilən qoluna, bu erməni yazıçı qondarmasını da mən heç yaxına buraxmadım... Bax-bax-bax... Mələksima Firəngiz xanım da gəlir. Gəlin, sizi tanış eləyim, Sultan müəllim... *(Səslənir).* Firəngiz xanım, gəlin, yaxın gəlin, tanış olun, qarşınızdakı Qərbi Azərbaycanlıların xilaskarı, böyük yazıçı Sultan Oğuz müəllimdi... *(Firəngiz yaxınlaşır. Gözləri Sultan Oğuzun üzündədir. Sultan Oğuz heyrət içindədir. Onların bir-birinə bu cür baxışları Usub kişini çaşdırır. Usub kişi nə deyəcəyini belə bilmir).* Sultan müəllim... Firəngiz xanım... Ayə, Allahınıza qurban olum, siz bir-birinizi tanıyırsınızmı? Hıы? A Sultan müəllim, bir mənə baxsana... *(Sultan Oğuz gözlərinin qulağı ilə Usub kişiyə baxır. Baş işarəsi ilə Firəngizi tanıdığını bildirir).* Ay sizi yaradana qurban olum... Yaxşı, siz danışın, söhbət eləyin, mən də gedim görüm bu Vartazar hardadı. *(Sevinc içində uzaqlaşır).*

**SULTAN OĞUZ**: Firəngiz... Firəngiz... Firəngiz... Nə yaxşı ki, səni burda gördüm, sakitləşdim, durulaşdım, məni çulğalayan mənfi cərəyanların burulğanından çıxdım. *(Firəngiz susur).* Danış, Firəngiz.

**FİRƏNGİZ**: Kimdən danışım?

**SULTAN OĞUZ**: Özündən.

**FİRƏNGİZ**: Özüm dağların o üzündə qalmışam, keşməkeşli yolların o başında...

**SULTAN OĞUZ**: Amma o dağları, o keşməkeşli yolları yoran, adlayıb gələn də sənsən. Necə olsa da, bura gəlib çıxa bilmisən.

**FİRƏNGİZ**: Heç dəyişməmisən, Sultan.

**SULTAN OĞUZ**: Sənə elə gəlir, Firəngiz... İçim özümü, çölüm özgəni... Bağrımın başı yaralıdı, Firəngiz...

**FİRƏNGİZ**: Niyə yazdın o kitabı?

**SULTAN OĞUZ**: Desəm, mükafat almaq üçün, inanarsan?

**FİRƏNGİZ**: Yox... Təsadüfə bax... Emil də burdadı, Qərinə də... Sən də gəldin, lap tam olduq...

**SULTAN OĞUZ**: Firəngiz...

**FİRƏNGİZ**: Gəl, inşallah, alacağın o böyük mükafatdan danışaq, "böyük erməni yazıçısı".

**SULTAN OĞUZ**: Firəngiz!.. Heç olmasa, sən belə ittiham eləmə. Sən axı məni yaxşı tanıyırsan…

**FİRƏNGİZ**: Sən, mən tanıdığım Sultan ola bilmədin, Sultan Oğuz…

**SULTAN OĞUZ**: Firəngiz, sən mənim şəxsi həyatımdan çox az şey bilirsən, Firəngiz. Mükafatdan isə heç danışma.

**FİRƏNGİZ**: Niyə? Sən elə tələbəlik illərindən hara, nə üçün getdiyini yaxşı bilirdin, həmişə deyirdin:

*Yol gedirəm!*
*Tufanların qucağında əsə-əsə,*
*Başsız yellər qabağımı kəsə-kəsə,*
*İnsanlara gərək üçün, kömək üçün,*
*Ürəyimi məşəl edib yol gedirəm.*

**SULTAN OĞUZ**: Mən öz sabahımı görə bilmədim...

**FİRƏNGİZ**: Nə yazıq ki, məhəbbətin gözü kor olur... Dahi yazıçımız Sultan, sən məndən yaxşı bilərsən ki, sevgi hələ xoşbəxt ailənin açarı deyil. Səncə, Leyli-Məcnundan, Romeo-Cülyettadan, Tristan-İzoldadan, Humay-Cəlaldan... xoşbəxt ailə çıxardı?

**SULTAN OĞUZ**: Bəlkə də...

**FİRƏNGİZ**: İnanmıram, xoşbəxt ailənin sirləri başqadı. Qadın gərək öz ərini qoruya kişi xatalarından. Qadın gərək öz ərinə analıq qayğısı göstərə. Qadının səbri gərək dərya ola...

**SULTAN OĞUZ**: Bağışla, elə isə niyə sən özününkünü qoruya bilmədin?

**FİRƏNGİZ**: Çünki, mən başqasını sevirdim.

**SULTAN OĞUZ**: Bəs, niyə ona getdin?

**FİRƏNGİZ**: "Başqasının" acığına.

**SULTAN OĞUZ**: Gəl, açıq danışaq.

**FİRƏNGİZ**: Danışaq!.. Yadındadı?.. Universitetdə sənin, mənim, Qərinənin, Emilin həmişə bir yerdə olmağımıza qəribə baxırdılar. "Dördbulaq", "dördbucaq" adı vermişdilər bizə. O vaxtlar mən hiss etdim ki, nə isə böyük bir şey itirirəm. Amma acımadım, küsmədim səndən. Qəribədir, bizə elçilər gələndə, evimizdə elə bilirdilər ki, sənin adamlarındı.

**SULTAN OĞUZ**: Axı, bizim aramızda elə bir söhbət olmamışdı?

**FİRƏNGİZ**: Hə də. Mən də onu deyirəm. Niyə bizimkilərə elə gəlmişdi? Niyə?..

**SULTAN OĞUZ**: *(Nə deyəcəyini bilmir).* Mən... Sən... Firəngiz...

**FİRƏNGİZ**: Axı, mənim nə günahım var idi? Niyə mən uçuruma yuvarlandım? Niyə axı səninlə gecələr, gündüzlər Bakının küçələrində veyillənəndə, "Axundov" kitabxanasında saatlarla yan-yana oturub kitabları vərəqləyəndə, sevgidən danışan filmlərə, tamaşalara baxanda, futbolacan gedib çıxanda *(Bakı yerində futbola getmək qadın üçün dünyanın o başıdır...),* bircə kəlmə ilə qandırmadın ki, sevirsən məni? Niyə? Niyə, Sultan, niyə?..

**SULTAN OĞUZ**: Səni görəndə bizə elə gəlirdi ki, daha uca mövzulardan danışırıq. Həyatdan da, məhəbbətdən də uca mövzulardan. Elə bil sevgi, məhəbbət mövzusuna "enməyə" utanırdıq...

**FİRƏNGİZ**: Amma başqaları ilə olanda dil-dil ötürdün. Sən başqaları ilə deyə-gülə danışanda mən həmişə özümü təhqir olunmuş, alçaldılmış hesab edirdim.

Bəklə düz eləmirdim. Nə bilim, yəqin qısqanırdım... Mənə elə gəlirdi ki, mənimlə kəlmə kəsmək istəmirsən... Ona görə də, kim olur-olsun, birinə bağlanmalıydım.

**SULTAN OĞUZ**: *(Müdaxilə etmək istəyir).* Firəngiz...

**FİRƏNGİZ**: *(Daha kəskin danışır).* Həm də kursumuzda çoxu elə bilirdi ki, sən başqasını sevirsən. Çoxuna elə gəlirdi ki, mən iblis donuna girib, səni onun əlindən almaq istəyirəm... Amma belə deyildi... Belə deyildi... Mən, əslində, səni sevirdim, Sultan. Bu gizli məhəbbətimi məhv etmək lazım idi, çünki təhqir olunmuşdu. Bu sevginin gərək səsi çıxmayaydı bir yana. Mən də belə elədim... "Yurd" romanını oxuyanadək mənə elə gəlirdi ki, sənin qəlbində mənim adımdan əsər-əlamət qalmayıb. Daha doğrusu, heç vaxt bu ad olmayıb sənin qəlbində. "İrəvanda yanan çıraq" romanını oxuduqdan sonra isə dəli olmaq dərəcəsinə gəldim. Anladım ki, demə, mənim adım sənin ürəyinə əbədi yazılıbmış...

**SULTAN OĞUZ**: *(Kövrəlir).* Sənin adın da, özün də mənim ömrüm boyu könlümün başında yurd salıb, Firəngiz...

**FİRƏNGİZ**: *(Ağlamsınır).* Ayrı-ayrı yerlərdən gəlmişdik, birimiz dağdan, birimiz arandan, ürkək quşlara bənzəyirdik Bakıda. Kiməsə sığınmalıydıq, qayğılarımızı kiminləsə bölməliydik... Biz də belə sığınmışdıq bir-birimizə, Sultan... Romanlarını oxuduqdan sonra anladım hər şeyi. Sağ ol dedim sənə. Sən həmişə mənim qəlbimdə uca olmusan!.. Çox uca!.. *(Yaş boğur).* Sağ ol, Sultan. O günlər üçün min yol sağ ol. Sən əsl kişi idin gəncliyindən. Beş il yan-yana oturduq, qoşa getdik, mən səndə bayağı, xoşagəlməz bir baxış sezmədim, artıq-əskik bir söz eşitmədim. Sağ ol, Sultan. Romanlarını da, bax, beləcə, göz yaşları ilə oxudum, ağladım, kədərləndim. Günahın ən çoxunun elə məndə olduğunu dərk etdim. Axı, mən də sənə "səni sevirəm" deyə bilərdim. Desəydim, bəlkə də hər şey dəyişərdi... Ucaldın qəlbimdə, elə ucasan ki, müqayisəyə başqa ucalıq tapa bilmirəm. Moskvada bir "İkarus" dolu uşaqları yanğından xilas etməyini radioda eşidəndə, qürurum yerə-göyə sığmadı. Diktor deyirdi ki, sən bu xilaskarlığını çox adi qələmə vermisən. Bu da sənin ucalığındır, Sultan... *(Qeyri-ixtiyari Sultanın əllərini ovcunun içinə alır).* Yaraların daha incitmir ki?

**SULTAN OĞUZ**: *(Gözləri Firəngizin ovcuna dikilir).* Məni başqa yaralar daha çox incidir, Firəngiz. Həyat çox amansız imiş... Məni Moskvada da, burda da ayağa qaldıran "Yurd" romanını yazmaq həvəsi oldu. "Yurd" romanının qazandırdığı uğurdan sonra "İrəvanda yanan çıraq" romanını su içimi kimi yazdım... Araz sahilində oturub "mənim doğma çayım, gözəl çayım" deyə inildəyən, qədim torpaqlarımız olan bu yerlərin, əslində ermənilərin olduğunu iddia eləyən Babayanlara cavab vermək lazım idi. Həyata yenidən inanmağımda bu əsərlər mənə ruh verdilər.

**FİRƏNGİZ**: Firəngizin verə bilmədiyini heç olmasa əsərlərin verdi. Çünki, nə qədər səni dəlicəsinə sevsə də, Firəngiz yaxşı qız deyildi, sənə heç bir şey vermədi.

**SULTAN OĞUZ**: Elə demə, Firəngiz...

**FİRƏNGİZ**: Bağışla, bəlkə yeri deyildi. bilirsən niyə açdım bu sirri?

**SULTAN OĞUZ**: Niyə?

**FİRƏNGİZ**: Düşündüm ki, ölüm-itim dünyasıdı, nə olur-nə olmaz. O zaman demədim, peşman oldum, heç olmasa, indi söyləyim. Özümlə aparmayım. O dünyadasa peşman olmayım. Qərinə də səni dəlicəsinə sevirdi. Amma çox yaxşı ki, Səltənətlə həyat qurdun. O, sənə layiq xanımdır. Qərinə yaxşı qızdır. Amma... ermənidir... Onlar öz milli məkrlərini heç kimə, heç nəyə güzəştə getmirlər. Ailədə də. Səltənət iki yaş bizdən balaca idi, amma iki dəfə bizdən ağıllıydı. Əsil ev xanımı ola bilərdi... Və oldu! Hamımıza qələbə çaldı.

**SULTAN OĞUZ**: Elə bilirdim sənin ürəyində unudulmuş köçəm, Firəngiz. Amma elə deyilmiş. Həmişə içimdə bu bir parça şeir gizlin-gizlin misralar dolaşırdı... Mənə bayaq sağ ol deyirdin. Sən sağ ol. Belə təmiz, belə cəfakeş, insansevər qaldığın üçün... Mən də sənin elmi fəaliyyətini həmişə izləmişəm. Mənşəyimizin Qafqaz albanlarından min neçə yüz il qabağa gedib çıxmasını çox tutarlı dəlillərlə sübut eləmisən... Doktorluq dissertasiyan da bu mövzudadı?

**FİRƏNGİZ**: Hə, Sultan. Adı – “Qərbi Azərbaycan türklərinin tarixi coğrafiyası”. Bu yerlərdə indi alban kimi tarixə düşən qədim Azərbaycan türkləri yaşayıb. Əlimdə çox əsaslı materiallar var. Sənin bədii dildə romanda dediklərini, mən tarixə əsaslanaraq sübut edirəm. Ermənilər heç vaxt bu yerlərin sahibi olmayıb. Bu tayfa Urmiya gölünün cənub sahilində məskunlaşmışdı. Bir şəkil tapmışam. XIX əsrin əvvəlində İrəvan xanlığının paytaxtı olan İrəvanın mənzərəsi. O şəkildə bir dənə də olsun kilsə görünmür. Şəhər məscidlər və minarələrlə bəzənmişdir. O yerlərin indiki vəziyyətinin şəklini çəkib müqayisəli vəziyyətdə kitabımda vermək istəyirəm. Əlimdə bir unikal fotoşəkil də var. Sənin romanında haqqında bəhs etdiyin Şah İsmayıl Xətainin Rəvanqulu xana bağışladığı çırağın şəkli. Deyilənə görə, bu günlərdə İrəvanda qazıntı işləri aparan rusiyalı etnoqraflar həmin çırağı tapıblar. Erməni alimləri həmin çırağın guya, vaxtilə Romadan gətirildiyini sübut etmək üçün rus alimlərini, hansı yolla olur-olsun, inandırmağa çalışırlar. Mən isə həmin çırağın məhz Şah İsmayıl tərəfindən hədiyyə olunduğuna dair sübutlarla onların gizli keçirmək istədikləri toplantıda iştirak etmək üçün gəlmişəm. Əslində, məni Moskvanın əli ilə dəvət ediblər ki, gəlim, hər şeyi gözlərimlə görüm, olanlara şahidlik edim, danışmağa sözümüz qalmasın... Əlidolu gəldiyimi görüb, bütün əşyalarımı, İrəvanın görüntülərini canlandıran şəkli, o cümlədən də hazırladığım məqaləmi oğurladıblar. İndi həmin məqaləni yenidən yazıram. Xoşbəxtlikdən, çırağın şəkli əl çantamda idi deyə, apara bilməyiblər. Ancaq bilirəm ki, axtardıqları məhz həmin şəkil idi. Ona görə ya yenə gələcəklər, ya da, bir üsulla mənim toplantıda iştirakıma mane olmağa çalışacaqlar. Ancaq bu, mümkün olan iş deyil...

*Usub kişi təngnəfəs qaçaraq gəlir.*

**USUB KİŞİ**: Sultan müəllim, Firəngiz xanım, Vartazar otağındadır.

**SULTAN OĞUZ**: Gedək, Firəngiz, Vartazar sənin əşyalarının itməsinə görə Usub kişini işdən çıxarıb, gedək, onu işinə qaytaraq.

**USUB KİŞİ**: Sultan müəllim, getməyin. Cəhənnəm olsun mənim işim də...

**SULTAN OĞUZ**: Niyə, nə oldu, Usub kişi?

**USUB KİŞİ**: Heç yaxşı şeylər olana oxşamır, Sultan müəllim. Pis şeylər baş verir.

**FİRƏNGİZ**: Bizi intizarda saxlama, Usub əmi, nə baş verir? Söylə!..

*Usub kişi sağına-soluna baxır. Məxfi məlumat verirmiş kimi, səsini qısaraq danışır.*

**USUB KİŞİ**: Vartazarın qapısına yaxınlaşmışdım – qapı aralı idi, içəridən xoşagəlməyən söhbətlər eşitdim. Ədliyyə nazirinin müavini Vartazarın otağında idi. Vartazara deyirdi ki, təcili sanatoriyanı boşaltsın. Adamları sanatoriyadan uzaqlaşdırsın. Guya, epidemiya varmış, guya, sanatoriya təcili dezinfeksiya olunmalıymış... *(Uzaqda Vartazar, Qərinə Şahnəzərovna, Naira və Emilin onlara tərəf gəldiyini görür).* Bax-bax-bax, gəlirlər. Mən gedim, məni burda görməsinlər *(Getmək istəyir).*

**SULTAN OĞUZ**: Dayan, Usub kişi, bəs əsas məqsədləri nədir?

**USUB KİŞİ**: Bilmirəm, vallah, bilmirəm. Bir onu eşitdim ki, bir azdan Ermənistan Elmlər Akademiyasının prezidenti ilə SSRİ Elmlər Akademiyasının prezidenti buraya gələcəklər. Deyəsən, KQB-dən də gələcəklər, hətta bir neçə nazirlikdən də... Qadan alım, mən gedim, məni görməsinlər *(Tələsik uzaqlaşır).*

**SULTAN OĞUZ**: Bunların nə məqsədi ola bilər? Epidemiya varsa, bəs akademiklərin, KQB-nin, nazirliklərin burada nə işləri var? Qəribə şeylər baş verir.

**FİRƏNGİZ**: Mən təxmin etdim nə baş verir.

**SULTAN OĞUZ**: Nə baş verir, Firəngiz?

**FİRƏNGİZ**: Bu gün burada keçiriləcək gizli toplantıya dünyanın çox yerindən nümayəndələr gələcək. Sənin romanının qəhrəmanı olan o tarixi “çıraq müzakirə olunacaq. Çırağın qədim erməni mülkü olduğu” isbat ediləcək və kitaba o cür düşəcək, dünya onu o cür tanıyacaq. Ancaq mən buna imkan verməyəcəm.

**SULTAN OĞUZ**: Səni toplantıya buraxmadıqdan sonra sən nə edə biləcəksən ki?

**FİRƏNGİZ**: Toplantıya buraxılacağıma inamım çoxdu. Hələlik onlara elə gəlir ki, məndə başqa heç bir dəlil qalmayıb. Ancaq bilmirlər ki, əsas dəlil əlimdədir.

**SULTAN OĞUZ**: Əsas dəlil nədir, Firəngiz?

**FİRƏNGİZ**: Dedim axı, çırağın fotosu.

**SULTAN OĞUZ**: Hə, başa düşdüm. Ancaq çırağın fotosu necə sübut edir ki, o, məhz həmin çırağın fotosudur?

**FİRƏNGİZ**: Vaxtilə bir səyyah tərəfindən çəkilib və alt yazısında “Şah İsmayıl Xətainin Rəvanqulu xana hədiyyəsi” sözləri yazılıb.

**SULTAN OĞUZ**: O fotodan daha kimdə var?

**FİRƏNGİZ**: Yalnız məndədi... Mən onu keçən il çox çətinliklə Fransadan gətirmişəm. Emil də buraya məhz mənə dəstək olmaq üçün göndərilib *(Vartazar, Qərinə Şahnəzərovna, Naira və Emil yaxınlaşırlar)...* Təmkinli ol, məsələdən xəbərdar olmağımızdan duyuq düşməsinlər...

**NAİRA**: *(Çəpik çalaraq)* Afərin sizə, afərin. Leyli və Məcnun baş-başa... Söz tapa bilmirəm. *(Sultan Oğuza).* Səltənəti ona görə Göyçəyə göndərdin?.. Evdən

buna görə buraya gəldin? Bu boşanmış qadınla, keçmiş sevgilin Firəngizlə görüşmək üçün? Əxlaqsız qonşu!..

**SULTAN OĞUZ**: Sən necə tərbiyəsiz qadınsanmış, Naira! Mərifətli ol! Biz təsadüfən...

**NAİRA**: İndi bütün görüşlərin adı təsadüf qoyulur, Sultançik. Təsadüfən sən iki gün əvvəl arvadını evdən göndərirsən Göyçəyə... Təsadüfən səni milislər tutur, təsadüfən Qərinənin yanına aparılırsan, təsadüfən Qərinə səni bu sanatoriyaya yerləşdirir, təsadüfən Firəngiz də burada olur, siz təsadüfən görüşürsünüz *(Qəhqəhə çəkir)!* Nə gözəl təsadüflərdi bu təsadüflər. Mən Qərinənin özünə də dedim, o, vaxtilə səni sevirdi, fürsətdən istifadə edib, səni arvadından ayırmaq üçün bu oyunu qurub, Firəngiz ərindən boşanıb, səni ürəyindən çıxara bilmədiyi üçün sənin arxanca buralara gəlib ki, ailəni dağıtsın, özünü sənə pərçimləsin *(Əlini Emilə tərəf uzadır).* Bu Emilə bir bax sən. Bu Emil niyə təsadüfən burada peyda olub, hə? Deyə bilərsən? Çünki, Emil də bu işin marağındadır. Deyim niyə? Çünki, arvadın Səltənəti o da sevirdi, Səltənət, mənim əziz rəfiqəm *(dirsəyini göstərir),* ona bunu göstərmişdi, indi öz ağlı ilə guya o, intiqam alır... Ailənizi dağıda biləcəyini zənn edir... Ancaq Səltənət yoxdu, onun rəfiqəsi, sədaqətli qonşusu *(əlini sinəsinə döyür),* Naira burdadı! Mən buna yol verməərəm!..

**SULTAN OĞUZ**: Sən nə danışırsan, Naira? Bu insanların işi-gücü qurtarıb ki, mənim dalımca düşüblər? Sən necə qəlbiqara adammışsan, Naira? Bir də, qonşusan, get qonşu yerində dur. Bilmədiyin, sənə aid olmayan işlərə qarışma!.. Mənim qonşuma bax!.. Bu illər ərzində mən niyə səni tanıya bilməmişəm? Çıx get burdan, Naira!.. Burda sənin yerin yoxdu!.. Allah səni bildiyi kimi eləsin, Naira!..

**NAİRA**: Nə?.. Allah?.. Sən sovet yazıçısı deyilsən?.. Sən nə zamandan Allah adamı oldun, yoldaş Sultan Oğuz?

**SULTAN OĞUZ**: *(Getdikcə hissləri coşur).* Mən bütün ömrüm boyu Allah adamı olmuşam, Allahsız qadın!..

**FİRƏNGİZ**: *(Sultanın qolundan yapışaraq, onu sakitləşdirməyə çalışır).* Sakit ol, Sultan, özünü ələ al!..

**NAİRA**: *(Firəngizə).* Əlini çək, ay əxlaqsız, mənim qonşumun ərinin qolundan. Sən kimsən mənim bacı kimi xətrini istədiyim qonşumun ərinə əl sürtürsən?

**FİRƏNGİZ**: *(Abırla kənara çəkilir).* Xahiş edirəm...

**NAİRA**: Xahiş edirmiş. Rədd ol bu torpaqlardan. Hansı cəhənnəmdən gəlmisən, oraya da qayıt *(Vartazara)!* Siz təcili bu qadını bu sanatoriyadan rədd edin. Əks halda, sizi də bu işdə əlbir kimi günahlandıracam, prokurora şikayət edəcəm.

**VARTAZAR**: *(Nairaya).* Sakit olun, xanım, mən elə indicə Firəngiz xanımı sanatoriyadan göndərərəm *(Firəngizə).* Firəngiz xanım, xahiş edirəm, əşyalarınızı da toplayın, gedin, məni cəncələ salmayın, oğul-uşağım var, sizə görə işimi itirə bilmərəm. Ailəm ac qalar. Xahiş edirəm...

**FİRƏNGİZ**: Birincisi, mənim putyovkamın bitməyinə hələ üç gün qalıb...

**VARTAZAR**: Biz sizin qalıq pulunuzu ödəyərik...

**FİRƏNGİZ**: İkincisi, hansı əşyalarımı toplayım? Mənim bu sanatoriyada əşyalarım oğurlanmayıb?..

**VARTAZAR**: Biz ona görə qaravulçunu işdən qovmuşuq...

**FİRƏNGİZ**: Gücünüz sadə azərbaycanlıya yetdi?.. Onun bu işdə heç bir günahı yoxdur. Bir də, qaravulçunu qovmaqla mənim əşyalarım tapılır?.. Üçüncüsü, mən buraya SSRİ Elmlər Akademiyasının xüsusi dəvətlisi kimi gəlmişəm. Məni yalnız onlar geri çağıra bilərlər... Dördüncüsü...

**NAİRA**: Dördüncüsü, beşincisi, altıncısı, hətta yüz altıncısı... Bizə nağıllarını sadalama, qadın!.. Ya öz xoşunla çıx get, ya da mən səni saçından sürütləyib aparacam.

**SULTAN OĞUZ**: Səsini kəs, həyasız...

**NAİRA**: *(Ağlayır).* Sultançik, əziz qonşum, görmürsənmi sizin ailəniz dağılmasın deyə nə hallara düşmüşəm? Gəl, gəl çıxıb gedək evimizə. Qoy bunlar da getsinlər hərə öz işinin dalınca. Biz hələ sizin mükafatlarınızı yumalıyıq...

**SULTAN OĞUZ**: Mən mükafat-zad almayacam! Elə mükafat mənə lazım deyil! Teleqram vurmuşam!.. Sizinlə bizimki bitdi...

**NAİRA**: Qonşu, nə qədər ki, Səltənət bacı burda yoxdu, mən özümü yandıraram, ancaq səni bunlara verməərəm!..

**SULTAN OĞUZ**: *(Firəngizin qoluna girir).* Gəl, gəl Firəngiz, gəl burdan gedək, mən də səninlə gedəcəm *(Binaya tərəf gedirlər).*

**NAİRA**: *(Özünü yolmalayır).* Mən özümü yandıracam!.. Mən özümü öldürəcəm!.. İntihar edəcəm!.. Asacam özümü *(Daha bərkdən bağırır)!* Asacaaaam!.. Yandıracaaaam!.. Öldürəcəəəm!..

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Nairanı sakitləşdirməyə çalışır).* Sakit ol, matax, sakit ol. *(Vartazara),* səslənin, tez su gətirsinlər. *(Emilə),* Emil, sən onları yalnız buraxma, mən də Nairanı sakitləşdirib gəlirəm.

*Emil başını bulayaraq Sultanla Firəngizin arxasınca gedir. Emil gözdən itənə qədər Naira çığır-bağırını davam etdirir, Qərinə isə onu sakitləşdirir. Emil gözdən itən kimi ortaya sükut çökür.*

**NAİRA**: *(Sakit səslə)* Getdilər?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: *(Gülümsünür)* Getdilər.

**NAİRA**: İnandılar?

**VARTAZAR**: *(Çəpik çalır).* SSRİ Xalq artisti... Halal olsun sənə!.. İnandılar... Naira, sən niyə kinomatoqrafiyaya daxil olmamısan? Bizi bütün dünyada məşhur edərdin...

**NAİRA**: *(Qəhqəhə çəkir).* Yaxşı oynadım?

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Yüksək peşəkarlıqla. Sən o vaxtlar Sultanın qonşuluğuna da belə yüksək peşəkarlıqla yerləşməyi bacarmışdın.

**NAİRA**: Millətimin yolunda...

**QƏRİNƏ ŞAHNƏZƏROVNA**: Məncə, biz istədiyimizə nail olduq...

**NAİRA**: Yəni, “artıq çıraq bizimdir!” deyə bilərik?..

*Radionun səsi sanatoriyanın ərazisinə yayılır.*

**RADİOSƏS**: Diqqət! Diqqət! Danışır Yerevan! Mədəniyyət xəbərlərini dinləyirsiniz! Sovet Sosialist Respublikaları İttifaqının Nazirlər Sovetinin Qərarı: Erməni yazıçısı Sultan Oğuzun "Erevanda yanan çıraq" romanına SSRİ Dövlət mükafatı verilsin.

*Sanki bir an içində zəlzələ baş verir. Sanki yerlə göy bir-birinə dəyir. Tufan qopur. Aləm qaranlığa qərq olur. Elektrik dirəklərindəki lampalardan qığılcımlar qopur. Sanatoriyanın ərazisindəki bütün insanlar bir-birinə qarışır. Hərə bir tərəfə qaçır. Qığılcımların kəsik-kəsik işartısında insanlar bəzən toqquşaraq yerə sərilir, qalxaraq təkrar qaçırlar. Kimin niyə, haraya qaçdığı məlum deyil. Bu mənzərə davam etdikcə tarixçinin səsi ətrafa yayılaraq əks-səda verir. Tarixçinin səsi əks-səda verdikcə qaçışanlar arasındakı qara paltar geyinmiş adamlar yavaş-yavaş meydanın ortasına toplanırlar.*

## *Epiloq*

**TARİXÇİ:** Ermənilər bir an belə dinc durmurlar. Daim bizi bizdən qoparmaq, hər şeyimizə sahib çıxmaq üçün fasiləsiz olaraq hiylələr qurur, böyük gücləri öz mənfur əməllərinə inandırmağa çalışır, öz yalanları ilə istədiklərini əldə edirlər. Necə ki, min bir tələ qurub, Qərbi Azərbaycanı amansızcasına öz doğma anasından ayırıb Ermənistana verdirdilər!.. Süni koridor yaratdılar ki, ermənilər İrana çıxsınlar. Azərbaycanı isə Cənubi Azərbaycandan ayırsınlar! Sonra 24 aprel 1965-ci ildə ermənilər ilk dəfə İrəvanda Teatr meydanında yığışıb qışqırdılar:

**QARAPALTAR ADAMLAR:** *(Aramla bağırırlar).* Naxçıvan bizimdir!.. Naxçıvan bizimdir!.. Qarabağ bizimdir!.. Qarabağ bizimdir!.. Qars bizimdir!.. Qars bizimdir!.. Sarıqamış bizimdir!.. Sarıqamış bizimdir!.. Van bizimdir!.. Van bizimdir!..

**TARİXÇİ:** Mən ilk sözümdə də demişdim: unutqanlıq faciəmizdir. Azı son iki yüz əlli ildə ürəyimizin böyüklüyünün, humanizmimizin ifadəsi olan bu xüsusiyyətimizdən ermənilər bizə qarşı irticalarının genişləndirilməsi üçün "bacarıqla" istifadə etmişlər. Ancaq, şükür, deyəsən, faciələrimizin səbəbini anlamağa başladıq. Ən yeni tariximiz bunu sübut edir. Elə bu gün keçirilən konfransda bir azərbaycanlı – Firəngiz xanım çıxış edərək bütün ermənilərin, onların çoxlu havadarlarının tariximizə qarşı təcavüzkar çıxışlarını alt-üst etdi. Hamısı kor-peşman evlərinə qayıtdı. Şükür bu günə! Unutqanlığımız ucbatından itirdiklərimizin hamısını özümüzə qaytaracağıq!

*Qarapaltar adamlar bağırarkən Rəvanqulu xan Sarayın baş tərəfində qeybdən zühur edir. Sönmüş halda olan çırağa od salır. Çırağın işığı gur yanır. Sarayın hər tərəfindən əlləri çıraqlı insanlar axın-axın saraya daxil olurlar. Bir an içində qara yel qalxır. Rəvanqulu xanın çırağını söndürmək istəyir. Əhali tez əllərindəki çıraqları ilə baş tərəfdə yanan Rəvanqulu xanının çırağına tərəf tələsir*

*və onu dövrəyə alırlar. Çırağın ətrafında dövrə vuraraq vahiməli səslərlə hayqırırlar.*

**ÇIRAQLI ADAMLAR:** Sön, qara yeeel, sön!
*Huuu!..*
*Sön, qara yeeel, sön!*
*Huuu!..*
*Öz yolundaaan dön!*
*Huuu!..*
*Öz yolundaaan dön!*
*Huuu!..*
*Can çırağıım, can!*
*Huuu!..*
*Yan çırağıım, yan!*
*Huuu!..*

*Çıraqlı adamlar hayqırdıqca qarapaltar adamların səsi kəsilir, təlaş edərək haraya gedəcəklərini bilmirlər. İşıqdan qorxan yarasalar kimi yumağa çevrilərək büzüşür, yox olurlar. Qara yel isə getdikcə səngiyir və sakitləşir. Rəvanqulu xanın çırağı daha gur yanmağa başlayır. Əhali dövrə vuraraq ətrafa yayılır və hərə öz çırağının işığında bütün ərazini əhatə edir. Hər tərəfdə çıraqlar yanır. Rəvanqulu xan öz çırağını götürür və önə tərəf irəliləyir. Ətrafda yanan çıraqlar iki tərəfdən durna qatarı kimi Rəvanqulu xanın arxasında səf tutur.*

**RƏVANQULU XAN**: Qoy, çırağımız həmişə gur yansın! Oğuz eli yurdumuz, şen olsun! Xalqımız, millətimiz qada-baladan uzaq olsun! Ərlərimizin bilәkləri bükülməsin! Qız-gəlinlərimiz xoşbəxt, dədə-babalarımızın ruhları şad, torpağımız bərəkətli olsun!

**ÇIRAQLI ADAMLAR:** Huuu!.. Huuu!.. Huuu!.. Huuu!..

**RƏVANQULU XAN**: Vur, davulçu, vur!.. Üfür, zurnaçı, üfür!.. Vətən boyu – bütöv Azərbaycan boyu səfərimiz var! Haydı, irəli!

*Qarazurna qıy qoparır. Davulun səsi sanki qayaların bir-birinə sərt toxunuşunu bildirir. Durna qatarı yavaş-yavaş irəliyə doğru yürüş edir.*

***Son***



*AĞASƏFA*

## OCAĞI QORUYAN...

Əli qabarlılar nəslindənəm mən,
Ayağı torpaqda olanlardanam.
Bir kişi ovcundan şuma düşən dən,
Kök salıb, boy atıb qalanlardanam.

Qibləm sinəmdəki çarpan ürəkdir,
Alnımın möhürü halal çörəkdir,
Namazı süfrədə qılanlardanam.

Sızlayan yarama basıb duzları,
Qatıb bir-birinə idraksızları,
Haqqımı yumruqla alanlardanam.

Bir ovuc torpaqdır məlhəm ağrıma,
Şəhid balasını basıb bağrıma,
Göy kimi tutulub-dolanlardanam.

Bizik otuz illik qınaqdan çıxan,
Çətinə düşəndə qabıqdan çıxan,
Ocağı qoruyan ilanlardanam...

## ÇİYNİMİ İSLADAN YAĞIŞ

Kənd uzaqda...
Yolum yoxuş...
Yol üçün doğulub insan.
Çiynimi isladan yağış,
Əcəb narınsan... narınsan...

Qətrələrin ələ gəlmir,
Ələkdən keçib yağırsan.
İnsanlar bir yola gəlmir,
Hamı yol gəzir... baxırsan...

Yolunu azmış bəşərmi?
Çiynimə tökülən yağış,
Dünyanı bölsək, düşərmi
Hərəmizə beş-on qarış?

Yağ, bu şirin damlaları
Bu dağlar içsə, yaxşıdır.
Bu dünyanın adamları
Ələkdən keçsə, yaxşıdır.

...Çiynimi isladan yağış
Mərci-mərci, seçim-seçim.
Yerin alnı qırış-qırış,
Göyün saçı əlçim-əlçim...

## HANSI AVROPA?

O gün ki İstanbulda
Gənclik fransızlaşdı,
Getdikcə türk övladı
Uçuruma yaxlaşdı...
Hüseyn CAVİD
"Uçurum" faciəsindən

Bizə minnət qoyur hər gün,
Deyimmi, hansı Avropa?
Dilində mərhəmət, qayğı,
əlində qan-su Avropa.

Nə cür fitnə-fəsad varsa,
əl altdan yükləyir Şərqə,
Müsəlmanlar çəkən zülmün
Rəvacı – hamısı Avropa.
Yüz illərdir ki, Azadlıq
Şirin amalım, arzumdur,
Qanım "gülləndi" YANVARDA...
Lal oldu... Ansın Avropa.
Babam timsallı dağlarda
Tutub əl, "Yallı" oynardıq,
Nənəm öldü, bizim kəndə
Gətirdi "tansı" Avropa.
Gətir, biz də verək fərman:
Sevişsin erkək erkəklə,
Bizi aliməqam eylər,
Buraxmaz "şansı" Avropa.
Dilimdə qırt düşən bunca
Yabançı sözlər hardandır?
"Brend", "market", "şou", "super",
"balans", "alyans"ı Avropa.
Olaq yurdun havadarı!
Ürəklənsin AZƏRBAYCAN!
Duraq üçrəngli bayraqla!
Duraq! Qoy qansın Avropa!
Getsin!
Tullansın Avropa!

## SƏS GƏLİR...

Dünya bitir-tükənir,
Ucuzlaşır insanlar.
Əldən qapır tikəni,
Quduzlaşır insanlar.

Hər əldə odlu silah,
Hər cibdə bir tapança.
Qabıqdan çıxır, Allah,
Yetim çörək tapınca.

Yanır dəymişin, kalın,
Qaçqınlar dəstə-dəstə.

Yüz qaçqın ayaqyalın,
Bir harın “Mersedes”də.

Tanklar, toplar uyumur,
Yerlər, göylər qan qusur.
Soyumur ki soyumur
Qaniçənlər yanğısı.
Quşlar qanadı yanmış,
Raketlərdir uçuşda.
Tamah gürzə ilanmış,
Qıvrılır uçulmuşda.

Ölüm xəbərlərinə
Qulaqlar öyrəncəli.
Şadlıq, şənlik yerinə
Ölümlər əyləncəli.

Ölüm – yolun asanı,
Ölənin yoxdur sanı.
İnsan didir insanı,
İnsan yeyir insanı.

Məzar... məzar... məzardır...
Yer altında yermi var?
Səs gəlir...
Ahü-zardır...
Yenə bəd xəbərmi var?

## YER ÜZÜ – İNSAN TARLASI

SƏN – əlalardan əlasan!
Təksən, bircəsən, Allahım!
Burda adamı tər basır,
Orda necəsən, Allahım?
Bəlkə bizlərdən olasan,
Bizə köçəsən, Allahım...
Yer üzü – insan tarlası,
Biç ki biçəsən, Allahım.
Su yerinə qan axır heyyyy....
İç ki içəsən... Allahım...

## ARXADAN VURULANDA

Savaş üçün doğuldum,
Savaş içində böyüdüm.
Haqqa tərəfdar oldum,
Gah döydüm, gah döyüldüm.
Üzbəüz vurulanda
Şax durdum, ağlamadım,
Yaramı bağlatdılar.
Arxadan vurulanda
Anamı ağlatdılar...

## BU GÜN HANSI GÜNDÜR?

Yaradan “Kon!” deyib – “Ol!” deyib, “Ol!”dur,
Olmağa qarışıb bu başım, Xocam.
Haq yolu binadan əzablı yoldur,
Haqqın əzabına var xoşum, Xocam.

Göz görmək üçündür, ağız dad üçün,
Əl dən səpməyədir, can övlad üçün,
Sönsə, xiffət çəkir ocaq od üçün,
Ocaq adamıyam, var yaşım, Xocam.

Quş dili bilənəm. Sirr eviyəm mən,
Ələvi, İsavi, musəviyəm mən,
Xızır ocağının kösövüyəm mən,
Gərək bu ocaqda alışım, Xocam.

Hər gün qamçılayır öz kor atını,
Hər yerdə göstərir şeytan zatını,
Çəkmə ha yanımda onun adını,
Bitməyib onunla savaşım, Xocam.

Tanrım nə buyurdu, dedim: “Baş üstə!”
İllər qanadlandı, qondu yaş üstə,
Ürəklə qoymuşam daşı daş üstə,
Yaraşır divara hər daşım, Xocam.

Haq mənə bəxş edib bir başqa ömrü,
Yanıb, sərf elədim bu eşqə ömrü,
Dərsdir, könlümcədir qarışqa ömrü,
Doğmam qarışqadır qardaşım, Xocam.

Kimsəsiz deyiləm, vardır bir kəsim,
Bu komam şahanə, bu ocaq bəsim...
Bu gün hansı gündür?
OD ÇƏRŞƏNBƏSİ...
Üzü Novruzadır bu qışım, Xocam.

Qapıya gələnə ocaq sovqatı,
Durum, nəvələrə qarışım, Xocam.
Hələ bu dünyaya təzəcə gəlib
Bu cırtdan Məhəmməd qaqaşım, Xocam...

## HƏR ÜRƏKDƏ AĞRI VAR...

Hər ürəkdə ağrı var,
Hər ürəyə xal düşür.
Qaynaşanda arzular,
Ürək alma kimidir,
Budağından kal düşür.

Hər ürəyin rişəsi,
Hər ürəyin sapı var.
Açıqdır hər guşəsi,
Kədər zorla dürtülür,
Sevincə də qapı var.

Ürək – can ərköyünü,
Kaş sönməsin odu heç...
İnamı var – döyünür...
İnamı qırıldı...
Heç...

## HAQQA ÇATMAQ...

Vuruldum şırıltısına,
Ömür bir axar su imiş.
Bu qədər əzab, acılıq
Qismət imiş, yazı imiş.

Ömür boyu şərlə savaş,
Yoruldunmu?
Dayan... Yavaş...
Bu imiş, dunya bu imiş...
Haq axtarırsan?
Hələ gəz...
Haq deyilən ələ gəlməz,
Haqqa çatmaq arzu imiş..

## QAPIM SİZİNKİDİR...

Bu gün buludların sırası sıxdır,
Bu gün çəlik tutan əlim üşüyür.
Qışdan xəbər verir, hava soyuqdur,
İçimdə sevgi var, çölüm üşüyür.

Sizin sevginizlə çıxmışam çölə,
Gözəl sərçələrim, var ərkim sizə.
Anam əzbərlədib mənə bir zaman:
Savabı xırmandır bir ovuc dənin.

Can atdım hamını istəyəm, sevəm,
Can atdım hamını anlayam, duyam.
İndi Çin dilini öyrənir nəvəm,
Mən elə quşların tərcümanıyam.

Üzür zəmanənin gəlhagəlində,
Çoxu "Kiş! Kiş!" deyir, "Gəl bəri!" yoxdur.
Gəlin, deyim sizə sərçə dilində:
Toxların aclardan xəbəri yoxdur.

Köçüb, uçub, gedib cəh-cəh vuranlar,
İsti yer tapanlar üşüməz indi.
Gözəl sərçələrim, vaxt var, zaman var,
Görək necə keçər qışımız indi.

Şükr olsun, hələ ki ovcum boş deyil,
Qapım sizinkidir, gəlin siz dənə.
Hələ qanadlarım qırılmış deyil,
Mən də uçarıyam günün birində,

Tanrı dərgahında mən də sizdənəm...
Gəlin, yavrularım,
Gəlin siz dənə...

## XEYİRXAHIMA

Mükafat tilsimdir şair qəsdinə,
O da mənlik deyil...
Cəhdin əbəsdir...
Bir ovuc dən səpdim qarın üstünə,
Mənə sərçələrin duası bəsdir...

## DAĞLARA QAR YAĞDI HEY...

Ötdü ömür, keçdi gün,
Heyran olub gördüyüm,
Arxalanıb öydüyüm
Dağlara qar yağdı hey...

Köksü çeşmə-çeşmədi,
Heç damaqdan düşmədi,
Qabarmadı, şişmədi,
Dağlara qar yağdı hey...

Başda papaq çalmadı,
Qocaldı, qocalmadı.
Dağlar heç alçalmadı,
Dağlara qar yağdı hey...

Ürəyimdə bu sevgi:
Dağ doğulaydım təki.
Baxdım...
Ürəyimdəki
Dağlara qar yağdı hey...

## ULU YURDUN DAŞLARI

Sevirəm mən ulu yurdun qocalan daşlarını,
Zirvələrdən, ucalardan ucalan daşlarını.
Açıram qollarımı, çırmanıram dirsəyəcən.
Pəhləvantək qucuram qurcalanan daşlarını.

Baş-başa, köksü qabarmış, ocağa arxa-dayaq,
Bir-birindən hünər ilə güc alan daşlarını...

...Yadlaşır bir-birinə doğma olan insanlar,
Amma daşlar tanıyır öz qaya qardaşlarını...

## MÜŞFİQ OCAĞINDA AXŞAM TORANLIĞI

Qulaq asıb
Qəlbimdəki istəyə,
Daha bura tək gəlirəm,
Qoşulmuram dəstəyə.
Üzəvari görüşlər
Ürəyimcə olmadı.
Müşfiq ocağındakı
Qəhqəhələr, gülüşlər
Ürəyimcə olmadı.

Ürəyimcə olmadı
Bəhbəhəli çıxışlar,
Rütbəli məmurlara
Təmənnalı baxışlar.

Müşfiq ruhuna yaddır
Çərçivəlik, rəsmilik.
Müşfiq ruhunda nə var?
Həllac Mənsurdan gələn
Nəimilik, Nəsimilik.

Mən qatardan üzülmüş
Yorğun-arğın durnayam.
Bu axşam bu ocaqda
Qalam-duram, durmayam.

Müşfiq şah damarımdır,
Fikrimin aortası.
Burda qovrulur, yanır
Kürəyimin ortası.

Burda qırılır yolum,
Burda qırılır səsim...

Hamının istəklisi
Müşfiqim...
Kimsəsizim...

## SƏTTAR BƏHLULZADƏNİ XATIRLADIM...

Kökü qat-qar dərində.
SƏTTAR əbədi ağac.
Hardan baxsan, görünür
Qolları qulac-qulac.
Bir qədər Məcnunsayaq,
Bir qədər Mənsur Həllac.
Köksünün altındaca
Füzuli yanğısı var,
Yanğıya yoxdur əlac.
Burda bir gün görmədi,
Orda ruhu şad olsun...
Əl aç... Göylərə əl aç...

## SƏKSƏN YAŞIN TƏSƏLLİSİ

Ağır zəhmətlə yaşadım,
Ömrüm boyu
Balalara dən daşıdım
Mən – adam-qarışqa...
Heç kimdən.
Heç yerdən
Heç nə oğurlamadım
Kitabdan başqa...

## BİR ÇƏTİR ALTINDA

Yerlə Göyün səddi var,
Gözəgəlməz xətti var.
Göy sətir üstündədir,
Yer sətir altındadır.

Döş-döşədir həmişə,
Baş-başadır həmişə,
Hey savaşa-savaşa,

Hey döyüşə-döyüşə
Yol gedirlər...
Xeyirlə Şər
Bir çətir altındadır...

## KÜLƏKLƏ MƏN

Bu gün asudəlikdir,
Sanki dünyada yoxam.
Yəqin fələk axtarır,
Əlinə keçmir yaxam.

Kəndin akvariumunda
Nə balıq var, nə Xalıq.
Elə bil bu gün imiş
Dünyadan arxayınlıq.

Külək süpurgəçimdir,
Darğasıdır qapımın.
Hara atıb, tapılmır
Bir tayı şapşapımın.

Xeyirdir, bu gün işlər
Ayaqyalın da keçər.
Tutarkeçməz ağrılar
Taya dalında keçər.

Çölə çıxan arını
Külək gicəlləndirir.
Göyə dartır – qaldırır,
Yerə dartır – endirir.

Külək oyunbaz olub,
Hər nə tutsa, oynadır.
Ərköyündür, hər nəyə
Ərki çatsa, oynadır.

Bu gün kənd bizimkidir,
Kəndi satın almışıq.
Elə bil yurdda təkcə
Küləklə mən qalmışıq...

## HEYF...

Haq sözü bərkdən dedim,
Gəldi ürəkdən, dedim.
Kimsələri itirdim,
Lal dura bilmədim... Heyf...

Haq söz ömürdən baha,
Elə sındım ki...
Daha
Gözümdən düşənləri
Qaldıra bilmədim... Heyf...

## MƏNİ GÖZLƏYƏN VAR...

Məndən çıxmayan iş...
Deyən, xəstəyəm...
Başım hərlənəndə
Anlayıram ki,
Çarpayım yol gedir...
Təkər üstəyəm...
Ağlımı korlayan
Korun işıq var,
Baxır... Əl eləyir
Oğul-uşaq da...
Hələ qabaqda son
Dayanacaq var...
Çataçatdayam...
Az qalıb vaxta...
Məni gözləyən var
Dayanacaqda...

## MİSRAM DÜŞDÜ...

ONA ünüm çatmışdı,
Ölüm günüm çatmışdı,
Araya bayram düşdü.

Əzrayıl bir çapardı,
Başqasını apardı,
Əlinə bir xam düşdü.

Dağda gəzib gedirdim,
Şeir düzüb gedirdim,
Cığırda misram düşdü...

## DƏYİŞKƏN HAVALAR...

Yarpaq tökümündə yüyrək sıxıntı
Belədən-beləyə əyir adamı.
Gah arxadan dəyir narın axıntı,
Gah qabaq-qabağa döyür adamı.

Ocaq qalamışam hasar dibində,
Payızı alovla salıram yola.
Məni aparmasın təki cibində,
Gələr qış, ya qismət, nə olar... olar...

Yel alıb, bəxtimə oxşar yarpağı
Hara aparacaq, hara çırpacaq?
Hərdən tovlayıram maşa-qarmağı,
Aramla dəmlənir çırpıdan ocaq.

Dəyişir havalar hey aram-aram,
Ocağa gah yaxın, gah yan dururam.
Dünən Əzrayılla dəymişdi aram,
Bu gün yumruğumla qoz sındırıram...

## DOSTUM ƏZRAYILI YOLASALMA

İndicə tərpənir qatar,
Söhbət başını qatar a...
Sən bu qatarla düş yola,
Mən qalım gələn qatara...

***Xızı, Qarabulaq kəndi***

*Mənzər NİYARLI*

# KƏND LAVAŞININ ƏTRİ



♦ *Hekayə*

Hər dəfə bu arıq, çəlimsiz, ordu-ordundan keçən qadın nazik, nimdaş ləçəyinin üstündən bağladığı butalı şalıyla, soyuq havalarda belinə sarıdığı qalınçasıyla həyətdə peyda olanda və gətirdiyi kənd nemətlərini qabağına düzüb, özü də bir taxta parçasının üstündə oturub müştərilərini haraylayanda ürəyi atlanardı. Uşaqlığı kəndlə bağlı olduğu üçün qadının satmaq istədiyi ağartıdan qatığı, şoru, göyərtilərdən cincilimi, yağlıcanı, kəkotunu, kənd çolpasını görəndə elə bilirdi ki, bu çəlimsiz qadın doğulduğu kəndini həyətlərinə gətirib. Həmin kənd ki, birinci Qarabağ müharibəsində ermənilər yerlə-yeksan etmişdi. Atası bu sərhəd kəndindən olmasa da, bura işləməyə göndərilmiş, gənc ailənin yeganə qızı Gülarə də burda dünyaya gəlmişdi. Onlar kənddə on il yaşadılar. Atasının işini yenə şəhərə dəyişdilər. Elə ona görə də qız dördüncü sinfi qurtarar-qurtarmaz, kənddən, öyrəşdiyi məktəbdən, rəfiqələrindən, sinif yoldaşlarından ayrıldı.

Axır vaxtlar kəndlə bağlı illəri tez-tez yadına düşərdi. Yadında ən çox da bir partada yanaşı oturduğu xurmayı saçlı, səkkiz hörüklü Süsəngül qalmışdı. Kənddən köçdükdən sonra yaşadığı illər ərzində institutda, müəllimə işlədiyi məktəbdə rəfiqələri çox olub. Ancaq nədənsə bu ahıl yaşında ilk uşaqlıq dostunu, sirdaşını həzin bir xatirə kimi tez-tez yadına salardı. Əri Birinci Qarabağ müharibəsindən yaralı qayıtdığı üçün çox yaşamadı. Dünyasını dəyişdi. Bədənindəki qəlpələrlə birgə dəfn olundu. Gülarə ərini itirəndə cavan gəlin idi. Yeganə oğlunu təkbaşına böyütdü, oxutdu, evləndirdi. Düzdür, ata-anası da əllərini üstündən çəkmədilər. Oğluyla ayrı yaşamağını özü istədi. Ata-anasından qalan evini oğluna verdi. «Gənc ailədirlər – fikirləşdi, – qoy sərbəst yaşasınlar”.

Bu gün nədənsə narahat yatmışdı, qarmaqarışıq yuxular beynini yormuşdu. Saat onda məktəbdə olmalıydı. Dərsi üçüncü saat idi. Yuxudan durub gözünü açanda ərinin divardan asdığı şəklinə baxdı. Vərdiş eləmişdi, səhərlər duran kimi yoldaşının şəklilə salamlaşardı. «Sabahın xeyir, Rasim, yaralı bədəninə qurban olum, Rasim» pıçıldayardı. Əvvəllər ərinin şəkli ilə salamlaşanda kövrələrdi, ağlayıb ürəyini boşaldardı; vaxt keçdikcə yarası qaysaq bağladı.

Qalxıb xalatını əyninə keçirtdi. Eyvana çıxdı. Eyvana düzdüyü dibçək güllərinin suyu qurumuşdu. Krandan su gətirib gülləri sulayanda aşağı – həyətə boylandı. Gözü alverçi qadına, onun gətirdiyi kənd nemətlərinə sataşdı. «Yazıq arvad. Bu, saat neçədə durur ki, səhər tezdən özünü şəhərə çatdırır?». Yadındaydı, kənddə yaşayanda Ağca xala qızı Süsəngülnən onlara qatıq, süd göndərərdi. Qızına tapşırardı ki, pulunu versələr, götürməzsən ha.. – Gülarənin anası süd-qatığın pulunu təkidlə Süsəngülün çantasına qoyardı. Süsəngülgilin qoyun-quzuları sürüynən idi. Qışı kənddə, yayı isə yaylaqda keçirirdilər.

Süsəngül qəşəng idi. Qalın xurmayı saçları yumru, al yanaqlarına yaraşıq verərdi. Gülarə özünün seyrək, sarışın saçlarından zəhləsi getdiyindən tez-tez sinifdə böyründəcə yanaşı oturan Süsəngülün qalın saçlarını əlinə alar, barmaqlarını qızın hörüklərinə keçirib oynadardı. Süsəngül sinfin ən yaxşı, çalışqan şagirdi sayılırdı. Hesab dərsində müəllim verdiyi tapşırıqları gözüyumulu edərdi. Xətti də gözəl idi. Sağ əlini sol əlinin üstünə qoyub hərfləri muncuq kimi dəftərə düzərdi. Sinfin uşaqları hesabı qavraya bilmədikləri üçün çox vaxt müəllimlərinin evə verdiyi tapşırığı ondan köçürərdilər. Süsəngülün yaxşı şeir deməyi də vardı. Tədbirlərdə Gülarəylə ona şeir əzbərlətdirərdilər ki, şeiri səhnədə çaşmadan söyləsinlər. Məktəbin şərəf lövhəsində ən yaxşı oxuyan şagird kimi birinci sırada Süsəngülün şəklini asardılar. O da yadındaydı ki, Ağca xala çiynində səhəng kəhrizdən su daşıyardı. Kəhriz Gülarəgilin evlərinin yaxınlığında yerləşdiyi üçün Ağca xalanı tez-tez görərdi. Bəzən Süsəngül də anasına qoşulub əlində balaca vedrəylə kəhrizə gələrdi. Vedrəsini yerə qoyub Gülarəgilin yaşadığı binaya baxardı. Gülarə Süsəngülü görən kimi özünü rəfiqəsinə çatdırardı. Bu balaca qızcığazlar bir-birlərinə qoşulub, Ağca xala səhəngi doldurana qədər, xısınlaşardılar. Hərdən Ağca xala Gülarəni qızına qoşub evlərinə apardı. Onların evləri dağın yamacında yerləşdiyi üçün kəndin evləri ovucunun içi kimi görünərdi. Ağca xala Gülarənin anasına: – Sən Allah – deyərdi, – Gülidən nigaran qalma, qoy mənimlə getsin. Özüm su götürməyə qayıdanda gətirib gələrəm. Güli quzuları çox istəyir. Aparım quzuları da görsün. Çoxu təzəcə doğulub.

Anası tərəddüd etsə də Ağca xalanın sözündən keçə bilmirdi. – Nə deyirəm ki, ay Ağca bacı, qız qoyun-quzu görəndə çiçəyi çırtlayır. Apargınan, ancaq sən Allah, tez gətir.

O günü Gülarənin ən xoşbət günüydü. Həm Süsəngülgilin quzularını görəcəkdi, həm də körpə bacısı Çiçəyi qucaqlayıb, onu danışdıracaq, o da toppuş əllərilə Gülarənin üzündən yapışıb «Cüli-Cüli» deyib atılıb-düşəcəkdi. Bəs onların alaçıqları? Xalça, palazla döşənmiş alaçıq ona oxuduğu nağıllardakı mağaranı xatırladırdı. Alaçığın qabağında yağış yağanda içəri islanmasın deyə, üstü örtülü, qıraqları qamışdan hörülmüş təndirxana, içindəki ocaq, üstündəki lavaş bişirmək üçün sac, təndirxananın ortasında samanla palçığın qarışığından hörülmüş təndir, küncə yığılmış təzək, odun parçaları ona qəribə gəlirdi.

Yerli camaatın yarısı Qıraq kolanlılar, o biri yarısı isə Dağ kolanlılar sayılırdı. Qıraq kolanlılar bu yerlərin daimi sakini idilərsə, Dağ kolanlılar isə ancaq qış aylarında bu kənddə qalırdılar. Yazın ilk ayında, Süsəngülgil də dağ kolanı sayıldıqları üçün, hazırlıqlarını görüb yaylağa köçərdilər. Ona görə də yay ayları bu iki rəfiqə bir-birlərindən ayrılmış olurdular.

Gülarənin yadındaydı ki, sinifdə tənəffüs vaxtı, dərsləri boş keçəndə baş-başa verib söhbət edər, gələcək planlarından, arzularından danışardılar.

Süsəngül: – Bax, Güli, mən anam kimi olmaq istəmirəm. Ona yazığım gəlir, – deyirdi, – Su daşımaqdan çiyni əyilib. Qoyun-quzularımıza, mal-heyvanlarımıza da baxır. Hələ körpə qardaşlarım, bacılarım da bir tərəfdən... Bax, indi biz gələn il beşinci sinfə keçəcəyik. Gərək biz elə oxuyaq ki, müəllim olaq. Güli, elə istəyirəm biz institutda da bir yerdə oxuyaq. Mən hesab müəllimi olmaq istəyirəm.

Gülarə məyus-məyus: – Axı mən hesabı yaxşı qavraya bilmirəm, – deyərdi.

– Nə olsun. Öyrənəcəksən də.

Rəfiqələr çox vaxt sinfin uşaqlarına baxıb pıçıldaşırdılar: – Bayrama yazığım gəlir. Onun dədəsi yoxdu. Hamı ona yetim deyir. Ayıb olsun ona «yetim» deyənə.

Süsəngül: – Güli, o dəfə bizim şəklimizi çəkdi ha şəkilçəkən. Bayramın pulu yox idi şəklini alsın. Nə yaxşı ki, atandan pul aldın. Şəklin pulunu sən verdin.

– Bəs heç Qüdrəti demirsən. Anası süpürgəçi olanda, nolar. Uşaqlar onu ələ salırlar.

– Qoy salsınlar. Dərslərinnən ki, beş alır.

Şəkil əhvalatı Gülarə xanımın indiyə kimi yaddaşına həkk olunmuşdu. Şəkli almağa pulu olmadığı üçün Bayram uşaqların yanında utandığından qıpqırmızı qızarmışdı. Şəkli çəkənsə təkidlə pulunu istəyirdi: – Ay uşaq, şəklini çəkdirmisən pulunu ver da... Nə gözünü döyürsən. – Gülarə nə fikirləşdisə sinifdən çıxıb evlərinə qaçdı ki, atasını tapsın. Atası evdəydi. Günorta naharına gəlmişdi. Qız sevindiyindən atasının üstünə atıldı: – Ata, mənə iki manat ver. Bayramın pulu yoxdu, axı, onun atası da yoxdu. Pulu kimdən istəsin? Bizim sinifdə oxuyur ey, Bayram. Şəklini almağa pulu yoxdu. – Atası gülümsəyərək qızına istədiyi pulu verdi. Gülarə sevinə-sevinə təzədən özünü məktəbə çatdırdı. Şəkili şəkilçəkəndən alıb: – Al pulunu, – dedi, – Bayramın üstünə qışqırma. Sonra şəkili alıb Bayrama verdi.

O da yadındaydı, onlar şəhərə köçəndə onunla vidalaşmağa sinif uşaqları ilə Bayram da gəlmişdi. Uzaqda dayanıb Gülarəyə baxırdı.

Gülarəylə Süsəngül tənəffüs vaxtı analarının çantalırana qoyduqları yeməyi çıxarıb bir yerdə yeyərdilər. Süsəngül şirin bulkanı xoşlayardı. Gülarənin atasının şəhərə yolu tez-tez düşdüyündən kəndə qayıdanda bulka alıb gətirərdi. Gülarə axşamdan bulkalardan seçib Süsəngülün payını çantasına yerləşdirərdi. Gülarə isə bulkalardan çox, Ağca xalanın lavaşının dəlisiydi. Səhəri gün bu iki qızcığaz özlərini məktəbə çatdırıb tənəffüs vaxtını səbirsizliklə gözləyərdilər. Tənəffüsə vurulan zəngin səsini eşidən kimi bu iki qızcığaz gətirdikləri bulka ilə lavaşı dəyiş-düyüş eləyib marçıltıyla yeyərdilər. Süsəngül: – Nə şirin bulkadır, – deyərdi, – İçinə kişmiş də qoyublar ki...

Gülarə: – Hə, atama dedim ki, kişmişli bulka alsın. Sənin, axı, xoşuna gəlir kişmişli bulkadan. Düz demirəm?

– Hə, düz deyirsən. Kişmişli bulka dadlı olur.

Sonra Gülarə Ağca xalanın arasına motal şoru qoyub dürmək düzəltdiyi lavaşdan bir dişləm qoparıb: – Bıy, – deyərdi, – içində şoru da var ki.

Süsəngül: – Anama deyirəm ki, lavaşdan Gülinin xoşu gəlir. Anam da deyir, nə vaxt sacda lavaş bişirsəm, Gülinin də payını apararsan.

* * *

Hava çiskinliydi. Yağış arabir səpirdi. Əlində çətir məktəbdən qayıdanda yolunu alverçi qadının oturduğu yerdən saldı. Arıq, cılız qadın gətirdiyi südünü, qatığını satıb qurtarsa da, meyvəsi, göyərtiləri hələ dururdu. Arvad soyuqdan büzüşüb əllərini qoltuğunun altında gizlətmişdi. Yaxınlaşıb salamlaşdı: – Ay bacı, – dedi, – buranı külək tutur, bəlkə o binanın sağ tərəfinə keçəsən. Orda üşüməzsən.

– Allah canuvu sağ eləsin. İndi durub gedəcəm. Qaranlığa düşməyim.

Gülarə göyərtilərdən seçib pulunu verdi. Sonra qadınla sağollaşıb evinə qalxdı. Evinin qapısını aça-aça «Vallah, soyuq olacaq arvada» fikirləşdi. «Külək də səngimək bilmir ki». İsti otağında isinsə də ürəyi dayanmadı, eyvana çıxıb qadının gedib-getməməsini bilmək istədi. Alverçi qadın yerində yox idi. Getmişdi. «Kaş xəstələnməyəydi».

Bir neçə gün alverçi qadın həyətdə görünmədi. Məktəbdə başı imtahanlara qarışdığı üçün hiss eləmədi qadının gəlib-gəlmədiyini. Payızın günəşli, mülayim bir günündə qadın yenidən həyətdə peyda oldu. Sevindi. «Deməк xəstələnməyib». Səhər-səhər dərsini deyib gəlmişdi. Evdəydi. Xalatının üstündən plaşını geyinib həyətə düşdü. Alverçi qadın uzaqdan onu görüb əlini yelləyə-yelləyə: – Ay bacı, ay müəllimə, bəri gəl. Yaxşı heyvam var. Sapsarı kəhraba kimi.

Yaxınlaşıb salamlaşdı. Arvadın qabağındakı çay yeşiklərinə yığdığı meyvələri nəzərdən keçirtdi. Birdən gözü qadının göyümtül süfrəyə bürüdüyü lavaşlara sataşdı. Qadın birinci dəfəydi satmağa lavaş gətirmişdi. Əyilib lavaşın bir topasını əlinə aldı. Üzünə yaxınlaşdırdı. Bu nədir? Lavaşdan odunlamı, təzəkləmi yanan ocağın qoxusu gəlirdi. Elə bil əlində tutduğu lavaşdan Ağca xalanın bişirdiyi lavaşın qoxusunu ciyərlərinə çəkdi. Tək qoxunu yox, həm də sanki Süsəngülgilin alaçığında gördüyü sacın, ocağın istisini bədənində hiss elədi:

– Nə zərif, nə gözəl lavaşın var, bacı, – dedi, lap uşaqlıq illərimi xatırlatdı.

– Allah köməyin olsun. Alginən, sən Allah. Bu heyvadan, bu almadan da götür.

Meyvələrə baxmaq halında deyildi. Əlindəki lavaşısa az qalırdı sinəsinə sıxsın.

Arvad bir an duruxdu. Başını qaldırıb Gülarənin üzünə baxdı.

– Ay bacı, nolub sənə? Gözlərin niyə dolub?

– Heç. Nədənsə doğulduğum kənd yadıma düşdü. Uşaqlığım kənddə keçib axı. Heç yadımdan çıxmır kəndim. – Gülarə xanım köksünü ötürdü: – İndi düşmən tapdağı altındadır. Bu gətirdiyin lavaşlar o vaxtlar yediyim lavaşları xatırlatdı.

¬– Hansı kəndi deyirsən, qadou alım? Hansı rayonun kəndidir?

Gülarə xanım kəndin hansı rayona baxdığını desə də Ələhmədli kəndin adını çəkəndə qadın:

– Ay bacı, elə mən ordanam da. Neçə illərdir köçkün düşmüşük. Allah ermənilərin belini qırsın.

– Doğurdan? Onda tanıyarsan axı Ağca xalanı? Ağca xala bişirərdi bu lavaşlardan.

Gülarə xanım lavaşı sanki əlindən alacaqlarmış kimi, bərk-bərk tutmuşdu: – Qızı – Səringül – mənim uşaqlıq rəfiqəm anasının bişirdiyi lavaşdan gətirərdi mənim üçün. – Gülümsəyib sözünün ardını gətirdi: – Bulkayla dəyişərdik.

Qadın «bulka» adını eşidən kimi, yerindən dik qalxaraq heyrətlə Gülarəyə baxdı: – Güli, sənsən?

– Siz məni tanıyırsınız?

– Qadalaru alaram sənün. Süsəngüləm dayna... Məni tanımadın?

Gülarə xanım az qaldı lavaşı əlindən salsın.

– Süsəngül? – Özündən asılı olmayaraq səsini ucaltdı: – Nə? Sən Süsəngülsən?

– Vallah, Süsəngüləm də. Bir partada, böyründə oturduğum Süsəngül. Başı bəlalı Süsəngül.

İkisi də bir-birinin əlindən yapışıb donub qaldılar. İkisinin də gözləri yaşarmışdı. Qucaqlaşdılar. Gülarə handan-hana özünə gəldi.

– Mənim rəfiqəm... Mənim səkkiz hörüklü bacım.

Süsəngül heysiz-heysiz oturduğu yerə çökdü.

Gülarə xanım da onunla yanaşı oturub əlindən tutaraq uşaqlıq rəfiqəsinə baxırdı. Süsəngülün çöhrəsində, keçmişində kənddə qoyub gəldiyi rəfiqəsinin cizgilərini axtarsa da tapa bilmirdi. Qadının səkkiz hörüklü, xurmayı saçlarının əvəzində, ləçəyinin altından ağappaq, cod saçları, arıq, qırışmış üzü, seyrəlmiş kirpikləri, qaşları ona yad qadın kimi görünürdü. Süsəngülün əllərinin üstü şaxtanın soyuğunda işləməkdən çartdaq-çartdaq idi. Təmiz olsa da nimdaş, bozarmış paltarı, paltarının üstündən geydiyi gödəkçəsi onu yaşından çox göstərirdi.

İkisinin də sarsıntıları yavaş-yavaş keçirdi. Gülarə xanım: – Dur gedək mənimlə, – deyib rəfiqəsini yerindən qaldırmaq istədi. – Çaydan, çörəkdən hazırlayım... Qızınarsan.

Süsəngül: – Yox, bacı. – Süsəngül etiraz elədi. Mer-meyvələri göstərib: – Bunları satıb qurtarmalıyam axı.

– Yaxşı. Onda gətirdiklərini bir yerdə sataq, gedərik.

Gülarə xanım yerini rahatlayıb rəfqəsini sorğu-suala tutdu. Xeylaq dərdləşdilər. Süsəngül başına gələnləri danışdıqca Gülarə xanımın gözləri dolub-boşalırdı. Başlarına gələn bütün müsibətlər Süsəngülün məktəbi bitirən ili oldu. Həmin il Süsəngül sevincindən özünə yer tapa bilmirmiş. Dədəsi söz vermişdi ki, Süsəngülü şəhərə aparsın... İnstituta qəbul üçün sənədlərini verməyə. İnstitut ona qismət olmadı. Ermənilər elə həmin ərəfədə qınlarından çıxdılar. Kəndə hücumlar eləməyə başladılar, üstlərinə mərmilər yağdırdılar: – Bizim harayımıza çatan olmadı, Güli. Mərminin biri həyətimizə düşdü. Anamla bacım həyətdəydilər. Elə ordaca canlarını tapşırdılar. Qoyun-quzularımızın yarısından çoxu tələf oldu. Dədəm əsgərlərlə postdaydı. Kəndi qoruyurdular. Yalın əllə nə qorumaq... Onun da ölüm xəbərini aldıq.

– Gülarə xanım sarsılmış halda: – Yazıq Ağcagül xala, bacın, – deyib gözünün yaşını sildi: – Allah hamısına rəhmət eləsin. O vəhşilərin əlləri necə qıydı körpə uşağa.

– Kənddən çıxmalı olduq, Güli. Qardaşlarımı, bacımı götürüb el-oba hara gedirsə, mən də onların arxasınca sürünürdüm. Bir neçə il çadırda yaşadıq. Sora bir dəfə qaldığımız yerə sel gəldi. Çadırların altı su çəkdiyinə görə bizi vaqonların birinə yerləşdirdilər. Vəziyyətimiz heç cürə düzəlmirdi. İş yox, güc yox. Uşaqları ac saxlamayacaqdım ki... Bacı, oxumaq arzularım puç oldu. Sən ki bilirdin, sinfin ən

yaxşı oxuyanı idim. Müəllimə olmaq istəyirdim axı. Fikirləşirdim ki, neyləyim, nə təhər eləyim ki, ata-anamın yadigarlarını, bacı-qardaşlarımı acından öldürməyim. Biz köçkünlərə ordan-burdan yardım payı gətirirdilər. Ancaq, sən de, Güli, o yardımlardan qarın doyurmaq olar? Başladım iş axtarmağa. İş nə gəzirdi ki. Daimi işim olsaydı nə dərdim. Ey, ay bacı, kafelərdə qab da yumuşam, süpürgəçilik də eləmişəm. Oralardan da bir şey çıxmadı. Məni qınama, üç tifili böyütmək sənə asan gəlməsin, Güli. Bizim yerləşdiyimiz kənddə yerli adamlar mal-heyvan saxlayırdı. Onlardan süd, qatıq, şor alıb aparırdım qəsəbədəki bazara. Üstünə də qəpik-quruş qoyurdum. Mənə qalan pula yavanlıq alıb qayıdırdım kəndə. Vallah, bazarda süd, qatıq satanda yaylıqla üzümü örtürdüm ki, məni tanıyan olmasın. Sonra utanmaq yaddan çıxdı. Belə-belə alışdım alıb-satmağa.

– Bəs ailə? Ailə qurmadım? – Gülarə rəfiqəsinin acı taleyinə yana-yana soruşdu.

Süsəngül başını yelləyib gülümsədi: – Mənə elə ailə yaraşırdı, – dedi. Sonra sözünü yarımçıq kəsib duruxdu. Gözləri yol çəkə-çəkə: – İstəyənlərim olurdu, – dedi, – məni Kərəm adlı oğlan istəyirdi. Qəsəbədə işləyirdi. O, Güli, yaman istəyirdi məni... – Gülarəyə elə gəldi ki, Kərəmin adı çəkiləndə Süsəngülün üzü bir anlıq işıqlandı: – Deyirdi, mənə razılıq ver, anamı elçi göndərim. Əvvəl-əvvəl etiraz elədim. Axır ki, saqqızımı oğurladı. Axı, Güli, mən də onu istəyirdim. Dedim, yaxşı, ananı, kimi istəyirsən göndər gəlsin. Ancaq, bəs uşaqları neyniyim? Dedi, ikimiz bir yerdə böyüdərik. Valideynləri başqa kənddə yaşayırdılar. Bir gün anası gəldi... Məni görməyə. Gəlib gördü ki, himayəmdə üç uşaq var. Daş atıb başını tutdu. Oğluna, sonradan öyrəndim, deyibmiş ki, bu qızı heç belə ağluva gətirmə. Yanı balalı alacaqsan? Nolsun ki, qız uşağıdır. Bu yetimlərə də sən baxacaqsan? Dünya dağıla, qoymaram onu alasan. Anası sonra Kərəmin özünə yer tapmadığını, fikir elədiyini görəndə, oğluna razılığını verib, ancaq şərt bağlayıb ki, əgər o qızdan əl çəkmirsənsə, uşaqsız al. Qıza denən ki, uşaqları aparıb uşaq evinə qoysun. Onda razı olaram. Toyunu da eləyərəm, lap elə istəklini gözümün üstündə saxlaram. Güli, heç mən bacı-qardaşlarımı ataram? Dedim, mən öz həyatımı puç edərəm, ancaq doğmalarımı uşaq evinə verməərəm. Kərəm yenə də əl çəkmədi. Dedi, nolsun anam razı deyil, biz ki, bir-birimizi istəyirik. Evlənirəm səninlə. Dedim, yox, bu, baş tutan məsələ deyil. Əgər atan-anan xeyir-dua vermirsə, bizim evlənməyimizin axırı olmayacaq, Kərəm. Get, dedim, o qədər qızlar var ki, biriylə evlən, xoşbəxt ol. Kərəm gedəndən sonra səhərəcən ağladım. Gözümün yaşını saxlaya bilmirdim, Güli. Sonralar eşitdim ki, acıq eləyib, çıxıb gedib Rusiyətə. Orda bir rus arvadıyla evlənib, evlənməyi ilə boşanmağı çox çəkməyib. O gedən getdi Kərəm. Day kənddə görən olmadı. Anası gecə-gündüz «Kərəm» deyib ağlayarmış. Mən də o vaxtlar çox üzüldüm. Nə isə, bacı, yenə bu günümüzə şükür. – Süsəngül ağarmış saçlarını ləçəyinin altına yığıb köksünü ötürdü.

Gülarə: – İndi harda qalırsan? – soruşdu, – Can bacı, yenədəmi vaqonda yaşayırsınız?

– Yox, yox, Güli. Bizə, biz köçkünlərə prezidentimiz ev verdi. Yaxşı həyət-bacası da var. Toyuq-cücə də saxlayırıq, istədiyimiz şeylərdən də əkirik. Qardaşlarımı oxutdum, evləndirdim, bacımı ərə verdim, həyatından razıdır. Hamısının oğul-uşaqları var. Qardaşımın biri ailəsini götürüb Tümenə gedib. Orda işləyir. Mən kiçiyinən

qalıram. İşi, gücü var ey, ancaq külfəti böyükdür deyə, yemək-içməklərini çatdıra bilmir. Mən də, vallah, istəmirəm qardaşıma yük olum. Bu alvernən hələ onlara da kömək eləyirəm. Qardaşımın balaları mənə “nənə” deyirlər. Adamın Allahı var, evə ki, çatıram, gəlin əl-ayağa düşür, çayımı, çörəyimi hazırlayır. And olsun bir olan Allaha, məni hamama salıb uşaq kimi çimizdirir. Hamısından razıyam.

Binada yaşayanların işdən gələn vaxtları idi. İndilərdə gəlib mer-meyvə, göyərti alacaqdılar. Süsəngül ətrafa nəzər saldı və sonra başını döndərib qəmli gözlərini uşaqlıq rəfiqəsinə dikdi: – Güli, bəs sənin... sənin oğuldan, qızdan nəyin var? – soruşdu.

Gülarə xanım rəfiqəsinin həyat hekayəsindən təsirlənmişdi. Haçandan-haçana özünə gəlib Süsəngülün işləməkdən kobudlaşmış əllərinə sığal-çəkə-çəkə: – Mənim də, – dedi, – Süsəngül, müharibə xoşbəxt həyatımı yarımçıq qoydu. Ərim cavankən dünyasını dəyişdi. Döyüşdən yaralanıb gəlmişdi. Sağalda bilmədik. Bircə oğlum var. Atası öləndə üççə yaşı vardı.

– Can bacı, Allah bütün şəhidlərə, ata-anama, o tifil bacıma rəhmət eləsin. Qansız ermənilərsə elədiklərinin cəzasını çəkəcəklər. Vallah, Güli, deyirəm qonşu sarıdan heç bəxtimiz gətirməyib. Gözləri həmişə bizim torpaqlarımızda qalıb. – Süsəngülün ürəyi dolu idi. – Ey, ay Güli, kəndimiz alınsaydı, gedərdim elimə, obama. Mənim buralarda nə işim var. Eh, ömrümə nə qalıb ki.

– Alınacaq, Süsəngül, alınacaq. Bunun geci-tezi var. Az qalıb, ermənilərin burnu elə ovulacaq ki, anadan əmdikləri süd burunlarından töküləcək.

– Allah ağzından eşitsin.

– Hə, düz deyirəm. Torpaqlarımızı silah gücünə olsa da alacağıq. Əsgərlərimiz prezidentimizin əmrini gözləyir, Süsəngül.

Gün yavaş-yavaş əyilirdi. Lavaş Gülarə xanımın hələ də əlindəydi. Lavaşı təzədən qoxladı, qoxusunu təzədən ciyərlərinə çəkdi.

–Vallah, bacı, – dedi, – rəhmətlik Ağca xalanın lavaşı yadıma düşdü. Əllərinə sağlıq.

– Anamdan öyrənmişəm. Elə lavaşlar, elə təndir çörəkləri bişirirəm ki... Ey, ay Güli, – Süsəngülün dərdi açıldı. Alovlu-alovlu səsini ucaltdı: – O acgöz düşmənlərimiz hər şeyimizi – ev-eşiyimizi, alaçığımızın içindəki xalça-palazımızı, mal-qaramızı, qoyun-quzularımızı talan elədilər. Güli, Allah bilir, anamın lavaş bişirdiyi sacımızı da aparıblar. Elə bilirlər ki, bizim kimi, bizim qadınlarımız kimi lavaş bişirə biəcəklər. Gözləsinlər, boğazlarında qalar. – İstər-istəməz ikisi də bir-birlərinə baxıb güldülər. Sonra Süsəngül: – Görmürsən, ay Güli, lavaşımızı da öz adlarına çıxarmaq istəyirlər bu vəhşilər, – dedi. Süsəngül üzünü günün endiyi səmtə tutub, köksünü ötürərək: – Allah qoysa qayıdacağıq kəndimizə, – dedi. – O sönən ocağımızı yandırarıq. Bu lavaşdan nə qədər istəsən, bişirərəm səninçün. Anamın, Güli, anamın lavaşından...

*Fərid HÜSEYN*

# Cənnət qibləsi, yoxsa cəhənnəm mayakı?



*Məhəmməd Füzulinin cənnət və cəhənnəm barədəki qəzəlləri haqqında)*

## *Eşqin ömür möhləti*

İnsanın ömrü bir baxımdan da eşqin ömrü qədərdir. Eşqin nəticəsi gec-tez ya ayrılıq – əzab, – cəhənnəm – ya da vüsal, – xoşbəxtlik, – cənnət olur. Füzuli eşqin nəticəsini ömrün sonucu, yekunu kimi qavrayır:

***Duzəxə girməz sitəmindən yanan,***
***Qabili-cinnət deyil əhli-əzab.***

Eşqin dərdindən kül olanların cəhənnəmə gedən yolu bağlıdır, cənnətə o adamlar gedirlər ki, onlar əzab çəkəcək kəslər deyil. Yəni insan eşq əzabını bu dünyada bəs qədər çəkibsə, daha o, deməli, cənnətlik olub. Ölüm məfhumuna həm də dünyasını dəyişmək anlamı kimi yanaşsaq, yəni əzab əhli bu dünyada zülm çəkərək, o biri dünyaya – axirət evinə feyz görməyə, ləzzət dadmağa gedir. İsa Məsihin dediyi kimi: “Bu dünyada birinci olanlar o dünyada axırıncı olacaqlar, bu dünyada axırıncı olanlar o dünyada birinci olacaqlar”. Yəni biz bu dünyadakı cəhənnəmimizə – uğradığımız məşəqqətlərə, zillətlərə o dünyadakı cənnət naminə dözməli, səbr etməliyik. Bu dünyadakı rahatlığı bədənimiz üçün yaradırıq, o dünyadakı rahatlığı isə ruhumuzdan ötəri. Bu dünyada da, o dünyada da biz daha çox gördüklərimizlə, gözlərimizlə şahid olduqlarımıza əsasən inanırıq: Bu dünyada bədənimiz görünür, ruhumuz yox, o dünyada ruhumuz görümlü olacaq, bədənimiz isə, sadəcə, tullantı kimi bizdən kənara atılacaq. Fərz edin ki, bədənimizi ruhumuzdan soyunub o dünyaya, “çılpaq ruhumuzla” keçəcəyik.

## *Cənnət “əzabı”*

Füzuli cənnət və cəhənnəm haqqındakı düşüncələri heç də birmənalı, biryönlü deyil, burada həm dünyəvi cəhənnəm (simvol kimi!), həm də həqiqi cəhənnəm (dini həqiqət!) kimi təqdim olunur. Məsələn, aşağıdakı beytdə dahi şair söyləyir ki, yarımın yaşadığı yerdə də rəqib əlindən mənə rahatlıq, dinclik yoxdur, sevdiyimin ömür elədiyi məkan mənim üçün əsl cənnətdir. Əgər belədirsə, onda niyə çoxları düşünmədən iddia edir ki, cənnətdə əzab yoxdur, axı rəqib, yəni yarımı ürəksiz sevən digər şəxs, əğyar, sevənlərin qovuşmasına əngəl olan kəs oradadır və məni o dərdə salır. Füzuli həm də bu fikri ilə bu dünyadakı məcazi cənnətə ironiya edir.

Eşqə süni əngəl olan rəqib, əslində, cəhənnəm əhlidir, amma o, yarın yaşadığı yerdədirsə, deməli, həm də cənnətdədir. Bəs onda cəhənnəm əhlinin cənnətdə nə işi var? Bununla da Füzuli bu dünyanın ədalətsiz bir yer olduğunu göstərir, əsl ədalət Allahın hüzurundakı imtahandan sonra bizə bəxş olunacaq...

***Kəsmədi məndən səri-kuyində azarın rəqib***
***Ey Füzuli, nişə cənnət içrə yox derlər əzab.***

## *Qürbət əzabı...*

***Nolar ağlarsa Füzuli rövzeyi-kuyin anıb***
***Lacərəm giryan olur qılğac vətən yadın qərib.***

Füzuli ah-fəğan edir, ey sevgilim, əgər sənin cənnət bağı olun məhəlləni yadıma salıb göz yaşı töksəm, bu adi bir haldır, qərib də vətəni düşünəndə onsuz da zar-zar ağlayır. Yuxarıdakı beytdəki cənnət anlamı həm də Adəmin cənnətdən qovulmasına işarədir, insanın gözəlliyə can atması, əslində, şüuraltı xiffətin təlqini, yönəltməsi ilədir. Yəni insan ulu babasının qovulduğu gözəl ünvana – əbədi xoşbəxtlik olan aləmə qayıtmaq istəyir. Eyni zamanda aşiq məşuqə həddən artıq bağlananda, Allahı unudur, insanın əzəli məkanı isə Xudanın yanıdır, ona görə də Tanrıya münasibətdə Adəm övladı ruhən qərib olur, o, güvən yerini itirir. Bu dünyanı əzəl kimi sevəndə insan öz ruhunu unudur, cismi ona vətən olur və bu halda insan başlayır ancaq bədəninin istəklərinə xidmət eləməyə. Lakin insan haçansa dərin fikrə dalıb axirət haqqında düşünəndə axirət ona qürbət kimi gəlir. Çünki bu dünya ona o dünyanı – axirət ünvanını tanıda bilməyib, o dünyadakı hər şeyə nabələddir.

***Kafər ki deyil, mötərifi-nari-cəhənnəm***
***İmanə gələr atəşi-hicranını görgəc.***

## *Mükafat məsafəsi*

Cənnət və cəhənnəm hər bir insana eyni məsafədə, yaxınlıqda olan məkanlardır. Sadəcə, biz öz əməllərimizlə onlardan birinə daha da yaxınlaşır, digərindən uzaqlaşırıq. Füzuli bu məqamı incə bir bənzətmə ilə oxucunun diqqətinə çatdırır. O yazır ki, ayrılığın şimşəyinin odu cəhənnəmin alovu kimi yandırıcıdır, vüsal şərabından bircə qurtum içmək isə kövsər bulağının suyunu dadmaq kimidir:

***Atəşi-bərq fəraqın nari-duzəx tək əlim,***
***Cüreyi-cami-vüsalın abi-kövsər tək ləziz.***

Ayrılıqla, hicran da iki sevənlə eyni məsafədə yerləşir, sadəcə, hər kəs öz saflığına müqabil addımlayaraq bəzən vüsala, bəzən isə ayrılığa doğru yönəlir. Eşq həm də əməldir. İnsan əməlinə uyğun cənnət və cəhənnəmini qazandığı kimi, hər kəs də öz eşqi vasitəsi nəticəsində vüsala, yaxud hicrana, qovuşmağa, yaxud ayrılığa ürcah olur. İnsan ya cəhənnəmə yönəlib onun atəşini dadır, ya da cənnətə üz tutub kövsərin suyundan ürəyinə sərinlik ələyir. Tanrı isə insanı ilk məqamda qızıl ortada yaradır – yəni yuxarıda da dediyimiz kimi, cənnətlə cəhənnəmə eyni məsafədə.

## *Yananın xilası...*

Bu dünyadakı əməllərimiz o dünyanın güzgüsüdür, ya da əksinə. Biz öz əməllərimiz haqqında düşündükcə artıq öz həqiqi dəyərimizi, əsl mahiyyətimizi anlayırıq, ona görə də aqibətimizlə bağlı nəticələri öncədən az-çox bilirik. Əlbəttə, bu cür hesab, bu sayaq nəticəyə gəlmək aqil insanlara aid məsələdir. Füzuli eşqin timsalında göstərir ki, sevgi oduna yanan daha cəhənnəm atəşindən yaxa qurtarmışdır, çünki

yanmış, külə dönmüş bir nəsnəni yenidən yandırmaq mümkün deyil. Füzuli maddi, fiziki yanmanı, həm də mənəvi yanma ilə eyniləşdirir. Bu dünyanın həyati nəticəsini o dünyadakı aqibətə tən qoyur. Və bütün bunların hamısında ilahi ədaləti əsas götürür, yəni bu dünyada yanan o dünyada yanmaqdan azad olacaq, "cəzasını alan" daha cəzalanmayacaq, bəladan yayınanlar isə minbir müsibətlərə tuş olacaqlar:

***Yanan eşq atəşinə atəşi-duzəxdən eymindir,***
***Nə kim bir gəz yanar, yandırmaq anı qeyri-mümkündür.***

Başqa bir qəzəlində isə Füzuli oxşar məzmunlu fikir söyləyir:

***Duzəxə girməz sitəmindən yanan,***
***Qabili-cinnət deyil əhli-əzab.***

Yarının əzabından yananlar cəhənnəmə düşmürlər, çünki yarın əzabı aşiqi cənnətlik edir, sevgilinin eşqi ilə yanmaq da cənnətin göstəricisi, nişanəsidir. Cənnətdə düşənlər isə əzab çəkənlər deyillər. Əsl əzab yarın eşqindən yanan könlün olmamasıdır, bu bir növ biganəlik dustağı olmaqdır. Ona görə də Füzuli aşağıdakı beytdə yazır ki, aşiqin məqsədi sevdiyinə qovuşmaqdır, fəqət Haqq ona cəhənnəmi nəsib eləsə, anlasın ki, cənnətə can atmaq bəzən insanı cəhənnəmlik edir:

***Cənnəti-vəslindir ol məqsəd ki, iman əhlinə***
***Qılsa həqq ruzi cəhənnəm atəşi, öldür səbəb.***

## *Bənzərsizlik*

Məhəbbət bənzərsiz bir nemətdir, hər həqiqi aşiq məhəbbəti öz özünəməxsus dünyagörüşü ilə təzələyir, onu başqalaşdırır, eşq kitabını yeni səhifədən və təzə sətirdən yazmağa başlayır. Ona görə eşqin dəqiq düsturu, bilinən konkret yönü yoxdur. Heç kəs eşqin son nəticəsini tam dəqiq bilmir, amma hər kəs öz əməlinin dəyərini kifayət qədər yaxşı bilir. Dini kitablarda cənnətin dürlü-dürlü təsvirləri var və onlar zamanları adlayaraq günümüzə də gəlib çatıblar. Din əhli üçün artıq cəhənnəmin məlum reallıqları var, amma eşqin bəlasının dəqiq təsviri yoxdur, hər aşiq başına gələn müsibətlərlə bəla mülkündə özünə yeni bir imarət ucaldır, eşq sevənlərə təkrarsız dərd, görünməmiş ələmlər nəsib edir, hər kəs özünəxas ağrısı ilə özündən əvvəlki məftunlardan, sevənlərdən seçilir. Ona görə də aşiqin əzabını cəhənnəm işgəncələrinə tay tutmaq doğru deyil, cəhənnəmdəki məşəqqətlər əsrlərdir ki, insanlara aşkardır, dini mənbələrdə o yerlər, həmin reallıq aydınca təsvir edilib, aşiq isə sevgi əzabından yaranan cəhənnəmini özü bina edir, özü ucaldır, ona görə eşqin cəhənnəmi ilə ənənəvi, təsəvvürümüzdəki cəhənnəmi bir-biri ilə müqayisə etmək qüsurludur:

***Dağı-hicranın odun bənzətmək olmaz duzəxə,***
***Olmasın kafər əsiri-dağı-hicranın sənin.***

Füzuliyə görə hicranın, ayrılığın əzabını cəhənnəm zülmünə tay tutmaq olmaz, cüda düşməyin ağrısı daha göynəkli, daha haldansalandır. Adətən, müsəlman, mömin olmayan, dindən uzaq adamları kafir adlandırırlar, onların əbədi ünvanları isə cəhənnəm hesab olunur. Füzuli isə kafirə də eşqin, ayrılığın dərdini arzulamır, çünki kafirin, dindən, Allahdan uzaq adi bir insanın o qədər günahı yoxdur ki, bunca ağır bir cəzaya – hicran dağına əsir olmağa layiq olsun, belə bir məşəqqətə qatlaşsın.

Cəhənnəmdə fiziki işgəncələr üstünlük təşkil edir, eşq dağı isə mənəvi zülmün nişanəsidir. Kafir bədəninə qulluq üçün, bədəninə xoşbəxt etmək üçün dindən uzaq durur, o ruhunu unudub, ruhunu gözardı edəni nə üçün mənəvi cəhənnəmlə – ayrılıq zülmü ilə cəzalandırsınlar ki? Füzuli bu məsələyə ilahi ədalət nəzəriylə yanaşır, Xudanın buyurduğu sayaq adil hökm verməyə çalışır…

## *Qorxusuzluq...*

Məşuq, sevilən kəs xoşbəxtdir. Çünki sevilən (həmin şəxsin özü) heç zaman özündən ayrılmır, hər zaman özü ilə bir yerdədir. Aşiq isə məşuqdan ayrılır. Ayrılıq ən azı cəhənnəmə bərabərdir, hətta ondan da qat-qat ağır cəzadır. Ancaq sevilən o bəladan xilas olub, sevən isə hər zaman o bəla ilə nəfəs nəfəsədir. Sevilən özündən ayrılmayacaq deyə onun cəhənnəm əzabına tay olan ayrılıqdan da qorxusu yoxdur:

***Zalim olsan, nə əcəb, yox sənə, duzəx vəhmi***
***Sənə xud yetməyəcəkdir sənin öz hicranın...***

Eyni zamanda bu beytdə Füzuli sevilənin ruhsuz olduğuna da işarə edir. Axı insanın ruhu olanda özünün özündən ayrılığı mümkün olur. Sevilən əgər qarşı tərəfi sevmirsə, onun özündən ayrılığı, kiməsə qovuşması mümkünsüzdür. Ruh bədəndən bircə eşqin gücü ilə ayrılır, ya məşuqa, ya Allaha qovuşur. Əgər ürəyin daşdırsa, zalımsansa, əzazilsənsə, sənin ruhun həmişə özünlə qalacaq, heç zaman özündən ayrılmayacaq, eşq vasitəsi ilə başqasının ruhu ilə birləşməyəcək, ona görə də heç cəhənnəmə də gedib düşməyəcək. Qanan adam üçün isə yalnız bədəndən, ancaq özündən ibarət olmaqsa, elə cəhənnəmlik olmaqdan da məşəqqətli aqibətdir...

## *Tutarlı səbəb...*

***Olsa məhbubilərin eşqi cəhənnəm səbəbi***
***Hüri-ğılmanı qalır kəndisinə rizvanın.***

Füzuliyə görə əgər sevmək günahdırsa, eşq yasaqdırsa, məhəbbətə görə insanlar cəhənnəm əsiri olacaq, cəzalanacaqlarsa, onda cənnətdə huri-qılmandan başqa kimsə qalmayacaq. Cənnətdəki huri-qılmanlar, Rizvan – cənnət gözətçisi həqiqi aşiqlərin qulluğunda durmaq, onları nemətlərlə mükafatlandırmaq üçündür. İnsan cənnətdən Tanrıya olan sevgisinin azlığı ucbatından, nəfsinin eşqi ilə qovulub, cənnətə qayıdışı ancaq bu səhvi düzəltməklə mümkündür. Eşq isə insana Adəmdən, Həvvadan bu günə qədər davam edən nəfsini unutmağa əlavə fürsət verir, imkan yaradır. Sevən adam özündən keçir, nəfs – almanı, buğdanı yemək özünə qulluqdur, eşq, sevmək isə bədəni ac saxlayıb ruhu doyurmaq deməkdir. İnsan ruhunu ac saxlayıb bədənini doyurduğu üçün cənnətdən qovulub, eşq isə Adəm övladına neməti bunun əksini etməyə verilən əlavə şansdır.

## *Nümunə ünvanı*

Bu dünyada ən savab işlərdən biri də, heç şübhəsiz, insanların gözəllikləri bir-birləri ilə paylaşmaqlarıdır. Gözəllikləri hamınınki eləmək, ondan hər kəsə pay vermək böyük nəciblikdir. Aşağıdakı beytdə Füzuli deyir ki, küçədəki mənzilin (hərəmxana) yerini insanlara söyləyərək savab bir iş gör, çünki o yeri tanıyandan sonra insanlar cənnətin ünvanını özləri üçün dəqiq müəyyən edəcəklər və nəticədə ora yetişmək, cənnət əhli olmaq üçün əsl itaətə, cənnətə düşməyin qayda-qanunlarına daha real addımlar nəticəsində əməl edəcəklər. Cənnət bir gözəllik ünvanıdır, insan öz əməlləri vasitəsi ilə estet olmalıdır, saleh əməl, seçkin ruhun göstəricisidir. Əslində, Allah insanı gözəl əməllər sahibi olmağa çağırmaqla, insanı ruhi cəhətdən estetik bir hala köklənməyə səsləyir. Allah insana cənnəti vəd etməklə ona yönələn yolun gözəlliklərlə dolu olduğunu, estetikasını göstərir. Yəni Allahın dediklərinə əməl edərək gözəlliklər diyarına sakin olursan, orada hər şey

zövq və rahatlıq üçündür, ölçülü-biçilidir, ləzzətlərə açıqdır, gözəlliklərlə dolub-daşır. Saleh əməl həm də estetik ruha sahibləndirir insanı:

***Hərəmi-kuyini göstər, nümunə, eylə səvab***
***Kim ola, cənnət üçün xəlq taətə mayil.***

## *Gözələ sitayiş...*

Əlbəttə, Füzuli və digər aparıcı orta çağ şairləri üçün şeir sənətində mübaliğə sadə və işlək poetik normalardan, hətta fikri dürüst çatdırmağın sınanmış, adiləşmiş saya yollarından biri idi, sözüm onda deyil, amma kəlam sehrkarı, fikir cadugəri Füzuli söyləyir ki, kafirlər sadəcə ona görə cəhənnəmə vasil olmayıblar ki, onlar qeyri-müsəlman, yaxud haqdan dönükdürlər, onlar ona görə cəhənnəm sakinidirlər ki, onlar məşuqu qoyub bütə sitayiş edirlər. Dahi estet Füzuli yenə ariflər üçün sözünü dərin qatda mənaca işlək hala salır, yəni bu dünyada gözəlliyə, həqiqi gözəlliyə, Xudanın əsəri olan gözəlliyə sitayiş (meyl etmək, həvəs göstərmək, həzz aparmaq) lazımdır ki, dünya özü cənnətə dönsün:

***Səni qoyub bütə eylər ibadətin kafir***
***Əzabi-duzəx ol vəchdəb olur qabil.***

## *Sözə inam...*

Görəsən, bu dünyada öz sevdiyi insana qovuşanların sayı nə qədərdir? Dünya miqyasında hesab apara bilsək, yəqin bəşər əhli sayı ilə nisbətdə gülünc adlandırılacaq qədər az sayda nəticə alınar. Aşiq hurinin güzəranına baxıb düşünür, o ki, nəfsdən azaddır deyə əbədi dünyanın sakinidir. Deməli, cənnətdə yaşamaq üçün nəfsdən azad olmalısan ki, sənin də səadətin əbədi – o dünyaya aid olsun. Ona görə də vüsal cənnəti üçün aşiq hurinin sözünü sanki Quran hörmətində qəbul edir:

***Ol huri vədəsinə behişti-visal üçün***
***Quranca etibar edibəm hasili-kəlam.***

Füzuli bu dünyada cənnətin və cəhənnəmin həqiqi nişanını görmür, o, cənnətin və cəhənnəmin əzəli işarələrini gözardı edir və sanki öz şəxsi dünyagörüşü ilə eyniləşdirir. Ayrılığı cəhənnəm oduna, vüsalı cənnət bulağının suyuna bənzədir. Aşiq öncə istəklisinə qovuşur, sonra ayrılır, yaxud əksinə. Yəni eşq insanı həm cənnət, həm də cəhənnəmlik edir, hər iki aləm ona reallıq qədər yaxınlaşır. Bu səbəbdən də həyatda ən böyük dünyagörüşünü insan eşq vasitəsi ilə qazanır:

***Ataşi-bərqi-fəraqın nari-duzəx tək əlim***
***Cüreyi-cami-vüsalın abi-kövsər tək ləziz.***

Beytdə Füzuli cənnəti cəhənnəm vasitəsi ilə qazandığına nişan verir. Aşiq sevərək onsuz da yanıb kül olub, axı külü nə cür yandırasan, bu ki olan iş deyil. Burada başqa bir arifanə məqam da o sayıla bilər ki, insan hər əzabı bir dəfə dadır, sonra oxşar hala düşəndə artıq onun üçün həmin əzab əvvəlkinin təkrarı olur. İnsanın daddığı ilk hisslər təkrarsızdır, eşq isə həmişə təkrarsızlıq duyğusu yaradır. Bir dəfə sevən, bir dəfə oxu daşa dəyən ikinci dəfə ilk əzabın təkrarını yaşayır, həqiqi əzabı yox.

## *Xatırlatma*

***Həvayi-rövzeyi-kuyin bəhari-gülşəni-canım***
***Nihali-qaməti-sərvim, üzarım yasəmənimdir.***

Yarın məhəlləsinin havası ömrün bahar fəslidir, uca boyu o bağdakı sərvdir, yanğı isə yasəmən. Cənnət məkanlıqdan çıxıb insan surətinə düşüb, formasını dəyişib,

məzmununu isə yox. Allah o dünya üçün vəd elədiyi gözəlliyi – cənnəti aşiqə bu dünyada verir, ona görə sevgi hissi dünyanın ən möhtəşəm hisslərindəndir. Yəni sevərkən çatmadığın dünyaya, haçansa yetəcəyin aləmə – cənnətə bir insan vasitəsi ilə keçirdiyin xoş əyyamlar sayəsində aç-çox qovuşa bilirsən. Cənnətin feyzini hisslərin ləzzəti şəklində duyursan. Həqiqi sevgi insanda cənnət vədinə sonsuz inam, həqiqi məhəbbət yaradır. Ona görə də dərin məhəbbətlə sevdikcə insani eşq ilahi eşqə çevrilə biləcək güc əldə edə bilir:

***Təklifi-cənnət eyləmə kuyində könlümə,***
***Çün cənnət əhlidir, nə verirsən əzab ona?***

Füzuli düşünür ki, sevənə cənnət təklif eləmək olmaz, sevən yarının məhəlləsində cənnətdədir. Onu olduğu həmin ali mərtəbədən ayırmaq ona əzab vermək kimidir:

***Məhəlləndə ona cənnət təklif eləmə,***
***Axı o cənnət əhlidir, ona niyə əzab verirsən.***

Füzulini ən çox düşündürən cənnətdə əzabın olmasıdır.

***Kəsmədi məndən səri-kuyində azarın rəqib***
***Ey Füzuli, nişə cənnət içrə yox derlər əzab?***

Və Füzuli yenə də yarın məhəlləsini cənnət adlandırır, təkidlə deyir ki, Füzuli sənin məhəlləni yadına salıb ağlasa, normal qarşıla, qərib vətənini düşünəndə, əlbəttə, gözündən yaşlar ələnməlidir:

***Nolar ağlarsa Füzuli rövzeyi-kuyin anıb,***
***Lacərəm giryan olur qılğac vətən yadın qərib.***

Amma Füzuli Allaha münasibətdə yarın məhəlləsinin cənnətə bənzədilməsinə qarşı çıxır. Söyləyir, zahidlər desə ki, cənnət sənin bağına bənzəyir, o dadanlarla mübahisə eləmə:

***Cənnəti-kuyinə zöhd əhli münasib desələr,***
***Nə münasib ki, qılım bir neçə cavan ilə bəh.s***

Füzuli yarın yaşadığı yeri cənnətdən də üstün tutarkən cənnəti görmüş yeganə dünya sakini olan Adəm babamızı şahid gətirir, o da təsdiqləyir ki, bəli, yarın küçəsi Adəmin haçansa sakini olduğu, sonra qovulduğu cənnətdən qatbaqat daha yaxşı yerdir. Amma bixəbərlər, gönüqalınlar, cənnəti görməyə-görməyə necəgəldi fikir yürüdənlərsə deyirlər ki, yarın küçəsi, sadəcə, cənnətə bənzəyir, Adəm isə doğruçu şahid kimi sevgilinin məhəlləsinin cənnətdən daha artıq gözəlliyə sahib olduğunu inkar eləmir:

***Dedilər bixəbərlər baği-cənnət kuyinə bənzər,***
***Xəbər verdi mənə anda gələn Adəm, yalandır bu.***

Füzuli haçansa yarın məhəlləsində olduğu səadətli günlərdə özünü Adəm peyğəmbərlə müqayisə edir, deyir ki, o zaman mən də onun kimi cənnətdə qərar tutmuşdum, mey yerinə kövsər suyu içərdim, həmdəmim də huri idi. Adəm bu dünyaya gəldikdən sonra cənnət nemətləri əlçatmaz olduğu kimi, insan da sevdiyini itirəndən sonra keçmişdəki çox şey ona cənnətdəki nemətlər kimi ayrı düşür.

***Adəm idim, qürbi-dərgahında bölmüşdüm qəbul,***
***Mənzilim cənnət, meyim kövsər, ənisim hur idi.***

Füzuli məşuqun məhəlləsi barədə yazarkən bu dünyanın cənnəti sayılan Kəbəni də yarın küçəsindən üstün bilir. Axı məhəbbət həm də ibadətdir, insan öz sevdiyini qoyub getdiyi heç bir yerdə ruhi dinclik tapa bilməz və ona görə də ruhi təbəddülatlarla edilən dualar da müstəcab olmaz:

***Aşiyan ta rövzeyi-kuyində yutdu mürği-dil***
***Keçdi tövfi-kəbədən, uçmağa pərva etmədi.***

Ürək ki, eşqə düşəndən sonra daha Kəbə ziyarətinə getməkdən imtina edib, oralara uçmur deyir şair. Çünki Allahı bir olanın ziyarəti, göylərə üz tutduğu yer də bir olar. Füzulinin sözünün qüdrəti həm də ondadır ki, onun məcazlar dünyasında real dünyaya keçid çox sadə şəkildə diqqət mərkəzinə gəlir:

***Ğayəti-zöhdü verə, zahid, vüsali-hur isə,***
***Vəchi yox mən, etməgin huriliqayələrdən məni.***

Əgər zahid bu dünyada özünü saxlayıb huri kimi gözəllərə cənnətə düşmək üçün baxmırsa, əsas məqsədi odursa, eyş-işrəti o biri dünyaya saxlayıbsa, onda aşiqi bu dünyadakı hurilərə meyillənməkdən qorumağın mənası yoxdur. Çünki Arif insan bu dünyanı o dünyaya dəyişmir, bu cür münasibətlər alverinə razılıq vermir, məqsədi qarşısında səmimiyyətini itirmir:

***Hicran gecəsin körkəc duzəx ələmin bildim,***
***Kim ruzi-qiyamətdir yarın şəbi-hicranı.***

Yardan ayrılıq gecəsi qiyamət gününə taydır, ayrılığı dadan üçün cəhənnəmin heç bir sirri qalmır və nəticədə biz sanki o dünyanı bu dünya vasitəsi ilə tanıyırıq:

***Bulmazdı, qəhrin açmasa xani-siyasətin***
***"Həl min məzid" löqməsinə duzəx iştəha.***

Sənin qəzəbin cəza süfrəsini açmasaydı, cəhənnəm yenə varmı loxmasına iştahalanmazdı.

Füzuli təkcə cilvəli, qatbaqat söz deməyin yox, həm də ironiya etməyin, dolaşıqlıq düşüncələrdə mərhələli fikirləri ipə-sapa düzməyin əlçatmazlıq zirvəsidir. Söz sehrbazı ki, sual edir ki, çox təəccüb qalmışam, axı deyirlər şərab içənlər cəhənnəmlikdirlər, onda meyxanadan çıxmayanlar nə üçün cənnətə düşüblər?

***Füzuli, badəxarı duzəxi der xəlq, heyranəm,***
***Ki, hər neyçün salıbdır cənnətə meyxanə ovbaşın.***

Bu misralarda məhz ilahi mey məsələsi daha bariz qatda üzə çıxır. Sadə insanların nəzərində Allaha çatmağın yolları çox saya, bəsitdir, ona görə də onlar özləri üçün çox adi yollarla cənnətə və cəhənnəmə düşməyin meyarlarını müəyyənləşdiriblər. Belələrinin məlum ülgüləri onları həqiqətə deyil, ancaq və ancaq aldanışa aparıb çıxarır. Onlar bu dünyada nəyin harada olduğunu dəqiq bilmədikləri kimi, o dünyada da cənnət, yaxud cəhənnəmin yerini bilmirlər, elələri bu dünyada insanların həqiqi qiymətini verməyi bacarmadıqları kimi, o dünyada da kimin cənnət, yaxud cəhənnəmlik olması ilə bağlı bəri başdan yanlış qənaətdədirlər.

Füzulinin bu sayaq ironiyasının pik həddi Ramazan haqqında qələmə aldığı bir qəzəlində də rast gəlinir.

***Ramazan ayı gərək açıla cənnət qapısı,***
***Nə rəva kim, ola meyxanə qapısı bağlı.***

Əgər Allahın dediyini özünə yeganə yol hesab edənlər, oruc tutanlar üçün yeməmək, içməmək imtahanından keçənlər üçün, nəfsini boğanlar üçün cənnətin qapısı açıqdır, əgər belədirsə, Tanrı öz qaydalarını azad iradəyə hesablayıbsa, onda əks qütbün – içmək istəyən aşiqin də cənnət saydığı meyxanəsinin qapısı bağlı qalmamalıdır. Aşiq mey içərək keçir cənnət imtahanından, mömin nəfsini boğaraq. Gərək onların özünüifadəsi üçün süni əngəllər, saxta dolaşıqlıqlar olmaya. Olsa, heç...



*İbrahim YUSİFOĞLU*

## ZƏFƏR NƏĞMƏSİ

Nəğmələrin müqəddəsi, ulusu,
Meyvələrin ən şirini, sulusu,
Bulaqların ayna kimi durusu –
Zəfər nəğməsi.

Bu nəğmənin hər sədası "Cəngi"di,
Al-qırmızı kəlmələrin rəngidi,
Dar anında bir oyanış zəngidi –
Zəfər nəğməsi.

Yarıb keçər çəpərləri, sədləri,
Tam əridər buz bağlamış hədləri,
Düzdə qoyar nankorları, bədləri,
Zəfər nəğməsi.

Döyüşlərdə dönər "Dəmir Yumruğa",
Haya yetən xilaskar quş Simruğa,
Səslənəndə el qovuşar xoş çağa –
Zəfər nəğməsi.

İgidlərlə o, eyləyər yoxdan var,
Mərd əllərdə ilmələnər, toxunar,
Azad eldə, azad dildə oxunar –
Zəfər nəğməsi.

## BAKI KÜLƏYİ

Sanki, bəd qaynana fağır gəlinə
Hayqırıb səslənir, doymur ürəyi.
Zalımlıq fürsəti düşüb əlinə,
Həm asır, həm kəsir Bakı küləyi,
Yamanca sərt əsir Bakı küləyi.

Göy üzü büsbütün bələnib toza,
Günəşin al rəngi bülənib boza,
Həyatı döndərib içi boş qoza,
Həm atır, həm tutur xəlbir, ələyi.
Yamanca bərk əsir Bakı küləyi.

Dəniz çalxalanır, aşır səddini,
Köklü ağacların bükür qəddini.
Cığal adam kimi keçir həddini,
Dizi üstündədi duzu, çörəyi,
Yamanca tərs əsir Bakı küləyi.

Gəlir… uzaqlardan atlanıb gəlir,
Təbiət əzaba qatlanıb gəlir,
Qorxuya, haraya şadlanıb gəlir.
Yıxıb-dağıtmaqdı istək, diləyi,
Yamanca pərt əsir Bakı küləyi.

Bir səbəb tapılmır davalarına ,
Oynadır xəzəli havalarına,
Edilən hər Tanrı dualarına,
Yumşalır, səngiyir çılğın ürəyi,
Yavaş-yavaş kəsir Bakı küləyi…

## NUR SAÇILSIN

Bir azcana üzüm gülcək
Qismətimə daş atılır.
Zərrə boyda sevincimə
Kədər, qüssə, qəm qatılır.

Bu ömürdən bezikmişəm,
Çox istəyə geçikmişəm,
Əlli ilə ev tikmişəm,
Nəm çəkməkdən ev dağılır.

Yetəmmədim söz taxtıma,
Heç düşmədi söz vaxtına,
Közü basdım öz baxtıma,
Göz süzülür, qaş çatılır.

Saçım qışın qırov qarı,
Yeməyimdi yarma, darı.
Şəkər, təzyiq düşmür barı,
Yeməyimə həb qatılır.

İçim isti, çölüm buzdu,
Dodaq quru, dil susuzdu,
"Düşmənlərim" şəkər, duzdu,
Yağ da, bal da nəhs sayılır.

Qızıl ömrüm döndü misə,
Alov söndü, düşdüm hisə,
Fərq olmadı yaxşı, pisə,
Yerə, göyə çən yayılır.

Bu halımla gedim hara,
Dərd əlindən gəldim zara.
Ulu Tanrı, et bir çara –
Dan sökülür, nur saçılır.

## QƏLBİNDƏN VƏTƏN BOYLANIR

***Ömür gün yoldaşı şəhid olmuş mərd qadına***

Gözlərinin didəsindən
Kirpik boyu nəm boylanır,
Baxışların piləsindən
Kədər hoppuş qəm boylanır.

Ay şən gülüb, lal ağlayan,
Qara örpək, şal bağlayan,
Acı dərdi bal saxlayan,
Zilin yenib, bəm boylanır.

Sinən dözdü çarpaz dağa,
Şəhid verdin nəm torpağa,
Döndün saralmış yarpağa,
Günəş sönüb, çən boylanır.

Bir üzü qız, bir gəlin,
Yorulmadı işdə əlin,
Oğlun, qızın, nəvələrin
Sabahına şən boylanır.

Bu gün ana, həm nənəsən,
Səndən olmaz, bir dənəsən,
Göylər boyda ümmansan sən,
Qəlbindən Vətən boylanır.

## MƏNƏ BİRCƏ GİLƏ GÖZ YAŞI BƏSDİ

Göylərin üzünü aldı buludlar,
Qəlbimi ürpədən külək də əsdi.
Mənim səndə xeyli əmanətim var,
Qaytarsan... bir gilə göz yaşı bəsdi.

Bitdin bənövşətək yolumun üstə,
Yaydın yaylığını qolumun üstə,
Yığdım dərdlərimi solumun üstə,
Ağrılar çoxaldı, səbrimi kəsdi,
Mənə bircə gilə göz yaşı bəsdi.

Vətənin obasın, elin sevmişəm,
Günəşin, yağışın, yelin sevmişəm,
Anamın şipşirin dilin sevmişəm,
Zirvənin qartalı, sərt qaşı bəsdi,
Mənə bircə gilə göz yaşı bəsdi.

Bəxtimə düşənlər Tanrıdan gəlir,
Sevincim, kədərim yarıdan gəlir.
Bütün istəklərim “barı”dan gəlir,
Həyat nə verdisə, bir üzü tərsdi,
Mənə bircə gilə göz yaşı bəsdi.

Bir gün göz yaşıyla yuyulacağam,
Üç qarış torpaqda uyuyacağam.
Bir parça sal daşda duyulacağam,
Tanrımın verdiyi öz yaşı bəsdi,
Mənə bircə gilə göz yaşı bəsdi.

## NAXÇIVANAM

Naxçıvanam!
Yarandığım əzəl gündən

Odlar Yurdu Azərbaycan olmuş anam!
Sinə gərib düşmənlərin od püskürən davasına,
Vüqarımı məlhəm qoydum igidlərin yarasına!
Sinəm üstə əsirlərin silinməyən izləri var.
– Əcəmidən abidələr qucağımda var yadigar.
Xan Arazım, Arpaçayım dastanıdır aşıqların,
Tükənməyən duz dağlarım nemətidir bu diyarın.
Söz açıblar "Sirab"ımdan, "Badamlı”mdan,
çox varımdan.
Övladlarım gileylənməz boranımdan,
baharımdan!
Göz gəzdirib hər fəsildə dağlarıma salsan nəzər,
Görəcəksən “Gözəl” kəklik daşdan-daşa
necə səkər.
Bağlarında nələr yoxdur –
sarı limon, heyva çoxdur,
Yaylağımda sərin bulaq, min naxışlı
çəmənim var,
Novruz günü dost-tanışa paylamağa
səmənim var!
Oğlum-qızım sular çəkib Xan Arazdan
"Böyük Düz"ə,
Balalarım can atır ki, yollar boyu çinar düzə.
Arpaçayı! – gizlətmirəm, incimişdim
mən də ondan,
Ancaq gördüm günahsızdır, uzaqdır o
nahaq qandan.
Böhtanlamış zaman onu,
Bulandırmış saf suyunu!
Dözəmmədi böhtanlara – coşdu, daşdı,
başımıza oyun açdı.
Min hünərlə çay üstündə quruldu bənd,
Dəyışib öz simasını Şərurumda
neçə oba, neçə də kənd,
Naxçıvanam – yağı düşmən torpağıma
çox batırıb dişlərini,
Övladlarım kəsibdilər yağıların
Damardakı quduzlaşan şişlərini!
...Müstəqillik günəşidir, üzərimə nur çiləyən,
mən gözəllik məskəniyəm!
Övladlarım xoş nəğməli, azad səsli,
Qucağımda bəsləyirəm gələcəyə gələn nəsli!..



*Müxəmməd HAQVERDİ*

## ÖMÜR

Ömür yaşla deyil,
İşlədi.
Belə anlamışam
Arxada qalan illəri.
Xatırlayıram:
Sevinclisi var,
Kədərlisi var,
Hərəsi bir rəng oyadır məndə.
İl var, irəli aparıb,
İl var, arxada qalmışam.
Həyatımı boş saymışam.
Ömrümdə izi qalmayıb
O illərin.
Onlar ömrümün boş illəridi.
İndi ömrün yetmişindəyəm,
Yetişmiş ömür yaşasam da,
Ürəyim istədiyi kimi
Yaşaya bilməmişəm həyatda.

## TORPAQ

Yazda torpaq
İsti-isti,
Günəş içir.
Yağışda çimir.
Köksünü qapsayan
Yeddi hava qatını
Sorur "ağ" ciyərinə.
Paylaşır yerin təkinə.
Adəm atamızdan
Qoca torpaq yaşayır.
Yaşadır
Yer və göy arası
Düzəni.

## SEVİNDİ

***Həyat yoldaşıma***

Sən gəldin
Sənsizlik,
Səssizlik itdi.
Evimin qapısı, onun dəstəyi,
Pəncərəsi də
Sevindi.
Səsini uddu darıxmış divarlar da.
Hər gün sildiyim
Yemək masası da.
Hər gün təbəssümünə aşiq
Güzgü də sevindi.
Evimdə hər şey
Sevindi,
Sevindi.

* * *

Dünyanı tez dəyişdin,
Bu taleyin yazısı.
Ağrıtdı məni hər an,
Taleyinin acısı.

Sən qəlbində apardın,
Mənim çiçək sevgimi.
İndi ürəkdə deyil,
Yaşayır torpaq kimi.

* * *

Ömür yolunun
Neçə kilometrində
Yıxılasıyam,
Deyə bilmərəm.
Bir az ümiddən,
Bir az Allahdan
Tuta-tuta yaşayıram.
Üzü məchulluğa,
Sonu yoxluğa.

* * *

Sanki ulduzları dərib aparmışdılar,
Ulduzsuz qalmışdı gecə.
Ürəyim sıxıldı, sıxıldı
Özü də yaz gecəsində.
Elə bu anda
Ulduzsuz göylərin ulduzu
Olmaq istədim.

* * *

Sahilə atılmış balıq,
Budaqdan küləyin qəzəblə
Endirdiyi sarı yarpaqla
Oxşar tale yaşayır.

* * *

Yağış payıza yağır,
Payız su içindədir.
Payıza batır gecə,
Payızdan çıxır səhər.

## BU İLİN YAZ NOVELLASI

Novruz gələn gecə
Külək əsdi,
Soyuq yağış yağdı o ki var.
Novruz gəldi, qış gətirdi
Elə bil.
Novruz islandı,
Üşüdü o gecə.
Martın 20-si
2022-ci il.
Ondan iki gün sonra
Səhər sevimli Günəş
Göydə qəlbiləndi.
İnsanlara bahar sevincini
Şüalandırdı o gün.

***

Kiçik Çillənin
Bir günündə
Göydə iki yanaşı
Balığa oxşar bulud
Yavaş-yavaş
əridi, əridi
sonunda itdi
mavilərdə...

***Cəbrayıl***

*Pərvanə MƏMMƏDLİ*

# Eşq, yurd sevgisi, bir də həsrət nəğmələri yazan şair



Həbib Sahir Cənubi Azərbaycan şeirinə yeni ruh, yeni biçim tərzi gətirmiş şairlərdəndir. Təkcə fikirlə yox, daha çox hisslərlə yüklənmiş şeirlər yazmağa çalışırdı. Aşıq şeiri və danışıq dilinə yaxın bir dil ilə bəslənmiş yeni bir üslubun başlanğıcını qoymuşdu. Tablo kimi yaratdığı poetik təsvirlərində də bol-bol sintaksislər; zərf və sifətlərdən yararlanırdı. Şeirlərinin çoxunu heca vəznində yazmaqla şair, artıq köhnəlmiş "sanki duyğuların qəlibə salınıb qatılaşdırıldığı" əruz vəzninə meydan oxuyurdu. Türkiyədə təhsil alan, İstanbulun ab-havasını udan, Yəhya Kamal, Əhməd Haşim, Tofiq Fikrətin fikir və duyğuları ilə tək oxuduğu kitablardan deyil, təmasda özlərindən də eşidib duyan, fransız dilində danışıb çevirmələr edən Həbib Sahiri başqa cür təsəvvür etmək də mümkün deyil. O, yeni şəkil və formalar axtarışında olan bir yenilikçi şair idi.

Həbib Sahir 1903-cü ildə Təbrizdə dünyaya göz açıb. Atasını erkən itirdiyindən uşaqlıq və gənclik illərində həyatın ağır sınaqları ilə üzləşməli olub. Ana, dörd qardaş, bir bacıdan ibarət ailənin güzəranı məşəqqətlər içində keçmişdir. İlk təhsilini mollaxanada, orta təhsilini Təbrizdə başa vurur. Sahirin xatirələrindən öyrənirik ki, «Bayat» soylu anasının şeirə böyük marağı varmış, ruhu oxşar səsi ilə qış gecələri bayatılar söyləyərək uşaqlarda, xüsusən də balaca Sahirdə xalqın söz sərvətinə sevgi oyadarmış; «Anam isə hələ gənc və gözəl xatun olduğuna rəğmən bizləri «başsız-aşsız» buraxıb ayrı ərə getmədi. Anamın incə və ruha oxşar səsi var idi. Məncə, əgər o, Təbrizin qara dumanlı «Dəvəçi» məhəlləsində doğulmasaydı, fanatizm mühitində bara gəlməsəydi, bəlkə bir «müğəniyyə», yaxud bir «şairə» olacaqmış!...

Təbrizin Məhəmmədiyyə mədrəsəsində təhsil aldığı illərdə onun fransız dili və ədəbiyyatı müəllimi Tağı xan Rüfət olub. H.Sahir onunla bağlı xatirələrində yazırdı: «Bir gün səhər sinfimizə İstanbulda ali təhsil alan, başına «gənc türklər»ə məxsus börk qoyan, boynuna rəngli fokul bağlayan, əyninə gözəl qara paltar geymiş gənc bir müəllim varid oldu. O, fars şeirində yenilik yaratmış Tağı Rüfət idi. ...Məktəbdəki gənc şairlər artıq qəsidə və mədhiyyələri buraxıb əruz vəznində sərvəti finun ədəbiyyatı üslubunda lirik və ictimai şeirlər yazmağa başladılar. Mən də onlara qoşulub, farsca, gah da türkcə yeni üsulda şeirlər yazdım... » (1) T.Rüfətin vasitəsilə

Həbib Sahir Türkiyədə nəşr olunan «Sərvəti-finun», «Rəsmli ay» kimi ədəbi-ictimai toplularla və digər nəşriyyələrlə tanış olur. Orada dərc olunan şeirləri, xüsusilə Tofiq Fikrət və Cəlal Sahirin əsərlərini çox bəyənir. Cəlal Sahirin əsərləri gənc şairin ədəbi-bədii zövqünə, dünyagörüşünə elə əsaslı təsir göstərir ki, onun soyadını özünə təxəllüs götürür.

Qeyd edək ki, dövrünün tanınmış, istedadlı, novator şairlərindən olan Tağı xan Rüfət Təbrizdə «Təcəddüd» («Yeniləşmə») adlı qəzet buraxırdı. Tələbələri isə şairin şeirin forma və məzmununda yaratdığı yenilikdən, yenilikçi fikir və düşüncələrindən ilham alaraq, «Əncüməni-Rüfət» qəzetini yayımlayırlar. «Əncüməni-Rüfət»də şairin sevimli tələbələri Məhəmməd Xürrəm, Həbib Sahir, Tağı Bərgüzar, Yəhya Ariyanpur daha çox fəallıq göstərir, hətta yeni «Ədəb» qəzetini də buraxırdılar. Lakin Xiyabani hərəkatı şah qoşunları tərəfindən xüsusi amansızlıqla yatırıldıqdan sonra qabaqcıl qəzet və dərgilər bağlandı. Bütün bu haqsızlıqlara və Xiyabaninin öldürülməsinə dözə bilməyən Tağı xan Rüfət Qızıl Dizəc kəndində intihar edir. Lakin sədaqətli tələbələri, o cümlədən Həbib Sahir novator şairin yaradıcılıq yolunu uğurla davam etdirdilər. Hələ «Məhəmmədiyyə»də orta təhsil alarkən fransız dilindən az-az tərcümələr edən Sahiri Xiyabaninin və müəllimi Tağı Rüfətin ölümü qəlbən ağrıdır, ruhunu sarsıdır. İlk qələm təcrübəsini, ilk şeirini məhz alovlu vətənpərvər, mətin inqilabçı Şeyx Məhəmməd Xiyabaninin ölümünə həsr edir.

H.Sahir sonralar yazdığı «Məktəb xatirələri» adlı şeirində Ş.M.Xiyabanini əvəzsiz milli lider, maarifin, mədəniyyətin inkişafına xüsusi qayğı göstərən rəhbər kimi yenidən anır, onun uşaqlar üçün açdığı, özünün də təhsil aldığı məktəblərdən bəhs edirdi:

***Unutmaram soyuq qışı, dağ yayı,***
***Qızıl günü, saf ulduzu, ağ ayı,***
***Qacarlardan qalan hər bir misrayı…***
***Bizi ora Xiyabani köçürdü,***
***Noğul, nabat verib şərbət içirdi.***

Məktəbdə Tağı Rüfətin dərs deməsi də, onun gələcək taleyinin şeirlə, sözlə bağlı keçməsinə təsir göstərir. Tağı Rüfət haqda Sahir yazırdı ki, «biz sonralar bildik ki, bizim gənc müəllimimiz həm də şair imiş. O, İranda yeni şeirin bünövrəsini qoydu, getdi və unuduldu;

***O, əkdiyi ağac oymağında,***
***Çiçək açır bu gün Şiraz bağında.***
***Yeni şeirin lap güllənən çağında***
***Kimsə deməz Tağı Rüfət kim imiş,***
***Şeiri yazan dərin hikmət kim imiş.***

İkinci dünya savaşı başlayarkən Nima Yuşic adlı bir gənc mazandaranlı şair farsca «azad şeir» yazmağa başladı. Əfsuslar olsun ki, hələ də bir çoxları Tağı Rüfəti deyil, Nima Yuşici yeni şeirin elçisi sayırlar».

Sonralar Həbib Sahir ustadı Tağı Rüfətin yeni yaradıcılıq axtarışlarının layiqli davamçısı oldu.

1927-ci ildə H.Sahir Türkiyəyə gedir. Orada yaşayan iranlılar üçün açılmış «Dəbistane-İraniyan» məktəbində 2 il fars dili və ədəbiyyatı müəllimi işləyir. 1929-cu ildə Sahir İstanbul Universitetinin coğrafiya bölümünə daxil olur. Coğrafiya fakültə-

sinin məzunu Habib Sahir müəllimi Sədi bəyin tövsiyəsi ilə «İran Azərbaycanının təbii coğrafiyası» adlı buraxılış işinin xülasəsini 1934-cü ildə «Azərbaycan yurd bilgisi» jurnalında silsilə şəklində nəşr etdirir. «Azərbaycan yurd bilgisi» İstanbulda Azərbaycan mühacirlərinin nəşr etdikləri mətbu orqanlarından biri idi. Jurnalın redaktoru görkəmli Azərbaycan alimi və ziyalısı Əhməd Cəfəroğlu idi.

İstanbul təhsili və ədəbi-mədəni mühiti onun dünyagörüşünün yetkinləşməsinə böyük təsir göstərir. Sahir orada Tofiq Fikrət, Yəhya Kamal, Nazim Hikmət kimi görkəmli şairlərlə şəxsən tanış olur, onların əsərlərini mütaliə edir. Bütün bunlar onun həm zəngin Şərq ədəbiyyatı, həm də Avropa ədəbi-bədii, estetik və fəlsəfi fikir tarixi, müasir ədəbi proseslərlə tanış olmağa imkan yaratmışdı.

İstanbulda fəaliyyət göstərən «Amerikalılar klubu»nda fransız missionerlərindən yeni fransız ədəbiyyatını öyrənir. Sahir şeir yaradıcılığından daha çox ciddi mütaliəyə vaxt ayırır. Ara-sıra şeirlər, İstanbul türkcəsində isə bir-iki şeir yazsa da, əsasən böyük fransız şairi Şarl Bolderin yeni səpkili şeirlərini fars dilinə tərcümə edir. Klassik şeir ənənələrindən fərqli, əruz vəznində türk dilində yazıb-yaradan Türkiyənin böyük novator şairi Yəhya Kamalın əsərlərini daha çox oxuyur və bu şeirlər ruhunda güclü iz qoyur.

Tanınmış Türkiyə tədqiqatçısı Əli Yavuz Akpınar yazır ki, «Sahirin bir çox şeirində Türkiyə türkcəsinin havasını, ifadə xüsusiyyətlərini duymaq olar. Şairin İstanbul həyatının izlərini daşıyan mənzumələrində Azərbaycan dilinin dil və üslub xüsusiyyətlərini duymaq olar. Şairin İstanbul həyatının izlərini daşıyan mənzumələri Azərbaycan dilinin dil və üslub örnəkləri ilə zövqü oxşar bir tərzdə qarşıya çıxır». O, Türkiyə şairi Tofiq Fikrətin

***Çal, mən də olum şövqi ilə ahənginə həmkar***
***Ruhlardakı sevdaları çuşan edəlim.***

misraları ilə başlayan «Ey yari nəğməkar» şeirindən ruhlanıb 1977-ci ildə aşağıdakı şeiri yazır:

***Bax, Çamlıcadan ay ucalır***
***Rəngi qızıl qan***
***Andıqca səni nazlı pəri,***
***Sanki çıxar can.***
***Qumral saçını tök üzünə***
***Al ələ udun.***

H.Sahir İranda farsca nəşrə hazırladığı «Türk şeiri antologiyası»nda ümumtürk ədəbiyyatını tanıdır. Kitabın ön sözündə qısaca tarixi və ədəbi məlumatlara yer ayırır.

Sahir Fransaya gedib, təhsilini davam etdirmək arzusunda idi. Bu istək birdənbirə yaranmamışdı. Bu dili hələ uşaqlıq illərində ona ustadı saydığı Tağı Rüfət sevdirmişdi. Bu dildən əsərlər çevirmiş, hətta fransızca şeirlər də yazmışdı, onlardan çap olunanları da var. Fransız dili və ədəbiyyatını Təbrizdə missionerlərin açdığı xüsusi kollecdə öyrənmişdi. İstanbulda oxuyarkən orada işləyən fransız ziyalıları ilə tez-tez görüşür, onlarla sənət, poeziya haqqında söhbətlər edir.

İstanbuldan Parisə yollanan Həbib bir ay Bakıda qalır. Təəssüf ki, Bakıya səfəri ilə bağlı əldə heç bir məlumat yoxdur. Sahir Fransaya gedir, amma maliyyə çətinliyi ucbatından orada qalıb təhsil almaq ona müyəssər olmur.

Sahir yeddi ildən sonra yenidən İrana qayıdır. 1936-cı ildə İran Maarif Nazirliyi onun «Coğrafiyeye-xəmsə» adlı kitabını nəşr edir. Bu kitab dövlət tərəfindən mükafata layiq görülür.

Maarif idarəsinin təyinatı ilə Təbriz şəhər məktəbində müəllim işləyir. Şagirdlərə coğrafiya fənnini tədris edir və dərsliklər yazır. Ana yurdunu, xalqını və vətənini odlu məhəbbətlə sevən, doğulduğu torpağa qırılmaz tellərlə bağlı olan Sahir fitrətən şair doğulmuşdu, ədəbiyyat, poeziya vurğunu idi. Dərs dediyi şagirdlərə ana dili ilə bərabər Azərbaycan ədəbiyyatını da dərindən öyrədirdi. Həssas şair elmlərin xəzinəsinin açarı sandığı ana dili uğrunda bütün ömrü boyunca mübarizə aparıb, inanıb ki, dilini qoruyan xalq, millət milli varlığını, kimliyini də qoruyub saxlayır və nə zamansa itirdiyi azadlığına qovuşur. Çünki «Dil günəşdir işıq saçır, Azadlığa qapı açır» Yad dil, özgə dilsə xalqın başı üstündə sanki ölüm kabusudur, cəllad qılıncıdır...

Sahir Zəncana işləməyə göndərilir. Şairin xatirələrində yazdığı kimi, məktəbdə uşaqlarla türkcə danışdığı üçün onu üç il «sərgərdan yəhudi kimi» bu şəhərdən o şəhərə göçürürlər. Öz elindən, ailəsindən ayrı düşən, Zəncan, Mazandaran, Tehran, Qəzvin, Ərdəbildə yaşayıb müəllimlik edən Sahir o illəri xatırlayıb yazırdı:

***Mən yurdumu özgələrə satmadım,***
***Xələt alıb öz elimi atmadım.***
***Məxmər, ipək yataq üstə yatmadım,***
***Qədər mənə acı şərbət içirtdi,***
***Düşmən məni yad ellərə köçürtdü.***

Yaradıcılığı. Sahirin yaradıcılığını üç dövrə bölmək olar. Yaradıcılığının ilk dövrü – 1941-ci ilədək olan dövrü, yaradıcılığının ikinci, ən məhsuldar Təbriz dövrü – 1941-1946-cı illəri, üçüncü dövrü isə 1947-1985-ci illəri əhatə edir.

Birinci dövrə şairin gənclik illəri, Türkiyədə təhsil aldığı dövr, elindən ayrılıb digər şəhərlərdə yaşayıb işləməyə məhkum olunduğu illər daxildir. Bədii yaradıcılığa başladığı ilk gənclik illərində H.Sahir «Sərvəti-finun»çuların təsiri ilə yazıb yaradırdı. Məlumdur ki, «Sərvəti-finun»un ətrafında toplaşan yaradıcı qüvvələr ədəbiyyatı həm forma, həm də məzmun cəhətdən yeniləşdirmək, dili sadələşdirmək, ənənəvi Şərq motivlərini və poetik sistemini dəyişdirmək, Qərb ədəbiyyatı üsulunu yaymaq və s. bu kimi ədəbi-estetik məramı qarşılarına əsas vəzifə qoymuşdular. Lakin «Sərvəti-finun»un ətrafına toplaşanlar bu vəzifələri həyata keçirə bilmədilər. Onlar qəliz ərəb və fars tərkibli osmanlıca yazdıqları üçün xalqdan uzaq düşdülər...

H.Sahirin poetik irsi ilə tanışlıq göstərir ki, o, sonralar «Sərvəti-finün»çuların səhvlərindən nəticə çıxartmış, özünün poetik məramını və amalını dürüst müəyyənləşdirə bilmişdir. Sahir fransız romantizminin təsirindən çıxıb real gerçəkləri ifadə etməyə cəhd göstərirdi. Onun yaradıcılığının ilk illərində yazdığı əsərlərdə lirik təbiət təsvirləri, fransız ədəbiyyatının təsiri altında yazılmış sentimental ruhlu şeirlər üstünlük təşkil edirdi. Gəncliyinin ilk illərində romantik duyğularla köklənmiş H.Sahir yaradıcılığında vətən, təbiət, gözəllər, məhəbbət mövzusunda yazılmış şeirlər aparıcı mövqedədir:

***Qəzəl yazıb gözəllərdən***
***Pərilərdən bəhs edərdi.***
***Ulduzlarla dərdləşərək,***
***Bilməz idi nədi dərdi.***

Fransız, rus dillərini bildiyi və bu dillərdə yazılmış ədəbiyyatı izlədiyi üçün o, qələmini müxtəlif şeir formalarında sınayır. Dünya poeziyasının mütərəqqi ənənələrdən bəhrələnərək Azərbaycan poeziyasında önəmli yer tutan əruz vəzni və folklordan qidalanan heca vəznində şeirlər yazmağa daha çox meyil göstərmişdi.

Sahirin sağlığında ondan artıq kitabı çap olunmuşdu. Onların əksəriyyəti fars dilində, beşi isə Azərbaycan dilindədir. Ana dilində ilk şeir kitabı «Lirik şeirlər» adı altında 1965-ci ildə işıq üzü görür. Sonralar «Kövşən», «Səhər işıqlanır», «Sönməyən günəş» (klassik fars poeziyasından tərcümələr), «Dağınıq xatirələr», «Türk ədəbiyyatı antologiyası» (farsca) kitabları 1978-1979-cu illər İran inqilabından sonra nəşr olunmuşdur.

Məlum olduğu kimi, İranda Pəhləvilərin hakimiyyəti illərində qeyri-fars dilli xalqlara, xüsusilə ölkədə əhalinin çox hissəsini təşkil edən azərbaycanlıların dil və mədəniyyətinə qarşı assimilyasiya siyasəti yeridilirdi. İranda yaşayan azərbaycanlılar uzun müddət ən adi insan hüquqlarından, ana dilində təhsil almaq və kitab nəşr etmək, rəsmi yerlərdə ana dilində danışmaqdan məhrum idilər.

Ana dilində yazıb yaradan ziyalıların əsərləri işıq üzü görmür, sandıqların küncündə rəngi saralan əlyazmalara çevrilirdi. O illərdə gizlicə, çətinliklər bahasına çap olunan kitabların, adətən, nəşr tarixi və yeri göstərilmirdi. Sahirin əsərlərinin əksəriyyəti gizli çap olunmuşdu.

Onun yaradıcılığına xas olan xüsusiyyətlərdən biri doğma dilinə üstünlük verməsi idi. Əsərlərinin geniş oxucu kütləsinin arasında yayılması Sahirin şeirlərinin anlaşıqlı bir dildə yazılması ilə bağlı idi. Dili sadələşdirməyə, xəlqiləşdirməyə xüsusi meyil göstərən Sahir xalq danışıq dilinin zənginliyindən məharətlə istifadə edirdi. Şairin nəzərində dil azadlığı – ana dilində yazıb-yaratmaq və oxumaq haqqı milli-mənəvi azadlığın ən vacibi, zərurisi və əhəmiyyətlisidir.

Ana dilini qorumaq bütövlükdə milli mövcudluğu qorumaq deməkdir. Uzun illər bu mövzu Sahirin yaradıcılığında daha çox təsvir və tərənnüm olunurdu. «Tərrihata çox inanma» şeirində Sahir soydaşlarına xitabən yazırdı:

***Bizim turki şirin dildir,***
***Xoş sədalı zəngin dildir.***
***Dil günəşdir, işıq saçar,***
***Səadətə qapı açar.***
***Yadın dili: «boyunduruq»!***
***Bir keçiddir: buruq-buruq...***

Sahirin Təbrizdə yaşadığı 1941-1946-cı illər yaradıcılığının ən parlaq və məhsuldar dövru hesab oluna bilər.

1941-ci ildə Sovet nümayəndə heyətinin tərkibində Təbrizə gələn azərbaycanlı ziyalılar Cənubi Azərbaycanın mədəni-ictimai həyatında yaranmış intibahın gücləndirilməsində mühüm rol oynamışlar. İllər boyu Cənubda və Şimalda yasaq mövzuya çevrilmiş Azərbaycanın parçalanması artıq şeirdə milli dərd, ağrı kimi ifadəsini tapır, milli birlik, vətənpərvərlik təbliğ olunur, «Vətən yolunda» və başqa mətbu orqanlarda Azərbaycan mədəniyyəti, tarixi, dili, ədəbiyyatı ilə bağlı yazılar, elmi-publisistik məqalələr dərc olunur, bir sözlə, uzun müddət soykökündən və mənəvi irsindən uzaq düşmüş azərbaycanlılar öz tarixi yaddaşına qovuşur, ulu keçmişi ilə qürur hissi keçirməyə imkan tapır. XX əsrdə ədəbiyyatımızda azadlıq, bir-

lik, milli həsrət simvoluna çevrilmiş «Araz» mövzusunun bütövləşməsi o illərdə baş vermişdir.

Şimali Azərbaycandan gələn ziyalılar Təbriz ədəbi-mədəni mühitində böyük dəyişikliklər yaradır, istedadlı gəncləri üzə çıxarır, rəhbərlik etdikləri dərnəklərdə sənətlə bağlı söhbətlər apararaq, onları bütün sahələrdə, o cümlədən ədəbi sahədə maarifləndirirdilər. Cəfər Xəndan və Osman Sarıvəlli belə gənc şairlərdən birinin – Sahirin şeirlərini bəyənib onu yazıb yaratmağa həvəsləndirmişdilər. O vaxtdan başlayaraq Sahirin şeirləri, tərcümələri və məqalələri Cənubi və Şimali Azərbaycanda «Azərbaycan», «Vətən yolunda», «Şəfəq», «Azad millət», «Yeni Şərq» kimi qəzet və jurnalların səhifələrində özünə yer tapır.

Sahirin şeirlərini ilk dəfə təhlilə cəlb edən Hüseyn Mehdi «Azərbaycan» dərgisinin 1946-ci il, 11-12-ci sayında onun yaradıcılığına həsr etdiyi məqaləsində şairin hadisələrə olduqca səmimi və həyəcanlı münasibət göstərməsini xüsusi vurğulayırdı.

Sahir Təbrizdə yaşadığı illərdə bir-birinin ardınca «Şaqaiq», «Sayəha» («Kölgələr»), «Əfsaneye-şəb» («Gecə əfsanəsi»), «Huşəha» («Budaqlar»), «Əsatir» («Miflər»), «Seçilmiş şeirlər» adlı farsca kitablarının nəşrinə nail olur.

Cənubi Azərbaycanda 21 Azər hərəkatının qələbəsi və Azərbaycan Milli Hökumətinin qurulması Sahirin yaradıcılığının ictimai-siyasi məzmununa ciddi təsir göstərir. Müəllimliklə məşğul olan 43 yaşlı Sahir də Azərbaycan türkcəsilə şeir və hekayələr yazmağa başlayır. Ölkədə aparılan misli görünməmiş mütərəqqi islahatlar onda böyük ruh yüksəkliyi yaradır. Milli azadlıq şairin şeirlərində patetika, tərənnümçülük ön plana keçir. Bu isə onun vətənpərvərliyindən, milli-mənəvi intibaha vurğunluğundan, bütün bunların gələcək üçün taleyüklü problemlər olduğuna inamından irəli gəlirdi. Amma bunlar gəlişigözəl sözlər deyildi, arzusu, idealı, amalı gerçək milli müstəqilliyə qovuşmaq olan Milli Hökumətin xalq üçün faydalı işlərinin ilk sevinci idi.

Sahir Milli Hökuməti öz şeirləri ilə salamlayırdı:

***Azər ayı qonub yurda,***
***Qızıl günəş doğur səhər.***
***Qurtuluşdan, azadlıqdan***
***Səba yeni verdi xəbər.***

Cənubi Azərbaycan Milli Hökuməti məhv edildikdən sonra bir çox açıq fikirli ziyalılar kimi Sahir də öz yurdundan sürgün edilmiş, acınacaqlı şəraitdə yaşamağa məcbur olmuşdu. Lakin nə təqib, nə sürgünlük həyati onu əqidəsindən döndərə bilməmişdi. Sahir eldən-obadan uzaqlarda nəzarət altında yaşadığı vaxtlarda, xalqının və özünün gördüklərini təsvir edir, öz etirazını bildirməkdən çəkinmirdi. Milli Hökumət dövründə yazdığı şeirlərdə Sahir sevincdən və nikbinlikdən danışırdısa, irtica mərhələsində itirdiklərindən danışır, azadlığı tərənnüm edir. Doğma dildə yazıb yaratmağın sevincini qələmə alan şair bu gün farsca danışmaq məcburiyyətinin faciəsini ifadə edir:

***Anlatdılar***
***Get məktəbə, uşaq oxut.***
***Dərsdən sonra dön evinə,***
***Xoşdur daxma!...***
***Qaranlığa qərq oluban***
***Parlaq qızıl günə baxma.***

*Yada qul ol;*
*Dərdə alış.*
*Farsca danış.*
*Əsirliyi, dərvişliyi təlqin eylə*
*Uşaqlara.*

Sahir dəfələrlə sürgün edilməsinə baxmayaraq, təzyiqlərə, təqiblərə boyun əymədi, hədə-qorxulardan çəkinmədi, xalqın azadlığı uğrunda mübarizədən yorulmadı və geri çəkilmədi, şeirləri əldən-ələ gəzib xalqa mübarizə ruhu aşıladı.

Tanınmış türkoloq-alim və şair Həmid Nitqi Həbib Sahiri eşq, yurd sevgisi və həsrət nəğmələrini dilə gətirib bütün gözəllikləri ilə tərənnüm edən şair adlandırırdı. H.Sahirin yaradıcılığını izlərkən onun uzaqgörənliklə söylədiklərinin bir daha şahidi oluruq. H.Sahirin «Əsir ellərin şairiyəm» adlı şeiri diktaturaya, istibdada qarşı yönəlmiş açıq üsyan idi:

*Binəhayət bu göyün altında*
*Bizə bir qübbeyi-füruzə də yox.*
*Yanar əflakda minlərlə çıraq,*
*Bizə bir şam, bir avizə də yox.*

Həbib Sahir, nəhayət, 1946-cı ildə 43 yaşında ikən evlənmək qərarına gəlir və ağır sürgün həyatını yalqız deyil, ömür-gün yoldaşı Nüsrətül-mülk Nuri xanımla birgə yaşayır.

Sahir Süleyman Rüstəmə xitabən irtica qüvvələri tərəfindən xalqın başına açılan müsibətlərdən yazırdı:

*Bu tayda bir çox yurdlar,*
*Yıxılmış sönmüş ocaq.*
*Odlanmış yürüşlərdə,*
*Kitablar qalaq-qalaq.*

Xalqının dərdini, acısını çəkən şair məğlubiyyətdən sarsılmır, qələmi ilə xalqını gələcəyə ruhlandıran şeirlər yazırdı:

*Yenə günəş işıq salar sulara,*
*Buğda bitər, gələr ağaclar bara,*
*Qara günün ömrü «baba», az olar,*
*Zülmün odu sönüb, gülü tez solar.*

Məlumdur ki, şah üsul-idarəsi Cənubi Azərbaycanın iqtisadi və mədəni inkişafına maneçilik törədirdi, buna görə də bu diyarın kənd və şəhərlərində işsizlik artır, azərbaycanlılar iş tapmaq ümidilə cənuba, mərkəzə, xüsusilə Tehrana tərəf axıb gedirdi. Bunu görən və içdən yanıb-yaxılan şair son dərəcə mühüm siyasi məsələyə toxunaraq yazırdı:

*Gəl köçmə Vətəndən,*
*Yada bel bağlama, qardaş.*
*Dövran belə getməz,*
*Qalmaz daş üzərə daş.*

Başqa poetik bir parçada o, İranın uzaq tarixinə nəzər salıb, onu idarə edən türk-soylu sülalələrin, İranın müdafiəsi üçün canından belə keçən azərbaycanlı oğulların xidmətlərini xatırlayır:

***Türk şahları olmasaydı,***
***Daş daş üstə qalmaz idi.***
***İran adlı məmləkəti***
***Tarix yada salmaz idi.***

Həbib Sahir çoxsahəli yaradıcılıqla məşğul olurdu. Fransız, rus, ərəb dillərinə yaxşı bələd idi. O, Bodlerdən, Lemartedən, M.Lermontovdan, M.Qorkidən və digər dünya şairlərindən dilimizə bir sıra əsərlər çevirmişdi. Bunlarla yanaşı, onun fransızca şeirlər, ərəb dilində kiçik hekayələr yazdığı da məlumdur. Sahirin İstanbul ləhcəsi ilə yazılmış çoxlu gözəl şeirləri mövcuddur. Klassik fars şairləri Sədi, Hafiz və Xəyyamın əsərlərinin Azərbaycan dilinə tərcüməsi də Sahirin qələminə məxsusdur.

Dünya ədəbiyyatına yaxından bələd olan Sahir poeziyada işlənən bir çox üslub və vəznlərdən bəhrələnmiş, gözəl poetik nümunələr yarada bilmişdir. Cənubi Azərbaycanın Hüseyn Düzgün, Alov, Həsən İldırım kimi tanınmış ziyalıları Azərbaycan dilində sərbəst şeirin nümunələrinin Tağı Rüfətdən sonra yaradılmasını Həbib Sahirin adı ilə bağlayırlar. Bu fikirlə razılaşmamaq mümkün deyil. Çünki Güney poeziyasında sərbəst şeirə ilk dəfə Həbib Sahir rəsmi status verməklə onun daha da təkmilləşməsinə, inkişafına imkan yaratmışdır. Ötən əsrin 60-cı illərində Cənubi Azərbaycanın görkəmli nasiri, gözəl pedaqoq Səməd Behrəngi yazırdı: «Cənubi Azərbaycanda çoxları heca vəznində şeir yazsalar da, dövrün pisliyi üzündən tanınmamışlar, şeirləri ilə birlikdə özləri də gizli qalmışlar. Buna misal olaraq «Kövşən» divanının müəllifini göstərmək olar». Sözsüz ki, ədib burada «Kövşən» şeirlər kitabını və onun müəllifi Həbib Sahiri nəzərdə tutmuşdur.

Sahir şeir yazmağa əruz vəzni ilə başlasa da, sonralar heca vəzninə üstünlük verdi. Şair özü bu barədə yazırdı: «Şübhəsiz türk şeirinin vəzni heca vəznidir. Bu vəzndə söz və kəlmələr öz təbii ahəngindən və qəlibindən məcburi çıxarılmır. Bu günə qədər bizim azərbaycanlı türklərimiz (osmanlıları demirəm) istər klassik, istər cağdaş dövrdə türkcə şeir yazsalar da, qafiyələri farsca olub, fars ləhcəsinə uyğunlaşdırılıb. Bu bizə yaraşan bir şey deyil. Amma mənimlə yanaşı, bir neçə gənc şairlər təmiz türk dili və ahəngi ilə əruz vəznində şeir yazmağa müvəffəq olmuşuq. Bu da ki, çox diqqət və zəhmət istəyir. Osmanlı türklərindən Yəhya Kəmal, Əhməd Haşımın əruz vəznində yazdıqları şeirlər heç az da olsa fars şeirinə bənzəmir».

1978-1979-cu illər İran inqilabından sonra Tehranda Azərbaycan Yazıçılar Birliyinə başçılıq edən, təcrübəli sənətkar kimi Sahir yazıçı və şairlərə xalq üçün və xalqın anladığı qədər sadə yazmağı tövsiyə edirdi. Özü də həmişə bu yolu tuturdu. Heca vəzninə üstünlük verən şair, sərbəst şeirə çox tələbkarlıqla yanaşırdı.

Zəngin təxəyyülə, həssas qəlbə, incə duyum və zövqə malik bəzi şairlər əsərlərində rəssam və bəstəkarlara məxsus mənalandırmadan bəhrələnirlər. Görkəmli yazıçı Gəncəli Səbahi Həbib Sahiri gözəl təbiət tablosu yaradan rəssama bənzədirdi. Bununla yanaşı, onun şeirlərində ahəngdarlıq, musiqililik, axıcılıq da diqqəti çəkir:

***İncə, ipək qanadların açaraq***
***Meşəlikdə gizli-gizli yel əsir.***

Şair şeirlərində fikirlərini yığcam, lakonik və bəzən də epik növə xas olan vasitələrlə ifadə edə bilirdi. Bəlkə, elə bu cəhət onu nəsrdə də qələmini sınamağa

sövq etmişdi. Sahirin əsərlərinin tədqiqatçısı Vəfa Əliyev onun çap olunmamış bir neçə hekayəsini üzə çıxarmışdı.

Şairin payıza həsr etdiyi aşağıdakı poetik parça isə bəlkə də şeirdən çox rəsm əsərini – "Payız tablosunu" xatırladır:

***Xəzan çağı***
***Qızıl günəş odlanıbdır.***
***Ağacların yarpaqları***
***Min bir rəngə boyanıbdır.***
***Hər yarpağın bir rəngi var;***
***Sevgi rəngi,***
***Həsrət rəngi,***
***Tutqun, tozlu qürbət rəngi***
***Xəzan çağı yel əsərkən,***
***Yağır yarpaq,***
***Ölgün yarpaq***
***Talanıbdır qalaq-qalaq.***

Əli Yavuz Akpınar Həbib Sahir lirikasıyla türk şairi Əhməd Haşimin lirikası arasında bir çox oxşarlıqları qeyd edib yazır: «Həbib Sahirin şeirlərində hakim rəng olaraq, eyni ilə Haşimdə olduğu kimi qırmızını görürük. Onların hər ikisi təbiət mənzərələrinin ifadəsində bu rəngə siyasi-ictimai bir məna qazandırırlar. Şah rejiminin zülmünü, İranın qana bulanmasını bu rənglə anlatmağa çalışır».

Ötən əsrin 70-ci illərində sərhədlər bağlı olanda tanınmış şərqşünas alim Rüstəm Əliyev hər iki tayın ziyalıları arasında canlı körpü idi. Sahir Rüstəm Əliyevi bir şeirdə «təzə söz və təranə gətirən xoş müjdəçi» adlandırıb ithaf etdiyi şeirdə onunla dərdlərini bölüşürdü:

***İşıq ilə yazılmış qoşma,***
***Göz yaşıyla suvarılmış məktub.***
***Sən qoşuldun hünərin karvanına,***
***Qulaq asdın da elin dastanına.***

Görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadə həmin illərdə «Rüstəm körpüsü» ilə ona bir şeir yollayır. Sahirin «Binəhayət bu göyün altında bizə bir qübbeyi-firuzə də yox» misrası ilə başlayan şeirinin təsiri ilə B.Vahabzadə Sahirə «Şeirinin səhərinə Sahir, yazırsan mahir, mahir!» misrası ilə başlayan bir şeir həsr edir.

Qeyd etmək lazımdır ki, Sahir açıq siyasətlə məşğul olmamış, yalnız öz şeirləri ilə xalqa əhəmiyyətli xidmət göstərmişdir. Sahirin təbiət və sevgi lirikası nə qədər romantik idisə, onun sosial-ictimai mövzulu əsərləri bir o qədər realist mahiyyət daşıyırdı.

Həbib Sahir bir realist şair kimi dövrün, cəmiyyətin aktual problemlərini, ağrı-acılarını ürək yanğısı ilə təsvir etmişdir. Onun şeirlərini Cənubi Azərbaycanın XX əsrdə apardığı mübarizənin, çəkdiyi iztirabların, faciələrin bədii salnaməsi adlandırmaq olar.

*Vaqif YUSİFLİ*



# BAHAR YAĞIŞI KİMİ...

## *Son illərin poeziyası ilə bağlı bəzi qeydlər*

Son illərin poeziya mənzərəsi haqqında müəyyən təsəvvür yaratmaq üçün biz müxtəlif ədəbi nəsillərin yaradıcılığını əks etdirən şeir kitabları ilə tanış olduq, «Azərbaycan», «Ulduz» jurnallarını, «Ədəbiyyat qəzeti»ni vərəqlədik, «Ədalət», «525-ci qəzet»lərdə ədəbiyyat səhifələrinə diqqət yetirdik. Bizdə ümumi təəssürat belə oldu ki, doğrudan da əsl poeziya nümunələri ilə qarşılaşırıq. Amma bunun əksinə, bəsit və qrafoman ruhlu, aşağı səviyyəli nəzm nümunələri də həddindən artıq çoxdur. Sözümüzü, gileyimizi, narahatlığımızı bəri başdan söyləyək ki, sonraya saxlamayaq. Özümüzə təsəlli verib deyirik ki, eybi yox, elə Füzuli dövründə də zəif və ortabab şeirlər bol idi, elə Mirzə Ələkbər Sabir dövründə də bu cür şeirlər yazılırdı, dərc olunurdu. Əlbəttə, şairlik adında vəzifə yoxdu, kim istəsə şeir yaza bilər, amma hər kəsə ŞAİR demək mümkün deyil. «Şairlik» az qala bir xəstəliyə çevrilir. Vaxtilə, bir məqaləmizdə biz bu barədə söhbət açıb Fikrət Sadığın məşhur şeirindən misal da gətirmişdik:

***Mən sayım, sən sadala,***
***Gör kimlər şeir yazır.***
***Mühəndislər, polislər,***
***Həkimlər şeir yazır.***
***Deputatlar, vəkillər,***
***Hakimlər şeir yazır.***
***Uşaq bağçasında ta***
***Ali məktəbə qədər,***
***Şeir yazır uşaqlar,***
***Şagirdlər, tələbələr.***
***Elmdən yorulanda***
***Alim də şeir yazır.***
***Qanı qara olanda***
***Müəllim də şeir yazır.***
***Şeir yazır hacılar,***
***Məşədilər, mollalar.***

***Evin tikilsin millət,***
***Bu qədər şair olar?***
***Adlayıb bəmdən zilə,***
***Şeir yazır naz ilə,***
***Yalançı bəstəçilər,***
***Yalançı müğənnilər.***

Elza Seyidcahan yalançı bəstəçi deyil, yalançı müğənni də deyil, bəstəkarlığı da, müğənniliyi də bəyənimlidir, – deyirik. Amma görəsən onu «şeir» yazmağa nə vadar edib? Baxın onun bir «şeir»inə:

***Pişiyim***
***Qara deşiyim***
***Evim-eşiyim.***
***Öldünmü sən?***
***Yatdınmı sən?***
***Bəlkə... içinə***
***Batdınmı sən?***

Azərbaycanda şeiri belə biabırçı həddə çatdıranların sayı-hesabı varmı? Amma gəlin, mətləbdən uzaqlaşmayaq. Çağdaş poeziyamızın uğurlarından, onun ictimai, mənəvi həyatımızda rolundan söz açaq və əsasən son illərin poeziya mənzərəsi haqqında müəyyən təsəvvür yaradaq. Şeirimizdə adlar, ünvanlar çoxdur və bu yazıda hər bir şairin yaradıcılığından söz açmaq mümkün deyil. Amma mümkün olan odur ki, ayrı-ayrı problemlərin, sənətkarlıq məsələlərinin poeziyada necə əks olunduğuna diqqət yetirmək olar. Müasir Azərbaycan poeziyasının son illərdəki mənzərəsini çox sayda şairlərin yaradıcılığına müraciət etmədən, yalnız məhdud sayda şairin şeirlərinə istinad etmək yolunu seçirik.

İkimininci illərdə müasir poeziyamızın avanqardları sayılan Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Məmməd Araz, Fikrət Qoca, Vaqif Səmədoğlu, Fikrət Sadıq, Musa Yaqub, Ələkbər Salahzadə, Məstan Günər, Camal Yusifzadə, Abbas Abdulla, Nüsrət Kəsəmənli, Məmməd Aslan, Zəlimxan Yaqub vəfat etdilər. Onların hər biri Azərbaycan poeziyasında əbədi iz saldılar və Fikrət Qocanın Səməd Vurğuna həsr etdiyi şeirindən iki mtisra yerinə düşür bu məqamda: «Şair nəğmə kimi gəlir cahana, Nəğmə ölümünə mən inanmıram». Amma Azərbaycan poeziyası üçün qocalıq qorxusu yoxdur və şeirimizin ağsaqqalları – Nəriman Həsənzadə, Məmməd İsmayıl, Eyvaz Borçalı və artıq bu səlahiyyətə malik olan Sabir Rüstəmxanlı, Ramiz Rövşən, Çingiz Əlioğlu, Ağasəfa, Əşrəf Veysəlli yaşca qocalsalar da, şeirlərində inkişafdan geriləmə yoxdur. Ramiz Rövşən yenə bütün nəsillərdən olan oxucuların sevimli şairidir və hər dəfə yeni şeirləri ilə Ramizrövşənliyini təsdiq edir. Məmməd İsmayıl və Sabir Rüstəmxanlı haqqında da «ustadi-əzəm» kəlməsini işlədirik. Ancaq iki şair haqqında qısaca da olsa, söz demək tstərdik.

Heç şübhəsiz, burada Nəriman Həsənzadənin adını birinci çəkməliyik. «Şeir yazdığım gün məğrur oluram, dünya dünyada yox, məndə əks olur» deyən Nəriman Həsənzadə 94 yaşında da o öz mənəvi dünyasından ayrıla bilmir. Biz onun əlli il, altmış il, yetmiş il bundan öncə yazdığı şeirlərlə indi yazdığı şeirlər arasında demək olar ki, ciddi bir ayrıntı görmədik. Nə üslub dəyişib, nə şeirlərindəki o səmimiyyət, nə də əsl şeirə məxsus obrazlı ifadə tərzi. Dəyişilən ancaq mövzular olur. Onun

«Gəncə çayı, Araz çayı, Kür çayı» adlı lirik bir poeması şair Sərvaz Hüseynoğlunun Gəncə səfərində Nəriman Həsənzadəni anmasından sonra qələmə alınıb.

***Eşitdim, Gəncədə anıbsan məni,***
***Gəncə çayı kimi axdım elə bil.***
***Yellər gətirmişdi meh nəfəsini,***
***Göygöldən, Kəpəzdən qalxdım elə bil.***

***Nələr deyəcəyəm, bilmirəm hələ,***
***Sərvaz, unudulmaz gördüklərimiz.***
***Zahirdə nə qədər dəyişsək belə,***
***Daxildə – o qədər yenə bizik, biz!***

***Anam sağ olaydı kaş bu yaşımda,***
***yüyürüb üstünə qucaqlayaydım.***
***Dizinə baş qoyub yataydım, amma***
***sonra da, doyunca bir ağlayaydım.***

***Təzədən gələydim mən bu dünyaya,***
***gələydi dünyanın təzəsi bir də.***
***Bakıdan zəng vurub Vağzal Poyluya,***
***Ana! – çağıraydım o səsi bir də.***

Nəriman Həsənzadəyə – onun poeziya aləminə məxsus bir xüsusiyyət – həzinlik, kövrək hisslər, keçmişi – ötən günləri sanki bu gündə yaşayır hissi onu tərk etmir.

Başqa bir qocaman şair – 84 yaşlı Əşrəf Veysəllinin şeirləri də belə həqiqəti sübut edir ki, doğrudan da ŞAİR qocalmır. Əşrəf Veysəlli «altmışıncılar» cərgəsində o qədər də məşhur olmayıb, yaradıcılığına həsr olunan resenziyaların, məqalələrin sayı da çox deyil. Amma Əşrəf Veysəlli bəlkə çoxlarımızın görmədiyində müasir poeziyamızın incilərini yaradır. Bu, o Əşrəf Veysəllidir ki, Qarabağ həsrətini qınağa çevirirdi:

***Anam bəd gətirdi, ilim nəs oldu,***
***Bu dərd ömrüm boyu mənə bəs oldu.***
***Bir yandan «Ərgünəş» görünməz oldu,***
***O yandan «Topxana» meşəsi getdi.***

Şuşa indi əlimizdədir və Əşrəf Veysəllinin yeni şeirlərində onun Şuşalı günləri xatirə deyil. Yeri gəlmişkən, son illərdə Şuşa ilə bağlı yüzlərlə şeirlər yazılıb, demək olar ki, poeziyada bir «Şuşanamə» yaranmaqdadır. Fikrimizcə, Vaqif Bəhmənlinin Şuşa ilində yazdığı «Bağışla məni, əsgər…» şeiri bir nəslin etirafı kimi səslənir:

***Otuz il bundan öncə tarana getməliydim***
***keşikçi durmalıydım Daşaltının qaşında.***
***Qoca-qaltak yaşımda mən ölüb-itməliydim,***
***niyə sən öldün axı, cavan-cahil yaşında? –***
***Bağışla məni əsgər,***
***əsgər, məni bağışla!***

Elçin İsgəndərzadənin Şuşalı şeirləri isə Şuşanı poeziyada Obraza çevirmək mənasında uğurlu bir addımdır. Yazdığı şeirləri Elçin İsgəndərzadə «Mənim Şuşa

dastanım» adlandırır. Hər bir dastanda sevinc də var, qəm də, kədər də və hər bir dastanın sonu sevgililərin xoşbəxtliyilə başa çatır. Elçin İsgəndərzadənin «dastanında» da bu gedişata yalnız «duvaqqapma» istisna olunmaqla əməl edilib... Ancaq «Mənim Şuşa dastanım»da eposa məxsus çoxlu mənfi-müsbət obrazlarla qarşılaşmırıq. Bu «dastan»da Elçinin – Şuşada doğulmuş bir şairin özü var, bir də həsrətini çəkdiyi doğma şəhər, şəhid evlər, Şuşadan əsən küləklər, yağışlar var..

Zahid Xəlilin «Şuşa şeirləri», Xanım İsmayılqızının «Şuşa təsnifi», Elnur Uğurun «Şuşaya gedən yollar», Əflatun Baxşəliyevin «Qarabağ Azərbaycandır» şeirlər kitabındakı Şuşaya həsr olunan şeirlər, Tofiq Nurəlinin, Əbülfət Mədətoğlunun şeirləri, Gəray Göyyurdun «Şuşanamə»si, Rəşid Faxralının şeir və poemaları, Elxan Yurdoğlunun şeirləri, Teymur Kərimlinin «Şuşanaməsi»ndə Şuşanın tərənnümü Azərbaycanın dəyərlərinin tərənnümü kimi nəzərə çarpır. Mən burada Aprel döyüşlərinin və II Qarabağ müharibəsinin iştirakçıları olan qazi şairlərin «Barıt qoxulu sətirlər» kitabında toplanan şeirlərini də xatırlatmaq istəyirəm. Həmin kitabda 15 cavan qazi şairin müharibə, savaş duyğuları öz əksini tapıb. Emin Piri, Həsən Kür, Elvin İntiqamoğlu, Səbuhi Qurbanov, Oğuz Alparslan – ümumən bütün qazi şairlər odun-alovun içində, hətta ölümlə üzbəüz qaldıqları anda da Qələbəni və Vətəni düşünmüşlər.

***Salam, vətən, necəsən?***
***Şəhidlərin necədir?***
***Onlara söylə ki, darıxmasınlar.***
***Qisasımız qiyamətə qalmadı.***
***Sancıldı zirvəyə***
***Azərbaycan bayrağı!***

*(Oğuz Alparslan)*

Biz müasir şeirimiz haqqında heç də bədbin təsəvvürdə deyilik. Azərbaycanda ən azı əlli şairin adını çəkərik ki, müasir poeziyamızda onların hər biri tanınır, oxunur və təbliğ olunurlar. Deyək ki, poetik üslubları ilə də seçilirlər. Bu nikbinlik şeirimizin müasir səviyyəsinin yetkinliyindənmi doğur? Əlbəttə, söhbət düzü-dünyanı bürümüş şeir horralarından getmir, əsl poeziyadan gedir.

***Gəzirəm Təbrizin küçələrini,***
***Gəzirəm qolbaqol,***
***dolanbadolan.***
***Çəkirəm gözümə gecələrini***
***Təbriz pıçıldayır, –***
***xoş gəlib balam...***

Bu şeirin müəllifi Ramiz Qusarçaylıdır və xatırladaq ki, o, «Vətən» poetik epopeyasının müəllifidir, Azərbaycanın neçə əsrlik tarixini, bu yolda qələbələrini, bölünmələrini, parçalanmalarını, azadlıq uğrunda mübarizələrini, müstəqillik əldə edənə qədər keçirdiyi ağrıları, həyəcanları, itkiləri, uğurları bu poetik epopeya qədər son illərdə heç bir əsərdə görmədik. Ramiz Qusarçaylı şeirimizdə heca vəzninin bütün bölgülərindən faydalanır, əgər bu vəznin poeziyamızda müasir mərhələdə yerini, tutumunu izləmək istəyirsinizsə, onda Ramiz Qusarçaylının şeirlərinə nəzər yetirmək kifayətdir. Təkcə onun yox, son illərdə şeirləri ilə tez-tez rastlaşdığımız və heca vəzninin poetik özəlliklərini özündə əks etdirən bir neçə şairin

də adını çəkə bilərik. Firuzə Məmmədlinin, Əşrəf Veysəllinin, Musa Ələkbərlinin, Ağacəfər Həsənlinin, İbrahim İlyaslının, Aybəniz Əliyarın, Əlizadə Nurinin, İslam Sadığın, Əli Rza Xələflinin, Arif Fərzəlinin, Sakit İlkinin, Ramiz Kərəmin, Süleyman Əlisanın, Anar Həbiboğlunun, Rafiq Yusifoğlunun, Əli Nəcəfxanlının, İsmayıl İmanzadənin, İlham Qəhrəmanın, Ağamir Cavadın hecalı şeirləri bu vəznin yaxşı mənada göstəriciləri hesab oluna bilər. Bu şairlərin hər birinin şeirləri barədə söz açmaq olar, amma biz bir vaxtlar Laçın həsrətilə göynəyən, şeirlərindəki kədəri Obraza çevirən İlham Qəhrəmanın bir şeirindən misal gətirək:

***Tanrı möhlət verə, qismətim ola,***
***Qayıdam yenə də çıxam dağlara.***
***Əllərimi qoyub qaşımın üstdə,***
***Bir ürək dolusu baxam dağlara.***

Əlbəttə, istər heca şeiri olsun, istər sərbəst şeir, istərsə də əruz... Nazim Hikmət demişkən: təki ortada ŞEİR olsun.

Sərbəst şeirin meydanı isə heç də daralmayıb. Daha cavan şairlər: Emin Pirinin, Zərdüşt Şəfinin, Aqşin Evrənin, Fərid Hüseynin, Günay Ümidin, Könül Arifin, Mirbəhram Əzimbəylinin, Ramil Əhmədin, Orxan Səffarinin, Sevinc Elsevərin, Seymur Sunun, Feyziyyənin, Şəhriyar del Geraninin, Ulucay Akifin, Eminqueyin, Alik Əlioğlunun, Nicat Məmmədovun, Rəbiqə Nazimqızının, Elvin İntiqamoğlunun, Fuad Novruzlunun, Xatirə Nurgülün sərbəst şeirləri isə yeni bir üslubi çalardan söz açmağa imkan verir. Bu haqda geniş söz açmaq olar, amma qısaca onu vurğulaya bilərik ki, adlarını çəkdiyim bu şairlər ilk növbədə düşüncə tərzinin özünəməxsusluğu ilə seçilirlər. Nədir bu özünəməxsusluq? Bəlkə yeni əsrin ab-havası, dünyamızın mürəkkəb, xaotik mənzərəsi? Bəlkə poeziyada ənənəvi, hətta daşlaşmış kanonları dağıdıb parçalamaq həvəsi? Bəlkə dünya şeirində yaranan yeni meyil və tendensiyalara qoşulmaq istəyi? Əlbəttə, bu «bəlkələrin» sayını yenə artırmaq olar. Amma bu «bəlkələrlə» deyil, onların hamısının yaradıcılığına aid edilə biləcək bir məqamı qeyd edək: Azərbaycan poeziyasının bu yeni nəsli bəzi istisnalar nəzərə alınmazsa, aparıcı missiyanı ifadə etməyə layiqdirlər. Hərçənd ki:

1.Onların şeirlərində dünyaya baxış bucağı əksər hallarda subyektiv hisslər burulğanından uzağa getmir.

2. Onlar sərbəst şeirlərində ritmə, melodiyaya o qədər də meyil eləmirlər, halbuki, hər hansı sərbəst şeir üçün bu iki komponent vacibdir.

3. Şeiri az qala danışıq ritminə kökləyirlər.

4. Darıxırlar bu şairlər, bəzən tənhalıqdan intihar həddinə də gəlib çıxırlar (bu fikir onların hamısına aid deyil)... Yaşamaq gözəldir, xanımlar, bəylər!

Amma onların şeirlərindəki təzə, hər hansı mövzuya tamam fərqli yanaşma və poetik ifadə yeniliyi görəndə hər şeyi unudursan. Eminquey adlı gənc şairin bir sərbəst şeirini misal gətirək: «Şəhid mənzərələri».

***Doğum günündə,***
***bayraqla bəzənmiş qırmızı tabutda***
***qızına hədiyyə gəldi şəhidim,***
***zavallı qız,***
***sanmışdı ki, atası gözlərini yumub***

***gizlənpaç oynayır,***
***«Ata, gözlərini aç,***
***oynamaq istəmirəm» …***

Sərbəst şeir, adından göründüyü kimi, şairə sərbəstlik verir. Əlbəttə, əruzda və hecada olduğu kimi, müəyyən bir fikrin ifadəsi burada əsas rol oynayır. Böyük şairimiz Rəsul Rza yazırdı ki: «Şeir yalnız vəzn ölçüsündən, cümlənin ahəngindən, qafiyələrin musiqisindən, bənzətmələr, mübaliğələr, təzadlar, eyhamlar və sairədən ibarət deyil, o, fikir, məna, fikrin poetikliyini, orijinallığını tələb edir». Burada «fikrin poetikliyi» ifadəsini də unutmayaq, yəni Müşfiq demişkən: «Qoxusuz lalədir mənasız şeir, Qanadsız bir quşdur xülyasız şeir».

Qəşəm Nəcəfzadə əsasən heca şairidir, amma onun sərbəst şeirləri get-gedə hecalı şeirlərini üstələməyə başlayır (fikrimiz mübahisəli görünsə də). Baxın:

***Ey şəhidlərin dəfnində nitq söyləyənlər,***
***Video çəkənlər,***
***Susun.***
***Ey şəhidlərin anasını danışdıranlar,***
***Xatirə söyləyənlər,***
***Dayanın.***
***Ey şəhidlərin yasına***
***Bir kisə qənd,***
***Bir kisə düyü***
***Gətirənlər,***
***Əlinizi saxlayın.***
***İmkan verin,***
***Göz yaşlarına qulaq asaq!***

Qəşəm Nəcəfzadənin şeirlərinin əksəriyyətində həm metaforalar, həm də təşbihlər onun bədii dilinin məcaziliyindən doğur. Dünyada elə bir şair tapmaq olmaz ki, təşbihdən, ya metaforadan istifadə etməsin. Və Azərbaycanda da həmçinin. Qəşəmin şeirlərində də yerinə düşən, bəzən qəbul etmədiyin, sənə qəribə gələn və bəzən də orijinal təsir bağışlayan təşbihlər, metaforalar diqqəti cəlb edir. Məsələn, «Məktub yazmaq kimidi zəmini suvarmaq, hərflər sünbüldü, sünbül torpağın barmaqlarıdı. Mən burdayam işarəsi» – burada həm tam və müfəssəl, həm də mükəmməl bənzətmələrdan istifadə olunub, daha çonra Qəşəm «Məktub yazmaq corab toxumaqdı», «Məktub yazmaq kənddə yaşayan sonbeşik qızdı» və s. təşbihlər yaradır. Məsələ oxucunu inandırmaqdır və ola bilsin ki, oxucu bənzəyənlə bənzədilən arasında bu əlaqəni tez qavrasın, ya qəribə gəlsin ona bu bənzətmələr... Biz Qəşəmin çoxdan yazdığı bir şeirinə müraciət etdik və o, yeni şeirlərində də bu bədii təsvir vasitəsindən istifadə edir. Məsələn, onun «Payızda» şeirində «Payız gələndə Sevgilər çiçəkləyir», «Yağış» şeirində «Gecə səhərəcən Yağdı yağışlar çiçəklər kimi», «Çərçivə» şeirində «Səni gözəl göstərən bilirsən nədi? Üşaqlar», «Uşaqlar sənin çərçivəyə salınmış şəklindi» təşbih və metaforaları orijinal təsir bağışlayır.

Ümumiyyətlə, XXI əsr Azərbaycan poeziyasının sənətkarlıq xüsusiyyətlərini araşdırarkən belə bir qənaətə gəlirik ki, yeni əsrin poeziyasını təşbihlər və

metaforalar poeziyası kimi səciyyələndirmək olar (mübahisəli olsa da). Hələlik bir şeir nümunəsindən misal gətirək. Ağacəfər Həsənlinin «İsrafçı payız yağışı» şeirindən:

***Yağış salıb payızı çənəsinin altına,***
***Qaranlığın ovcundan su içir təşnə yarpaq.***
***Ormanlar tamam düşüb tənəsinin altına,***
***Mövsümü yorğunluqdan qurtulur çeşmə, yamac.***

Vaqif Bəhmənlinin, Aydın Murovdağlınınn, Sahib İbrahimlinin, Rəfail Tağızadənn, Dəyanət Osmanlının, Səhərin, Süleyman Abdullanın, Gulnarə Cəmaləddinin şeirlərini oxuyanda biz heç fikirləşmədik ki, onların şeirlərində hansı bədii təsvir vasitələrindən istifadə olunub.

Poeziyamızla bağlı müzakirələrdə həmişə belə bir sual da meydana çıxır – şeirimizin lirik qəhrəmanı özünü necə ifadə edir? O (lirik qəhrəman), şeirimizin «baş qəhrəmanına» çevrilə bilirmi? Axı, istər nəsr əsəri olsun, istər dram əsərləri, istərsə də şeir, ədəbiyyatı qəhrəmansız təsəvvür etmək olarmı? Elə güman etməyin ki, biz sovet dönəmində olduğu kimi «müsbət qəhrəman» iddiasındayıq və onların «mənfi qəhrəmanlar» üzərində qələbəsini arzulayırıq. Yox, bu sosrealizmdən qalan məlum «hökm-fərma» konsepsiyası artıq dəfn olunmuşdur. Keçən əsrin 60-cı illərindən başlayaraq – elə Sistemin özündəcə tədricən ədəbiyyatda qəhrəman probleminə münasibət dəyişməyə başladı. (Bu haqda Elçinin «Sosializm realizmi bizə nə verdi» əsərini yüksək qiymətləndiririk). Ədəbi qəhrəman sxem üzrə yox, onun bütün müsbət və çatışmayan cəhətləri ilə nəsr əsərlərində təcəssüm etdi. Bəs poeziyada necə? Əslində, poeziyada bu proses çoxdan başlanıb. Şairlər lirik qəhrəmanının yönünü tərənnüm – vəsf lirikasından uzaqlaşdırıb reallığa, həyatda, gerçəklikdə baş verən və onları düşündürən tale yüklü məsələlərə ünvanladılar. Bunu müstəqillik illərinin poeziyasında daha aydın hiss etdik. Şeirin özü – məzmunu dəyişdiyi kimi, onun lirik qəhrəmanı da dəyişdi, yeniləşdi. Mətləbi uzatmayaq, şeirimizin yeni mərhələsində lirik qəhrəmanın çağdaş durumu ilə maraqlanaq.

Ən əvvəl onu qeyd edək ki, «lirik qəhrəman» ifadəsi ilə «lirik mən» arasında müəyyən fərqli xüsusiyyətlər olduğu məlum. Lirik qəhrəmanı biz daha çox obraz kimi qəbul edirik. Amma «lirik mən»də şair özünü ifadə edir. O, istər öz könül duyğularını izhar etsin, istərsə də gerçəklikdə, təbiətdə, dünyada, yaşadığı mühitdə hər hansı hadisəyə, obyektə münasibət bildirsin, öz daxili aləmini sərgiləyir. Beləliklə, «lirik mən» «lirik qəhrəman»ın missiyasını öz üzərinə götürmüş olur.

Firuzə Məmmədli qədər bəlkə də ikinci bir şair çətin tapıla ki, öz taleyindən, keçirdiyi acılı-şirinli həyat yolundan, yaşadığı gerçəklikdən söz aça, şeirində ÖZ OBRAZINI yarada. («Azərbaycan» jurnalının 2022, 6-cı sayına; 2023, 5-ci sayına; «Ədəbi ovqat», 2023, 10-cu sayına baxın). Firuzə xanım bu şeirlərinin əksəriyyətində ömrünün xəzan çağından söz açır.

***Bir az sevinc idi, xörəyə tökdüm,***
***Bir az mərhəmətdi, çörəyə çəkdim.***
***Bir ömür sevgidi, bağçamda əkdim,***
***Əkdim ki, yaşatsın fəsil ömrümü.***

Firuzə xanım ovqat şairidir. Şeir 2022-ci ildə qələmə alınıb, təbii ki, bu yaşda insan – o ki şair ola – öz taleyindən şikayətlənə də bilər, ya da əksinə... Amma on səkkiz il bundan qabaq Firuzə xanım tamam başqa bir ovqatda idi. Bir şeirində yazırdı:

***Yenə qəlbim***
***çiçək-çiçək***
***açıldı***
***gələn bahara.***
***Mənim***
***nə yaşımdır axı?!***
***Vur-tut –***
***Altmış altı!***

Həmin tarixdən on il əvvəl isə Firuzə Məmmədli həm özünün, həm də bizim poeziyanın ən gözəl sevgi şeirlərindən birini yazmış və o şeirdə Qəmə, Ayrılığa üsyan etmişdi:

***Ömrün soyuq bucağından***
***Ha boylanım, boyum çatmaz.***
***Canım sevgi, o göylərə***
***Bu sevginin göyü çatmaz.***

***Qəlbimdə bir mələk yaşar,***
***Sən biçimdə, mən biçimdə.***
***Canım sevgi, götür apar,***
***Qoyma qala qəm içində.***

* * *

XXI əsrdir və təbii ki, mənəvi dünyamızın hər sahəsində olduğu kimi, sevgidə, insanın bu ali münasibətində də dəyişmələr, «yeniləşmələr» baş verir. Əlbəttə, real həyatda nəzərə çarpan sevgisizlik halları, aldım-verdim və boşanmalar, əxlaqa, ailəyə zidd olan hadisələr hamımıza yaxşı tanışdır. Amma bu o demək deyil ki, həqiqi sevgi, füzuliyanə eşq sönüb gedir. Nə qədər ki, həyat var, milli-mənəvi dəyərlər var, Sevgi də var. «Bu sevgidir, mənim balam, ömürlərdən uzun sevgi» (Ramiz Rövşən). Sevgi elə bir hissdir ki, qocalmaq qorxusu ona yaddır və qocalmayan şair Ramiz Rövşən son şeirlərinin birində yazır ki:

***Yavaş-yavaş sevdim səni,***
***Hər gün bir az da sevdim.***
***Ən çox bu qış sevdim səni,***
***Qarda, ayazda sevdim.***

***Gör biz nə tez isinişdik,***
***Havalar soyuyanda.***
***Adamlar qalın geyinib,***
***Ağaclar soyunanda.***

Ramiz Rövşəni sırf sevgi şairi adlandırmaq doğru olmazdı, amma onun son illərdə qələmə aldığı bir neçə şeirində sevginin necə gözəl bir hiss olduğu incələnir. Bu şeirdə nə ayrılıq əzablarından üzülən bir qəlbin fəryadı duyulur, nə də ayrılıqdan sonra ürəyə axan qəm şəlalələri. Əlbəttə, ayrılıq da sevginin gözə görünən və gözə görünməyən məlum və bütün əsrlər boyu Azərbaycan şeirinin sevgi qütbünü «özününküləşdirən» hissdir, duyğudur. Əgər ayrılıqdan ölüm-itim, hətta intihar sədası gəlmirsə və bu ayrılıq yaşanılan sevginin təsdiqinə çevrilirsə, o zaman yaşasın belə ayrılıq.

Məsələn, gənc şairə Fərqanə Yusifqızı üçün ayrılığın adı «bir nöqtədir, ya da davamı gəlməyən şeir. Acıların mündəricatı, Bermud üçbucağında yox olmaq kimi bir şey. Səhralarda azıb qalan yolçunun son su ehtiyatı» və s. Bu sayaq təşbih sıralanmasında bəzən qarşılaşdırılan məfhumlar arasında – bənzəyənlə bənzədilən arasında heç bir əlaqənin olmaması nəzərə çarpır. Məsələn: «Yaz axşamının ən qısa yağışı», yaxud «Xəstənin tumba üstündəki yeyə bilmədiyi yemək». Gənc şairlərin ayrılığa, ümumiyyətlə, yaşadıqları sevginin olaylarına münasibəti çox zaman üst-üstə düşsə də, fərqli cəhətlər də diqqəti cəlb edir. Məsələn, Arzu Hüseyn ayrılığa bir ayrı cür məna verir: «Ayrılıq əlvida deyil, əslində, darıxmamaqdır. Ayrılıq inadın tükənincədir». O, ayrılıqdan doğan üzüntünü mənalandıra bilir:

***Keçər ömrümüzdən illər, fəsillər,***
***Dəyişər tanış da, dost da dəyişər.***
***Bütün ümidlərdən ümid kəsilər,***
***Yadına o qərib arzular düşər.***

***Deyərsən dönəydim o günə yenə,***
***Sözünü sovurar küləklər səhər.***
***Kim bilir, bəlkə də, sənin yerinə***
***Ağlayar buludlar, darıxar şəhər.***

Əlbəttə, insan həyatında, xüsusilə, onun sevgi aləmində üzüntülər, kədərli günlər, aylar, hətta illər ola bilər və əgər bu insan şairdirsə, o, bütün bunları şeirlərində ifadə edə bilər (çoxlu belə misallar gətirmək olar), amma sevgidə, ya da həyatının başqa müşkülündə özünü bədbəxt, şikəst, tamam talesiz kimi təqdim edəndə necə? Məsələn, lap cavan bir şairə – Qəmər Sozay yazır ki: «Bütün ümidlərin kökü kəsilib, Bütün ümidlərim məzar qoxuyur», «Ruhum asılıb göydən, Ölüm çağırır məni». Elnaz Eyvaz isə şeirlərinin birində uğursuz bir sevginin sonunu belə bitirir: «Öldüm, canın sağ olsun, qalan ömrümü Allah Sənə versin, getdim mən». Belə misalların sayını artırmıram, amma şeirdə bu kütləviləşməyə başlayan qatı pessimizmə nə deyəsən?

Məncə, Ramil Əhməd – «ikiminincilər»in istedadlı şairlərindən biri – özünün və yaşıdlarının sevgi hekayətlərini «Sevginin zamanı» adlı səkkiz misralıq bir şeirində belə ümumiləşdirib:

***Sevginin üç zamanı var:***
***darıxmaq, ayrılmaq və unutmaq.***
***Əslində,***

***özümüzü tanımaq üçün sevirik –***
***necə sevdiyimizi,***
***necə darıxdığımızı,***
***necə ayrıldığımızı,***
***necə unutduğumuzu bilmək üçün.***

Əlbəttə, gənc şairin bu fikri ilə mübahisə etmək və razılaşmamaq da olar. Amma gənc şairlərin sevgi şeirlərinin əksər qismi «darıxmaq, ayrılmaq, unutmaq» üçlüyünü əks etdirir və bu baxımdan sanki bir nəslin sevgi etirafını səsləndirir. Şəhriyar del Geraninin və Ruzbeh Məmmədin bir silsilə Darıxmaq şeirləri var. Bunu təbii qəbul edək. Mənəvi sıxıntılar, üzüntülər, daxildəki narahatlıq doğurur darıxmağı. Amma bu darıxmağın bir sonu da olmalıdır... İnsan kimin üçün darıxar? Qürbətdə olanda Vətən üçün darıxar… Arzularının həyata keçmədiyini görəndə də darıxar. Yaxın adamından, dostundan, sevgilisindən ötrü darıxmağı da təbiidir... Həyatında uğursuz anlar, bədbəxt hadisə baş verərsə, bir könül həmdəminə ehtiyac duyarsa, darıxar, üzülər. Bunlar insanın təbii yaşantılarıdır və zaman-zaman Azərbaycan şairlərinin şeirlərində də darıxmaq hissinin poetik çalarları ilə rastlaşmışıq.

Mərhum ədəbiyyatşünas Məsud Əlioğlunun belə bir kitabı var: «Darıxan adamlar». O kitabda Azərbaycan ədəbiyyatının klassiklərindən, onların yaradıcılığından söz açılır. Ümumən Azərbaycan ədəbiyyatının keçdiyi yolu (Nizamidən Cabbarlıya qədər) DARIXAN ADAMLARın həyat fəlsəfəsi, dünyaya baxışı kimi izah eləmək Məsud müəllimin metodoloji prinsipi idi. Bu kontekstdə darıxmaq öz adi, lokal mənasından sıyrılır, geniş bir məna kəsb edir, düşünmək, mövcud və real həyatla barışmamaq, gələcək haqqında xoş xəyallara dalmaq, daxili-mənəvi təkamül prosesi keçirmək yazıçıların təsvir etdiyi qəhrəmanların məramına çevrilmişdi. Bəlkə biz də 24 yaşlı bir gəncin – Ruzbeh Məmmədin – cavan bir şairin darıxmaq hissini də təbii qəbul edək və görək onun şeirlərinə səpələdiyi bu sıxıntı, bu narahatlıq haradan doğur, bütün bunlar niyə mənəvi işgəncəyə aparıb çıxarır? Axı, darıxmağın da bir sonu olmalıdır, insan bütün ömrü boyu sıxıntı içində yaşaya bilməz, həyatı ancaq darıxmaq haləsinə bürümək olmaz. Bu, bir insan ömrünün faciəsinə yol açar. Yox, əgər bu darıxmaq daha gözəl arzulara və işığa doğru can atmaqdırsa, onda darıxmağa dəyər.

***Uzaq düşəsən qəfil qohumundan, yadından,***
***Xəbər tutmaya kimsə olduğun ünvanından,***
***Qeybə çəkildiyini sənin öz qadınından***
***Bir başqa kəs duymaya, danışanın olmaya,***
***Öldürəsən özünü, qarışanın olmaya.***

Fikrimizcə, Ruzbehin həyat məramı adilikdən, cansıxıcı həyatdan bezən və bu yaşayış tərzini qəbul etmək zorunda olmayan bir insanın – yeniyetmə bir gəncin etirazlarından, «daha belə yaşamaq olmaz» düşüncəsindən doğur. Hər şeydən bezmək, sevgidən usandırıcı bir tərzdə yorulmaq, ya da imtina etmək həddinə gəlib çatmaq, «hər gün ölümün gözünün içinə dik baxmaq», amma «vaxtın yoxdur ölməyə» deyib intihar haqda da fikirləşmək… göründüyü kimi, bizim pessimist gəncin daxili dünyası bu cür əndişələrlə sıx-sıx ilgilidir. Doğrusu, lirik qəhrəmanın «yaşayımmı, ölümmü?» dilemması qarşısında bu təhər çabalamasını istəməzdik.

Gülnar Ümidin «Darıxır, yenə darıxır» şeirində darıxmağın «sərhədləri» genişlənir, lirik qəhrəmanın başı, köynəyində ilişib qalan teli, qulağı, xəyalı, addımları da darıxır. Nədir səbəb? Darıxmaq, fikrimizicə, tənhalıqdan doğur, insan öz içinə qapılır, təklikdə özünü daha artıq dərk edir. Vaqif Səmədoğlu Şəhriyar del Geraninin «Darıxmağın adı» şeirlər kitabı haqqında yazmışdı: «Şəhriyar Həbsxanaya düşüb azadlığını itirəndə də, həyata düşüb anasını itirəndə də onu ədəbiyyat qazanıb. Mənim qədər tənhalığı sevən bir adam onun darıxmağına qibtə edirəm. Ən əsası isə o, tənhalığını və darıxmağını ədəbiyyata çevirməyi bacarır». Şəhriyarın adını çəkdiyimiz həmin kitabında darıxmaqdan doğan tənhalıq bu misralarla ifadə olunur: «Uzun-uzadı zamanlardı özü də təkadamlı Siz bilməzsiz təkdamlıq səadətlər necə olur». Və bu «təkadamlıq səadətlər» içində Şəhriyar ana itkisindən söz açır:

***Sənə sarı dartılmaqda***
***tikə-tikə olmuşam.***
***küləkdən doğma nə var bu şəhərə***
***heç nə yoxdu şəhərə***
***qəbrinə də***
***yağır demə.***

Əlbəttə, hər şairin tənhalıqla bağlı öz düşüncələri olur və burada bizi maraqlandıran odur ki, indiyə qədər bu məfhum haqqında təzə nə deyilə bilər. Şahanə Müşfiq «Tənhalığın simfoniyası» şeirində rəssamdan xahiş edir, tənhalığın rəsmini çəksin və rəsmdə nələr görmək istəyir: «Tənhalıq qapı ağzındakı sənə aid bir cüt ayaqqabıdır... Tənhalıq danışmağa kimsəni tapmayanda... çay süzdüyün stəkanla söhbətindir. Tənhalıq Güzgülərə olan qorxundur» və s. Fuad Novruzlu isə tənhalığı öz dilində danışdırır: «Mən tənhalığam, Üfüqlər boyu uzandım, Ulduzlar qədər yüksəldim İblis tək lənətləndim» və s. Biz Günel Eyvazlının «Yuxumu xeyrə yozun» kitabına yazdığı «Tənhalıq, bilirsiniz nədir» ön sözü ilə də tanışıq və onun bu şeirlər kitabı doğrudan da bir qəlbin tənhalıq hisslərini gözəl ifadə edir.

**GƏNCLİK ÖMRÜ** – Elə düşünülməsin ki, bu gün cavan şairlərin sevgi şeirlərində çoxluq təşktil edən kədərli, pessimist duyğulardır. Və buna görə cavanları qətiyyən qınamaq fikrində olmayaq. Çünki sevgi şeirlərində hər kəs öz taleyindən və ürəyindən söz açır. Söhbətin məcrasını bu məhdud səmtdən uzaqlaşdıraq.

Ədəbiyyatda yeni bir nəsil formalaşır, yaşı iyirmi-otuz beş arasında dövrə vuran bu yeni nəslin sıraları əvvəlki onilliklərlə müqayisədə çox genişdir və adətən, belə bir ifadə işlədilir ki, onların gələcəyi ümid verir. Ancaq bu «gələcək» məfhumu bir az mücərrəd görünür. Onların arasında ədəbi prosesdə etiraf olunan və doğrudan da o «ümid» kəlməsini gələcəyə saxlamayan şairlər az deyil. Əgər ümumi şəkildə bugünkü cavan şairlərin yaradıcılığını nəzərdən keçirsək, belə bir qənaətə gəlmək olur ki:

1.Onlar bir şair kimi XXI əsrin övladlarıdır. Bu əsrin mürəkkəb, mürəkkəb olduğu qədər də xaotik, xaotik olduğu qədər də əsəbi xarakteri heç şübhəsiz onların yaradıcılığına təsirsiz qalmır. Təbii ki, dünyada və yaşadıqları məmləkətdə baş verən ictimai-siyasi hadisələr, həm sevinc doğuran, həm də kədərlə baş-başa verən olaylar onların gözləri qarşısında cərəyan edir. Təbii ki, bütün bunlar onların hər birinin fərdi dünyasına təsirsiz qalmır. Bircə misal:

***Mən ən çox sənə bənzəyirəm, Vətən!***
***Ürəyim sənin kimi parçalanıb.***
***Xəritən kimi kiçilmişəm,***
***Zərrə-zərrə biçilmişəm.***
***Ən çox torpağına bənzəyirmiş adam.***
***Minillik faralarını əlimdə sıxsam, sıxsam,***
***Ürəyim qoruyarmı, görən?***

*(Gülay Tahirli)*

2. Azadlıq və müstəqillik!.. Azadlıq və Müstəqillik təkcə dilimizdə səslənən xoş kəlmələr deyil, həm də poeziyamızda dərk edilmiş Həqiqətdir. Bu həqiqəti öz şeirlərində əks etdirən çox şairin adını çəkmək, şeirlərindən misallar gətirmək olar

3. Bir halda ki, söhbət daha çox ədəbi gənclikdən gedir, burada ÖZÜNƏMƏXSUSLUQ anlayışının onların yaradıcılığında necə təzahür etdiyinə diqqət yetirməliyik. Məlumdur ki, ədəbiyyata gələn – ilk şeirləri və ilk şeir kitabları ilə ədəbi ictimaiyyətin diqqətini cəlb etmək istəyən gənclərin addımları çox titrək olur, burada iki hal ola bilər. Birincisi: gənc şair hansı şairinsə təsiri altındadır, hələ bu səs, bu nəfəs onun özünün deyil, amma təbii ki, sonrakı kitablarında bu gənc şairin şeirlərindən bu təsir yox olmağa başlayır, özünü başqasında tapmaq yox, özünü özündə axtarmaq-tapmaq meyli diqqəti cəlb edir. İkincisi: kiminsə təsiri olmadan da gənc şair öz dəst-xəttini, orijinal görünən deyim tərzini, şeir üçün vacib olan obrazlılıq, təzə söz demək iddiasını ortaya qoyur. Yetmişinci illərdə «Azərbaycan» jurnalında üç gənc şairin – Vaqif Cəbrayılzadənin, Eldar Baxışın, Vaqif Bəhmənlinin, daha sonrakı illərdə Adil Mirseyidin, Akif Səmədin, Ramiz Qusarçaylının, Ağamalı Sadiqin, Adil Cəmilin, Ağacəfər Həsənlinin, Nisəbəyimin, Rəfail Tağızadənin, Sabir Sarvanın, Barat Vüsalın, Murad Köhnəqalanın, Salam Sarvanın, Əlizadə Nurinin, ikimininci illərdə isə Aybəniz Əliyarın, Tərlan Əbilovun, Fərid Hüseynin, Səhərin, Emin Pirinin, Anar Həbiboğlunun, Gülnarə Cəmaləddinin, Aqşin Yeniseyin, Rəsmiyyə Sabirin, Zahir Əzəmətin, Xatirə Nurgülün, Şəhriyar del Gerananinin, Ramil Əhmədin, Günel Eyvazlının, Fərhad Metenin, Allahşükür Ağanın şeirlərində Özünəməxsusluğun müəyyən normativləri – çaları ilə qarşılaşdıq. Adlarını çəkdiyimiz bu şairlərin heç biri digərinə oxşamır desəm, səhv etmərəm. Deyim ki, Arzu Hüseynlə Ülkər Nicatlını (hər ikisi daha çox sevgidən yazır) bir mövzu birləşdirir, amma bu mövzunun bədii ifadəsi tamam fərqlidir. Deyim ki, Aqşin Yeniseylə Zahir Əzəməti hardasa bir nöqtədə vurğulamaq olar, səhv edərik. Onlar ədəbiyyata münasibətdə hansı nöqtədəsə birləşə bilərlər, amma şeirləri bunu demir.

Təfərrüuata varmayıb bircə misalla kifayətlənək. Taleh Mansur bir şəhidin on yaşlı oğluna həsr etdiyi şeirində yazır: «Göz yaşların Şuşanın yağışına bənzəyir», Nilufər Şıxlı isə Şuşanın göz yaşları axıtdığını deyir: «Şuşada yağış var, Şuşada yağış, Nur üzlü şəhidə göz yaşı tökür». Sevinc Qərib Göz yaşlarını süd rənginə oxşadırsa, Xəyalə Sevil «Bu gün bizim toyumuzdu, göz yaşlarım gəlin gedir» metaforasını işlədirsə və o, göz yaşlarını əllərinə bənzədirsə, Aysel Kərim bir sevgi həsrətini, ayrılığı kəpənəyin göz yaşına bənzədir, Günay Həsənli «Bu yağan yağışdıımı Göz yaşımdı deyəsən» yazırsa …göründüyü kimi, göz yaşı ilə bağlı təşbihlər və metaforalar bir-birindən nə qədər fərqlidir. Biz təşbih və metaforaları doğuran digər

söz və ifadələrin üzərində də dayana bilərik. Bu misallar bəlkə də sizə xırda bir məsələ təsiri bağışlaya bilər. Çünki fərqlilik daha geniş təhlil tələb edir.

...Müasir poeziyamızı təmsil edən şairləri yaşlarına görə bölgülərə ayırsaq, öncə qeyd etdiyimiz kimi, birinci sırada «ikiminincilər» ədəbi nəsli yer tutacaq. Yuxarıda «yağış» sözünün incələmələri ilə bağlı kiçik nümunələr təqdim etdik, «ikiminincilər» də ədəbiyyata bir bahar yağışı kimi gəldilər və bu yağışlar hələ də kəsilməyib. «Azərbaycan» jurnalının 2023-cü il 6-7-ci qoşa nömrəsində – «Ədəbi gəncliyin axtarışları» məqaləsində ətraflı söz açmışdıq. Fikrimizcə, poeziyamızın bu yeni nəsli – «ikiminincilər», deyək ki, öncəki nəsillərdən seçilməyə can atırlar, onların şeirlərində həyata, gerçəkliyə, gözləri qarşısında baş verən olaylara, gözəlliyə, sevgiyə, yaxud neqativ hadisələrə münasibət fərqliliyilə diqqəti cəlb edir. Yəni onların əksəriyyətinə xas olan və şeirlərində də nəzərə çarpan yeni düşüncə tərzi ilə qarşılaşırıq.

***Bir gün gələr***
***adamların arasındakı divarlar***
***yoxa çıxar.***
***Bitər davalar.***
***Talelər kimi tarixlər də***
***Təzədən yazılar.***
***İndi dəqiq bilirəm insan dəyişir.***

*(Xatirə Nurgül).*

Odur ki, poeziyamızın bu yeni nəslinin ədəbiyyatımızda yeni tarix yazacağına inanırıq.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

## jurnalına abunə yazılışı davam edir.

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

# *Düzəliş*

Hörmətli oxucular!

Jurnalımızın ötən sayında xalq yazıçısı Anarın “Səməd Vurğun xatirələr işığında” adlı son dərəcə maraqlı bir əsəri dərc olunmuşdur. Böyük şairin həyatının müxtəlif məqamlarına işıq salan, bir para bədxah insanların şair haqqında, xüsusən də Səməd Vurğunla o dövrün daha bir böyük şairi Rəsul Rza arasındakı münasibətlər barədə qərəzli cəfəngiyyatları faktlar əsasında və səlahiyyəti çatan adamların şahidliyi ilə alt-üst edən bu yazı redaksiyada maraqla qarşılandı, böyük həvəslə də çapa hazırlandı.

Amma nə edəsən ki, bəzən çapını intizarla gözlədiyin yazılarda texniki səbəblərdən baş vermiş bir xəta, bizlərin ovqatına soğan doğrayır.

7-8-ci sayımızın 34-cü səhifəsindəki ***“Səməd Vurğun ə, ö, e, h, c hərflərinin yeni əlifbaya daxil edilməsinin əleyhinə idi. Şair: «bu hərflərə heç bir ehtiyac yoxdur və onlar dilimizi süniləşdirə bilər» deyir.***

***Təəssüf ki, hələ uzun zaman əlifbamızda (qəbul edilmiş kiril əlifbasında) qalan ə, ö, e hərflərinə görə dilçilərimiz arasında məzəli lətifə dolaşırdı: «Azərbaycan dili bəlkə də yeganə dildir ki üç hərflə mürəkkəb cümlə qurmaq olar: ə, e, ö, ə, ö, e – ya yu ye, ya yü ye.”*** abzasları belə oxunmalıdır:

***“Səməd Vurğun я, ю, е, щ, ъ hərflərinin yeni əlifbaya daxil edilməsinin əleyhinə idi. Şair: «bu hərflərə heç bir ehtiyac yoxdur və onlar dilimizi süniləşdirə bilər» deyir.***

***Təəssüf ki, hələ uzun zaman əlifbamızda (qəbul edilmiş kiril əlifbasında) qalan я, ю, е hərflərinə görə dilçilərimiz arasında məzəli lətifə dolaşırdı: «Azərbaycan dili bəlkə də yeganə dildir ki üç hərflə mürəkkəb cümlə qurmaq olar: я е, ю, я ю, е – ya ye yu, ya yu ye.”***

Bu xətaya görə redaksiyamız müəllifdən üzr istəyir və buraxılmış səhvin düzəlişini bu sayımızda sizlərin – oxucularımızın nəzərinə çatdırdıq.

Bəli, zaman-zaman dilimizin və əlifbamızın başına açılan oyunların əks-sədasıdır bu.







**KAMAL ABDULLA**
**SEÇMƏLƏRİN SEÇMƏSİ–QRANULALAR**
**BAKI, "EVEREST" NƏŞRİYYAT EVİ, 2024**

Kitabda xalq yazıçısı, akademik Kamal Abdullanın, əsasən, 7 cildlik "Seçilmiş əsərləri"ndən istifadə edilmişdir. "Seçilmiş əsərlər"dən seçilmiş bir sıra qranula–cövhər sayıla biləcək məqamlar ayrı-ayrı şəkildə ilk dəfə bu kitabda toplanmışdır.

Eyni zamanda, əhvalat və tərzə uyğun olaraq müəllifin sevdiyi yazıçı və şairlərin fikirləri, şeirləri, misraları da topluda yer almışdır.




**FUAD VƏLİYEV**
**ELM VƏ HƏYAT HAQQINDA SÖHBƏTLƏR**
**BAKI, " KLASS PRİNT" MƏTBƏƏSİ, 2023**

Bu kitabda müəllifin müxtəlif illərdə elm və din, elm və mənəviyyat, qlobal ekoloji problemlər, əxlaq prinsipləri mövzularında Bakı Ali Neft Məktəbinin "Sinerji" elmi diskussiyalar klubunun seminarlarında etdiyi məruzələr və "Azərbaycan" jurnalında dərc olunmuş məqalələri əsasında tərtib edilmişdir.




**SƏİDƏ RƏHİMLİ**
**YENƏ NAĞIL İSTƏYİRƏM**
**MOSKVA, «СПУТНИК+», 2024**

Müəllifin "Yenə nağıl istəyirəm" / «Мне вновь хочется сказки» adlı şeirlər kitabı rus və Azərbaycan dillərində təqdim olunur. Topluda müəllifin son illərdə yazdığı şeirlər yer alıb.

Şeirləri rus dilinə tərcümə edən və kitabın redaktoru Afaq Şıxlıdır.




**ZƏRƏNGİZ DƏMİRÇİ QAYALI**
**ZƏFƏR SƏDASI**
**BAKI, "İMZA NƏŞRLƏR EVİ" NƏŞRİYYATI, 2024**

Kitabda müəllifin son dövrlərdə yazdığı şeirlər və poemalar toplanıb. "Polad Poladım" Milli Qəhrəman Polad Həşimova, "Adının üstündə böyüyən igid" Milli Qəhrəman Mübariz İbrahimova, "Hər ömür bir nəğmə..." xalq şairi Rəsul Rzaya həsr olunub.

Topluda əsasən vətənpərvərlik mövzulu şeirlər yer alıb.




**İLHAM QƏHRƏMAN**
**DƏYİRMANIN SU DƏRDİ**
**BAKI, «QANUN» NƏŞRİYATI**

Şair İlham Qəhrəmanın «Dəyirmanın su dərdi» kitabında son illərdə yazdığı 275 bayatı toplanıb. Oxucular kitabda sevgi, həyat, ömür-ölüm və Qarabağ, Vətən, yurd mövzulu bayatılarla tanış olacaqlar.

Kitab müəllifin folklor seriyasından yeddinci kitabıdır.

***Dağdan bir qaya düşüb***
***Çobanlar haya düşüb.***
***Gecə Ayamı baxdın,***
***İşığın Aya düşüb?***

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**